# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ

# AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS SCIENTIFIC REVIEWS

ELMİ, RESENZİYALI, RÜBLÜK/ SCIENTIFIC, REFEREED, QUARTERLY

İl 11, Cild 11, oktyabr-dekabr 2023
Year 11, Volume 11, October-December 2023

ISSN 2306-8426

## MÜNDƏRİCAT - CONTENT

*İqtisadi inkişafın yeni çağırışları və təhsil sisteminin tələbləri ilə əlaqədar siyasi iqtisadın perspektivləri.....................................................................Əlican Babayev*

*Azərbaycanın neft-qaz ehtiyatları və onların qiymətləndirilməsi məsələləri..........*
*..................................................................................................Şəfiqə Məmmədova*

*Nəqliyyat dəhlizlərinin idarə olunması məsələləri................................Şamil Əzizov*

*Gender bərabərliyinin dayanıqlı inkişafa təsiri........................................................*
*.......................................................Nərgizxanım Baxışova, Səyyarə Amanova*

*Pandemiya böhranı və enerji qiymətlərinin dəyişməsinin Azərbaycan............*
*iqtisadiyyatına təsiri............................................................Nuriyyə Kərimova*

*Mərkəzi Bankın rəqəmsal valyutalarının dizayn növlərinin təhlili....................*
*.........................................................................................Rəhilə Kərimova*

*Milli sığorta bazarının tənzimlənməsində səmərəliliyin artırılması yolları.......*
*və əsas istiqamətləri....................................Rövşən Əkbərov, Pərvin Kazımova*

*Qida zəncirinin izlənilməsinin təmin edilməsi qida təhlükəsizliyi sisteminin.....*
*əsası kimi...........................................................................Ceyran Bəbirova*

*Real biznes tsiklləri nəzəriyyəsinin təkamülü: hərtərəfli baxış...........................*
*.........................................................................................Ramiz Rəhmanov*

*İqtisadi subyektlərin rəqabətliliyi, onun yüksəldilməsinin zəruriliyi.................*
*.........................................................................................Günel Sultanova*

www.unec.edu.az

| Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) | |
|---|---|
| **İl 11, Cild 11, oktyabr-dekabr 2023** | |
| www.unec.edu.az | ISSN 2306-8426 |
| Nəşr edən təşkilat: | Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) |
| Baş redaktor: | i.e.d., prof. Ə.C.Muradov |
| Redaktor: | i.e.d., prof. Y.H.Həsənli |
| Məsul icraçı: | i.e.n., dos. N.Ö.Hacıyev |
| Jurnalın adı: | Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri |
| Jurnalın növü: | Dövri |
| Dövriliyi və dili: | Rüblük, azərbaycan, ingilis, rus |
| Hüquqi ünvanı: | AZ 1001, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı,Tel: (+994 12) 4927870,Fax: (+994 12) 4925940 |
| Mətbəə: | AZ 1001, Bakı, Azərbaycan Respublikası, İstiqlaliyyət 6, otaq 30, Tel:(+994 12) 4925337; Fax: (+994 12) 4926509 |
| Çap yeri və tarixi: | Bakı, Azərbaycan Respublikası, 15.01.2024 |



| **Redaksiya heyəti** | |
|---|---|
| i.e.d., prof. S.M.Yaqubov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. A.Ş.Şəkərəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Ə.Q.Əlirzayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Q.N.Manafov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Ə.P.Babayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. R.R.Quliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. M.A.Əhmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. S.M.Səbzəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. F.P.Rəhmanov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. H.S.Həsənov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Z.F.Məmmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. E.Y.Məmmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Y.A.Kəlbiyev | Azərbaycan Dövlət İqtisad Universiteti |

| **Beynəlxalq redaksiya heyəti** | |
|---|---|
| prof., Dr. Ismixan Bayramoğlu | İzmir İqtisadiyyat Universiteti,Türkiyə |
| dosent, Dr. Fəxri Həsənov | Kral Abdullah Neft Tədqiqatları və Araşdırma Mərkəzi, Səudiyyə Ərəbistanı |
| dosent, Dr. Elxan Riçard Sadiq-Zadə | Boxum Rur Universiteti, Almaniya |
| prof., Dr. Iqor Mantsurov | Statistik Tədqiqatlar Elmi-Tədqiqat İnstitutu, Ukrayna |
| prof. Dr. Rafayıl Qasımbəyli | Əskişəhər Texniki Universiteti, Türkiyə |
| prof. Dr. Qorxmaz İmanov | İdarəetmə Sistemləri İnstitutu, Azərbaycan |
| Dr. Fateh Belaid | Kral Abdullah Neft Tədqiqatları və Araşdırma Mərkəzi, Səudiyyə Ərəbistanı |
| Dr. Andrea Gatto | Kean Universiteti, ABŞ |
| dosent, Dr. Halima Begum | Utara Universiteti, Malayziya |
| dosent, Dr. S. M. Ferdous Azam | Malayziya İdarəetmə və Elm Universiteti, Malayziya |
| prof., Dr. Şərif E. Hüseynov | Liepaja Universiteti, Latviya |
| prof., Dr. Adil Bağırov | Avstraliya Federasiya Universiteti, Avstraliya |



Bu jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunmasını tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır.

This journal is in the list of scientific periodicals of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan in which the publication of main results of theses is recommended.

Этот журнал находится в списке научных периодических изданий, рекомендованных Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики для публикации основных результатов диссертаций.

| *Mündəricat/Contents* | *Səh./Pp.* |
|---|---|
| *İqtisadi inkişafın yeni çağırışları və təhsil sisteminin tələbləri ilə əlaqədar siyasi iqtisadın perspektivləri..............................................Əlican Babayev* | *5 - 17* |
| *Azərbaycanın neft-qaz ehtiyatları və onların qiymətləndirilməsi məsələləri ..........................................................................Şəfiqə Məmmədova* | *18 - 28* |
| *Nəqliyyat dəhlizlərinin idarə olunması məsələləri.................. Şamil Əzizov* | *29 - 38* |
| *Gender bərabərliyinin dayanıqlı inkişafa təsiri........................................... ..................................................Nərgizxanım Baxışova, Səyyarə Amanova* | *39 - 49* |
| *Pandemiya böhranı və enerji qiymətlərinin dəyişməsinin Azərbaycan iqtisadiyyatına təsiri.......................................................Nuriyyə Kərimova* | *50 - 62* |
| *Mərkəzi Bankın rəqəmsal valyutalarının dizayn növlərinin təhlili.............. ..............................................................................Rəhilə Kərimova* | *63 - 80* |
| *Milli sığorta bazarının tənzimlənməsində səmərəliliyin artırılması yolları və əsas istiqamətləri............................Rövşən Əkbərov, Pərvin Kazımova* | *81 - 94* |
| *Qida zəncirinin izlənilməsinin təmin edilməsi qida təhlükəsizliyi sisteminin əsası kimi..........................................................................Ceyran Bəbirova* | *95 -103* |
| *Real biznes tsiklləri nəzəriyyəsinin təkamülü: hərtərəfli baxış.................... .............................................................................. Ramiz Rəhmanov* | *104 - 118* |
| *İqtisadi subyektlərin rəqabətliliyi, onun yüksəldilməsinin zəruriliyi....... ........................................................................ .........Günel Sultanova* | *119 - 125* |

| Scientific, Refereed, Quarterly | |
|---|---|
| Azerbaijan State University of Economics (UNEC) | |
| Year 11, Volume 11, October-December 2023 | |
| www.unec.edu.az | ISSN 2306-8426 |
| Publisher: | Azerbaijan State University of Economics (UNEC) |
| Editor-in-chief: | prof., Dr. A. J. Muradov |
| Deputy editor-in-chief: | prof., Dr. Y. H. Hasanli |
| Managing Editor: | associate prof., PhD., N. O. Hajiyev |
| Title Juornal: | Scientific reviews of Azerbaijan State University of Economics |
| Type of Journal: | Periodical |
| Time Period and Language: | Quarterly, Azerbaijani, English, Russian |
| Directorial Address: | AZ 1001, Baku, Azerbaijan Republic, Istiglaliyyat st. 6, room 424, Tel:(+994 12) 4927870, Fax: (+994) 4 92 59 40 |
| Printing House: | AZ 1001, Baku, Azerbaijan Republic, Istiglaliyyat st. 6, room 30, Tel:(+994 12) 4 92 53 37, Fax: (+994 12) 4 92 65 09 |
| Place and Date of Print: | Baku, Azerbaijan Republic, 15.01.2024 |



| Editorial Board | |
|---|---|
| Prof. Dr. S. M. Yagubov | Azerbaijan State University of Economics |
| Prof. Dr. A. Sh. Shakaraliyev | Azerbaijan State University of Economics |
| Prof. Dr. A. G. Alirzayev | Azerbaijan State University of Economics |
| Prof. Dr. G. N. Manafov | Azerbaijan State University of Economics |
| Prof., Dr. A. P. Babayev | Azerbaijan State University of Economics |
| Prof., Dr. R. R. Guliyev | Azerbaijan State University of Economics |
| Prof., Dr. M. A. Ahmadov | Azerbaijan State University of Economics |
| Prof., Dr. S. M. Sabzaliyev | Azerbaijan State University of Economics |
| Prof., Dr. F. P. Rahmanov | Azerbaijan State University of Economics |
| Prof., Dr. H. S. Hasanov | Azerbaijan State University of Economics |
| Prof., Dr. Z. F. Mammadov | Azerbaijan State University of Economics |
| Prof., Dr. E. Y. Mammadov | Azerbaijan State University of Economics |
| Prof., Dr. Y. A. Kalbiyev | Azerbaijan State University of Economics |

| International Editorial Board | |
|---|---|
| Prof., Dr. Ismihan Bayramoğlu | Izmir University of Economics, Turkey |
| Assoc. prof., Dr. Fakhri Hasanov | King Abdullah Petroleum Studies and Research Center, Saudi Arabia |
| Assoc. prof., Dr. Elkhan Richard Sadik-Zada | Ruhr Universität Bochum, Germany |
| Prof., Dr. Igor Mantsurov | Research Institute for System Statistical Studies, Ukraine |
| Prof., Dr. Rafayıl Qasımbəyli | Eskisehir Technical University, Turkey |
| Prof., Dr. Korkmaz İmanov | Institute of Control Systems, Azerbaijan |
| Dr. Fateh Belaid | King Abdullah Petroleum Studies and Research Center, Saudi Arabia |
| Dr. Andrea Gatto | Kean University, United States |
| Assoc. prof., Dr. Halima Begum | Universiti Utara Malaysia, Malaysia |
| Assoc. prof., Dr. S. M. Ferdous Azam | Management&Science University Malaysia, Malaysia |
| Prof., Dr. Sharif Guseynov | Liepaja University, Latvia |
| Prof., Dr. Adil Bağırov | Federation University Australia, Australia |

# İQTİSADİ İNKİŞAFIN YENİ ÇAĞIRIŞLARI VƏ TƏHSİL SİSTEMİNİN TƏLƏBLƏRİ İLƏ ƏLAQƏDAR SİYASİ İQTİSADIN PERSPEKTİVLƏRİ

*Daxil olub: 22 noyabr 2023-cü il*
*Qəbul olunub: 4 dekabr 2023-cü il*
*Received: 22 November 2023*
*Accepted: 4 December 2023*

***Əlican Babayev***
*i.e.d., prof., UNEC*
*ababayev@rambler.ru*

## Xülasə

Tədqiqatın məqsədi dünya iqtisadiyyatında qeyri-sabitliyin davam etdiyi şəraitdə iqtisad elminin və təhsil sisteminin qarşısında duran yeni çağırışları və uzunmüddətli sabit inkişaf imkanlarını təmin etməyə yönəlmiş tədbirlərin işlənib hazırlanmasına obyektiv tələbatı təhlil etməkdir. Tədqiqat zamanı dialektik, konkret-tarixi, sistemli təhlil və məntiqi ümumiləşdirmə metodlarından istifadə edilmişdir. İqtisadi nəzəriyyəyə dair mövcud işlərin əksəriyyətində cəmiyyətdə baş verən proseslərin sosial-iqtisadi komponentinin təhlilində siyasi iqtisadın istifadə etdiyi yanaşmaların tətbiq olunmaması tədqiqatın məhdudiyyətləri hesab edilə bilər. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, ondan milli iqtisadiyyatda konkret antiböhran tədbirlərinin işlənib hazırlanmasında, habelə bu tədbirləri həyata keçirməyə qadir olan mütəxəssislərin hazırlanmasında istifadə oluna bilər. Tədqiqatın elmi yeniliyi və orijinallığı ondan ibarətdir ki, bu işdə həm iqtisadiyyatın real sektorunun və sosial sferanın inkişafı üçün prioritet istiqamətlərin dəstəklənməsi, həm də iqtisadi təhsil sisteminin təkmilləşdirilməsi sahəsində müasir dövlətin imkanları aşkar edilmişdir.

***Açar sözlər:*** *siyasi iqtisad, qünya iqtisadiyyatının qeyri-sabitliyi, böhranın nəticələrinin aradan qaldırılması, mövcud vəziyyətin təhlilinə yeni yanaşmalar, təhsil sisteminə tələblər.*

# PERSPECTIVES OF POLITICAL ECONOMY AT THE CONTEXT OF NEW TASKS OF ECONOMIC DEVELOPMENT AND NEEDS OF EDUCATION SYSTEM

***Alijan Babayev***
*Dr., prof.,UNEC*
*ababayev@rambler.ru*

## Abstract

The purpose of the study is analysis of those new challenges that stay in front of the economic science and the system of economic education under the conditions of current instability of the world economy and objective necessity of preparing measures for enable long-range stable development. The study was conducted based on such

research methods as dialectical, concrete-historical, systematic analysis and logical conclusion. The study's limitations can be considered as shortage of application of political economy approaches to analysis of socio-economic side of current processes that we can see in the majority of existing studies in economic theory. The practical importance of the study is that it can be used in working at concrete anti-crisis measures in national economies as far as in preparing specialists who can implement such measures. The scientific novelty and originality of the study are in discovering capabilities of modern states to support prior directions of developing real sector of national economy and social sphere, as well as improving the system of economic education.

***Keywords:*** *political economy, instability of world economy, overcoming of the crisis consequences, new approaches to analysis of current situation, claims to education system.*

## ПЕРСПЕКТИВЫ ПОЛИТЭКОНОМИИ В СВЕТЕ НОВЫХ ВЫЗОВОВ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ И ПОТРЕБНОСТЕЙ СИСТЕМЫ ОБРАЗОВАНИЯ

***Алиджан Бабаев***
*д-р экон. наук, профессор, UNEC*
*ababayev@rambler.ru*

**Резюме**

Целью исследования является анализ тех новых вызовов, которые встают перед экономической наукой и системой образования в условиях продолжающейся нестабильности мировой экономики и объективной необходимости разработки мер по обеспечению возможностей долгосрочного устойчивого развития. В ходе исследования применялись такие методы, как диалектический, конкретно-исторический, методы систематического анализа и логического обобщения. Ограничением исследования может считаться нехватка в большинстве имеющихся работ по экономической теории применения подходов, используемых политической экономией при анализе социально-экономической составляющей происходящих процессов. Практическое значение исследования состоит в том, что оно может быть использовано при разработке конкретных мер антикризисного характера в национальной экономике, а также при подготовке специалистов, способных эти меры реализовывать. Научная новизна и оригинальность исследования заключаются в выявлении возможностей современного государства в области как поддержки приоритетных направлений развития реального сектора экономики и социальной сферы, так и совершенствования системы экономического образования.

***Ключевые слова:*** *политическая экономия, неустойчивость мировой экономики, преодоление последствий кризиса, новые подходы к анализу текущей ситуации, требования к системе образования.*

## 1. Giriş

Elm aləmində, təhsil və ictimai-siyasi dairələrdə siyasi iqtisadın bir elm və tədris fənni kimi əhəmiyyətinin artması haqqında ciddi diskussiyalar aparılır. Bizə belə gəlir ki, bu "qəflətən" yaranmış bir dəblə, yaxud çoxdan və yaxşı məlum olan, amma eyni zamanda müasir tarixin kifayət qədər uzun dövrü ərzində xeyli unudulmuş məqamları xatırlamaq arzusu ilə bağlı deyil. Bu, iqtisadi inkişafın müasir şəraitdə təzahür edən müəyyən obyektiv tələbatları ilə və bu səbəbdən, müvafiq profilli mütəxəssislərin hazırlanmasına dair tələblərlə bağlıdır.

Başqa sözlə, məsələ hətta onda da deyil ki, 2015-ci ildə keçirilmiş "Siyasi iqtisad: tədqiqat obyektini ifadə edirik" mövzusunda Ümumrusiya İqtisadi Forumunun iştirakçılarının tamamilə haqlı olaraq xatırlatdıqları kimi, "Avropada siyasi iqtisad bazar münasibətlərinin ilk mərhələsində yaranmışdır və çoxəsrlik tarixə malikdir". Bu halda "Rusiyada siyasi iqtisadın bir fənn kimi tədris edilməsi Adam Smitin vətənindən daha əvvəl başlanmışdır" [9, s.25]. Aydın məsələdir ki, burada Rusiya dedikdə, hazırda suveren dövlətlər olan keçmiş SSRİ müttəfiq respublikalarının o vaxt daxil olduğu Rusiya imperiyası nəzərdə tutulur. Beləliklə, həmin respublikaların xalqları – intellektual dairələrin nümayəndələrinin şəxsində, siyasi iqtisadla çoxdan tanış idilər.

Siyasi iqtisadın "bərpa olunmasına" tələbat, hər şeydən əvvəl, dünya iqtisadiyyatında qeyri-sabitliyin sözün həqiqi mənasında gözlərimizin qarşısında güclənməsi və bundan irəli gələn nəticələrlə bağlıdır [2, s.379]. Hər şeydən əvvəl, belə dayanıqsızlığın milli iqtisadiyyatlarda gedən sosial-iqtisadi proseslərə dağıdıcı təsirinin artması haqqında söhbət gedir. Eyni zamanda, göstərilən çağırışlara dövlətin və cəmiyyətin cavablarını təşkil edən adekvat alətlərin olmaması aşkar görünür.

## 2. Sosial-iqtisadi proseslərin təhlilinə mövcud yanaşmaların əksəriyyətinə xas olan birtərəflilik

Bu halda xatırlamaq lazımdır ki, dünya təsərrüfat sistemində qeyri-sabitliyin artması ilə bərabər, elmi-texniki tərəqqinin obyektiv inkişafı ilə əlaqədar iqtisadi proseslərin mürəkkəbləşməsi davam edir və bu proseslərin mahiyyətinin izahı heç də həmişə onların obyektiv gedişi ilə ayaqlaşmır.

Qlobal iqtisadi dayanıqsızlığa gəlincə, bir məqamı dəqiqləşdirmək lazımdır ki, belə dayanıqsızlıq bu əsrin çox hissəsi ərzində, ən azı – 2008-ci ildə başlanmış və növbəti, 2009-cu ildə praktik olaraq dünyanın bütün ölkələrinə yayılmış maliyyə-iqtisadi böhrandan başlayaraq bəşəriyyətin inkişafını müşayiət edir. Qərb ölkələrin iqtisadçıları və

politoloqları onu "1930-cu illərin Böyük depressiyası vaxtından bəri ən ciddi böhran" [8, s.16] kimi xarakterizə edirlər. Artıq onda aydın oldu ki, sosial-iqtisadi vəziyyətin təhlilinə XX əsrin sonundan qərb dünyasında sabitləşmiş və bu əsrin birinci onilliklərində dünya iqtisad elmində hökmranlığı davam etmiş, onun yalnız bir - neoklassik – versiyasına əsaslanan yanaşmalar böhranların təhlükəlilik dərəcəsini tam qiymətləndirməyə imkan vermir. Bununla belə, gurultulu səslənən "meynstrim" adı almış bu birtərəflilik "mücərrəd liberalizm və makroiqtisadi sabitləşmə" [10, s.38] ideyalarının əlaqələndirilməsi ilə səciyyələnir.

Müvafiq olaraq, yalnız belə konsepsiyaya istinad edilməsi konkret vəziyyətdə böhranın və onun nəticələrinin aradan qaldırılması üzrə konkret tədbirlər hazırlamağa imkan vermir. Təəccüblü deyil ki, çox cəhətdən məhz bu səbəbdən 2008-2009 illər böhranının nəticələrinin nəzəri baxımdan dərk etmək və praktik olaraq tam aradan qaldırmaq mümkün olmadı və bu nəticələrin dünyanın aparıcı dövlətlərinin iqtisadiyyatlarına bu və ya digər dərəcədə təsiri 2019-cu ilin sonu, 2020-ci ilin əvvəlində, artıq koronavirus pandemiyası ilə əlaqədar yeni böhran başlayana qədər davam etdi.

Bugünkü vəziyyəti qiymətləndirərək demək olar ki, pandemiyanın pik səviyyəsi 2020-ci ildə müşahidə olunmuşdu. Məlum olduğu kimi, 2021-ci ildə vəziyyət müəyyən qədər yaxşılaşdı, buna baxmayaraq, pandemiyanın bütün sosial-iqtisadi nəticələrini tamamilə aradan qaldırmaq mümkün olmayıb.

Bütün bunlardan əlavə, 2022-2023-cü illərdə baş vermiş hadisələrlə əlaqədar geosiyasi vəziyyətin kəskinləşməsi, həmçinin cari vəziyyətin qeyri-sabitliyi və beynəlxalq enerji-xammal bazarlarında gələcək vəziyyətin qeyri-müəyyənliyi səbəbindən bizim qarşılaşdığımız hadisələrin sosial-iqtisadi məzmununu müəyyən etmək məqsədilə mövcud vəziyyəti daha dərin və yaradıcı şəkildə təhlil etmək zəruri olur. Bu halda böhranın əsas, yəni sosial-iqtisadi məzmununu qeyri-iqtisadi xarakterli əlavə amillərdən fərqləndirmək üçün məhz təhlilin sosial-iqtisadi aspektlərinin əhəmiyyətini vurğulamaq lazımdır.

Yuxarıda deyilənləri yekunlaşdıraraq, bu qənaətə gəlmək olar ki, müasir sosial-iqtisadi inkişafda yaranan şəraitin məcmu halda müzakirəsinə yeni, daha çoxcəhətli yanaşmalara ehtiyac var. Belə yanaşmalar konkret cari vəziyyətin iqtisadi təhlili zamanı tətbiq edilməklə bərabər, bütövlükdə iqtisadi nəzəriyyədə mühüm yer tutmalıdır.

Hazırda suveren dövlətlər olan keçmiş SSRİ-nin müttəfiq respublikalarının çoxunda son bir neçə onillik ərzində həyata keçirilən konkret iqtisadi siyasət və bütövlükdə sosial-iqtisadi siyasət, eləcə də elm və təhsil sistemləri məhz inkişaf etmiş qərb ölkələrinin əksəriyyətində üstünlük verilən, yuxarıda qeyd etdiyimiz yanaşmalara istiqamətlənirdi. Məsələn, A.B.Buzqalin və S.Y.Qlazyev qeyd edirlər ki,"iqtisadi nəzəriyyənin tədrisi modeli qərb standartının kopyalanması yolu ilə 1990-cı illərdən tətbiq edilmişdi və ölkə rəhbərliyində neoliberal iqtisadi modelin tərəfdarları bu modeli fəal

dəstəkləyirdi. İqtisadi nəzəriyyənin tədrisinin bu sistemi mümkün olan yeganə dünya standartı kimi təqdim edilirdi" [5, s.7-8].

A.B.Buzqalin və S.Y.Qlazyev bu fikri belə yekunlaşdırırlar: "burada neoklassik nəzəriyyənin öyrədilməsindən daha artıq əhəmiyyət verilən əsas məqam ondan ibarət idi ki, yalnız neoklassika, həm də onun əsasən monetarizmə meyl edən versiyası öyrədilirdi" [5, s.8].

Əlamətdar haldır ki, əsasən neoklassik liberal ideyaları əks etdirən və ötən əsrin 90-cı illərində hazırda suveren dövlətlər olan keçmiş SSRİ müttəfiq respublikalarının əksəriyyətində tədris-təhsil "meynstrimi" olmuş "Ekonomiks" kurslarının böyük əksəriyyətində iqtisadi nəzəriyyədə başqa istiqamətlərin əhəmiyyətinə lazımınca diqqət yetirilmir. Həm də bu, yalnız solçu baxışların nümayəndələrinə deyil, həm də, xüsusi halda, keynsçilik istiqamətinə aiddir; beləliklə, bir tərəfdən, dünyada iqtisadi fikrin inkişafına bu istiqamətin verdiyi töhfəyə məhəl qoyulmur, digər tərəfdən - inkişaf etmiş bir çox dövlətlərin iqtisadi təcrübəsinin formalaşması vaxtı onilliklər boyunca toplanmış əhəmiyyətli təcrübəni kənara atırlar.

Yeni sənaye cəmiyyəti və iki sistemin konvergensiyası kimi məşhur doktrinaların əsas banilərindən biri olmuş Con K. Helbreyt vaxtilə neoklassik nəzəriyyənin nümayəndələrinin sadə məntiqini son dərəcə anlaşıqlı şəkildə nümayiş etdirərək yazırdı: "Hökumətin müdaxiləsi yolverilməz hesab edilir... İstehlakçının şəxsində ictimaiyyət onsuz da firmanın fəaliyyətinə nəzarəti həyata keçirir, ona görə də bunu hökumətin köməyi ilə etməyə ehtiyac yoxdur. Hamının qanına və canına yeridilmiş bu doktrinaya görə, şəxsi korporasiyanın idarə olunmasına hökumətin müdaxilə etməsi qadağandır" [7, s.133].

Burada çox əhəmiyyətli olan bir detala diqqət yetirək. Helbreyt neoklassik nəzəriyyənin ən aktiv və prinsipial tərəfdarlarının dövlətin iqtisadi proseslərdə iştirakına qarşı əsas dəlillərini gətirərək, onların şəxsi korporasiyanın idarə edilməsi kimi arqumenti haqqında, yəni iqtisadi fəaliyyətə dövlət müdaxiləsinin adi nəzarət və tənzimləmə ilə müqayisədə daha yüksək dərəcəsi haqqında söhbət açır. Eyni zamanda, əsas iqtisadi nəzəriyyələrdən heç birində – marksizmdən başqa – xüsusi mülkiyyət obyektlərinin bilavasitə dövlət tərəfindən idarə edilməsi haqqında məsələ qoyulmur, çünki bu, təsərrüfatçılığın bazar sisteminin əsaslarını sarsıdardı.

Belə nəticə çıxara bilərik ki, neoklassik nəzəriyyənin nümayəndələri, necə deyərlər, diskussiyanı qızışdırmaqla, çox vaxt şüurlu olaraq öz opponentlərinə onların əslində heç də irəli sürmədiyi ideyaları təlqin etməyə hazır olurlar. Beləliklə, həm siyasi elitanı, həm də geniş ictimaiyyəti öz opponentlərinin guya bazar iqtisadiyyatının əsaslarına "qəsd etməsinə" və müvafiq olaraq, yalnız özlərinin haqlı olmasına inandırmaq məqsədilə onlara açıq-aşkar təzyiq göstərilir.

Postsovet məkanında yaranmış vəziyyət məsələsinə qayıdaraq, yuxarıda deyilənlərə bir mühüm əlavə etmək lazımdır. MDB-nin üzvü olan bir sıra ölkələrdə həm iqtisadi

siyasət, həm də kadrların hazırlanması sistemi sadəcə iqtisad elmi çərçivəsində neoklassik yanaşmalara və hətta onların sadəcə monetarist versiyasına deyil, bu yanaşmaların ən geridə qalmış versiyasına, yəni o vaxta qədər ən çox inkişaf etmiş ölkələrin əksəriyyətinin təcrübəsində çox cəhətdən ümumiyyətlə rədd edilmiş ideyalara əsaslanırdı. Burada bazar iqtisadiyyatı sisteminə ən primitiv yanaşmadan söhbət gedir: həmin yanaşmaya görə, dövlət iqtisadi proseslərdə yalnız minimal dərəcədə iştirak edir, belə iştirak və ya müdaxilə faktiki olaraq maliyyə və polis funksiyaları ilə məhdudlaşdırılır.
Bəzi mütəxəssislər haqlı olaraq xatırladırlar ki, yuxarıda xalis "gecə gözətçisi" kimi xarakterizə edilmiş "dövlət modeli ... əslində hətta XIX əsrdə də işləmirdi" [3, s.67]. Savadlı və məsuliyyətli iqtisadçılar artıq XX yüzilliyin sonunda bu faktı anlayırdı, lakin SSRİ dağılandan sonra postsovet məkanında yaranmış ümumi siyasi vəziyyət yeni müstəqil dövlətlərin əksəriyyətinin iqtisadi siyasətinin məzmununu müəyyən etdi. Yuxarıda qeyd edildiyi kimi, təəccüblü də olsa, bu siyasət inkişaf etmiş ölkələrin təcrübəsində artıq çoxdan istifadə olunmayan bir sıra ideyaları tətbiq edirdi.
Yalnız bazar tənzimləyicilərinin təsirinə ümid bəslənməsi ona gətirib çıxarmışdı ki, MDB ölkələrinin əksəriyyətində beynəlxalq bazarların cari tələblərinə yönələrək, bu və ya digər formada iqtisadiyyatın hasilat sektorunun – hər şeydən əvvəl energetikanın və başqa xammal sahələrinin prioritetli inkişafına sərmayə qoyurdular. Təcrübədə bu o demək idi ki, real siyasət, o cümlədən bank-maliyyə və investisiya siyasəti belə konsepsiyaya uyğun qurulurdu. Bu, emal sənayesi sahələrinin və müvafiq sektorların zərərinə idi, ona görə təəccüblü deyil ki, uzun müddət MDB ölkələrinin çoxunda hazır məhsulun (hər şeydən əvvəl - yüksək texnologiyalı məhsulların) istehsalı ilə bağlı sahələrə kifayət qədər investisiya qoyulmaması tendensiyası inkişaf edirdi.
Aydın məsələdir ki, elmi-texniki tərəqqinin müasir inkişafı tendensiyalarına uyğun olmayan bu vəziyyət elm və texnologiya sahəsində, bütövlükdə sənayenin inkişafında geriləməyə, bütün iqtisadiyyatın keyfiyyət parametrlərinin pisləşməsinə gətirib çıxarmaya bilməzdi. Nəticədə bütün bunlar postsovet dövlətlərinin çoxunun ümumi iqtisadi vəziyyətinə təsir edir.

### 3. Dövlətin iqtisadi siyasətinin və təhsil sisteminin təkmilləşdirilməsi üçün siyasi-iqtisadi təhlilin imkanları

Zaman keçdikcə açıq-aydın görünürdü ki, iqtisadi həyatın yuxarıda göstərilən neoliberal modeli XXI yüzillik üçün tamamilə yararsız olur.Yuxarıda qeyd etdiyimiz 2008-2009-cu illərin ümumdünya maliyyə-iqtisadi böhranı və sonrakı dövrdə baş vermiş qlobal xarakterli bütün qarışıqlıqlar bu fikri təsdiq etdi.
Əslində, neoklassik "meystrim"in təlqin etdiyi birtərəfli yanaşma hətta ilk baxışda həll yolu aşkar görünən məsələləri həll etməyə imkan vermir. Bir misal göstərək. Göstərilən "meynstrim"in əsas məqsədi bazarda müvafiq istehlakçı tələbatı olduğu halda

mümkün qədər bolluq yaratmaq problemidiir və belə güman etmək olar ki, bütün cəmiyyət miqyasında istehsalın maksimal effektivliyinə nail olmaq məsələsinə də bundan az diqqət yetirilməməlidir, bu isə əmək məhsuldarlığı artmadan qeyri-mümkündür. Sonuncu məsələ, öz növbəsində, çox cəhətdən, konkret cəmiyyətdə elmi-texniki tərəqqinin (ETT) vəziyyətindən və nəticələrindən asılıdır.

Reallıq isə belədir ki, "meynstrim" çərçivəsində aparılan tədqiqatlarda əsas diqqət məhz ETT məsələlərinə yönəldilir. Müvafiq olaraq, onlarla sıx bağlı olan sosial xarakterli məqamlara ən yaxşı halda ikinci dərəcəli diqqət yetirilir. Yəni, ETT, əlbəttə, istehsalın vəziyyətinə təsir edir, amma onun inkişafı sanki öz-özlüyündə, əsas iqtisadi proseslərdən "kənarda" baş verir. Bir sıra iqtisadçılar bu sahədə işlərin durumunu belə təsvir edirlər: "Müasir "meynstrim" ya elmi-texniki tərəqqinin bazar tarazlığı modeli olmasını ümumiyyətlə inkar edir, ya onu əmək və kapital ilə bağlı istehsal funksiyalarında izahedilməz qalıq kimi, ya da tamamlayıcı element kimi təqdim edir" [4, s.44]. Bəli, elmi-texniki tərəqqini məhz hansısa "qalıq" və ya, ən yaxşı halda, "tamamlayıcı element" hesab edirlər. Belə misallardan çox göstərmək olar. Beləliklə, mürəkkəbləşən sosial-iqtisadi vəziyyətin təhlilinə və bu təhlilə əsaslanan iqtisadi siyasətin formalaşmasına birtərəfli yanaşmanın səmərəsizliyi açıq-aşkar görünür və bu, obyektiv olaraq, bir elm kimi siyasi iqtisadın imkanlarına daha tez-tez müraciət etməyə səbəb olur.

Bəzi iqtisadçılar hesab edirlər ki, iqtisadi nəzəriyyənin strukturunda yeni siyasi iqtisad ayrıca qeyd edilməlidir. Bu, iqtisadi fəaliyyətin əsaslarında baş vermiş dəyişikliklərlə bağlıdır. Belə dəyişikliklər, hər şeydən əvvəl, dördüncü sənaye inqilabına, o cümlədən rəqəmsal iqtisadiyyata keçidlə; ictimai həyatda yeni hadisələrlə; regional iqtisadi inteqrasiya proseslərinin təsiri altında milli iqtisadiyyatlarda müşahidə olunan mühüm dəyişikliklərlə; həmçinin sovet iqtisadi sisteminin dağılması və sonrakı dövrdə hazırda suveren dövlətlər olan bir sıra keçmiş SSRİ müttəfiq respublikalarında iqtisadi sistemlərin transformasiyasının uğursuzluqları ilə bağlıdır [12, s.5-6].

İctimai həyatda və təsərrüfat həyatında baş verən, yuxarıda qeyd etdiyimiz yeni hadisələr haqqında danışarkən rəqəmsal iqtisadiyyata keçidin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Bizim fikrimizcə, yuxarıda deyilənlərə onu da əlavə etmək lazımdır ki, rəqəmsallaşdırma aşağıda sadalanan sahələrdə əvvəllər misli görünməmiş imkanlar açır:

- nəqliyyata (həm nəqliyyat kommunikasiyalarına, həm də birbaşa nəqliyyat vasitələrinə) nəzarət;
- yol infrastrukturu obyektləri və şəhər təsərrüfatı sistemləri;
- mənzil-kommunal təsərrüfatları;
- mədəni irs obyektlərinin saxlanılması və onların idarə edilməsinin təkmilləşdirilməsi.

Bütün bunlar süni intellekt sistemləri və texnologiyalarının inkişafı və geniş yayılması fonunda və çox cəhətdən, onun sayəsində baş verir. Ona görə də elmin, o cümlədən

iqtisad elminin qarşısında insan fəaliyyətinin müxtəlif sahələrində belə texnologiyaların tətbiqinin sərhədləri haqqında, burada yaranan etik və hüquqi xarakterli problemlər haqqında yeni məsələlər qoyulur. Belə məsələlərin həlli zamanı iqtisadi nəzəriyyənin sosioloji elmlər və hüquq elmi ilə, həmçinin başqa humanitar elmlərlə qarşılıqlı təsiri xüsusi əhəmiyyət kəsb edir.

Bununla əlaqədar, bu gün iqtisad elmində mövcud olan bir qeydi burada xatırlatmağı vacib hesab edirik. Sosial-iqtisadi həyatın mürəkkəbləşməsi ilə əlaqədar, "yeni siyasi iqtisad" anlayışının tətbiqi həm də ona görə zəruridir ki, indi bu elmi fənnin predmeti artıq sadəcə sosial-iqtisadi münasibətlər deyil, "iqtisadiyyatla başqa sahələrin qarşılıqlı əlaqəsidir" [12, s.15]. Hesab edirik ki, müasir şəraitdə iqtisadi nəzəriyyənin tərkib hissəsi və eyni zamanda tədris fənni kimi siyasi iqtisadın yeniliyi onun məhz bu fənlərarası qarşılıqlı əlaqəli şəkildə və müxtəlif elmlərin "kəsişməsində" inkişaf etməsindən ibarətdir.

İqtisadi həyatda və bütövlükdə dünyada dərin dəyişikliklərin təhsilə təqdim edilən yeni tələblər kontekstində əhəmiyyəti yuxarıda müraciət etdiyimiz məqalədə də vurğulanır. Neoklassik vasitələrə əsaslanan makroiqtisadi və mikroiqtisadi nəzəriyyə – hətta onu, məsələn, yeni institusionalizm və davranış iqtisadiyyatı sahəsində yeni araşdırmalarla tamamlamaq şərti ilə də – ictimai həyatda və təsərrüfat həyatında baş verən yeni hadisələri tam həcmdə əks etdirə bilmir [5,s.8]. Buna görə də iqtisadi profilli mütəxəssislərin hazırlanması ilə bağlı çox ciddi problemlər yaranır: həmin mütəxəssislər bugünkü şəraitdə yeni iqtisadi siyasətin hazırlanmasında fəal iştirak etməlidirlər, amma həqiqətdə onların əldə etdiyi məhdud biliklər bu məsələlərin öhdəsindən gəlməyə imkan vermir.

Bugünkü şəraitdə yüksək ixtisaslı gənc kadrların hazırlanması ilə bərabər, sosial-iqtisadi fəaliyyətlə bu və ya digər formada bağlı olan, artıq peşəkarlar kimi formalaşmış mütəxəssislərin yenidənhazırlanması da böyük əhəmiyyət kəsb edir. Menecment (idarəetmə), bələdiyyə və dövlət idarəçiliyi, heyətin idarə edilməsi və bir sıra başqa sahələrdə çalışan müasir işçilər formalaşmaqda olan və ya artıq formalaşmış təsərrüfat münasibətlərinin sosial-iqtisadi məzmunu haqqında təsəvvürə malik olmalıdırlar.

Yuxarıda deyilənləri yekunlaşdıraraq bu qənaətə gəlmək olar ki, həm böhranın nəticələrinin aradan qaldırılması şəraitində iqtisadi artımın təmin edilməsi üzrə praktik fəaliyyət, həm də ən müxtəlif səviyyələrdə belə artımın təmin edilməsi problemləri ilə məşğul olacaq yüksək ixtisaslı mütəxəssislər hazırlanması zərurəti son onilliklərdə üstünlük verilən yanaşmalardan fərqlənən yeni yanaşmalar tətbiq olunmasını tələb edir [1,s.5-26; 6,s.141-160].

Sosial-iqtisadi təhlil zamanı yeni yaranan şəraiti məcmu halda nəzərdən keçirməyin əhəmiyyəti məsələsinə yuxarıda toxunmuşduq. İndi bir məqamı dəqiqləşdirmək lazımdır ki, bizim qarşımızda duran sosial-iqtisadi problemlərin bütün məcmusunu

sadəcə ayrı-ayrılıqda təhlil etməklə kifayətlənmək olmaz, yəni bu problemləri məhz kompleks halında nəzərdən keçirmək tələb olunur.
Onu da qeyd etmək lazımdır ki, belə problemləri yalnız kompleks halında nəzərdən keçirmək və gələcəkdə onları yalnız kompleks halında həll etmək olar, əks təqdirdə milli təsərrüfat sistemlərinin və bütövlükdə cəmiyyətin uzunmüddətli tarazlaşdırılmış inkişaf trayektoriyasına çıxardılması üzrə tədbirlər sistemi işləyib hazırlamaq və reallaşdırmaq qeyri-mümkündür.
Beləliklə, hansı problemləri həll etmək lazımdır və bu zaman siyasi iqtisadın rolu nədən ibarətdir?
*Birincisi,* inkaredilməz faktdır ki, yaranmış vəziyyətdə postsovet məkanındakı ölkələrin hər birində mövcud olan elmi-texnoloji ehtiyatların potensial imkanlarının dəqiq müəyyən edilməsi – bir növ inventarlaşdırılması – və reallaşdırılması həqiqətən həyati zərurətə çevrilir. Bizə belə gəlir ki, məhz bu tədbirlərin köməyi ilə iqtisadiyyatın strukturunu yenidən qurmaq və eyni zamanda əvvəlki illərdən qalan və yeni yaranan böhranların aradan qaldırılması ilə bağlı maddi və sosial məsələləri həll etmək mümkündür.
Müvafiq olaraq, növbəti addımda hələ də bu və ya digər dərəcədə – təbii ehtiyatların hasilatına və ixracına əsaslanan təsərrüfatçılıq modelindən qəti imtina edilməlidir. Beləliklə, ilk növbədə emal sənayesinin yüksəktexnologiyalı sahə və sektorlarının inkişafının dəstəklənməsi xeyrinə, enerji və xammal sahələrinin prioritetli inkişafına bu və ya digər şəkildə faktiki üstünlük verən dövlət iqtisadi siyasətinə əsaslı şəkildə yenidən baxılmalıdır. İqtisadi siyasət özü bundan sonra imperativ qaydada dövlət tənzimləmə mexanizmlərini ehtiva etməlidir.
Tənzimləmə səviyyəsi elə müəyyən edilməlidir ki, həm sahibkar marağının əsaslarına əsla toxunulmasın, həm də və bazarın baza qanunları pozulmasın. Bu, iqtisadi nəzəriyyənin, o cümlədən siyasi iqtisadın ən mühüm vəzifəsidir.
Bu halda, əlbəttə, nəzərə almaq lazımdır ki, məlum geosiyasi şəraitlə əlaqədar müşahidə edilən ticari-iqtisadi zəncirlərin qırılması, o cümlədən yüksək texnologiyalar mübadiləsinin zəifləməsi səbəbindən, dövlətin iqtisadi siyasəti perspektivə hesablanmış texnoloji müstəqilliyin təmin olunması ilə bağlı tədbirlər sistemini ehtiva etməlidir. Eyni zamanda, yuxarıda deyilənlər heç bir halda hər hansı texnoloji qapalılıq rejiminə keçid anlamına gəlməməlidir: beynəlxalq təcrübədən çoxsaylı nümunələr göstərir ki, bu rejim gec-tez yalnız iqtisadi tənəzzülə, sonra isə həm də sosial tənəzzülə gətirib çıxarır.
Yuxarıda sadalanan bütün amillər yeni, ilk növbədə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin maliyyələşdirilməsini, yeni texnologiyalar yaradılmasını və təkmilləşdirməsini, akademik profilli yeni elmi mərkəzlərin və universitet laboratoriyalarının formalaşmasını nəzərdə tutan uzunmüddətli dövlət proqramları və strategiyalar işlənib hazırlanmasını tələb edir. Belə proqramların işlənib hazırlanması, qiymətləndirilməsi və reallaşdırılması prosesində siyasi iqtisadda istifadə edilən yanaşmalar

lazımdır, çünki inkişafın yuxarıda göstərilən bütün istiqamətləri cəmiyyətin sosial vəziyyətinin təkmilləşdirilməsinə birbaşa aiddir.

*İkincisi,* yuxarıda deyilənlərlə əlaqədar olaraq, bizim fikrimizcə, sosial sferanın inkişafına və təkmilləşdirilməsinə ümumi iqtisadi inkişafın mühərriki kimi baxmaq lazımdır. Bir fakt deklarativ mənada deyil, qəti, imperativ və fəal şəkildə etiraf edilməlidir ki, təhsil və elm, səhiyyə, mədəniyyət və onlara qonşu sahələr və subsahələr kimi sosial sfera sahələri, konkret ölkənin ictimai sərvətinin yaradılması prosesinə hər hansı əlavə (xüsusən, iqtisadiyyata hansısa bir "yük") deyil, bu prosesin ən əhəmiyyətli və zəruri tərkib hissəsidir.

Bu reallığın etiraf edilməsi nəticəsində bütövlükdə dövlətin iqtisadi siyasətində investisiya prioritetlərinə obyektiv və təbii şəkildə yenidən baxılır, çünki infrastruktur xərcləri kimi sosial xərclər də uzunmüddətli inkişafın maddi-əşyavi əsası olur.

Bu halda söhbət, hansısa "kömək" barədə getmir (hərçənd, liberal baxışların tərəfdarları məsələni bu şəkildə təqdim etməyi xoşlayırlar). Söhbət məhz qlobal dayanıqsızlıq şəraitində dövlətin iqtisadi siyasətinin tərkib hissələri kimi hərtərəfli düşünülmüş, perspektivə hesablanmış, vətəndaşların sosial dəstəyinə yönəlmiş tədbirlər sistemindən gedir. Əslində, yuxarıda qeyd edildiyi kimi, dünya iqtisadi əlaqələr sistemində və bütövlükdə geosiyasi vəziyyətdə bu gün mövcud olan və getdikcə artan dayanıqsızlıq milli dövlətlərin sosial-iqtisadi inkişafına, o cümlədən, əhalinin əksəriyyətinin maddi vəziyyətinə ciddi təsir göstərir və görünür, bu təsir davam edəcək.

Bir məqamı da dəqiqləşdirməliyik: vaxtaşırı əhalini dəstəkləməyin birdəfəlik və ya keçid xarakterli, yəni müəyyən dövr ərzində qüvvədə olan hər hansı formalarını tətbiq etmək zərurəti yaranmasını istisna etmək olmaz və bu imkanı nəzərə almaq lazımdır.

Beləliklə, əhalini dəstəkləməyin aşağıda göstərilən formalarından söhbət gedir:

- əhalinin sosial baxımdan imkansız və ən həssas təbəqələrinin "nöqtəvi" şəkildə, məqsədli dəstəklənməsi;
- həyat şəraitini bu və ya digər şəkildə pisləşdirən hər hansı "ağrılı" iqtisadi dəyişikliklər dövründə bütün əhali üçün və ya ən azı, əhalinin əksəriyyəti üçün xüsusi dotasiyalar tətbiq etməyin mümkünlüyü.

Belə dəyişikliklər, məsələn, dövlətin iqtisadi və maliyyə siyasətində radikal dəyişikliklərin aparılmasından ibarət ola bilər.

Bir daha vurğulayırıq ki, bütün bu tədbirlərin – bu siyahıya başqa tədbirlər də əlavə edilə bilər - bəzilərini heç bir halda başqalarına zidd olanlar kimi hesab etmək əsla düzgün deyil; əksinə, onlar müasir dövlətin ümumi uzunmüddətli sosial siyasətinə "bağlanmalıdır", sosial siyasət isə, öz növbəsində, dövlətin ümumi iqtisadi siyasəti ilə vəhdət təşkil edir.

Bir mühüm məqamı xüsusi qeyd etməliyik ki, sosial məsələlərin nəinki bütövlükdə iqtisadi inkişafa, məhz iqtisadi bazisin vəziyyətinə təsiri – həm də çox cəhətdən həlledici təsiri XIX əsrin sonlarında Rusiya siyasi iqtisad mütəxəssislərinin qızğın

mübahisələrinin mövzusu idi. Bu baxımdan V.İ.Lenin və M.İ.Tuqan-Baranovskinin polemikası diqqətəlayiqdir.
V.İ.Lenin əhalinin maddi rifahına və ümumi iqtisadi inkişaf üçün onun əhəmiyyətinə bilavasitə aid olan siyasi-iqtisadi və sosial xarakterli ən əhəmiyyətli müddəanı həmin dövrdə K.Marksın nəzəriyyəsinin bir sıra konkret müddəalarının şərhinə həsr olunmuş diskussiyalar prizmasından ifadə edir. Lenin "Nauçnoye obozreniye" jurnalının 1899-cu il yanvar nömrəsində dərc edilmiş "Bazarlar nəzəriyyəsi məsələsinə dair qeyd (Cənab Tuqan-Baranovski və cənab Bulqakovun polemikası haqqında)" sərlövhəli məqaləsində yazır: "Nəticə etibarilə, - məhsuldar istehlak (istehsal vasitələrinin istehlakı) həmişə şəxsi istehlakla bağlıdır, həmişə ondan asılıdır" [11, s.48].
Tuqan-Baranovski iddia edir ki, ictimai məhsulun reallaşdırılması üçün yalnız müxtəlif istehsal sahələri arasında mütənasiblik olması kifayətdir, bu halda şəxsi istehlakın həcmi əhəmiyyətsizdir, buna görə də xalq istehlakı mütləq mənada azaldıqda istehsalın qeyri-məhdud dərəcədə artması və məhsulun maneəsiz reallaşdırılması mümkündür.
Lenin Tuqan-Baranovskinin bu tezisi ilə razılaşmır. O, Tuqan-Baranovskinin mövqeyini tənqid edərək, təkrar istehsalın mütənasibliyi anlayışını dəqiqləşdirir: "Cəmiyyətin istehlak gücü" və "ayrı-ayrı istehsal sahələrinin mütənasibliyi" – heç də ayrıca, müstəqil, bir-biri ilə bağlı olmayan şərtlər deyil. Əksinə, istehlakın məlum vəziyyəti mütənasibliyin elementlərindən biridir". Sonra Lenin bu nəticəyə gəlir: "Bu heç də o demək deyil ki, istehsal vasitələrinin istehsalı istehlak predmetlərinin istehsalından əsla asılı olmayaraq və onunla hər hansı əlaqədən kənar inkişaf edə bilər" [11, s.48].
Başqa sözlə desək, bugünkü problemlərlə əlaqədar belə bir əsaslandırılmış nəticə çıxarmaq olar ki, "əhalinin istehlakının məlum vəziyyəti" (yəni, ən geniş mənada şəxsi istehlakın vəziyyəti) nəticə etibarilə sənaye malları istehsalının və real sektorun başqa sahələrinin xarakterinə və parametrlərinə çox ciddi təsir edir, çünki hər dəfə bu sahədə vəziyyət pisləşəndə ödəmələrin vaxtında yerinə yetirilməməsi və artıq istehsal böhranı üçün şərait yaranır. Deməli, əhalinin həyat səviyyəsinin saxlanılması – bu gün şəxsi istehlak anlayışına məhz belə baxmaq lazımdır – balanslaşdırılmış sabit iqtisadi inkişafın ən əhəmiyyətli şərtidir. Bu gün də, perspektivdə də iqtisadi nəzəriyyənin və onun tərkib hissəsi olan siyasi iqtisadın ən mühüm vəzifəsi belə səviyyənin müəyyən edilməsi və saxlanması ilə bağlı zəruri tədbirləri əsaslandırmaqdan ibarətdir.
*Üçüncüsü,* bilavasitə iqtisadi təhsil sisteminin təkmilləşdirilməsi çərçivəsində "mövcud iqtisadi təhsil modelinin bir kənara atılmasını deyil, bu modelə tədricən, amma ardıcıl olaraq iqtisadi həyatı daha tam təsvir etməyə imkan verən kurslar əlavə edilməsini nəzərdə tutan tədbirlər kompleksi həyata keçirilməlidir" [5, s.12]. Onu da əlavə edək ki, postsovet məkanındakı ölkələrin hər birində formalaşan iqtisadi həyatın konkret reallıqları nəzərə alınmalıdır.

## 4. Tədqiqatın praktiki nəticələri

1.Müvafiq olaraq, həm iqtisadi nəzəriyyə üzrə ümumi tədris kurslarının məzmununa, həm də xüsusi kursların siyahısına elə dəyişikliklər edilməlidir ki, bu dəyişikliklərin köməyi ilə siyasi iqtisad metodları tətbiq edilməklə hazırlanan mütəxəssislər hazırda suveren dövlətlər olan keçmiş SSRİ respublikalarının hər birinin spesifikasına müvafiq olaraq həm iqtisadi fəaliyyətin təşkilində, həm də bütün sosial-iqtisadi münasibətlər sisteminin təkmilləşdirilməsində iştirak etməyi bacarsınlar.

2.Nəzərə almaq lazımdır ki, Dağlıq Qarabağ ərazisində konstitusiya quruluşunun bərpa edilməsi ilə əlaqədar, Azərbaycan Respublikasının qarşısında işğaldan azad edilmiş rayonların ölkəmizin vahid iqtisadi, hüquqi və sosial məkanına real inteqrasiyası üzrə əhəmiyyətli praktik məsələlər durur. Bu isə, bizim fikrimizcə, ilk növbədə o deməkdir ki, bizim dövlətimizin əsas ərazisində Azərbaycan əhalisi üçün səciyyəvi olan bütün sosial standartlar və bütövlükdə həyat şəraiti işğaldan azad edilmiş rayonların ərazisinə də şamil edilir.

3.Mübaliğəsiz deyə bilərik ki, bundan ötrü dövlətin təşkilatçılıq rolu qeyd-şərtsiz saxlanmaqla böyük yaradıcı fəaliyyət lazım olacaq. Bizə belə gəlir ki, bu iş çərçivəsində tədbirlər sisteminin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak edəcək gənc mütəxəssislər – həm iqtisadi profilli, həm də başqa humanitar ixtisaslar üzrə gənc mütəxəssislər – iqtisadiyyat sahəsində daha sanballı biliklər almalı, siyasi iqtisadda tətbiq edilən metodlara hökmən yiyələnməlidirlər.

**Ədəbiyyat**

1. Аузан А.А., Мальцев А.А., Курдин А.А. Российское экономическое образование: образ ближайшего будущего. //Вопросы экономики. – 2023. – №10 – С.5-26
2. Бабаев А.П. Экономическая теория и вызовы XXI века: новые объекты исследования и практические рекомендации. – В кн.: Научные труды Вольного экономического общества России. – Т. 241.– № 3. – М.: 2023.– С.379
3. Бодрунов С.Д. Ответить на вызовы технологической революции: задачи, стоящие перед экономикой России XXI века. – В кн.: Научные труды Вольного экономического общества России. – Т. 218. – № 4. – М.: 2019.– С.67
4. Бодрунов С.Д., Глазьев С.Ю. Закономерности формирования основ ноономики как грядущего общественного устройства: знать и действовать. – СПб: ИНИР им. С.Ю.Витте; М.: Центркаталог. – 2023. – С.44
5. Бузгалин А.В., Глазьев С.Ю. Российское образование в области экономической теории: необходимо обновление. //Российский экономический журнал.–2022.– № 5.– С.7-8; 12
6. Бузгалин А.В., Колганов А.И. Экономическое образование: качественное обновление необходимо и возможно. //Вопросы экономики. – 2023. – №11 – С.141-160
7. Гэлбрейт Джон К. Экономические теории и цели общества. Пер. с англ. / Под общей ред. академика Н.Н.Иноземцева и члена-корреспондента АН СССР А.Г.Милейковского. – М.: Прогресс. – 1976.– С.133

8. Котц Дэвид М. Взлет и падение неолиберального капитализма. /Научная редакция на русском языке С.Д.Бодрунова.– М.:ИНИР им.С.Ю.Витте.–2021.– С.16
9. Научные труды Вольного экономического общества России. – Т. 193. – М.: 2015.– С.25
1. 10.Некипелов А.Д. Кризис общей теории и некоторые проблемы экономического образования. – В кн.: Научные труды Вольного экономического общества России. – Т. 239. – № 1.– М.: 2023.– С.38
10. Ленин В.И. Полн.собр.соч.Т.4. С.48
11. Сидорович А.В. Новая экономика и политическая экономия. //Общество и экономика. – 2018. – № 9.– С.5-6; 15

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, oktyabr - dekabr, 2023, səh. 18 - 28
Scientific Reviews in UNEC, Year 11, Volume 11, October - December, 2023, pp. 18 - 28

# AZƏRBAYCANIN NEFT-QAZ EHTİYATLARI VƏ ONLARIN QİYMƏTLƏNDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

*Daxil olub: 3 iyun 2023-cü il*
*Qəbul olunub: 20 iyul 2023-cü il*
*Received: 3 June 2023*
*Accepted: 20 July 2023*

***Şəfiqə Məmmədova***
*i.f.d., dosent, Sumqayıt Dövlət Universiteti*
*shafiga_mammadova@mail.ru*

## Xülasə
Ölkədə milli sərvətin yaradılması və artırılmasında, həmçinin davamlı inkişafın təminində təbii sərvətlərin, o cümlədən neft və qaz ehtiyatlarının böyük əhəmiyyəti olduğundan bu ehtiyatların düzgün qiymətləndirilməsi və onların gələcək nəsillər üçün qorunub saxlanılması milli iqtisadiyyatın aktual vəzifələrindəndir. Məqalədə Azərbaycan Respublikasının neft-qaz hasilatının 2010 - 2020-ci illər üzrə inkişaf dinamikası, həmçinin neft-qaz sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi tədqiq olunmuşdur. Neft-qaz ehtiyatlarının qiymətləndirilməsi metodları qısa şəkildə verilmişdir. Azərbaycan Respublikasının neft-qaz ehtiyatlarının qiymətləndirilməsində xərc-resurs yanaşmasından istifadə edilərək, Azərbaycan Respublikası Dovlət Neft Şirkətinin məlumatları əsasında 2010 - 2020-ci illərdə respublika üzrə təsdiq olunmuş qalıq neft və qaz ehtiyatları dəyərləndirilmişdir. Olkə üzrə təsdiq olunmuş qalıq qaz ehtiyatlarının dəyəri çıxarıla bilən ehtiyatlar əsasında müəyyən edilmişdir.

**Açar sözlər:** *neft və qaz ehtiyatları, hasilat, qiymətləndirmə, metod, milli iqtisadiyyat.*

# AZERBAIJAN OIL AND GAS RESERVES AND ISSUES OF THEIR VALUATION

***Shafiqa Mammadova***
*PhD., Associate prof., Sumgait State University*
*shafiga_mammadova@mail.ru*

## Abstract
Since natural resources, including oil and gas resources, are of great importance in the creation and increase of national wealth in the country, as well as in ensuring sustainable development, the correct assessment of these resources and their preservation for future generations is one of the urgent tasks of the national economy. In the article, the development dynamics of the oil and gas production of the Republic of Azerbaijan for 2010-2020, as well as the special weight of the oil and gas sector in the general domestic product, were studied. Oil and gas resource estimation methods are given briefly. Using the cost-resource approach in the assessment of the oil and gas reserves of the Republic of Azerbaijan, the residual oil and gas reserves confirmed for the

Republic in 2010-2020 were evaluated based on the information of the State Oil Company of the Republic of Azerbaijan. The value of proven residual gas reserves in the country is determined on the basis of recoverable reserves.

***Keywords:*** *oil and gas resources, production, evaluation, method, national economy.*

## ЗАПАСЫ НЕФТИ И ГАЗА АЗЕРБАЙДЖАНА И ВОПРОСЫ ИХ ОЦЕНКИ

***Шафига Мамедова***
*д-р филос. по эконом., доцент, Сумгаитский государственный университет*
*shafiga_mammadova@mail.ru*

**Резюме**
Поскольку природные ресурсы, в том числе ресурсы нефти и газа, имеют большое значение в создании и приумножении национального богатства страны, а также в обеспечении устойчивого развития, правильная оценка этих ресурсов и сохранение их для будущих поколений является одной из важнейших задач народного хозяйства. В статье изучена динамика развития добычи нефти и газа Азербайджанской Республики за 2010 - 2020 годы, а также удельный вес нефтегазового сектора в общем внутреннем продукте. Кратко даны методы оценки ресурсов нефти и газа. Используя затратно-ресурсный подход при оценке запасов нефти и газа Азербайджанской Республики, остаточные запасы нефти и газа, подтвержденные для республики в 2010 - 2020 годах, были оценены на основе информации Государственной нефтяной компании Азербайджанской Республики. Стоимость доказанных запасов остаточного газа в стране определяется исходя из извлекаемых запасов.

***Ключевые слова:*** *ресурсы нефти и газа, производство, оценка, метод, национальная экономика.*

## Giriş

Azərbaycan Respublikası müxtəlif təbii ehtiyatlara malik olsa da, hazırda istismar nöqteyi-nəzərindən ölkəyə daha çox gəlir gətirən ən mühüm təbii sərvətlər kimi neft-qaz resursları hesab edilir. Azərbaycanın ərazisi dünyanın ən qədim neft çıxarılan ölkələrdən biri kimi tanınır. Belə ki, hələ e.ə. VI-VII əsrlərdə Abşeronda neftin çıxarılması və digər ölkələrə çatdırılması haqqında məlumatlar mövcuddur.

Ölkənin ən böyük həcmli neft və qaz yataqları Abşeron yarımadasında, Xəzər dənizinin şelf zonasında, Bakı və Abşeron arxipelaqlarında yerləşir. Qeyd edilən zonalarla yanaşı, respublikanın Cənub-Şərqi Şirvan, Mərkəzi Aran, Qobustan, Ceyrançöl, Acınohur, Siyəzən bölgələri də neftlə zəngindir.

Azərbaycanın neft-qaz ehtiyatları ilə bağlı perspektivli hesab olunan ərazisinin ümumi sahəsi 70 min kvadrat kilometr təşkil edir. Neft və kondensat ehtiyatının 47,7%-i, başqa sözlə, daha böyük hissəsi Xəzər dənizi akvatoriyasında, 26,2%-i Kür-Araz ovalığında, 10,6%-i Abşeron yarımadasında və 6,7%-i Quba-Siyəzən rayonunda yerləşir. Beləliklə, ölkənin neft-qaz- kondensat resurslarının 91,1%-i bu zonaların ərazisində yerləşir [1, s.55].

Azərbaycan nefti keyfiyyət xüsusiyyətlərinə görə də özünəməxsusluğu ilə fərqlənir. Belə ki, bu neftin tərkibində kükürd, parafin, qatran və koksun az miqdarda olması neft məhsullarının həm istismar, həm də emaletmə proseslərinin keyfiyyət və məhsuldarlığını yüksəldir.

Ölkəmizin neft-qaz sənayesinin intensiv inkişafı isə məhz son dövrlərdə Azərbaycan Respublikasının ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra – XX əsrin 90-cı illərindən başlayaraq hazırkı dövrdə də davam etməkdədir. Belə ki, dövlətimizin milli-iqtisadi maraqlarını təmin etmək və bu maraqlara uyğun neft strategiyasını formalaşdırmaq məqsədilə Bakıda Xəzər dənizinin Azərbaycana aid olan sektorunda “Azəri”, Çiraq” və dərinsulu “Günəşli” yataqlarının birgə işlənməsi və həmçinin hasilatın pay bölgüsü haqqında beynəlxalq müqavilə imzalandı. Ümummilli lider Heydər Əliyevin başçılığı ilə Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ - SOCAR) və dünyanın 7 ölkəsini təmsil edən aparıcı 11 xarici neft şirkətlərinin konsorsiumu arasında imzalanan bu müqavilə öz strateji əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adlandırıldı. Bu müqavilə Xəzər dənizindəki neft yataqlarının kəşfiyyatı və hasilatına əsaslanaraq imzalanmış, daha sonra ölkənin neft-qaz ehtiyatlarından səmərəli, məqsədyönlü istifadə və yeni neft strategiyasının inkişafı üçün əsaslı zəmin yaratmışdır. Qeyd etmək lazımdır ki, dünyanın neft resursları içərisində ölkəmizin neft potensialının xüsusi çəkisi 0,6%-i təşkil etsə də, respublikamızın əlverişli coğrafi məkanda yerləşməsi sonrakı illərdə bu müqavilənin həcminin daha da artmasına, nəticədə dünyanın müxtəlif ölkələrinin 41 neft şirkətilə otuz iki saziş imzalanmasına səbəb olmuşdur. Son dövrlərdə də Azərbaycanın neft-qaz resurslarının istismar imkanları artmaqdadır.

Keçən əsrin sonlarından bazar iqtisadiyyatı sistemində yeni inkisaf etməyə başlamiş olkələrin, o cümlədən Azərbaycanın milli sərvətinin strukturunda təbii sərvətlərin xüsusi rolu danılmaz fakt olaraq hələ də qalmaqdadir [7]. Azərbaycan Respublikası təbii resurslarla bol olsa da, ölkədəki iqtisadi inkişafın yuksəlməsində hazırda neft-qaz ehtiyatlarının movcudluğu əvəzolunmaz resurs kimi dəyərləndirilir [6]. Respublikanın neft-qaz ehtiyatlarının da daxil olduğu təbii sərvətlər olkənin milli sərvətinin yarıdan çoxunu təşkil etdiyindən və milli sərvət də eyni zamanda indiki və gələcək nəsillərin rifahını təmin edən ölkənin davamlı inkisafının birbasa əsası və perspektiv nəticəsi

olduğundan [5], onların düzgün qiymətləndirilməsinin [4], [9], bununla da bu resursların tükənməsinin qarşısının alınmasında böyük əhəmiyyəti olduğunu inamla qeyd etmək mümkündür.

Qeyd etmək lazımdır ki, son dövrdə Rusiyanın Ukraynadakı müharibəsilə əlaqədar Avropa ölkələrinin qaza tələbatı artmışdır. Bu da Azərbaycanın qaz ehtiyatlarının istismarına marağı artırmışdır. Belə ki, qaz kondensatının əhəmiyyətli hissəsi Azəri-Çıraq və Günəşli yataqlarından əldə olunur və bu yataqlar ölkənin neft və qazdan əldə olunan gəlirlərinin əhəmiyyətli hissəsini əhatə edir. Xəzər dənizindəki "Şahdəniz-2" layihəsi də dünyada, demək olar ki, ən iri qaz-kondensat yataqlarından biridir. Bu yatağın əlavə olaraq 16 milyard $m^3$ qaz verəcəyi proqnozlaşdırılır. 2021-ci ildə "Abşeron yatağı"ndan birinci mərhələdə 1,5 milyard $m^3$ qazın çıxarılması planlaşdırılmışdı. Perspektivdə "Şəfəq Asiman" yatağında qazma işlərinin intensivləşməsi də gözlənilir. Azərbaycandan keçib gedən Cənub Qaz koridoru vasitəsilə Azərbaycan qazının Avropaya çatdırılması ölkənin təbii sərvətlərindən milli maraqlar çərçivəsində istismarında mühüm hadisələrdən biri kimi olacaqdır. Şahdəniz yatağından Azərbaycan qazının Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya və digər Avropa və Balkan ölkələrinə çatdırılması Cənub Qaz Dəhlizinin uğurları kimi çıxış etməsini ölkəmizin tarixi nailiyyətləri kimi qeyd etmək mümkündür.

## Azərbaycanın neft-qaz ehtiyatları və onların qiymətləndirilməsi

Azərbaycan Respublikasının 2005, 2010 - 2020-ci illər üzrə neft və qaz hasilatının dinamikasına diqqət etsək, neft hasilatının ölkə üzrə 2010-cu ildə ən yüksək göstəricisinin 50838,2 min ton olmaqla, bu göstəricinin 2005-ci ilə nisbətən 2,3 dəfə yüksəldiyini qeyd etmək olar (cədvəl 1, qrafik 1). Daha sonrakı illərdə neft hasilatının azalması müşahidə olunmuşdur. Belə ki, 2020-ci ildə neft hasilatı 1,5 dəfə azalaraq 34531,9 min ton təşkil etmişdir. Bu balans və çıxarıla bilən ehtiyatların miqdarının azalması ilə əlaqədar olmuşdur. Əlbəttə, ölkənin davamlı inkişafı nöqteyi-nəzərindən təbii sərvətlərdən gələcək nəsillərin də yararlanması diqqətdə saxlanılmalıdır.

**Cədvəl 1. Azərbaycan Respublikasının neft və qaz hasilatının 2005, 2010 - 2020-ci illər üzrə göstəriciləri, cari qiymətlərlə**

| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Neft hasilatı (qaz kondensatı daxil olmaqla) min ton | 22214,2 | 50838,2 | 46626,2 | 43374,8 | 43457,4 | 42075,7 | 41628,3 | 41050,4 | 38688,4 | 38814,3 | 37501,2 | 34531,9 |
| Qaz hasilatı, milyon kub metr | 5732,1 | 26312,4 | 25728,3 | 26795,8 | 29244,6 | 29554,3 | 29175,1 | 29331,4 | 28595,9 | 30490,0 | 35610,3 | 37139,6 |

***Mənbə:*** *AR DSK, www.stat.gov.az.*

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, oktyabr - dekabr, 2023, səh. 18 - 28
Scientific Reviews in UNEC, Year 11, Volume 11, October - December, 2023, pp. 18 - 28

Qrafikdən göründüyü kimi, qeyd edilən dövrlərdə ölkədə qaz hasilatı ilə bağlı göstəricilərdə neft hasilatının əksinə olaraq artım müşahidə edilmişdir. Cədvəl 1-in məlumatlarına əsasən, 2010-cu ildə (5732,1 mln $m^3$) 2005-ci ilə nisbətən qaz hasilatı 4,6 dəfə artaraq 26312,4 mln kub metr təşkil etmişdir. Bu artım ənənəsi 2020-ci ilə qədər davam edərək 2020-ci ildə 2010-cu ilə nisbətən 1,4 dəfə artaraq 37139,6 mln kub metr olmuşdur. Bu dövrlərdə neft hasilatı üçün ən yüksək göstərici 2010-cu ilə təsadüf edir. Məhz həmin il neftdən gələn gəlirlərin ən yüksək olduğu dönəmdir.




**Qrafik 1. Azərbaycan Respublikasının neft və qaz hasilatının 2005, 2010-2020-ci illər üzrə dinamikası**

Ölkənin ÜDM-nin istehsalında neft-qaz sektorunun payı 2005-ci ildən başlayaraq sonrakı dövrlərdə artım tempilə xarakterizə olunsa da, 2020-ci ildə bu artım 2019-cu ilə nisbətən azalaraq 36,7 faizdən (30051,9 mln manat) 28,4 faizə enməklə 20577,6 mln manat təşkil etmişdir (cədvəl 2, qrafik 2).

**Cədvəl 2. İqtisadiyyatın neft-qaz və qeyri neft-qaz sektorunda ÜDM istehsalı, mln manatla**

| | **2005** | **2010** | **2015** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|---|
| ÜDM cəmi: | 12522,5 | 42465,0 | 54380,0 | 70337,8 | 80092,0 | 81896,2 | 72432,2 |
| O cümlədən: neft-qaz sektoru | 5520,9 | 20409,5 | 15382,2 | 25005,4 | 32231,7 | 30051,9 | 20577,6 |
| Qeyri neft-qaz sektoru | 6055,1 | 19178,0 | 34138,8 | 40328,0 | 41662,0 | 44481,8 | 44862,1 |
| Neft-qaz sektorunun ÜDM-də payı, faizlə | 44,1 | 48,1 | 28,3 | 35,6 | 40,2 | 36,7 | 28,4 |

***Qeyd:*** *Cədvəl AR DSK-nın məlumatları və müəllif hesablamaları əsasında tərtib edilmişdir.*

2015-ci ildə dünya üzrə neftin qiymətinin kəskin düşməsi səbəbindən bu ildə neft-qaz istehsalının ÜDM-də payı 2020-ci illə demək olar ki, eynilik təşkil etmişdir (uyğun olaraq 28,3% və 28,4%). Neft-qaz sektorunun ÜDM-də payının ən yüksək olduğu dövr 2010-cu ildir və demək olar ki, ÜDM-in yarısını təşkil etmişdir (48,1%). Bunu da ölkə iqtisadiyyatında "holland sindromu"nun yaranmasına şərait yaradan amillərdən hesab etmək mümkündür.




**Qrafik 2. Neft-qaz sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi**

Uzunmüddətli perspektivdə Azərbaycanın davamlı inkişafa əsaslanan milli iqtisadiyyatının inkişaf strategiyasının işlənib hazırlanmasında vacib vəzifələrdən biri də hal-hazırda ölkənin iqtisadi inkişafında əsas rol oynayan təbii sərvətlərdən səmərəli istifadə probleminin həllidir. Qeyd edilən problemin həlli ekoloji təhlükəsizliyin təmin olunması, indiki və gələcək nəsillərin maraqlarının qorunması üçün təbiətdən səmərəli istifadə olunması ilə əlaqədar olmaqla, birbaşa təbii sərvətlərin düzgün qiymətləndirilməsindən asılıdır. Təbii sərvətlərin iqtisadi qiymətləndirilməsi onların istehsal-təsərrüfat dəyəri haqqında obyektiv təsəvvür yaratmaqla yanaşı, digər vacib məsələlərin də həllinə: onların qorunması və təkrar istehsalına investisiyaların tətbiq meyarlarını müəyyən etməyə, intensiv istismar metodlarını seçməyə, bu sərvətlərin perspektiv istismar imkanlarını aşkarlamağa, vergi qoyuluşlarının səmərəli tətbiqinə və bütövlükdə ölkənin təbii sərvət potensialından optimal istifadə strategiyasını əsaslandırmağa imkan verir. Bunun üçün ilk növbədə təbii sərvətlərin ehtiyatlarının miqdarının düzgün müəyyən edilməsi önəmli şərtlərdəndir.

İqtisadi əhəmiyyətinə görə, faydalı qazıntı ehtiyatlarının uçota alınması iki əsas qrup üzrə: balans (iqtisadi) və balansdankənar (potensial iqtisadi) qruplara ayrılmaqla həyata keçirilir [3, s.16]. Öz növbəsində, balans ehtiyatlarına iqtisadi cəhətdən səmərəli

olan və yerin təkindəki ehtiyatların müəyyən edilməsi məqsədilə tələb edilən kondisiyaları təmin edə bilən faydalı qazıntı resursları daxil edilir. Balans ehtiyatları içərisində mövcud texnika və texniki-iqtisadi hesablamalara əsasən qiymətləndirmə zamanı iqtisadi cəhətdən səmərəli ola bilən ehtiyatları (işdə hesablamalar zamanı belə ehtiyatlar kimi "çıxarıla bilən ehtiyatlar" məlumatlarından istifadə edilmişdir) ayırmaq məqsədlidir.

Ümumiyyətlə, müasir dövrdə təbii sərvətlərin qiymətləndirilməsi məqsədləri çox əhatəlidir: sərvətlərin pul dəyərinin müəyyən edilməsi, onların istismar şərtlərinin seçilməsi, sərvətlərin istifadəsindən yarana bilən itkilərin və zərərlərin müəyyən edilməsi, təbii resurslara qoyulan investisiyaların iqtisadi səmərəliliyinin qiymətləndirilməsi və bir çox vacib məsələlərin həll edilməsi təbii sərvətlərin qiymətləndirilməsini obyektiv zərurətə çevirir. Qeyd edilən məqsədlər içərisində ölkənin bütövlükdə milli sərvətlərini müəyyən etmək üçün onun əsas komponentlərindən biri kimi çıxış edən təbii sərvətlərin payının qiymətləndirilməsi önəmli istiqamət kimi çıxış edir. Məhz tədqiqat işində də Azərbaycan Respublikasının milli sərvətini müəyyən etmək üçün onun əsas tərkib hissəsi kimi təbii sərvətlərin, o cümlədən neft və qazın qiymətləndirilməsi məsələləri araşdırılmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası təbiətdən, təbii resurslardan istifadənin idarə olunması, inzibati resurs ödənişləri və vergilərə münasibətdə inzibati-idarəetmə metodlarının tətbiqinin dominantlığı ilə xarakterizə olunur. Təbii resursların qiymətləndirilməsinin razılaşdırılmamış metodlarından istifadə (təbii resursların istifadəsilə əlaqədar dövlət strukturları və s. təşkilatlar) və ya bu metodların qeyri-mövcudluğu ölkənin təbii-resurs potensialını obyektiv dəyərləndirməyə imkan verməmişdir. Bunu da öz növbəsində ölkənin davamlı inkişafını təmin etməyə yol açan imkanların araşdırılmasına şəraitin yaradılmasına maneçilik törədən faktorlardan hesab etmək olar. Təbii resursların səmərəli idarə olunması onların obyektiv və əsaslandırılmış qiymətləndirilməsi olmadan qeyri-mümkündür. Belə bir məsuliyyətli işin yerinə yetirilməsində əlaqəli olan ölkə təşkilat və strukturlarının birgə səyi, razılaşdırılmış fəaliyyəti olmadan buna nail olmaq çətindir. Təbii resursların qiymətləndirilməsini həm bütövlükdə ölkə səviyyəsində, həm də regionlar səviyyəsində həyata keçirtmək daha məqsədlidir. Çünki bununla da bir tərəfdən ölkənin, digər tərəfdən regionların inkişaf meyarlarının potensialını müəyyən etmək mümkündür.

Təbii resurslar düzgün qiymətləndirilmədən, onların işlənməsindən əldə edilən gəlirlərin ölkə iqtisadiyyatının inkişafına hansı istiqamətdə yönəldilməsi, həmçinin onların səmərəli istifadəsi və s. məsələləri optimal həll etmək qeyri-mümkündür. Qısaca olaraq, təbii sərvətlərin iqtisadi qiymətləndirilməsinin yanaşma və metodlarından:

- sərvətlərin hasilatı, mənimsənilməsinə (istifadəsinə) çəkilən orta xərclərin miqdarı ilə onların qiymətləndirilməsini müəyyən edən və geniş istifadə olunan **xərc metodu**;
- təbii sərvətlərin qiymətləndirilməsini onların mənimsənilməsinə çəkilən xərclər və istifadəsindən əldə olunan məcmu gəlirlə müəyyən edən **xərc-resurs metodu**;
- yalnız gəlir gətirmək xüsusiyyətinə malik sərvətlərin qiymətləndirilməsi əldə olunan gəlirlə onlara sərf edilmiş xərclər arasındakı fərqə əsaslanan **nəticə yanaşması**;
- sərvətlərin bərpası və ətraf mühitə dəyən itkiləri nəzərə alan **təkrar istehsal yanaşması**;
- sosial səmərəliliyin qiymətləndirilməsini nəzərdə tutan **ümumi iqtisadi dəyər konsepsiyası**;
- aşağı qiymətli və ya bazar qiymətinə malik olmayan sərvəti, onun digər məqsədlərlə istifadəsindən əldə oluna bilən, ancaq əldən verilən mənfəətlərlə qiymətləndirməyə imkan verən **alternativ dəyər metodu**;
- daha yaxşı təbii faktorlarla xarakterizə olunan təbii sərvətlərin istismarı ilə əlaqədar qiymətləndirməni nəzərdə tutan **renta və diferensial yanaşma** və s. Metodları qeyd etmək olar [3, s. 29-42].

Azərbaycan Respublikasının neft və qaz ehtiyatlarının qiymətləndirilməsində **xərc-resurs** yanaşmasından istifadə olunmuşdur. Belə ki, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) təqdim etdiyi ilkin məlumatlar: 2010-2020-ci illərdə Respublika üzrə təsdiq olunmuş qalıq neft və qaz ehtiyatları, həmçinin 1 ton neft və 1000 $m^3$ qazın faktiki istehsal maya dəyəri (hasilatın maya dəyəri) və ixrac üzrə orta satış qiyməti (istehsalçının satış qiyməti) əsasında ölkənin neft və qaz ehtiyatları dəyərləndirilmişdir. Respublikanın neft resursları çıxarıla bilən ehtiyatlar əsasında iki istiqamətdə: ixrac satış qiymətləri və barel paketi üzrə qiymətləndirilmişdir.

Beləliklə, tərəfimizdən həyata keçirilən qiymətləndirmələrə görə, 2020-ci il üçün ixrac satış qiymətləri əsasında ölkə üzrə təsdiqlənmiş çıxarıla bilən qalıq neft ehtiyatlarının (kondensatla birlikdə) dəyəri 575722,5 mln manat (338664,9 mln ABŞ dolları) təşkil etmişdir. Azərbaycan Respublikası üzrə təsdiq olunmuş çıxarıla bilən qalıq neft ehtiyatlarının (kondensatla birlikdə) 2020-ci il üçün barel paketi əsasında dəyəri 350183,7 mln manat (205998,6 mln ABŞ dolları) olmuşdur. Neft ehtiyatlarının barel paketi üzrə qiymətləndirilməsi zamanı ehtiyatların bazar dəyəri ixrac satış qiymətləri üzrə hesablanan göstəricilərdən bir qədər yüksək olmuşdur (2018- ci il üzrə). Amma uyğun göstəricilər 2020-ci il üzrə isə əksinə olmuşdur.

Dünya üzrə neftin qiymətinin kəskin enməsi nəticəsində 2015-ci ildə ölkə üzrə qalıq neft ehtiyatları 2010-2020-ci illər ərzində ən aşağı dəyərə (249230,7 mln manat) malik olmuşdur. Qeyd edilən illər ərzində neft ehtiyatlarının ən böyük dəyəri 2018-ci ildə - 617900,8 mln manat təşkil etmişdir (qrafik 3).

Azərbaycan Respublikası üzrə təsdiq olunmuş qalıq qaz ehtiyatlarının dəyəri çıxarıla bilən ehtiyatlar əsasında müəyyən edilmişdir. Bu ehtiyatlara uyğun hesablanmış ölkə üzrə təsdiq olunmuş çıxarıla bilən qaz sərvətinin dəyəri 2020-ci ildə yeni qaz yataqlarının aşkarlanması ilə əlaqədar 2010-cu ilə nisbətən (185408,0 mln manat) 1,5 dəfə artaraq 2010-2020-ci illər ərzində ən böyük dəyərə malik olmaqla, 275437,4 mln manat təşkil etmişdir. Bu da Azərbaycanın yaxın gələcəkdə qaz ixrac edən ölkələr arasında önəmli yer tutacağına inam yaradır. Bu inamın yaranmasını Azərbaycanın qaz yataqları ilə zənginliyini şərtləndirən amillərdən, son dövrlərdə iki böyük yatağın ("Şahdəniz" və "Ümid") kəşf olunmasını qeyd etmək olar.




**Qrafik 3. Azərbaycan Respublikası üzrə təsdiq olunmuş qalıq neft ehtiyatlarının (kondensatla birlikdə) dəyərinin 2010-2020-ci illər üzrə dinamikası**

"Şahdəniz" dünyada ən iri qaz yataqlarından biri hesab edilir, sahəsi təxminən 859,8 $km^2$ təşkil edir. Xəzər dənizində yerləşən "Ümid" yatağında ilkin hesablamalara görə 200 milyard kub metr qaz ehtiyatlarının aşkarlandığı proqnozlaşdırılır və onun ölkə büdcəsinə 30-40 milyard dollar gəlir gətirəcəyi gözlənilir.

Azərbaycan Respublikası üzrə 2010-2020-ci illərdə təsdiq olunmuş qalıq qaz ehtiyatlarının dinamikası qrafik 4-də verilmişdir. Qrafikdən də göründüyü kimi, çıxarıla bilən ehtiyatların miqdarının dəyişməsinə uyğun olaraq, onların miqdarında müxtəliflik baş vermişdir. Belə ki, 2010-cu ildə çıxarıla bilən ehtiyatların ən böyük səviyyəsinin (1,28 trilyon $m^3$) olmasına baxmayaraq, 2010-2020-ci illərdə 1000$m^3$ qazın faktiki istehsal maya dəyərinin və ixrac üzrə orta satış qiymətinin qeyd edilən dövrlərdə dəyişməsiylə əlaqədar ölkə üzrə təsdiqlənmiş çıxarıla bilən qaz ehtiyatlarının ən yüksək dəyəri 2020-ci ildə (275437,4 mln manat) və ən aşağı səviyyəsi isə 2014-cü ildə (146021,8 mln manat) müşahidə olunmuşdur.




**Qrafik 4. Azərbaycan Respublikası üzrə təsdiq olunmuş qalıq qaz ehtiyatları dəyərinin 2010-2020-ci illər üzrə dinamikası**

Faydalı qazıntı yataqlarının keyfiyyət əlamətləri təbii xüsusiyyətlərlə əlaqədar olduğundan [2], bütövlükdə onların milli iqtisadi-təsərrüfat dəyərini, daha doğrusu bu ehtiyatların potensial dəyərini müəyyən etmək üçün onların axtarışı, istismarına çəkilən xərclər kifayət etmədiyindən bu resursların eyni zamanda hasilatı və emalı zamanı əldə edilən iqtisadi səmərə də mütləq olaraq nəzərə alınmalıdır. Aşkarlanmış faydalı qazıntı yataqlarının ölkənin milli sərvətinin tərkibinə daxil edilməsi məqsədilə bu resursların potensial iqtisadi dəyəri onların bütövlükdə istismarı zamanı əldə edilməsi mümkün ola bilən hazır məhsulun ümumi dəyəri ilə göstərilir. Əlbəttə, bu halda yataqların gələcəkdə milli iqtisadiyyatda istifadəsi zərurətində potensial dəyərin müəyyən edilməsi zamanı hazır məhsulun cari bazar və zaman amili nəzərə alınmaqla perspektiv topdansatış qiymətlərindən istifadə oluna bilər.

Beləliklə, hal-hazırda Azərbaycanın daxili və xarici iqtisadi maraqları nöqteyi-nəzərindən əsas yanacaq resursu neft və qaz hesab edilir və neft-qaz sənayesi ölkənin davamlı inkişaf strategiyasının əsasıdır [8, s.101]. Bu nöqteyi-nəzərdən, həmçinin milli sərvətin təbii resurslarının əsas tərkib hissələrindən biri kimi ölkənin neft-qaz ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması onların dəyərləndirilməsilə birbaşa bağlıdır.

## Nəticə

1. Neft-qaz resursaları, bütövlükdə ölkənin təbii sərvətləri milli sərvətin əsas tərkib hissələrindən biri kimi çıxış edir. Onun milli sərvətdə payı bir çox ölkələrdə, o cümlədən Rusiyada (40-50), Azərbaycanda kifayət qədərdir (80%-dən çox).

2. Neft-qaz resursları ictimai nemətlər kateqoriyasına aid olduğu üçün, onların tükənməsinin qarşısının alınması və gələcək nəsillər üçün qorunub saxlanması məqsədilə dövlət tərəfindən onların istifadəsinin dəqiq tənzimlənməsi sərhədləri müəyyən edilməlidir.

3. Azərbaycan üçün neft-qaz və digər təbii sərvətlər belə sərvətləri bol olan ölkələrin qarşılaşdığı “resurs lənəti”nin təsirinin minimuma endirilməsi məqsədilə, əsas istiqamət kimi iqtisadiyyatda optimal siyasət həyata keçirilməsi təmin olunmalı, bazarın çatışmazlıqları güclü dövlət institutlarının mövcudluğu ilə kompensasiya edilməlidir.

4. Bütün neft resursları bol olan ölkələr, o cümlədən Azərbaycana xas olan xüsusiyyətlərdən aşağıdakıları qeyd etmək mümkündür: neft gəlirləri üzərində güclü dövlət nəzarəti, onların yenidən bölgüsü, sosial dünyanın saxlanmasına istiqamətlənmə, qeyri-neft sahələrinin stimullaşdırılmasının aktivləşdirilməsi və s.

5. Hal-hazırda Azərbaycanda, onun milli iqtisadiyyatının inkişafında və nəhayət milli sərvətin əsas hissəsini təşkil etməsi baxımından təbii sərvətlərin daha dəqiq meyarlar əsasında dəyərcə qiymətləndirilməsi ölkə statistikasının ən önəmli vəzifələrindən biri olmalıdır.

**Ədəbiyyat**

1. Azərbaycan regionlarında tarazlı və rəqabət qabiliyyətli iqtisadiyyatın inkişaf istiqamətləri. Monoqrafiya / akademik A.A.Nadirovun redaktəsi ilə. – Bakı: Elm, -2013.-302s.
2. Azərbaycan geologiyası, III cild / Bakı: Elm,-2015.-382s.
3. Əhmədov N.V. Abşeron regionunda mineral xammaldan istifadənin səmərəliliyi / N.V.Əhmədov.-Bakı: Elm və Bilik, -2018.-326s.
4. Логвиненко О.А. Проблемы экономической оценки ресурсов природы в контексте современных институциональных теорий / О.А. Логвиненко, М.Н. Игнатьева // Система урпавления экологической безопасностью. – Екатеринбург: УрФУ, 2020. – с. 32-36.
5. Мамедова Ш.С. Взаимосвязанные модели национального богатства и устойчивого развития // - Москва: Научно-аналитический журнал. Финансовая экономика. №2, част 3, 2023, с.178-186
6. Mammadova Sh. S. Doğal kaynakların ekonomik kalkınma üzerindeki etkisi // İstanbul Gelişim Universitesi Uluslararası Uygulamalı Sosyal Bilimler Kongresi, 10-11 mart 2022, İstanbul: Seçilmiş Tam metin Bildiriler Kitabı, s. 167-176
7. Mikayilov F., Mammadova Sh., Ibishov E., Rzayev R., Huseynov R. Evaluation of national wealth approaches and problems // 55th İnternational Scientific Conference on Economic and Social Development. Baku, 18-19, June, 2020, pp. 344-349
8. Салимов С.М. Нефтегазовая промышленность – основа стратегии устойчивого развития Азербайджанской Республики. Монография/С.М. Салимов.-Москва: МаксПресс,-2015.-292с.
9. The Changing Wealth of Nations. Building a Sustainable Future // Washington: World Bank. 2018, - 235p, Официальный сайт Всемирного банка: worldbank.org. PDF
10. AR. DSK, www.stat.gov.az
11. https://www.socar.az

# NƏQLİYYAT DƏHLİZLƏRİNİN İDARƏ OLUNMASI MƏSƏLƏLƏRİ

*Daxil olub: 31 oktyabr 2023-cü il*
*Qəbul olunub: 17 noyabr 2023-cü il*
*Received: 31 October 2023*
*Accepted: 17 November 2023*

***Şamil Əzizov***
*doktorant, i.ü.f.d., UNEC; Heydər Əliyev Mərkəzinin direktorunun köməkçisi*
*azizov_shamil@yahoo.com*

**Xülasə**

Nəqliyyat dəhlizinin hər bir təkamül mərhələsində, təbii olaraq, onun idarə olunma məsələsi gündəmə gəlir. Bu mövzu üzrə elmi ədəbiyyatın tədqiqi göstərir ki, dəhlizlərin çeşidliliyi və müxtəlif iqtisadi və digər məqsədlərə hədəflənməsi səbəbindən onların idarə edilməsinin vahid resepti mövcud deyil – hər bir konkret halda pozitiv təcrübəyə əsaslanmaqla yanaşı, dəhlizin xüsusiyyətləri nəzərə alınmaqla kreativ yanaşma da tələb edə bilər. Məqalədə nəqliyyat dəhlizlərinin idarə olunmasının pozitiv təcrübələri və onları ümumiləşdirən bir sıra faydalı tədqiqatlar araşdırılır.

**Açar sözlər:** *nəqliyyat dəhlizinin idarə edilməsi, idarəetməyə təsir edən amillər, idarəetmə prosesində meydana çıxan problemlər, dəhlizin fəaliyyəti nəticəsində yaranan problemlər.*

## MANAGEMENT ISSUES OF TRANSPORT CORRIDORS

***Shamil Azizov***
*PhD in Economics, doctoral student with a doctorate degree, UNEC*
*Assistant to the Director of the Heydar Aliyev Center*
*azizov_shamil@yahoo.com*

At each stage of the evolution of the transport corridor, the question of its management naturally arises. A study of the scientific literature on this topic shows that due to the variety of types, as well as economic and other purposes of corridors, there is no single recipe for their management – in each case, a creative approach based on positive experience may be required, as well as considering the characteristics of the corridor. The article discusses the positive experience of transport corridor management and a number of useful studies summarizing them.

**Keywords:** *transport corridor management, factors affecting management, problems arising in the management process, problems arising as a result of the corridor activity.*

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, oktyabr - dekabr, 2023, səh. 29 - 38
Scientific Reviews in UNEC, Year 11, Volume 11, October - December, 2023, pp. 29 - 38

# ВОПРОСЫ УПРАВЛЕНИЯ ТРАНСПОРТНЫМИ КОРИДОРАМИ

***Шамиль Азизов***
*докторант, доктор философии по экономике, UNEC*
*помощник директора Центра Гейдара Алиева*
*azizov_shamil@yahoo.com*

**Резюме**
На каждом этапе эволюции транспортного коридора естественно встает вопрос о его управлении. Исследование научной литературы по данной теме показывает, что ввиду многообразия типов, а также хозяйственных и иных целей коридоров не существует единого рецепта их управления – в каждом конкретном случае может потребоваться творческий подход, основанный на положительном опыте, а также учет особенностей коридора. В статье рассматривается положительный опыт управления транспортными коридорами и ряд полезных исследований, обобщающих их.

***Ключевые слова:*** *управление транспортным коридором, факторы, влияющие на управление, проблемы, возникающие в процессе управления, проблемы, возникающие в результате деятельности коридора.*

## Giriş

Nəqliyyat dəhlizi nəqliyyat kommunikasiyasının xüsusi növü olmaqla adi yollardan fərqli xüsusiyyətlərə malikdir. Bizim üçün maraqlı olan belə dəhlizlərin ən yüksək forması olan iqtisadi dəhlizdir ki, bu da elmi ədəbiyyata daxil olmuş və cəmiyyətin rifah tərəqqisinə xidmət edən inkişaf dəhlizinin ən yüksək mərhələsidir.
Bu mənada artıq Azərbaycan beynəlxalq iqtisadi dəhliz rolunu ifa edir. İşğaldan azad edilmiş torpaqlar, bir tərəfdən bu dəhlizlərin inkişaf dəhlizinə çevrilməsinə, digər tərəfdənsə dəhliz çərçivəsində yeni marşrutların yaradılmasına əlverişli şərait yaradır. Bu kontekstdə Azərbaycan nəqliyyat dəhlizinin səmərəli idarə edilməsi məsələsi ön plana çıxmaqla bu sahədə dünya təcrübəsinin öyrənilməsini zəruri edir.

## 1. Nəqliyyat dəhlizinin idarə olunmasında nəzərə alınan determinantlar

[1]-də aparılan ümümiləşdirmələr əsasında dəhlizin idarə olunmasında aşkarlanan amillərin tədqiqi onların arasında 4 aspektin xüsusi önəm təşkil etməsi qənaətini ortaya çıxarır.

1. *Dəhlizin tipi*. Burada dəhlizin milli və ya ikitərəfli və ya çoxtərəfli, eyni zamanda monomodal və ya multimodal və ya intermodal olub-olmaması dəqiqləşdirilməlidir [2, s.9]. Bunun müəyyənləşdirilməsi aşağıdakı amillərdən asılıdır:

Mümkün fəaliyyətlər. Dəhlizin formalaşma və təkamül mərhələlərində aşağıdakı fəaliyyətlər meydana çıxır [1, s. 15-16]:

- Planlaşdırma və maliyyələşdirmə. Bu fəaliyyətlər əsasən infrastrukturun inkişafı və uyğun obyektlərin tikintisi ilə əlaqəlidir və dəhlizdən istifadənin effektivliyini yüksək səviyyədə saxlamaq məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:
  - investisiyaların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;
  - tikilməsi nəzərdə tutulan aktivlərin qarşılıqlı uyğunluğunun və bir-birini tamamlamasının təmin olunması;
  - infrastruktur və obyektlərin nəqliyyatın dəhlizdən keçidi gücünün balanslaşdırılması;
  - mümkün tıxacların minimuma endirilməsi;
  - infrastruktur və obyektlərin keyfiyyəti səviyyəsinin saxlanması.
- Qanunvericilik. Ticarət və tranzit müqavilələrinin, hüquqi-normativ bazanın və investisiya proqramlarının hazırlanıb qəbul olunması dəhlizin effektiv fəaliyyətinin əsasıdır. Dəhlizin idarə olunması dövlətin üzərindədirsə, hökumət bu sənədlərin hazırlanmasında bilavasitə iştirak edir. Lakin bir çox hallarda dövlət ancaq qanunvericilik təşəbbüslərinə dəstəkçi kimi çıxış edir.
- Tənzimləmə. Bu fəaliyyət əsasən dəhlizin effektivliyinin artırılması məqsədilə taktiki idarəetməni nəzərdə tutur və aşağıdakılardan ibarətdir:
  - standart və qaydalarla əlaqəli sadələşdirilməsi təşəbbüsünə dəstək – bu dəyişikliklərin qəbul olunması məqsədilə hökumətə təzyiqlərin göstərilməsi;
  - ikitərəfli və çoxtərəfli danışıqlarda beynəlxalq konvensiyalardan istifadə;
  - beynəlxalq tərəfdaşlarla birgə regional prosedur və standartların işlənib hazırlanması.
- İstismar (Operating). Bu fəaliyyət nəqliyyat dəhlizində infrastruktur və obyektlərə dəstək üçün göstərilən xidmətləri və bu aktivlərin yeniləndirilməsini, həmçinin logistika xidmətlərinin yaxşılaşdırılması və genişləndirilməsini nəzərdə tutur. Bu, idarəetmə strukturu tərəfindən ya bilavasitə həyata keçirilir (bu zaman bu qurum müvafiq tikinti şirkətləri ilə özü birbaşa müqavilələr bağlayır), ya da istismara məsul təşkilatı bu müqavilələrə təşviq edir və yeri gələndə bu fəaliyyətlərin koordinasiyasını həyata keçirir.
- Dəstəkləmə (Promoting). Bu, idarəetmə strukturunun məlumatlandırma, təşviqat və marketinq kimi fəaliyyətlərini ehtiva edir. Bunlara aşağıdakılar aiddir:
  - dəhliz istifadəçiləri üçün nəzərdə tutulan dəhlizdən keçid qiyməti və müddəti haqqında, həmçinin sərhəd və qapılardan keçid prosedurları haqqında məlumat;
  - dəhlizin müxtəlif aspektlərini idarə edən qurumlar üçün nəzərdə tutulan qanunvericilik və idarəetmənin müsbət dünya təcrübəsi haqqında məlumat.
- Monitorinq. Bu, dəhlizin fəaliyyəti haqqında məlumatların yığılması və qiymətləndirilməsini ehtiva edir. Məlumat yığımını idarəetmə qurumu özü də həyata keçirə

bilər, amma əksər hallarda bu prosesə dəhliz istifadəçiləri, o cümlədən xidmət təchizatçıları cəlb olunur. Bu verilənlər əsasında idarəetmə rəhbərliyi aşağıdakıları həyata keçirir:

- qiymətləndirmələr aparır;
- dəhlizdəki xidmətlərin səviyyəsi barədə maraqlı tərəfləri məlumatlandırır;
- dəhlizin fəaliyyət çərçivəsinin genişləndirilməsi və ya daraldılması istiqamətində yeni hüdudları ədədi olaraq qiymətləndirir;
- dəhlizin effektivliyinin artırılması istiqamətində təkliflər təqdim edir;
- çatışmazlıqların aradan qaldırılması üzrə səyləri qiymətləndirir;
- gələcək təkmilləşmələr üzrə məqsəd göstəriciləri işləyib hazırlayır.

Göründüyü kimi, sadalanan bütün fəaliyyətlərə idarəetmə qurumunun iki yanaşması ola bilər: 1) bilavasitə özü tərəfindən həyata keçirilmə; 2) digər subyektlərin fəaliyyətlərini koordinasiya etmək və təşviq etmək.

2. *İştirakçıların müəyyənləşdirilməsi*. İdarəetmə strukturu idarəetmədə iştirak edənlərdən, onun fəaliyyətindən və təşkilati formasından asılıdır. Bunlar isə öz növbəsində dəhlizin yuxarıda tədqiq olunan tipindən – burada hansı fəaliyyətin (fiziki, hüquqi və ya əməliyyat) üstünlük təşkil etməsindən asılıdır.

Fəaliyyət istiqamətlərinə görə iştirakçılar özəl və ya dövlət sektorunun təmsilçisi olmaqla iki qrupa bölünür [1, s. 4]:

Özəl sektor əsasən aşağıdakı fəaliyyətləri həyata keçirir:

- daşıyıcılar;
- nəqliyyat;
- logistika;
- infrastruktur.

Dövlət sektorunun (public sector) vəzifə və səlahiyyətləri aşağıdakıları ehtiva edir:

- icraedici (executive);
- qanunverici (legislature);
- idarəedici (department);
- tənzimləyici (regulator);
- operator.

İdarəetmədə tutduqları mövqeyə görə iştirakçıların üç qrupu fərqləndirilir [1, s. 14-15].

1) Liderlik. Təbii ki, lider idarəetmənin ən mühüm iştirakçısıdır və sözsüz ki, dəhlizin effektivliyinin təmin olunması üçün onun idarə olunmasına məsul olan orqan (və şəxs) kifayət qədər səlahiyyətə malik olmalıdır ki, tranzit və ticarət haqqında qanunvericiliyi tərtib edən agentlikləri, qayda və standartları tərtib edən və onlara əməl olunmasına nəzarət edən qurumları, həmçinin infrastruktura cavabdeh dövlət müəssisələrini effektiv əməkdaşlığa cəlb edə bilsin. Ona görə də əksər hallarda lider qismində

icraedici və ya qanunverici orqanın yüksək səlahiyyətli işçisi seçilir, beynəlxalq dəhlizlərdə isə bu şəxsin ranqı tərəfdaş ölkələrin liderlərinin ranqına uyğun olmalıdır.

2) Maraqlı tərəflər. Əhəmiyyətliliyinə görə iştirakçıların ikinci mühüm kateqoriyası özəl və dövlət sektorlarını, həmçinin ictimaiyyəti təmsil edən maraqlı tərəflərdir. Onlara aşağıdakı təşkilatlar aiddir:

- ticarət, nəqliyyat və logistika ilə məşğul olan özəl sektor assosiasiyalarının nümayəndələri;
- ictimaiyyət, məsələn, dəhlizin müəyyən aspekti üzrə ixtisaslaşmış qeyri-hökumət təşkilatları;
- ticarət siyasəti, dəhlizin infrastrukturunun inkişafı, nəqliyyat və logistika xidmətlərinin idarə olunması, sərhəd keçid qapılarının fəaliyyətinin tənzimlənməsi ilə məşğul olan dövlət qurumları.

Bu tərəflərin dəhlizin idarəetməsində bilavasitə iştirakı nəzərdə tutulsa da, bir qayda olaraq, onlar tam əsaslarla iştirak etmirlər, əsasən direktorlar şurası və ya işçi qruplarda təmsil olunurlar. Bunu nəzərə alaraq, bütün maraqlı tərəflər nəzərə alınmaqla onların effektiv şəbəkəsi təşkil olunmalıdır.

3) Dəhlizin işçiləri. Bunlar dəhlizin administrasiyası tərəfindən işə götürülmüş peşəkar personaldır. Hansı peşə nümayəndələrinə üstünlük verilməsi idarəetmənin fəaliyyətinin əsas istiqamətinin nə olmasından asılıdır. Üç əsas istiqamətə fikir verilməlidir:

- Fiziki aktivlərin quraşdırılması. Bu halda cəlb olunan əsas işçilər mühəndislərdir.
- Qanunvericilik fəaliyyəti. Bu halda dövlət siyasəti və ticarət sahələri üzrə mütəxəssislər lazımdır.
- Operativ fəaliyyət. Bu halda logistika üzrə peşəkarlara üstünlük verilir.

İştirakçıların məqsədləri [3], xüsusən də bu məqsədlərin konfliktlərinin nəzərə alınması da zəruridir.

3. *İdarəetmə sferaları* (Scope of Management).

- Ticarət və tranzit razılaşmaları (Trade and Transit Agreements). Yük və nəqliyyatın sərhədi keçmə qaydalarını təsbit edən ticarət və tranzit müqavilələri beynəlxalq dəhlizlərin effektivliyinin mühüm şərtidir. Təcrübə göstərir ki, bu razılaşmalar ehkam kimi qəbul olunmamalıdır, şərait dəyişdikcə ticarətin genişləndirilməsi məqsədilə şərtlər də dəyişdirilməlidir. Məsələn, ACEAN-ın təcrübəsində ilkin müqavilə üzərində intensiv çalışmalar aparıldığı və effektiv razılaşma ərsəyə gətirilməsinə rəğmən sonrakı mərhələlərdə uyğun dəyişikliklərin əlavə edilməsi səbəbindən bu inteqrasiya qurumu kafi inkişafa nail ola bilməmişdir [1, s.7].
- İnfrastruktur və obyektlər (Infrastructure and Facilities). Dəhliz üzrə daşımaların effektivliyi – keçid qabiliyyəti əhəmiyyətli dərəcədə infrastrukturun keyfiyyətindən

asılıdır. Nəqliyyat dəhlizlərinin əsas xüsusiyyətlərindən biri onların müntəzəm olaraq yenilənmə zərurətidir. Burada mühüm məsələ bu fəaliyyətlərin maliyyələşdirilməsidir. Əgər tarixən bu fəaliyyət dövlətin öhdəsində idisə, son on onilliklər ərzində bu işə özəl sektorun cəlbinə başlanılmışdır. Bir çox inkişaf etmiş ölkələrdə nəqliyyat infrastrukturu obyektlərinin tikintisi, istismarı və idarə olunması özəl sektora həvalə edilir. Hələ ki, istisna quru keçid məntəqələridir ki, bunlar hələ də dövlət gömrük xidmətlərinin öhdəsindədir. Həm özəl, həm də dövlət sektoru bu xərclərə görə xüsusi rüsumlar toplayır [1, s.8].

- Tənzimləmə və standartlar (Regulation and Standards). Xüsusən beynəlxalq xidmətlərdə standartlar önəmli rol oynamaqla, dəhlizin effektiv fəaliyyətinə də böyük təsir göstərir. Nəqliyyat dəhlizi üzrə standartlar aşağıdakıları əhatə edir: 1) nəqliyyat vasitələri və fiziki infrastruktur; 2) nəqliyyat vasitələri və fiziki infrastrukturdan istifadə qaydaları; 3) bu standartlara əməl olunmasını təmin edən prosedurlar. İdarəedici orqan aşağıdakı fəaliyyətləri həyata keçirir [1, s.9]:
  - rəqabətə və effektivliyə mənfi təsir edən prosedurların dəyişdirilməsi;
  - sərhədin hər iki tayında prosedurların uyğunlaşdırılmasına dəstək;
  - qeyri-rəsmi ödənişlərin qarşısının alınması üçün prosedurların şəffaflığının təmin edilməsi;
  - gecikmələri minimuma endirmək məqsədilə prosedur və sənədləşmələrin sadələşdirilməsi;
  - risklərin idarə olunması və İKT-dən istifadənin təşviqi.
- Nəqliyyat və logistika xidmətləri *(Transport and Logistics Services)*. Dəhlizin effektivliyinə daşıyıcılara göstərilən logistika xidmətlərinin keyfiyyəti də çox təsir edir. Belə xidmətlər bir qayda olaraq özəl sektor tərəfindən həyata keçirilir, lakin dövlət idarəçiliyinin bu sahədə rolu önəmlidir. Belə ki, rəqabətin və bunun nəticəsi olan yüksək keyfiyyət və aşağı qiymətlərin təmin olunması üçün, dövlət bir tərəfdən yeni şirkətlərin bu bazara girişinə əlverişli şərait yaratmalı, maneələri aradan qaldırmalı, bir sözlə antiinhisar siyasəti həyata keçirməlidir. Digər tərəfdən miqyas effekti, yəni üfüqi inteqrasiyanın üstünlükləri nəzərə alınmalıdır ki, bu da müəyyən mənada antiinhisar siyasəti ilə ziddiyyət təşkil edir. Bu fakt Azərbaycan kimi nisbətən kiçik ölkələrdə xüsusən diqqət mərkəzində saxlanılmalıdır. İdarəetmənin üçüncü istiqaməti şaquli inteqrasiyanın təşviqidir. Nəzərə almaq lazımdır ki, ölkəyə daxil olan xarici daşıyıcı üçün müxtəlif logistika xidmətlərinin müxtəlif şirkətlərdən alması rahat deyil, bütün bu xidmətlərin sərhəddən sərhədədək bir şirkət tərəfindən həyata keçirilməsi daha rahatdır, hətta bu xidmət nisbətən baha olsa belə [1, s.8].
- Təhlükəsizlik. Sərhəd prosedurlarının sadələşdirilməsi müqavilədə də nəzərdə tutulan bəzi təhlükəsizlik məsələlərinə xələl gətirməməlidir. Belə təhdidlərdən ən çox rast olunanlara aşağıdakıları aid etmək olar:

- təhlükəli və/və ya qadağan olunmuş məhsulların ölkəyə keçməsi;
- qeyri-leqal immiqrasiya;
- çoxtərəfli dəhlizlərdə üçüncü ölkəyə daşınma kimi elan olunmuş yükün tranzit ölkəyə sızması və/və ya dəyişdirilməsi.

Bu təhlükələrin minimallaşdırılması üçün müvafiq səlahiyyətli orqanların fəaliyyətinin koordinasiyası həyata keçirilməlidir.

- Məqsəd qrupları (*Task Force*).
- Ümumi məhsuldarlıq (Overall Perfomance). Dəhlizin məhsuldarlığının qiymətləndirilməsi çətin problem olmaqla növbəti bölmələrdə tədqiq olunur. Burada onu qeyd edək ki, göstəricilərin formalaşdırılması daşınan yüklərin və göstərilən xidmətlərin xüsusiyyətindən çox asılıdır. Qiymətləndirmənin idarə olunması üçün monitorinq zəruridir, bu isə dövlət və özəl sektorların, o cümlədən daşıyıcıların əməkdaşlığını tələb edir [1, s. 10].

4. *Təşkilati struktur* (Organization Structure). Hansı təşkilati strukturun və harada yaradılması həlli tələb olunan qarşıya çıxan konkret məsələlərdən, onların həll olunması müddətindən asılıdır. Məsələn [1, s. 15]:

- əgər problem dəhlizin hüquqi komponenti ilə əlaqədardırsa, onda qanunvericilik orqanının nəzdində müvəqqəti (sənədlər hazırlanıb, ratifikasiya olunana qədər) olaraq uyğun komitə yaradıla bilər.
- əgər infrastrukturun təkmilləşdirilməsi və uyğun obyektlərin tikintisinə ehtiyac varsa, onda yaradılan uyğun komitənin fəaliyyət işləri layihələrin hazırlanmasından tikintilərin başa çatmasına qədərdir.
- əgər hər hansı bir məsələ yalnız planlaşdırma ilə əlaqəlidirsə, onda Pakistanda olduğu kimi sadəcə nazirliklərarası komissiya və ya məqsəd qrupunun yaradılması kifayətdir.
- əgər əsas məsələ operativ fəaliyyətdirsə, onda hökumətdə müstəqil və daimi əsaslarla fəaliyyət göstərən struktur yaradılmalıdır.
- əgər dəhlizin monitorinqi tələb olunursa, onda daimi fəaliyyət göstərən uyğun assosiasiya və ya komissiya yaradılır.

İstənilən bu hallar üçün dəhlizin idarə olunması ilə məşğul olan təşkilat **inzibati deyil**, texniki təmayüllü olmalı, bununla yanaşı onun rəhbərliyi ictimai dialoqa açıq olmalıdır. Struktur, ümumən, böyük olmamalı, tərkibində azı əllidən çox olmamaq şərtilə ondan çox peşəkar olmalıdır. Texniki dəstək üçün təşkilat ezam olunmuş əməkdaşların və ya kənar məsləhətçilərin də daxil olduğu çevik struktura malik olmalıdır [1, s. 15].

Beləliklə, idarəetmə strukturları aşağıdakı təşkilati formalarda yaradıla bilər: komitə (committee); komissiya (commission); şöbə (division); orqan (authority); assosiasiya (association).

Bütün bu aspektlər təyin edildikdən sonra uyğun idarəetmə strukturu və onun məqsədi müəyyənləşdirilir.

## 2. Dəhlizlərin idarə olunmasında meydana çıxan problemlər

Xüsusən beynəlxalq nəqliyyat dəhlizlərində aşağıdakı idarəetmə problemlərinin yaranması mümkündür.

1) İlk problem layihələşdirmə mərhələsində meydana çıxır. Gələcək dəhlizləri planlaşdırmazdan öncə onun başqa dəhlizlərlə əlaqəsi, hər bir mərhələdə maraqlı tərəflərin aşkar və qeyri-aşkar səmərə və itkiləri kompleks şəkildə dərk olunmalı və yalnız bundan sonra layihə üzərində iş aparılmalıdır [4, s. 41]. Bunun üçün hökmən çoxsaylı beynəlxalq təcrübələrə müraciət olunmalıdır.

2) Çoxtərəfli dəhlizlər azı iki, bəzi hallarda isə bir neçə ölkə arasında yük daşımalarını həyata keçirdiyindən, digər tərəfdənsə həmin dəhlizlərin həm də daxili daşımaları təmin etdiyindən bu iki səviyyədə idarəetmə qaydaları, maliyyələşdirmə məsələləri və keçid prosedurları arasında ziddiyyət meydana gələ bilər. Buna görə də, belə dəhlizlərin daxili, ikitərəfli və tranzit daşımalarına olan tələblər arasında fərqlər nəzərə alınmalıdır [1, s. 13].

3) Birmodallı, məsələn, yalnız avtomobil və ya yalnız dəmiryol nəqliyyatı üçün nəzərdə tutulan dəhlizlərin idarə olunması nisbətən sadədir – buna bir qurum cavabdehdir. Multimodal və xüsusən də intermodal dəhlizlərdə tənzimləməyə müxtəlif agentliklərin cəlb edilməsi zərurət təşkil etdiyindən həm layihə, həm idarəetmə mərhələlərində onların fəaliyyətinin koordinasiyası tələb olunur ki, bunu da baş nazir və ya digər yüksək səviyyəli nazirlik və ya qanunvericilik nümayəndəsi həyata keçirə bilər [1, s. 14].

4) Bir çox hallarda dəhlizi idarə edən qurumun səlahiyyət müddəti qeyri-müəyyən, büdcəsi isə çox məhdud olur. Buna görə də, çox vaxt işə daimi işçi götürülmür, müvəqqəti məsləhətçilərin xidməti ilə kifayətlənilir. Bu isə qurumun fəaliyyət effektivliyini azaldır. Çoxtərəflilik və/və ya multimodallıq vəziyyəti daha da mürəkkəbləşdirir. Bu halda hər bir ölkədəki qurumlar və daxildə nazirliklər arasında rasional qarşılıqlı fəaliyyət mexanizminin qurulması zərurəti yaranır ki, bu da həmişə uğurlu olmur [1, s. 14].

5) Dəhlizin inkişaf mərhələsindən asılı olaraq maraqlı tərəflərin tərkibi və nisbəti dəyişir. Məsələn, inkişaf dövründə, yəni bərk infrastruktur mərhələsində əsas maraqlı tərəflər (ı) sənaye, ticarət, nəqliyyat və maliyyə nazirlikləri; (ıı) investisiyanın cəlb olunması agentlikləri; (ııı) yerli hakimiyyət orqanları; və (ıv) maliyyə institutlarıdır. Əsas problem isə uyğun hüquqi və siyasi çərçivənin yaradılmasıdır. İstismar dövrü, yəni yumşaq infrastruktur mərhələsində isə əsas maraqlı tərəflər: (ı) ticarət və nəqliyyata nəzarət və onların tənzimlənməsi üzrə dövlət qurumları; (ıı) logistika operatorları; (ııı) nəqliyyat şəbəkələri və obyektləri operatorlar; (ıv) yük daşıyıcılarıdır. Bu mərhələnin əsas problemi isə çatışmazlıqların və onların səbəblərinin

müəyyənləşdirilməsi, bunların aradan qaldırılması üçün lobbiçilik fəaliyyətinin həyata keçirilməsidir [4, s. 39].

6) Maraqlı tərəflərin fəaliyyətinin koordinasiyası. Təcrübə göstərir ki, milli hökumətlərin, özəl sektorun, iqtisadi birliklərin və vətəndaş cəmiyyətinin bir forum çərçivəsində müzakirələrə cəlb olunması müşkül məsələ olaraq qalır [4, s. 40-41].

7) Dəhlizin imkanlarından istifadədə diskriminasiya. Mövcud, xüsusən də geridə qalmış ölkələrdəki nəqliyyat dəhlizləri üzrə təcrübə göstərir ki, onun iqtisadi imkanlarından əsasən iri biznes və dövlət qurumları yararlanır. Uğurlu təcrübədə dəhlizlər yoxsulluğun aradan qaldırılması və həyat ömrünün uzadılmasına xidmət edir. Lakin məsələn, Afrikada elə dəhlizlər var ki, onlar boyunca ticarət əsasən iri biznesə məxsusdur, burada yaşayan yerli əhali isə, istəsə belə, bu imkandan istifadədən məhrumdur [4, s. 42-43].

8) Risk amili. Burada bir çox mühüm məqamlar var:

- Əvvəla, gələcəyin qeyri-müəyyənliyi nəzərə alınmalı, müxtəlif mənşəli və xarakterli risklər (təbiət riskləri, meqaiqtisadi və makroiqtisadi risklər, sahəvi risklər və s.) qiymətləndirilməli, bütün hesablamalar bir neçə ssenari üzrə aparılmalıdır. Məsələn, məlumdur ki, COVID-19 pandemiyası ilə əlaqədar hər yerdə tətbiq olunmuş karantin rejimi ilk növbədə nəqliyyat və turizm sektoruna güclü zərbə vurdu, hətta bəzi aviaşirkətlər müflis oldu.
- Konkret risklər üzrə zərərlərin kimlərin daşıması müəyyənləşdirilməli və uyğun xəbərdarlıqlar olunmalıdır [5, s. 27].
- Müxtəlif risklərə qarşı həssaslıq analizi aparılmalı və müxtəlif layihələr üzrə xalis cari dəyərlər bu həssaslıqlar nəzərə alınmaqla müqayisə olunmalıdır [5, s. 28].

### 3. Dəhlizlərin yaratdığı problemlər

Hər bir antropogen fəaliyyətdə olduğu kimi nəqliyyat dəhlizlərinin, xüsusən də genişmiqyaslı beynəlxalq inkişaf dəhlizlərinin reallaşdırılması müəyyən problemlər yarada bilər.

1. Ekosistemə dəyən zərər.
   - floranın bir hissəsinin məhv edilmə zərurəti və bu fonda faunaya da dəyə biləcək zərərin homeostazı pozma ehtimalı.
   - iqlimin dəyişməsi ehtimalı.
2. Dəhlizin keçdiyi ərazilərdə icmaların tarixən mövcud olan yaşama tərzinin dəyişməsi. Bəzi hallarda digər iştirakçılara önəmli üstünlüklər verdiyi halda, ərazilərdə yaşayan əhaliyə dəyən zərər onların əldə etdiyi səmərədən qat-qat çox ola bilər. Məsələn, kənd yerində əsrlərlə nəsildən-nəslə verilməklə bərqərar olmuş əmək bölgüsü və

qarşılıqlı dəstək halında yaşayan icmaların dağıdılıb köçürülməsi dərin sosial, iqtisadi və psixoloji sarsıntılarla müşayiət oluna bilər:

- yeni yaşayış yerində iş tapma və əksər hallarda yenidən ixtisaslaşma zərurəti;
- qohum və dostlardan uzaq düşmə və qarşılıqlı dəstəkdən məhrum olma;
- kiçik vətəndən – doğma torpaqlardan və təbiətdən ayrı düşmə;
- yeni yaşayış yerində ictimai və iqlim adaptasiyası müşkülləri və s.

Beləliklə, gördüyümüz kimi, dəhlizlərin böyük potensiala malik olması, onların vasitəsilə təkmilləşən əmtəə ticarəti, xidmətlərin keyfiyyətinin artırılması, digər kommunikasiya imkanları iştirakçılara önəmli səmərələr gətirir. Geniş mənada iki istiqamət xüsusilə qeyd olunmalıdır.

- Fəaliyyətlərin diversifikasiyası. Bunun Azərbaycan üçün böyük əhəmiyyət kəsb etdiyi şübhəsizdir.
- Əvvəllər sosial-iqtisadi tərəqqidən kənarda qalan ucqar, yoxsul region və ölkələrin davamlı inkişafına zəmin yaranması. Buna misal Ermənistanı gətirmək olar. Okeana çıxışı olmayan, müstəqillik əldə etdiyi ilk gündən çox önəmli regional və qlobal layihələrdən kənarda qalan və bunların nəticəsi olaraq yoxsulluğa məhkum olmuşdur. Bir kəmər, bir yol təşəbbüsünün məhz Zəngəzur dəhlizində reallaşması şərtində bu ölkənin sosial-iqtisadi inkişafı üçün geniş imkanlar yarana bilər.

## Nəticə

Dəhlizlərin kompleks yanaşma ilə öncədən planlaşdırılması və bu planların həyata keçirilməsində müsbət beynəlxalq təcrübəyə əsaslanan rasional siyasətin sərgilənməsi bu səmərələrin effektivliyini daha da artırır.

Həm planlaşdırılma, həm də implementasiya mərhələlərində üç mühüm və çoxşaxəli məqam diqqət mərkəzində olmalıdır:

- idarəetməyə təsir edən amillər;
- idarəetmə prosesində meydana çıxan problemlər;
- dəhlizin fəaliyyəti nəticəsində yaranan problemlər.

### Ədəbiyyat

1. Arnold J. *Best practices in corridor management.* - Trade Logistics Group, The World Bank, Washington, 2005. - 95 p.
2. Learning Materials on Transport Corridors. – UN ESCAP, 2020. – 66 p.
3. What is a development corridor? / https://developmentcorridors.org/development-corridors/#:~:text=A%20corridor%20becomes%20a%20'logistics,and%20logistics%20are%20in%20place.
4. Hope A., Cox J. Development Corridors. - Coffey International Development, 2015. – 74 p.
5. Impact of Transport Infrastructure Investment on Regional Development – OECD, 2002 – 153 p.

# GENDER BƏRABƏRLİYİNİN DAYANIQLI İNKİŞAFA TƏSİRİ

*Daxil olub: 19 may 2023-cü il*
*Qəbul olunub: 29 sentyabr 2023-cü il*
*Received: 19 May 2023*
*Accepted: 29 September 2023*

***Nərgizxanım Baxışova[1], Səyyarə Amanova[2]***
*[1,2]baş müəllim, Azərbaycan Texniki Universiteti*
*[1]nergizxanim.baxishova@aztu.edu.az*
*[2]seyyare.amanova@aztu.edu.az*

**Xülasə**

Tədqiqatın əsas məqsədi müasir şəraitdə gender bərabərliyinin təmin edilməsi istiqamətində tövsiyələrin verilməsinə yönəlmişdir. Tədqiqat işi müqayisəli təhlil və məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatda "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlı dayanıqlı inkişaf gündəliyinin, FAO-nun Gender Proqramının Dünya Bankının "Qadınlar, Biznes və Qanun-2022" hesabatının təhlili sistemləşdirilərək kompleks şəkildə araşdırılmışdır. Həmçinin tədqiqat işində Azərbaycan Respublikasında iqtisadi fəal əhali sayının və işsizlik səviyyəsinin vəziyyəti analiz edilmişdir. Tədqiqat nəticəsində spesifik xüsusiyyətlər təhlil edilmiş, həmçinin məşğulluq, səhiyyə, təhsil və sosial siyasət kimi sahələrdə gender bərabərliyinin təmin edilməsi, qadınların bura cəlb edilməsi imkanlarının genişləndirilməsi istiqamətində bir sıra tədbirlər qeyd olunmuşdur. Bundan əlavə olaraq Dayanıqlı İnkişaf Məqsədlərindən olan gender bərabərliyinə nail olmaq, bütün qadın və qızların səlahiyyətlərinin gücləndirilməsi təhlil edilmişdir. Tədqiqatın məhdudiyyətləri daha geniş praktik informasiya tələb etməsidir. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan iqtisadiyyatındakı mövcud problemlərin həllində və dayanıqlı iqtisadi inkişafa töhfə verəcək proqramların və gələcək proqnozların hazırlanmasında, gender bərabərliyi mexanizminin və normativ hüquqi bazanın təkmilləşdirilməsində, tədqiqatçılar tərəfindən gender bərabərsizliyi mövzusu haqqında aparılan araşdırmalarda, o cümlədən təhsil müəssisələrində istifadə oluna bilər.

***Açar sözlər:*** *gender bərabərliyi, gender bərabərsizliyi, kişi və qadınların hüquq bərabərliyi, dayanıqlı inkişaf, məşğulluq.*

# IMPACT OF GENDER EQUALITY ON SUSTAINABLE DEVELOPMENT

***Nargizkhanim Bakhishova[1], Sayyare Amanova[2]***
*[1,2]teacher, Azerbaijan Technical University*
*[1]nergizxanim.bakhishova@aztu.edu.az, [2]seyyare.amanova@aztu.edu.az*

## Abstract
The main purpose of the research is to provide recommendations in the direction of ensuring gender equality in modern conditions. The research work was performed on the basis of research methods such as comparative analysis and logical summarization. In the study, the analysis of the sustainable development agenda called "Transforming our world: Agenda for sustainable development until 2030", the report of the FAO Gender Program of the World Bank "Women, Business and Law-2022" was systematized and examined in a complex way. The study also analyzed the situation of the number of economically active population and the level of unemployment in the Republic of Azerbaijan. As a result of the research, specific features were analyzed, and a number of measures were noted in the direction of ensuring gender equality and expanding opportunities for women's involvement in such fields as employment, healthcare, education and social policy. In addition, achieving gender equality from the Sustainable Development Goals, empowering all women and girls, is analyzed. The limitations of the study are that it requires more extensive practical information. The practical significance of the research is that it can be used in solving the current problems in the economy of Azerbaijan and in the preparation of programs and future forecasts that will contribute to sustainable economic development, in the improvement of the mechanism of gender equality and the normative legal framework, in the research conducted by researchers on the topic of gender inequality, including in educational institutions.

***Keywords:*** *gender equality, gender inequality, equality of men and women, sustainable development, employment.*

## ВЛИЯНИЕ ГЕНДЕРНОГО РАВЕНСТВА НА УСТОЙЧИВОЕ РАЗВИТИЕ

***Наргизханым Бахишова[1], Сеяра Аманова[2]***
*[1,2]Старший преподаватель, Азербайджанский технический университет*
*[1]nergizxanim.bakhishova@aztu.edu.az, [2]seyyare.amanova@aztu.edu.az*

## Резюме
Основной целью исследования является предложение рекомендаций в направлении обеспечения гендерного равенства в современных условиях. Исследовательская работа выполнена на основе таких методов исследования, как сравнительный анализ и логическое обобщение. В исследовании систематизирована и комплексно исследована повестка дня в области устойчивого развития под названием «Преобразование нашего мира: повестка дня в области устойчивого развития до 2030 года», отчет Гендерной программы ФАО Всемирного банка

«Женщины, бизнес и право - 2022». В исследовании также проанализирована ситуация с численностью экономически активного населения и уровнем безработицы в Азербайджанской Республике. В результате исследования были проанализированы особенности и отмечен ряд мер в направлении обеспечения гендерного равенства и расширения возможностей участия женщин в таких сферах, как занятость, здравоохранение, образование и социальная политика. Кроме того, анализируется достижение гендерного равенства из Целей устойчивого развития, расширение прав и возможностей всех женщин и девочек. Ограничения исследования заключаются в том, что оно требует более обширной практической информации. Практическая значимость исследования заключается в том, что статья может быть использована при решении текущих проблем в экономике Азербайджана и при подготовке программ и прогнозов на будущее, которые будут способствовать устойчивому экономическому развитию, в совершенствовании механизма гендерного равенства и нормативно-правовой базы, в исследованиях проводимые исследователями темы гендерного неравенства, в том числе в образовательных учреждениях.

***Ключевые слова:*** *гендерное равенство, гендерное неравенство, равноправие мужчин и женщин, устойчивое развитие, занятость.*

## Giriş

Gender bərabərliyi gender mənsubiyyətindən və doğulduğu cinsdən asılı olmayaraq qadın və kişilərin imkanların və resursların əldə edilməsi üçün bərabər hüququnu təmin edən beynəlxalq normadır. Gender bərabərsizliyi genderə əsaslanan imkanların, resursların əldə olunması baxımından bərabərsizlik deməkdir və insan təhlükəsizliyi üçün təhdidlərdən biridir. Gender bərabərsizliyi dünyanın hər bir ölkəsində mövcuddur, çünki qadın və qızların gender rolları kişi və oğlanların gender rollarından daha az səlahiyyətlərə malikdir. Gender bərabərliyinə nail olmaq üçün dayanıqlı inkişaf proqramının məqsədləri qadınların və qızların, ümumilikdə qadın cinsinin bütün imtiyazların, təhsilin, səhiyyənin, iqtisadi resursların bərabər əldə olunmasının təmin edilməsi və onların ictimai həyatda qərarların qəbul edilməsində liderlik üçün siyasi həyatda və iqtisadi fəaliyyətdə iştirakı üçün bərabər imkanların formalaşdırılmasıdır. Məşğulluq, səhiyyə, təhsil və sosial siyasət kimi sahələrdə gender bərabərliyinin təmin edilməsi, qadınların cəlb edilməsi imkanlarının genişləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Bunlar qadınların iqtisadi və siyasi həyatına daha əhəmiyyətli töhfələr verməlidirlər.

Gender bərabərliyi istənilən sahədə aktual problemdir, çünki gender bərabərsizliyi planetimizin bütün ölkələrində mövcuddur. Gender bərabərsizliyi genderə əsaslanan

resursların, imkanların əldə olunması baxımından bərabərsizlik deməkdir və insanın təhlükəsizliyi üçün təhdidlərdən biridir. Gender bərabərsizliyi dünyanın hər bir ölkəsində mövcuddur, çünki qadın və qızların gender rolları kişi və oğlanların gender rollarından daha az səlahiyyətlərə malikdir.

Gender bərabərliyi problemi bu gün idarəetmə və eləcə də qərar qəbul edən məsələlərdə, maddi resurslara çıxış və iqtisadi həyatda, həmçinin iqtisadi ədalət, yəni mədəni və siyasi ədalət məsələlərində özünü göstərir [7].

Gender bərabərliyi gender mənsubiyyətindən və doğulduğu cinsdən asılı olmayaraq qadın və kişilərin imkanların və resursların əldə edilməsi üçün bərabər hüququnu təmin edən beynəlxalq normadır.

Gender bərabərliyi 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə uyğun olaraq, insan hüquqları üzrə beynəlxalq hüququnun tərkib hissəsinə çevrilmişdir. Bu müqavilədə bütün insanların azad və bərabər doğulduğunu və irqindən, dinindən asılı olmayaraq hər bir şəxsin orada göstərilən bütün hüquqlara malik olduğu qeyd edilir. Qadın hüquqları sahəsində ilk sənəd olan bu konvensiyanın maddələrində qadınlara qarşı ayrı-seçkiliyin tam tərifi verilmişdir.

Əsasən mənfəətin artırılmasına, o cümlədən xərclərin minimuma endirilməsinə yönəlmiş iqtisadiyyatın qlobal inkişafı cəmiyyətin və ətraf mühitin sosial inkişafının ciddi şəkildə deqradasiyasına gətirib çıxarmışdır. Bəşəriyyətin üzləşdiyi su qıtlığı, bərabərsizlik və aclıq kimi problemlərin əksəriyyəti yalnız qlobal səviyyədə və sosial tərəqqi, ekoloji tarazlıq və iqtisadi artıma söykənən dayanıqlı inkişafı təşviq etməklə həll edilə bilər. Ekoloji problemlər, əhali arasında sosial bərabərsizlik, qlobal istiləşmə, gender bərabərsizliyi planet əhalisinin üzləşdiyi dünya böhranlarının qlobal çağırışlarıdır ki, bu da dünya ölkələrini dünyaya baxışlarını yenidən nəzərdən keçirməyə və dayanıqlı inkişafın vacibliyini dərk etməyə məcbur edib.

## Əsas hissə

Dayanıqlı inkişaf insanların zəruri ehtiyaclarını gələcək nəsillərin ehtiyatlardan istifadə edə bilməsi və öz ehtiyaclarını ödəyə bilməsi üçün bu resurslara və ətraf mühitə zərər vermədən ödəməyə yönəlmiş tədbirlər məcmusudur.

2015-ci ildə BMT-yə üzv olan 193 ölkə Dayanıqlı İnkişaf Sammitində rəsmi olaraq "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" adlı dayanıqlı inkişaf gündəliyini qəbul etdi. Bu gündəliyə yoxsulluğa son qoymaq, planeti qorumaq və 2030-cu ilə qədər bütün insanların sülh və firavanlıq şəraitində yaşamasını təmin etmək üçün ümumi çağırış kimi 17 məqsəd daxildir. ***Bu gündəliyə əsasən yoxsulluğun, aclığın aradan qaldırılması, sağlamlıq və rifah, keyfiyyətli təhsil, təmiz su, sərfəli enerji, layiqli əmək və iqtisadi inkişaf, sanayeləşmə, innovasiya,***

***sülh, bərabərsizliyin azaldılması, iqlim dəyişikliyinə qarşı mübarizə, dəniz ekosistemlərinin qorunması, dayanıqlı inkişaf üçün tərəfdaşlığın qurulması, həmçinin gender bərabərliyi kimi global problemlərin həllinə yönəlmişdir.***

Bütün bu məqsədlər bir-biri ilə bağlıdır, yəni bir məqsədə nail olmaq başqa məqsədlərə çatmadan mümkün deyil. Dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi daha sabit iqtisadi inkişaf yoluna keçməyə, cəmiyyətdə nemətlərin daha ədalətli bölgüsü sistemini yaratmağa, gələcək nəsillər üçün riskləri əhəmiyyətli dərəcədə azaltmağa imkan verəcək.

Gender bərabərliyinə nail olmaq üçün dayanıqlı inkişaf proqramının məqsədləri qadınların və qızların, ümumilikdə qadın cinsinin bütün imtiyazların, təhsilin, səhiyyənin, iqtisadi resursların bərabər əldə olunmasının təmin edilməsi və onların ictimai həyatda qərarların qəbul edilməsində liderlik üçün siyasi həyatda və iqtisadi fəaliyyətdə iştirakı üçün bərabər imkanların formalaşdırılmasıdır. Bura ümumilikdə məşğulluq imkanları və rəhbər vəzifələr də daxildir. Digər bir məsələ kommunal xidmətlər, infrastruktur və sosial təhlükəsizlik şəbəkələri ilə təmin etməklə və milli şəraiti nəzərə alaraq ev və ailə işlərində ortaq məsuliyyət prinsipini təşviq etməklə ödənişsiz qulluq üzrə əməyi və ev təsərrüfatının aparılması üzrə işləri tanımaqdır. Həmçinin, qadınlara maliyyə xidmətlərinə, təbii sərvətlərə və mülkiyyət formalarına və miras qalmış əmlaka sahib olmaq və sərəncam vermək üçün bərabər hüquqları təmin etmək üçün milli qanunlarda islahatlar aparmaqdır.

Gender bərabərsizliyi insan kapitalının orta ehtiyatını azaldır ki, bu da iqtisadi göstəricilərə zərər verə bilər, çünki ixtisaslı qadınların sayının məhdudlaşdırılması istedadlı əmək resurslarına mənfi təsir göstərə bilər [6].

Kişilər və qadınlar arasında sosial və iqtisadi bərabərsizliklər ərzaq təhlükəsizliyini sarsıdır, iqtisadi və kənd təsərrüfatının inkişafına mane olur. Bunun səbəbi budur ki, kişilərlə müqayisədə qadınlar:

- az təhsillidir;
- fermer təsərrüfatlarında daha az baş mal-qara, əsasən xırdabuynuzlu mal-qara saxlayırlar;
- fermer təsərrüfatında çalışan qadınlar əsasən natamam iş qrafiki üzrə işləyirlər;
- bərabər iş təcrübəsi və ixtisasa uyğun eyni vəzifələri yerinə yetirmələrinə baxmayaraq, daha az əməkhaqqı alırlar.

Kişi və qadın əhalinin kənd təsərrüfatı resurslarının, iqtisadi faydaların və məşğulluq imkanlarının tam bərabərhüquqlu əldə olunmasının təmin edilməsi kənd təsərrüfatı istehsalının artmasına, ərzaq təhlükəsizliyinə və iqtisadi artıma töhfə verə bilər.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ərzaq təhlükəsizliyini təmin etmək, aclıq və qida çatışmazlığını aradan qaldırmaq, yoxsulluğun kökünü kəsmək,

təbii ehtiyatlardan səmərəli istifadədə davamlı idarəetməni təmin etmək məqsədilə gender bərabərliyinin tərəfdarıdır. Qadınlar və kişilər arasında olan bərabərsizlik kənd təsərrüfatının inkişafı üçün əsas maneələrdən biri olduğu üçün FAO-nun yuxarıda qeyd olunan problemlərin həlli üzrə strategiyalarının həyata keçirilməsində gender bərabərliyi əsas yer tutur [1].

FAO-nun 2020-2030-cu illər üçün strateji məqsədlərindən biri kənd yerlərində qadın və kişilərin resursların, xidmətlərin, qərar qəbul etmə və məşğulluq imkanlarının bərabər əldə olunmasını təşviq etməkdir [2]. FAO-nun Gender Proqramına əsasən qadınlar və kişilər kənd idarə və təşkilatlarında bərabər səsə və bərabər qərar qəbuletmə səlahiyyətinə, təbii ehtiyatların əldə olunması və onlara nəzarət etmək, həmçinin xidmətlərə, bazarlara, layiqli əməyə çıxışı üçün bərabər hüquqlara və əldə edilən gəlirlərə və səmərəyə bərabər nəzarətə malikdirlər. Nəticə etibarı ilə sadalanan bu məsələlər kənd təsərrüfatı sahəsində qanunvericilik bazasının və müvafiq siyasi tədbirlərin və proqramların işlənib hazırlanmasına, davamlı kənd təsərrüfatına və kənd yerlərinin inkişafına töhfə verəcək və faydalarından istifadə etməyə şərait yaradacaqdır. Qadın və kişilərin kənd təsərrüfatı resurslarının bərabər əldə olunmasının təmin edilməsi 100 - 150 milyon insanı aclıqdan xilas edə bilər [3].

Həm dünyada, həm də Azərbaycanda gender bərabərsizliyi probleminin həlli dayanıqlı inkişafın məqsədlərindən biridir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən kişilər və qadınlar bərabər hüquq və azadlıqlara malikdirlər və onlar qanun qarşısında bərabərdirlər.

***1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra ölkəmiz bir sıra Konvensiyalara qoşulmuşdur. Azərbyacan 1995-ci ildə BMT-nin “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvi”nə dair konvensiyaya daxil olmuşdur.***

Qeyd etmək lazımdır ki, Şərqdə ilk demokratik dövlət Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti qadınlara səsvermə, seçmək və seçilmək hüququ verməklə Azərbaycanda gender bərabərliyinin əsasını qoyan dünyada ilk dövlətlərdən biri olub.

Dünya Bankının “Qadınlar, Biznes və Qanun-2022” hesabatına əsasən təxminən 2,4 milyard qadın bərabər iqtisadi imkanlardan məhrumdur və 178 ölkədə hələ də tam iqtisadi fəaliyyətdə iştirakı üçün hüquqi maneələr mövcuddur. 86 ölkədə qadınlar hələ də iş məhdudiyyətləri ilə üzləşirlər, 95 ölkədə isə bərabər iş üçün bərabər əməkhaqqı təmin edilmir [4].

“Qadın, Biznes və Qanun - 2022” (*Women, Business and the Law 2022*) tədqiqatında 190 ölkədə səkkiz kompleks göstərici üzrə milli qanunların təsiri araşdırılmışdır: hərəkət azadlığına; məşğulluğa; əməkhaqqına; evliliyə; analığa; sahibkarlığa; miras qalanlar daxil olmaqla aktivlərin idarə edilməsinə (maliyyə və maddi); pensiya təminatına.

Cədvəl 1-də bəzi ölkələrdə gender bərabərliyinə nail olunmasını qiymətləndirmək üçün iqtisadi səviyyədə olan səkkiz göstərici üzrə məlumat verilmişdir və bunlara əsasən WBL (Qadınlar, Biznes və Qanun) indeksi tərtib edilmişdir.

**Cədvəl 1. 2022-ci ildə qadınların iqtisadi səviyyədə iştirakının səkkiz göstəricisi üzrə alınmış WBL indeksi**

| № | Ölkələr | Hərəkət azadlığı | Məşğulluq | Əmək-haqqı | Evlilik | Analıq | Sahib-karlıq | Aktivlərin idarə edilməsi | Pensiya təminatı | WBL-2022 indeksi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Almaniya | 100 | 100 | 100 | 100 | 80 | 100 | 100 | 100 | 97.5 |
| 2 | Avstraliya | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 75 | 96.9 |
| 3 | Avstriya | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 75 | 96.9 |
| 4 | Azərbaycan | 100 | 100 | 0 | 100 | 80 | 100 | 100 | 50 | 78.8 |
| 5 | Belçika | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100.0 |
| 6 | Braziliya | 100 | 100 | 75 | 100 | 80 | 75 | 100 | 50 | 85.0 |
| 7 | Çin | 100 | 100 | 25 | 100 | 80 | 75 | 100 | 25 | 75.6 |
| 8 | Danimarka | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100.0 |
| 9 | Əfqanıstan | 50 | 75 | 0 | 20 | 20 | 75 | 40 | 25 | 38.1 |
| 10 | Finlandiya | 100 | 100 | 100 | 100 | 80 | 100 | 100 | 100 | 97.5 |
| 11 | Fransa | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100.0 |
| 12 | Gürcüstan | 100 | 100 | 75 | 100 | 80 | 100 | 100 | 50 | 88.1 |
| 13 | İran | 0 | 0 | 50 | 0 | 60 | 75 | 40 | 25 | 31.3 |
| 14 | İraq | 25 | 100 | 50 | 0 | 20 | 75 | 40 | 50 | 45.0 |
| 15 | İrlandiya | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100.0 |
| 16 | İslandiya | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100.0 |
| 17 | İspaniya | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100.0 |
| 18 | İsrail | 100 | 100 | 50 | 60 | 60 | 100 | 100 | 75 | 80.6 |
| 19 | İsveçrə | 100 | 100 | 100 | 100 | 80 | 75 | 100 | 50 | 88.1 |
| 20 | İsveç | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100.0 |
| 21 | İtaliya | 100 | 100 | 100 | 80 | 100 | 100 | 100 | 100 | 97.5 |
| 22 | Kanada | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100.0 |
| 24 | Qətər | 25 | 0 | 50 | 20 | 0 | 75 | 40 | 25 | 29.4 |
| 25 | Latviya | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100.0 |
| 27 | Moldova | 100 | 75 | 100 | 100 | 100 | 100 | 100 | 25 | 87.5 |
| 31 | Rusiya | 100 | 50 | 50 | 80 | 80 | 75 | 100 | 50 | 73.1 |
| 32 | Sudan | 0 | 0 | 0 | 0 | 20 | 75 | 40 | 100 | 29.4 |
| 33 | Türkiyə | 100 | 100 | 75 | 80 | 80 | 75 | 100 | 50 | 82.5 |
| 34 | Yaponiya | 100 | 50 | 25 | 80 | 100 | 75 | 100 | 100 | 78.8 |
| 36 | Yunanıstan | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100.0 |

*Mənbə: [4], https://wbl.worldbank.org/en/reports*

Cədvəldən görünür ki, Belçika, Yunanıstan, Danimarka, Fransa, İrlandiya, İslandiya, İspaniya, İsveç, Kanada, Latviya, Lüksemburq və Portuqaliya kimi yalnız 12 inkişaf etmiş ölkə bu indeks üzrə 100 bal toplaya bilmişdir. Ən aşağı, 40-dan az bal isə Əfqanıstan, İran, Küveyt, Qətər, Oman, Sudan və Yəmən toplamışdır. Bu ölkələrdə qanunvericilik tərəfindən kişilərə qadınlardan daha çox hüquq verilir. Təhlil məlumatları onu göstərir ki, gender bərabərliyinin səviyyəsini artırmaq üçün qəbul edilən qanunlarda ciddi boşluqlar var.

Əgər söhbət hərəkət azadlığının məhdudlaşdırılması, qadınların işlə bağlı qərarlarına təsir edən qanunlar, nikahla bağlı məhdudiyyətlər, qadınların biznesə başlamasına və idarə etməsinə qoyulan məhdudiyyətlər, o cümlədən əmlak və vərəsəlikdə gender fərqlərindən gedirsə, Azərbaycan yüksək – 78,8 bal toplamışdır. Bununla belə, qadınların əməkhaqqı, doğuşdan sonrakı məşğulluq və pensiya ilə bağlı qanunlara gəldikdə isə, Azərbaycan qadınların hüquqi bərabərliyini yaxşılaşdırmaq üçün islahatları nəzərdən keçirə bilərdi. Məsələn, əməkhaqqı səviyyəsini yaxşılaşdırmaq üçün qadınlara kişilər kimi işləməyə icazə verilməlidir:

- gecə vaxtı,
- təhlükəli işlərdə,
- sənaye müəssisələrində.

Son onilliklərdə ölkədə qəbul edilən bütün qloballaşma və modernləşmə qərarlarına baxmayaraq, əhalinin bütün təbəqələrində qadına ailənin qoruyucusu, kişiyə isə çörəkpulu qazanan kimi baxılması, şübhəsiz ki, üstünlük təşkil edir.

Hər bir ölkənin iqtisadi inkişafının ən mühüm aspekti əhalinin məşğulluğu məsələsidir. Bütün dünya dövlətlərinin hökumətləri, o cümlədən Azərbaycan hökuməti əhalinin gəlirlərini təmin etmək üçün daim işsizliklə mübarizə aparmalıdır. Azərbaycanın əmək bazarı üçün ən kəskin problemlərdən biri məşğulluq statusu problemidir.

Azərbaycan Respublikasında iqtisadi fəal əhalinin sayını və işsizlik səviyyəsini təhlil etmək üçün Dövlət Statistika Komitəsinin məlumatlarından istifadə edilmişdir (cədvəl 2).

**Cədvəl 2. Azərbaycan Respublikasında cinsə görə məşğulluq və işsizlik, min nəfər**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| İqtisadi fəal əhali | 5073,8 | 5133,1 | 5190,1 | 5252,5 | 5303,9 |
| qadınlar | 2464,8 | 2495,7 | 2526,0 | 2567,5 | 2590,2 |
| kişilər | 2609,0 | 2637,4 | 2664,1 | 2685,0 | 2713,7 |
| Məşğul əhali | 4822,1 | 4879,3 | 4938,5 | 4876,6 | 4988,2 |
| qadınlar | 2319,3 | 2349,9 | 2381,7 | 2351,5 | 2408,1 |
| kişilər | 2502,8 | 2529,4 | 2556,8 | 2525,1 | 2580,1 |
| İşsizlər | 251,7 | 253,8 | 251,6 | 375,9 | 315,7 |
| qadınlar | 145,5 | 145,8 | 144,3 | 216,0 | 182,1 |
| kişilər | 106,2 | 108,0 | 107,3 | 159,9 | 133,6 |

***Mənbə:*** *[5], www.azstat.gov.az*

Cədvəldən göründüyü kimi, 2020-ci ildə koronavirus pandemiyası ilə əlaqədar məşğul əhalinin sayı 2019-cu illə müqayisədə 61,9 min nəfər azalmış, 2021-ci ildə isə yenidən 111,6 min nəfər artmışdır, onlardan qadınlar 56,6 min nəfər, kişilər isə 55,0 min nəfər olmuşdur. 2021-ci ildə ümumi məşğul əhalinin 48,3%-ni qadınlar, 51,7%-ni isə kişilər təşkil etmişdir.

2020-ci ildə işsizlərin sayı 2019-cu illə müqayisədə 124,3 min nəfər artmış, 2021-ci ildə isə 60,2 min nəfər azalmış, onlardan qadınlar 33,9 min, kişilər isə 26,3 min nəfər olmuşdur. 2021-ci ildə qadınların işsizlik səviyyəsi ümumi işsizlərin 57,7%-ni, kişilər üçün isə 42,3%-ni təşkil etmişdir.

Ümumiyyətlə, ölkədə gender bərabərsizliyini təhlil etmək üçün 2021-ci ildə muzdlu işçilərin iqtisadi fəaliyyət növləri üzrə cins bölgüsü şəkilinə nəzər salaq.

**Şəkil 1. 2021-ci ildə muzdlu işçilərin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü, faizlə**




***Mənbə:*** *[5], www.azstat.gov.az*

Ölkədə gender bərabərsizliyini aradan qaldırmaq məqsədi ilə qadın sahibkarlığına kifayət qədər dəstək göstərilməsinə baxmayaraq, Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2021-ci il üçün qadın sahibkarlar kişilərdən demək olar ki

4 dəfə azdır, yəni fərdi sahibkarlıqla 836 679 nəfər kişi, 225 858 nəfər qadın məşğul olmuşdur. Aparılan təhlil onu deməyə əsas verir ki, qadınların iqtisadi fəallıq səviyyəsi aşağı səviyyədədir.

**Nəticə**

Ölkəmizdə gender bərabərliyi məsələsinə həssas yanaşılır. Bu, Konstitusiyamızda da öz əksini tapmışdır. Gender bərabərliyi insan hüquqlarının tam şəkildə təmin edilməsi üçün zəruri şərtdir. Bu gün dünyada elə bir məsələ yoxdur ki, orada gender komponenti olmasın. Hətta qəbul olunmuş bütün sənədlərdə, qətnamələrdə, konvensiyalarda bu məsələ xüsusi qeyd olunur. Yuxarıda qeyd olunan Dayanıqlı İnkişaf Məqsədləri arasında 5-ci məqsəd 2030-cu ilə qədər gender bərabərliyinə nail olmaq, bütün qadın və qızların səlahiyyətlərini gücləndirməkdir. Amma bununla yanaşı, bütün digər məqsədlərdə də gender faktoruna xüsusi diqqət yetirildiyini söyləmək olar. Məşğulluq, səhiyyə, təhsil və sosial siyasət kimi sahələrdə gender bərabərliyinin təmin edilməsi, qadınların cəlb edilməsi imkanlarının genişləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın müsəlman aləmində qadınlara səsvermə hüququ verən ilk dövlət olması faktı da unudulmamalıdır. Azərbaycan gender bərabərliyinin təmin edilməsi yolunu seçib və bu gün də qadınların hüquqlarını müdafiə etməkdə davam edir. Azərbaycan qadınlarının yaradıcılıq, biznes, sahibkarlıq və digər fəaliyyətlərdə böyük imkanları var. Bu imkanlardan daha səmərəli istifadə edilməli, qadınlarımız ölkənin iqtisadi və siyasi həyatına daha əhəmiyyətli töhfələr verməlidirlər.

Təəssüf ki, dünyada hələ də bu sahədə çatışmazlıqlar var. Ölkəmizdə aparılan sosial islahatlar qadınların cəmiyyətdəki rolunun yüksəldilməsinə xidmət edir. Ümummilli lider Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə istər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycan qadınlarının problemlərinin həllinə böyük diqqət yetirmiş, onların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatına daxil edilməsinə dəstək vermişdir. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Vurğulanıb ki, ölkəmizdə insan hüquq və azadlıqlarının tərkib hissəsi kimi gender bərabərliyinin təmin edilməsi Azərbaycan dövlətinin siyasətinin prioritet istiqamətlərindən biridir.

Apardığımız təhlilin nəticəsi onu göstərir ki, ölkədə qadınların özəl və dövlət sektorda bərabər iştirakını dəstəkləyən şərait mövcuddur. Ölkənin qanunvericiliyi sahəsində qadın və kişilərin iqtisadi resurslara eyni səviyyədə təmini güclü hüquqi bazaya malikdir. Bununla yanaşı, "qadinlara qarşi ayri-seçkiliyinə" dair konvensiyalara daxil olan, həmçinin də qadınların hüquqlarını müdafiə edən ölkəmiz beynəlxalq müqavilələr imzalayıb. Lakin qadınların kişilərlə bərabər səviyyədə olmasının qarşısını alan

amillər də mövcuddur. Bu amillərə ailədən gələn məhdudiyyətlər, erkən yaşlarda evlilik, qadınlara yönəlmiş məişət zorakılığı, iş mühitində cinsi ayrı-seçkiliyi qeyd etmək olar. Gələcək illərdə bu məsələlərin qarşısının alınması üzrə tədbirlərin görülməsi genişlənməlidir.

Qadınların kişilərlə bərabər səviyyədə hüquqlarından səmərəli istifadəsini və gender bərabərliyini təmin etmək məqsədi ilə müvafiq siyasi sənədləri qəbul edərək normativ hüquqi bazanı gücləndirilməsi və təkmilləşdirilməsi məqsədəuyğundur.

Gender bərabərliyi mədəniyyətinin formalaşması üzrə tədbirlər görülməlidir. Bunun üçün təhsil sahəsində və siyasi fəaliyyətdə əhalinin gender stereotiplərini dəyişdirmək üçün müxtəlif maarifləndirmə tədbirləri, qadınların peşə və ixtisas hazırlığının artırılması və bu sahədə qızların təhsildən qalmamsı məqsədi ilə monitorinqlərin gücləndirilməsi tədbirləri həyata keçirməlidir.

Növbəti atılacaq addımlardan biri də əmək bazarında gender bərabərsizliyini aradan qaldırmaqdır. Bu səbəbdən, qadın məşğulluğunun artırılması və məişət zorakılığı probleminin aradan qaldırması məqsədi ilə qadınlar üçün dövlət yardım mərkəzləri, sığınacaqlar, qaynar xətt kimi müvafiq infrastrukturlar yaranmalı, idarəetmə sistemində qadınların sayının artırılması, işəgötürənlərin gender fərqlərinin aradan qaldırılması problemlərinə həssaslığının artırılmasında müəssisələrdə həmkarlar ittifaqlarının fəallığının artırılması və fəaliyyətinin genişləndirilməsi üzrə tədbirləri həyata keçirmək zəruridir.

Gender bərabərsizliyi mənəvi və sosial problem olması ilə yanaşı, həmçinin də böyük iqtisadi problemdir. Bütün global aləmin əmək qabiliyyətli əhalisinin yarısını təşkil edən qadınların əmək bazarında iştirak etməsi məhsuldarlığın və sərvətin artmasına və nəticə etibarı ilə investisiya fəalliyyətinin fəallığını artıraraq ÜDM-in artmasına gətirib çıxaracaq. Nəticə olaraq, qadınların siyasətdə iştirakı və təhsil almasında bərabər hüquqları və gender bərabərliyi ölkələrin rifahına töhfə verəcək.

**Ədəbiyyat**


1. FAO. 2019. Regional Gender Equality and Action Plan for Europe and Central Asia 2019–2022
2. FAO. 2020. FAO-nun Gender Bərabərliyi Siyasəti 2020-2030, Roma.
3. https://www.fao.org/3/am859r/am859r10.pdf
4. https://wbl.worldbank.org/en/reports
5. www.azstat.gov.az
6. The impact of Gender inequality on Economic Growth. Available from: https://www.researchgate.net/publication/281208493_The_impact_of_Gender_inequality_on_Economic_Growth
7. The principle of gender equality and the fundamental rights and guarantees of participation of women in union organizations in brazil https://www.researchgate.net/publication/316706180_THE_PRINCIPLE_OF_GENDER_EQUALITY_AND_THE_FUNDAMENTAL_RIGHTS_AND_GUARANTEES_OF_PARTICIPATION_OF_WOMEN_IN_UNION_ORGANIZATIONS_IN_BRAZIL

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, oktyabr - dekabr, 2023, səh. 50 - 62
Scientific Reviews in UNEC, Year 11, Volume 11, October - December, 2023, pp. 50 - 62

# PANDEMİYA BÖHRANI VƏ ENERJİ QİYMƏTLƏRİNİN DƏYİŞMƏSİNİN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ

*Daxil olub: 11 sentyabr 2023-cü il*
*Qəbul olunub: 27 oktyabr 2023-cü il*
*Received: 11 September 2023*
*Accepted: 27 October 2023*

***Nuriyyə Kərimova***
*müəllim, doktorant, UNEC*
*nuriyya.karimova@hotmail.com*

## Xülasə

Bu tədqiqatın məqsədi pandemiya böhranı və neftin qiymətində baş verən dəyişikliklərin Azərbaycanın iqtisadi və sosial inkişafına (iqtisadi artıma və əhali gəlirlərinə, inflyasiyaya, işsizliyə, yoxsulluğa) təsirini təhlil edib qiymətləndirməkdir. Tədqiqat deduksiya, empirik təhlil, müqayisəli statistik analiz və məntiqi ümumiləşdirmə metodları kimi araşdırma üsulları əsasında aparılmışdır. Bu istiqamət üzrə aparılan işlərin əksəriyyətində pandemiya böhranının, eləcə də dünya bazarında enerji qiymətlərinin artmasının əhatə dairəsinin, sahələrə və qiymətlərə təsirinin ölçülməsində, antiböhran tədbirlərinin səmərəliliyinin, ölkədaxili və ölkəxarici amillərin tənzimləmə siyasətinə təsirinin qiymətləndirilməsində yaranan çətinliklər tədqiqatı məhdudlaşdıran cəhət hesab edilə bilər. Tədqiqat nəticəsində pandemiya böhranının, Rusiya-Ukrayna müharibəsi nəticəsində dünya bazarında enerji qiymətlərinin (neftin və qazın) yüksəlməsinin dünya və Azərbaycan iqtisadiyyatına təsirləri, böhranların yaratdığı şokların (iqtisadi artımda, gəlirlərdə, inflyasiyada, işsizlik və qiymətlərdə) iqtisadi artım tempinə və əhalinin rifahına təsiri qiymətləndirilmiş, həyata keçirilən antiböhran tədbirlərinin əhəmiyyəti əsaslandırılmışdır. Tədqiqat elmi-praktiki əhəmiyyətə malikdir və onun nəticələrindən baş verə biləcək buna bənzər böhranların ölkədə sosial-iqtisadi inkişafa mənfi təsirinin minimallaşdırılması ilə bağlı siyasət tədbirlərində istifadə oluna bilər. Tədqiqatın elmi yeniliyi və orijinallığı ondan ibarətdir ki, bu pandemiya böhranı və enerji qiymətlərinin yüksəlməsinin Azərbaycan iqtisadiyyatına, o cümlədən makroiqtisadi sabitliyin pozulmasına, əhalinin gəlirlərinə, yoxsulluğa, inflyasiyaya və işsizliyə birbaşa və dolayı təsiri qiymətləndirilmişdir.

***Açar sözlər:*** *iqtisadi artım, əhali gəlirləri, iqtisadi böhran, iqtisadi amillər, dünya bazarı.*

# THE INFLUENCE OF THE PANDEMIC CRISIS AND CHANGES IN ENERGY PRICES ON THE AZERBAIJAN ECONOMY

***Nuriyya Karimova***
*lecturer, PhD student, UNEC*
*nuriyya.karimova@hotmail.com*

**Abstract**
The purpose of this study is to analyze and evaluate the impact of the pandemic crisis and changes in oil prices on the economic and social development of Azerbaijan (economic growth and population income, inflation, unemployment, poverty). The study was carried out on the basis of such research methods as deduction, empirical analysis, comparative statistical analysis and methods of logical generalization. In most of the works carried out in this direction, the difficulties arising in measuring the scope of the pandemic crisis, as well as the increase in energy prices on the world market, the impact on industries and prices, the effectiveness of anti-crisis measures, and the impact of domestic and foreign factors on regulatory policy can be considered as limitation. As a result of the study, the effects of the pandemic crisis, the rise in energy prices (oil and gas) in the world market as a result of the Russia-Ukraine war on the world and Azerbaijan economy, the impact of the shocks caused by the crises (in economic growth, incomes, inflation, unemployment and prices) on the economic growth rate and the well-being of the population were evaluated. the importance of the implemented anti-crisis measures is justified. The research is of practical importance and its results can be used in policy measures to minimize the negative impact of possible similar crises on socio-economic development in the country. The scientific novelty and originality of the study is that the direct and indirect impact of this pandemic crisis and rising energy prices on the Azerbaijani economy, including macroeconomic destabilization, population income, poverty, inflation and unemployment, was assessed.

***Keywords:*** *economic growth, population income, economic crisis, economic factors, world market.*

## ВЛИЯНИЕ ПАНДЕМИЧЕСКОГО КРИЗИСА И ИЗМЕНЕНИЯ ЦЕН НА ЭНЕРГОНОСИТЕЛИ НА ЭКОНОМИКУ АЗЕРБАЙДЖАНА

***Нурия Керимова***
*преподаватель, докторант, UNEC*
*nuriyya.karimova@hotmail.com*

**Резюме**
Целью настоящего исследования является анализ и оценка влияния пандемического кризиса и изменения цен на нефть на экономическое и социальное развитие Азербайджана (экономический рост и доходы населения, инфляция, безработица, бедность). Исследование проводилось с применением методов дедукции, эмпирического анализа, сравнительно-статистического анализа и логического обобщения. В большинстве работ, проводимых в этом направлении, отмечаются трудности, возникающие при измерении масштабов пандемического кризиса, а

также масштабов роста цен на энергоносители на мировом рынке, влияния на отрасли и цены, эффективности антикризисных мер, а также влияния внутренних и внешних факторов на политику регулирования, что можно рассматривать как фактор, ограничивающий значение таких исследований. В результате исследования изучено влияние пандемического кризиса, роста цен на энергоносители (нефть и газ) на мировом рынке в результате российско-украинской войны на мировую и азербайджанскую экономику, дана оценка влияния шоков, вызванных кризисами (экономический рост, доходы, инфляция, безработица и цены) на темпы экономического роста и благосостояние населения, обоснована важность реализуемых антикризисных мер. Исследование имеет научно-практическое значение, его результаты могут быть использованы в политических мерах, направленных на минимизацию негативного влияния возможных аналогичных кризисов на социально-экономическое развитие страны. Научная новизна и оригинальность настоящего исследования заключается в том, что в нем оценено прямое и косвенное влияние этого пандемического кризиса и роста цен на энергоносители на экономику Азербайджана, в том числе на нарушение макроэкономической стабильности, доходы населения, бедность, инфляцию и безработицу.

***Ключевые слова:*** *экономический рост, доходы населения, экономический кризис, экономические факторы, мировой рынок.*

## Problemin qoyuluşu

Bu günə qədər iqtisadi artım, əhali gəlirləri, qiymətlər, məşğulluq, inflyasiya, bunlar arasında qarşılıqlı əlaqə, dövlətin iqtisadiyyata müdaxiləsi ilə bağlı çoxsaylı nəzəri və təcrübi tədqiqatlar aparılmış, bir-birini inkar edən və ya təsdiqləyən elmi nəzəri və praktiki mülahizələr irəli sürülmüşdür.

Bu istiqamətdə aparılan çoxsaylı tədqiqatlarda, cəmiyyət üzvlərinin iqtisadi və sosial davranışlarına, iqtisadi sistemə, iqtisadi inkişafa, iqtisadi artıma, əhali gəlirlərinə, məşğulluğa, qiymətlərə çoxsaylı birbaşa və dolayı amillərin təsiri əsaslandırılır. Lakin bir çox hallarda qiymətləndirmədə bütün ekzogen və endogen amillərin nəzərə alınması (xüsusilə baş verə biləcək böhranların səbəbləri və təsirləri) mümkün olmur. Xüsusilə böhranların öncədən proqnozlaşdırıla bilməməsi ölkələrin iqtisadiyyatına və əhalinin rifahına ciddi təhdid kimi qiymətləndirilir.

Təbii ki, zamandan, məkandan, siyasi sistemdən asılı olaraq, bir çox hallarda müəyyən tənzimləmələr həyata keçirməklə iqtisadi artım və gəlir bərabərsizliyinin azaldılmasına, böhranların təsirlərinin minimallaşdırılmasına nail olmaq mümkündür. Bu baxımdan, böhranların və onun aradan qaldırılması ilə bağlı tənzimləmə tədbirlərinin tədqiq edilməsi mühüm əhəmiyyət kəsb edir.

Tədqiq olunan problemlə bağlı dünyanın tanınmış iqtisadçı alimləri A.Smit [18], T.Maltus [10], D.Rikardo [14], K.Marks [11], S.Kuznes [7], J.Şumpeter [17], J.E.Stiqlis [20], P.M.Romer [15] kimi dünya şöhrətli alimlər fundamental araşdırmalar aparmış və ciddi elmi nəticələr eldə etmişlər. Müasir dövrdə də dövlət tənzimlənməsi, iqtisadi artım, gəlirlər, inflyasiya, işsizlik, məşğulluq, qiymətlər, bərabərsizlik və s. bu kimi problemlər ciddi tədqiqat mövzusu olaraq araşdırılmaqdadır. Çünki bunların qarşılıqlı əlaqəsi ölkələrin inkişaf səviyyəsindən asılı olaraq dəyişir. Qeyd edək ki, Azərbaycan iqtisadçı alimləri də - Z.Səmədzadə [18], Ş.Muradov[13], N.Hacıyev, Ə.Muradov, Y.Həsənli və b. [4], Ə.P.Babayev [2], Ş.Qafarov [8], Meybullayev [12] - həm sovetlər dövründə, həm də müstəqillik dövründə iqtisadi artım və ona təsir edən amillər, əhali gəlirləri, inflyasiya, işsizlik, məşğulluq və s. problemlərin həlli istiqamətində tədqiqatlar aparmışlar. Bu tədqiqatlarda iqtisadi artım, makroiqtisadi siyasət, sosial siyasət, həyat səviyyəsi, sosial müdafiə, əhali gəlirləri ilə bağlı qiymətləndirmələr aparılmışdır. Son illərdə isə dünyada baş verən iqtisadi böhranlar da dünya və Azərbaycan tədqiqatçıları tərəfindən araşdırılmaqdadır. Xüsusilə XXI əsrdə baş verən qlobal böhranlar qlobal maliyyə böhranı, pandemiya böhranı, enerji qiymətlərinin yüksəlməsi və s. Ölkələrin iqtisadiyyatına ciddi təsir göstərmişdir. Pandemiya böhranını və dünya bazarında enerji qiymətlərinin yüksəlməsinin Azərbaycan iqtisadiyyatına, eləcə də bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına təsirinin araşdırılması xüsusi aktuallıq kəsb edir. Çünki pandemiyanın yaratdığı iqtisadi və sosial fəsadlar bu günə qədər baş verən böhranlardan əsaslı şəkildə fərqlənir. Son illərdə bununla bağlı daha çox araşdırmalar aparılır.

**Pandemiyanın sosial-iqtisadi təsirləri**

Ümumiyyətlə nəzəri yanaşmalara görə iqtisadi artım və insanların rifahı arasında qarşılıqlı asılılıq mövcuddur. Əlbəttə ki, iqtisadi artımın strukturunun dəyişməsi davamlı bir prosesdir və bu prosesə yeni texnologiyaların tətbiqi, insan resurslarının bilik və bacarıqları daha güclü təsir göstərir. Qlobal miqyasda texnika və texnologiya inkişaf etdikcə, ölkələrarası inteqrasiya və ticari əlaqələr gücləndikcə iqtisadi artımın strukturu da dəyişir. Əgər 100-150 il öncə iqtisadi artımda kənd təsərrüfatı əsas yer tuturdusa, hazırda sənaye və xidmət sektoru üstünlük təşkil edir. Bu da qlobal miqyasda iqtisadi artım və gəlirlərin strukturuna təsir göstərir. Sənayenin, xidmət sektorunun inkişafı, dördüncü sənaye inqilabı və rəqəmsallaşma, süni intellekt, internetin sürətlə yayılması ölkələrarası inteqrasiyanın sürətlənməsi qlobal miqyasda və ölkələr səviyyəsində iqtisadiyyatının strukturunun daha sürətlə dəyişməsinə təsir göstərir. Lakin qlobal inteqrasiyanın dərinləşməsi böhranların əhatə dairəsinin genişlənməsinə səbəb olur.

İqtisadi ədəbiyyatdan bilirik ki, XX əsrdə və XXI əsrin 23 ili ərzində dünya iqtisadiyyatında iqtisadi və qeyri-iqtisadi xarakterli bir sıra qlobal (regional) böhranlar olmuşdur.

Yalnız XXI əsrin keçən dövründə 2007-2009-cu illərin qlobal maliyyə böhranı, neftin qiymətindəki kəskin eniş və yüksəlişlərin yaratdığı iqtisadi gərginlik, 2020-ci ildə dünyanı bürüyən Covid-19 pandemiyası (böhranın səbəbi qeyri-iqtisadi olsa da, ciddi iqtisadi və sosial fəsad yaratmışdır), 2022-ci ildə başlayan Rusiya-Ukrayna (NATO) müharibəsi maliyyə, istehsal və xidmətlər sektorunda, sosial müdafiə sistemində ciddi problemlər yaratmışdır. Bu da son nəticədə ölkələrdə real gəlirlərin azalmasına, işsizliyin artmasına, inflyasiyanın yüksəlməsinə, sosial problemlərin dərinləşməsinə, gəlir bərabərsizliyinin artmasına təsir göstərmişdir. Xüsusilə bu gün də davam edən, nə zaman bitəcəyi qeyri-müəyyən olan Rusiya - Ukrayna münaqişəsi bir çox sahələrdə ciddi problemlər yaratmaqdadır. Belə ki, Avropada yaşanan enerji böhranı, eyni zamanda dünyanın iki qütbə bölünməsi (Rusiya və Ukrayna tərəfdarları) ilə nəticələnən siyasi və hərbi gərginlik bütün dünya ölkələrinin iqtisadiyyatına və insanların həyat səviyyəsinə bu və ya digər dərəcədə ciddi təhdidlər yaradır. Son iki hadisə (COVİD-19 və Rusiya-Ukrayna münaqişəsi) dünya iqtisadiyyatında artım tempinin aşağı düşməsinə təsir göstərmişdir. Dünya Bankının prezidenti (D.Malpass) bildirib ki, *“Ukraynadakı müharibə, Çindəki karantin rejimi, tədarük zəncirlərindəki fasilələr, eləcə də staqflyasiya (inflyasiya və işsizliyin eyni anda olması) riski iqtisadi artımı ləngidir. Belə bir şəraitdə tənəzzülün qarşısını almaq bir çox ölkələr üçün çətin olacaqdır*” [9]. Hesab edirik ki, bütünlükdə dünya iqtisadiyyatında baş verən sürətli inteqrasiya şəraitində böhranlardan yayınmaq mümkün olmayacaqdır. Böhranların isə yaranmasında dinamiklik müşahidə olunacaqdır. Çünki qeyd etdiyimiz kimi, ölkələrin qlobal iqtisadiyyata inteqrasiyası, enerjinin qiymətinin yüksəlməsi, ekoloji problemlər (təbii fəlakətlər), texnoloji inkişaf və s. böhranların baş verməsi üçün əsas yaradır. Əgər Rusiya – Ukrayna münaqişəsindən əvvəl dünya iqtisadçılarının və siyasətçilərinin diqqəti pandemiyanın yaratdığı iqtisadi fəsadların aradan qaldırılmasına yönəlmişdisə, bu gün enerji təhlükəsizliyi ilə bağlı problemlərin həllinə hədəflənmişlər. Çünki enerji problemi ölkə iqtisadiyyatında ciddi fəsadlar yarada bilər. Eyni zamanda ərzaq təhlükəsizliyi problemi də diqqətdə saxlanılır. Belə ki, dünyaya taxıl, günəbaxan, qarğıdalı ixracında üstün yer alan Rusiya və Ukrayna arasındakı münaqişə qlobal ərzaq qıtlığı təhlükəsi riski yaradır. Burada ölkələrin həyata keçirdikləri tənzimləyici siyasətlər (istehsalın stimullaşdırılması və ticarət məhdudiyyətlərinin aradan qaldırılması, inflyasiyanın qarşısının alınması və s.) baş verən və baş verəcək böhranların təsirini qismən azalda bilər.

Hələ 2020-ci ilin ortalarında (pandemiyanın sürətlə yayıldığı dövrdə) BMT-nin yayımladığı “Dünyanın İqtisadi Vəziyyəti və Perspektivləri (WESP)” hesabatında *pandemiyanın yalnız 2020-ci ildə 34 milyondan çox insanı həddindən artıq yoxsulluğa sövq edəcəyi, dünya iqtisadiyyatının isə ciddi rəqəmlərlə kiçiləcəyi qeyd olunurdu* [3]. Onu da qeyd edək ki, Dünya Bankının, BƏT-in (Beynəlxalq Əmək Təşkilatı) və digər beynəlxalq qurumların hesablamalarına görə, 2020-ci ildə demək olar ki, bütün dünya

ölkələrində də tətbiq edilən sərt və yumşaq məhdudiyyətlər, iş yerlərinin bağlanması nəticəsində dünya iqtisadiyyatı təxminən 6-9 trilyon ABŞ dolları həcmində zərərə uğramışdır. Hətta 2020-ci il böhranı 1930-cu illərdəki "Böyük Depressiya"dan sonra baş verən böhranların ən dərini hesab olunur. Əvvəlki böhranlardan fərqli olaraq, pandemiyanın yayılmasının qarşısını almaq üçün görülən tədbirlər (ölkələrarası sərhədlərin bağlaması, insanların ölkələrarası hərəkətinə və ölkə daxili hərəkətinə, istehsal və xidmət sektorlarının fəaliyyətinə tətbiq edilən məhdudiyyətlər və s.) dünya ölkələrinin təqribən 80%-də ÜDM-in azalmasına təsir göstərdi. Bu böhran nəticəsində dünya ölkələrinin təqribən 90%-nin tədarük zəncirlərində pozulma, investisiyanın beynəlxalq hərəkətində yavaşıma oldu. Ümumilikdə 2020-ci ildə dünyada ÜDM istehsalı 3,4% azalaraq 84.5 trilyon (azalma təqribən 2.9 trilyon) ABŞ dollarına düşdü. Lakin elektron ticarətdə, elektron xidmətlərdə ciddi artım baş verdi. 2021-ci ildə tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılması nəticəsində qlobal iqtisadiyyatda aktivlik artdı və dünya ÜDM-i 92,3 trilyon ABŞ dollarına (2020-ci illə müqayisədə təqribən 9% artım) çatdı.

Qeyd edək ki, dünya iqtisadiyyatının durumu və perspektivləri, dünya əhalisinin rifahı ilə bağlı bir sıra beynəlxalq təşkilatlar tərəfindən tədqiqatlar, qiymətləndirmələr aparılır. Onlardan biri də Beynəlxalq Valyuta Fondudur. BVF 2022-ci ildə 2021-ci ilin sabit qiymətləri əsasında inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün 2027-ci ilin iqtisadi artım proqnozunu təqdim etmişdir. Bu proqnoza görə 2022-2027-ci illərdə dünya ölkələrində davamlı artım olacağı ehtimal edilirdi. Lakin dünyada yaşanan siyasi gərginliklər və müharibələr bu proqnozların reallaşma imkanlarını azaldır.

Pandemiya dövründə dünyanın əksər ölkələrinin iqtisadi artımında mənfi tendensiya müşahidə edildi (Qrafik 1).

**Qrafik 1. İnkişaf etmiş ölkələrdə iqtisadi artım tempi (2020 və 2021-ci illər)**




*Mənbə: International Monetary Fund, World Economic Outlook Database, April 2022*

2019-cu illə müqayisədə 2020-ci ildə Böyük Britaniyada ÜDM istehsalı 9,3%, Portuqaliyada 8,4%, Fransada 8%, Almaniyada 4,6% azalmışdır. İspaniya, İsveç və İsveçrədə iqtisadi artım olmuşdur. Fikrimizcə, İsveçrə, İsveç və İspaniyada artımın əsas səbəbi pandemiyanın kəskin vüsət aldığı dövrdə sərt məhdudiyyətlər tətbiq etməməsidir. 2021-ci ildə isə ən çox artım 7,4% olmaqla Böyük Britaniyada (7,4%) və Fransada (7%) olmuşdur.

Qlobal pandemiya böhranı bütün ölkələrdə olduğu kimi, Azərbaycan iqtisadiyyatına da ciddi mənfi təsir göstərdi. Böhran nəticəsində 2019-cu illə müqayisədə 2020-ci ildə Azərbaycan iqtisadiyyatı 4,3% kiçildi [6]. 2021-ci ildə pandemiya ilə əlaqədar olaraq məhdudiyyətlərin tam və ya qismən aradan qaldırılması nəticəsində ölkədə yenidən iqtisadi fəallıq yüksəldi, iqtisadi artım 5,6%-ə yüksəldi. Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2022-ci ildə isə artım tempi əvvəlki illə müqayisədə zəifləsə də, ümumən 4,6% iqtisadi artım qeydə alındı (Qrafik 2). Bu da BVF-in proqnozlarından 1,8 faiz bəndi çoxdur. Bu artımın böyük hissəsi qeyri-neft sektorunun payına düşür. Hesab edirik ki, bu artıma Qarabağda həyata keçirilən quruculuq-bərpa işləri də təsir göstərmişdir.

**Qrafik 2. Azərbaycanda iqtisadi artımın proqnozu (BVF-in hesablamaları)**




***Qeyd.*** *2022-ci il üzrə təqdim olunan iqtisadi artım DSK-nın faktiki rəqəmidir.*

Qeyd edək ki, "COVİD-19" bəzi inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına daha ciddi təsir göstərmişdir. Gürcüstan iqtisadiyyatında turizmin böyük paya malik olması səbəbindən ölkələrarası məhdudiyyətlər bu ölkənin iqtisadiyyatına daha çox zərər vurmuşdur. Yalnız Çin Xalq Respublikasında (2,2%), Tacikistanda (4,4%), Türkiyədə (1,8%) və Özbəkistanda (1,6%) iqtisadi artım qeydə alınmışdır. "COVİD-19" pandemiyası ilə bağlı məhdudiyyətlərin azaldıldığı 2021-ci ildə isə demək olar ki, bütün ölkələrdə iqtisadi artım qeydə alınmışdır. Belə ki, 2020-ci illə müqayisədə 2021-ci ildə inkişaf etməkdə olan ölkələr arasında ən yüksək iqtisadi artımın Moldovada - 13%, Türkiyədə - 11%, Gürcüstanda - 10,4%, Hindistanda - 8,9%, Çində - 8% olduğunu, ən

zəif artımın isə Qətərdə (1,5%), BƏƏ-də (2,3%) və Belarusda (2,3%) olduğunu görmək olar (Qrafik 3).

Qrafikdən göründüyü kimi, inkişaf etməkdə olan ölkələrdə 2019-cu illə müqayisədə 2020-ci ildə iqtisadi geriləmə olmuşdur. Ümumiyyətlə, hansı sahədə olmasından asılı olmayaraq, cəmiyyətdə baş verən böhranlar ciddi sosial və iqtisadi fəsadların (inflyasiya, işsizlik, yoxsulluq, aclıq və s.) meydana çıxmasına səbəb olur. Pandemiya böhranının ardınca Rusiya - Ukrayna münaqişəsinin başlanması, bu münaqişə nəticəsində yaranan enerji böhranı dünya iqtisadiyyatına, xüsusilə Avropa ölkələrinin iqtisadiyyatına və əhalinin rifahına mənfi təsir göstərdi. Hazırda Avropada yaşanan enerji şoku qlobal iqtisadiyyatdakı tənəzzülü dərinləşdirməkdədir.

**Qrafik 3. İnkişaf etməkdə olan ölkələrdə iqtisadi arım tempi (2020-2021)**




*Mənbə: International Monetary Fund, World Economic Outlook Database, April 2022*

Əslində bu proqnoz Rusiya - Ukrayna müharibəsindən öncə hazırlanmışdır. Qeyd edək ki, İƏİT müharibədən öncə qlobal ÜDM artımını 3,0% proqnozlaşdırırdı, lakin müharibə başlayandan sonra bu proqnoz təqribən 1,5 faiz bəndi azaldıldı. Çünki enerji böhranı, Avropa ölkələrinin müharibəyə göstərdikləri yardımlar, Ukraynadan və Rusiyadan insanların Avropaya üz tutması Avropada və bir sıra digər dünya ölkələrində inflyasiyanın sürətlənməsinə təsir göstərdi. ÜTT-nin proqnozlarına görə, qlobal Rusiya və Ukrayna müharibəsi və enerji böhranı nəticəsində "*qlobal əmtəə ticarətinin artım tempinin 2021-ci illə (4,7%-dən) müqayisədə 2022 və 2023-cü illərdə müvafiq olaraq 3,0% və 3,4% aşağı düşəcəkdir. Eyni zamanda mütəxəssislərə görə, 2022-ci ildə MDB regionunda idxal 12,0%, ÜDM 7,9% azalacaqdır*" [16]. Ümumiyyətlə, hazırda regionda yaşanan gərginlik və Rusiya – Ukrayna müharibəsinin nə zamana qədər davam edəcəyi ilə bağlı qeyri-müəyyənlik mövcuddur. Əlbəttə ki, müharibənin

uzanması dünya iqtisadiyyatı, xüsusilə Avropa ölkələrinin iqtisadiyyatı üçün ciddi problemlər yaradaraq, mövcud böhranı daha da dərinləşdirməkdədir.

## Qlobal böhran, neftin qiyməti və inflyasiya

Pandemiya dövründə (2020) ölkə üzrə ÜDM istehsalı (bazar qiymətlərində) 9,3 mlrd manat (11,4%), mədənçıxarma sənayesində 9,5 mlrd (33,3%) azalma olmuşdur. Göründüyü kimi, mədənçıxarma sənayesi üzrə azalma ölkə üzrə orta göstəricidən yüksək olmuşdur. Bu da pandemiya böhranın ilk dövründə dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşması ilə əlaqədar olmuşdur. 2019-cu illə müqayisədə 2020-ci ildə tikinti sektorunda ÜDM istehsalı 380 mln manat (6,2%), turizm sektorunda 1,1 mlrd manat, (58,1%), maliyyə və sığorta fəaliyyətində 16,8 mln manat (1,1%), peşə, elmi və texniki fəaliyyətdə 52,3 mln manat (4,1%), əyləncə və istirahət sahəsində 56 mln manat (9,7%), digər xidmət sahələrində 74,8 mln manat (8,8%) azalmışdır. Ticarət, nəqliyyat, informasiya və s. sahələrdə isə artım müşahidə edilmişdir. 2020-ci ildə əvvəlki ilə nisbətən adambaşına ÜDM-in həcmində 962 manat, adambaşına gəlirlərdə isə 129 manat azalma olmuşdur.

Azərbaycanda ÜDM istehsalının həcmi dünya bazarında neftin qiymətindən çox yüksək asılılığa malikdir. Bunu aşağıdakı qrafikdən də görmək olar. Belə ki, neftin dünya bazarında qiymətinin düşdüyü illərdə ÜDM istehsalının həcmində də azalma olmuş, artdığı dövrlərdə isə yüksək artım olmuşdur (Qrafik 4).

**Qrafik 4. Azərbaycanda ÜDM istehsalının mədənçıxarma sənayesindən asılılığı (əvvəlki illə müqayisədə artma və azalmalar mln manatla)**




***Mənbə:*** *DSK-nın materialları əsasında tərtib edilmişdir*

Statistik təhlillər göstərir ki, qlobal miqyasda enerjinin, xüsusilə neftin qiymətində baş verən dəyişmələr (2020-ci il pandemiya böhranında enerjiyə tələbin azalması

səbəbindən neftin qiymətində kəskin azalma olmuşdur) iqtisadiyyatın bütün sahələrinə, iqtisadi artıma, gəlirlərə, istehsal qiymətlərinə və həyat səviyyəsinə öz mənfi təsirini göstərir. Neftin qiymətinin artması istehsal və xidmət sektorunda qiymətlərin yüksəlməsinə səbəb olur. İnflyasiyanın yüksəlməsi isə əhalinin alıcılıq qabiliyyətinin azalmasına və dolayısı ilə yoxsulluğun artmasına təsir göstərir.

Neftin qiymətinin qısa zamanda kəskin şəkildə artması və ya azalması ÜDM-in strukturuna (yaradılan əlavə dəyərin strukturuna), eyni zamanda istehsal və istehlak qiymətlərinə təsir göstərir. Bu da ciddi iqtisadi böhran riski yaradır. Son illərdə neftin qiymətindəki kəskin artım bütün dünya ölkələrində qlobal inflyasiyanın da yüksəlməsinə təsir göstərmişdir. Belə ki, 2003-2008-ci illərdə neftin qiymətinin davamlı olaraq yüksəlməsi ilə qlobal inflyasiya da 9%-ə qədər yüksəlmişdir (Qrafik 5).

**Qrafik 5. Dünya bazarında neftin qiymətinin dəyişməsi ilə inflyasiyanın dəyişməsi tempi**




***Mənbə:** World Development Indicators [21]*

Qrafikdən göründüyü kimi, neftin qiymətinin dəyişməsi ilə inflyasiyanın artması/azalması arasında əlaqə mövcuddur. Xüsusilə 2008-ci ildən sonrakı dövrdə neftin qiyməti ilə inflyasiya arasında bağlılıq güclənmişdir. Dünya Bankının statistik məlumatlarına görə, bu, 1994-çü ildən sonrakı dövrdə qlobal miqyasda ən yüksək inflyasiya səviyyəsi idi. 2009-cu ildə neftin qiymətinin ucuzlaşması ilə yanaşı, inflyasiya səviyyəsində də eniş olmuşdur. Lakin yenidən 2010-2011-ci illərdə neftin qiymətinin rekord səviyyəyə yüksəlməsi nəticəsində inflyasiya da yüksəldi.

Qlobal böhranlar Azərbaycanın makroiqtisadi göstəricilərinə də təzahür edir. Aşağıdakı qrafikdə Azərbaycanın 22 illik makroiqtisadi göstəricilərinin artım tempi verilmişdir. Göründüyü kimi, qlobal böhranlar və neftin qiymətinin dəyişməsi ölkə iqtisadiyyatına bu və ya digər səviyyədə təsir göstərir (Qrafik 6).

**Qrafik 6. Azərbaycanda ÜDM, əhali gəlirləri və inflyasiyanın artım tempi (əvvəlki ilə nisbətən)**




***Mənbə:*** *DSK-nın statistik məlumatları*

Qrafikdən göründüyü kimi, Azərbaycan iqtisadiyyatında geriləmə 2015-ci il və 2020-ci ildə olmuşdur. 2015-ci ildə dünya bazarında neftin qiymətinin kəskin azalması bir çox neft ixracatçısı ölkələrinin iqtisadiyyatına öz mənfi təsirini göstərmişdir. 2021-2022-ci illərdə ölkədə əhali gəlirləri ilə yanaşı, inflyasiya səviyyəsi də yüksəlmişdir. Bu isə öz növbəsində iqtisadi artıma, məşğulluğa, biznesin inkişafına, əhali gəlirlərinə mənfi təsir göstərməklə yoxsulluğun artmasına yol açır. İnflyasiya eyni zamanda istehsal amillərindən istifadənin səmərəliliyini azaldır. Bu baxımdan, inflyasiyanın nəzarətdə saxlanılması və azaldılması tədbirləri iqtisadi artım üçün faydalı hesab olunur. Ölkələr inflyasiyanı nəzarətdə saxlamaqla adambaşına real gəlirlərin azalmasının qarşısını almağa nail ola bilirlər [1, s.372].

Hesablamalara görə, 20%-lik inflyasiya səviyyəsinin bir faiz bəndi azalması iqtisadi artımı 0,5 faiz artıra bilər. Bütün bunlarla yanaşı, iqtisadi artım, inflyasiya və işsizlik arasındakı qarışlıqlı əlaqə ilə bağlı mübahisəli məsələlər hələ də qalmaqdadır. Aparılan bir çox tədqiqatlarda isə birbaşa əks-əlaqənin olduğu (inflyasiyanın səviyyəsindən asılı olaraq dəyişə bilər) fikri irəli sürülür. J.Andrés və İ.Hernandonun İƏT ölkələri üçün apardığı hesablamalara görə, "inflyasiyanın 1% artımı uzun dövr ərzində illik artım tempini təxminən 0,06%, adambaşına düşən gəliri 2% azalda bilir [1, s.364].

Nəzərə alsaq ki, işsizliyi yaradan amillərdən biri də texnoloji tərəqqidir, o zaman işsizliyin iqtisadi artıma mənfi təsiri ikinci plana keçir. Çünki insanı əvəz edən texnologiyalar daha az xərclə, daha çox dəyər yaratmaq, məhsuldarlığı artırmaq imkanı yaradır. Məhsuldarlıq isə uzunmüddətli iqtisadi inkişafın əsas mühərrikidir. Hesab olunur ki, texnologiyaya əsaslanan innovasiya məhsuldarlığın artımının əsas hərəkətverici

qüvvəsidir. Yeni texnologiyaların tətbiqi bir tərəfdən məhsuldarlığın artmasına təsir göstərirsə, digər tərəfdən işsizliyin artmasına təsir göstərir.

## Nəticə

Araşdırmalar göstərir ki, qlobal pandemiya böhranı bir çox ölkələrdə olduğu kimi, Azərbaycan iqtisadiyyatına da mənfi təsir göstərmiş, bir çox makroiqtisadi göstəricilərdə geriləmə olmuşdur. Pandemiya dövründə neftin qiymətinin kəskin azalması isə Azərbaycan iqtisadiyyatına daha böyük zərər vurmuşdur. Belə ki, mədənçıxarma sənayesində ÜDM istehsalının azalan həcmi, ölkə üzrə orta göstəricidən yüksək olmuşdur. Bu, Azərbaycan iqtisadiyyatının xammal resurslarından asılılığının yüksək olduğunu və ölkəmiz üçün ciddi risk yaratdığını göstərir.

2022-ci ildə Rusiya - Ukrayna müharibəsi nəticəsində yaranan enerji böhranı, dünya bazarında neftin və qazın qiymətinin yüksəlməsi ölkəyə inflyasiya idxalına səbəb olmuşdur. Son illərdə ölkədə qiymətlərin yüksəlməsinin əsas səbəblərindən biri dünya bazarında enerji resurslarının qiymətinin yüksəlməsidir. Ölkəyə idxal olunan məhsullarla yanaşı, inflyasiya da idxal olur ki, bu da real gəlirlərin azalmasına təsir göstərir. Riskin azaldılması üçün qeyri-neft sektorunun inkişafı istiqamətində islahatların davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Hesab edirik ki, Qarabağda qurulacaq yeni iqtisadiyyat Azərbaycanda qeyri-neft sektorunun texnoloji inkişafına və iqtisadiyyatın xammaldan asılılığının azalmasına təsir göstərəcəkdir. Qeyri-neft sektorunun inkişafı məşğulluğun artması, idxal inflyasiyasının qarşısının alınması üçün mühüm şərtdir.

Ümumilikdə son illərdə dünya iqtisadiyyatında baş verən texnoloji inkişaf, ölkələrarası inteqrasiyanın yüksəlməsi qlobal böhranların baş vermə ehtimalının böyük olduğunu nəzərə alaraq, ölkədə texnologiya əsaslı iqtisadi artıma və insan kapitalının inkişafına nail olunması istiqamətində islahatlar sürətləndirilməlidir.

**Ədəbiyyat**


1. Andrés J. and Hernando I. Inflation and economic growth: some evidence for the OECD countries//NBER Conference on "The Costs and Benefits of Achieving Price Stability", Federal Reserve Bank of New York (February 20-21, 1997).p 364-385
2. Babayev Ə.P. İqtisadi inkişafdan modernləşməyə doğru / Ə. P. Babayev/- Bakı: Oğuz eli, 2013.- 200 s.
3. COVID-19 to slash global economic output by $8.5 trillion over next two years. https://www.un.org/en/desa/covid-19-slash-global-economic-output-85-trillion-over-next-two-years
4. Hajiyev N., Muradov A., Hasanli Y.& Musayev T. Modeling of economic growth in Azerbaijan in the post-oil period", EcoMod, 2017, 13 p.
5. https://www.investopedia.com/terms/n/new-growth-theory.asp
6. İMF. International Monetary Fund, World Economic Outlook Data-base, April 2022
7. Kuznets S. Economic Growth and Income Inequality. /S.Kuznets/ The American Economic Review 45, no. 1., 1955. 1–28. [http://www.jstor.org/stable/1811581]
8. Qafarov Ş.S. Pulun diktaturası. /Ş.S.Qafarov/ Monoqrafiya. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı – 2014. - 554 səh.

9. Malpass D. Stagflation Risk Rises Amid Sharp Slowdown in Growth https://www.worldbank.org/en/news/press-release/2022/06/07/stagflation-risk-rises-amid-sharp-slowdown-in-growth-energy-markets
10. Malthus T.R. An Essay on the Principle of Population. / T.R Malthus/ London, Printed for J. Johnson, in St. Paul's Church-Yard 1798. Electronic Scholarly Publishing Project 1998, 126 p
11. Marks K. Kapital /K. Marks/ II Cild Siyasi iqtisadın tənqidi. II Kitab Kapitalın tədavülü prosesi Bakı: Azərnəşr, 1956 536 səh
12. Meybullayev, M.X. İqtisadi artım və xalqın rifahının yüksəldilməsi /M. X. Meybullayev/ Azərbaycan SSR "Bilik" Cəmiyyəti Bakı: "Bilik" Cəmiyyəti, 1984 45 səh
13. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər /Ş.M.Muradov, AMEA, İqtisadiyyat İnstitutu/.- B.: Elm, 2004.- 660 s.
14. Ricardo D. On the Principles of Political Economy and Taxation, 3 ed., McMaster University Archive for the History of Economic Thought. London, Kitchener 2001, 333
15. Romer P.M. Growth Based on Increasing Returns to Specialization / P.M Romer/ American Economic Review 77 (2), 56–62. 1987
16. Russia-Ukraine conflict puts fragile global trade recovery at risk, 2022, [https://www.wto.org/english/news_e/pres22_e/pr902_e.htm]
17. Schumpeter J.A. The Theory of Economic Development: An Inquiry into Profits, Capital, Credit, Interest, and the Business Cycle / J.A Schumpeter/ Harvard Economic Studies, 1934, 255 pages
18. Səmədzadə Z.Ə. Çin qlobal dünya iqtisadiyyatında /Z.Ə.Səmədzadə/.- Bakı: Elm və təhsil nəşriyyatı, 2009.- 607 s.
19. Smith A. The Wealth of Nations. //A.Smith// Industrial Systems Research/ A Translation into Modern English (1776) 2015 - 564 p.
20. Stiglitz, J.E. Inequality and Economic Growth. /J.E.Stiglitz/ The Political Quarterly Publishing Co Ltd, 2016, 134-155. [https://www8.gsb.columbia.edu/faculty/jstiglitz/sites/jstiglitz/files/-Inequality%20and%20Economic%20Growth_0.pdf]
21. World Development Indicators. [electron resurs] https://databank.worldbank.org/reports.aspx?-source=2&series=BX.GSR.CCIS.ZS&country

# MƏRKƏZİ BANKIN RƏQƏMSAL VALYUTALARININ DİZAYN NÖVLƏRİNİN TƏHLİLİ

*Daxil olub: 18 oktyabr 2023-cü il*
*Qəbul olunub: 2 noyabr 2023-cü il*
*Received: 18 October 2023*
*Accepted: 2 November 2023*

***Rəhilə Kərimova***
*müəllim, SABAH mərkəzi, UNEC*
*Doktorant, İdarəetmə Sistemləri İnstitutu, ARETN*
*rahila.karimova@coleurope.eu*

## Xülasə

Bu tədqiqatda Mərkəzi Bankın rəqəmsal valyutalarının (CBDC) dizayn növləri araşdırılır, hər bir dizayn növünün müsbət və mənfi cəhətləri tədqiq olunur. CBDC-nin tətbiq olunma potensialının artması ilə onun dizaynının iqtisadiyyat və maliyyə sistemlərinə təsiri üzrə tədqiqatlar da artır. Bu məqalədə CBDC-nin əsas dizayn tipləri – topdansatış CBDC, pərakəndə CBDC, hesab əsaslı CBDC, token əsaslı CBDC, sintetik CBDC, faiz gətirən CBDC, hibrid CBDC, blokçeyn əsaslı CBDC və nağd əsaslı CBDC təsvir və müzakirə olunur. Onların iqtisadiyyata və maliyyə sektoruna necə təsir edə biləcəyi araşdırılır. CBDC-nin müvafiq dizaynının seçilməsi mərkəzi bankların məqsəd və strategiyalarına əsaslanmalıdır. Bu məqalə CBDC-nin potensial faydaları və çətinliklərini başa düşmək üçün nəzəri və praktiki baxış təqdim edir.

***Açar sözlər**: Mərkəzi Bankın rəqəmsal valyutaları, CBDC, maliyyə inklüzivliyi, tranzaksiyaların effektivliyi, maliyyə stabilliyi.*

# ANALYSIS OF DESIGN TYPES OF CENTRAL BANK DIGITAL CURRENCIES

***Rahila Karimova***
*teacher, SABAH center, UNEC*
*PhD student, Institute of Management Systems, MSERA*
*rahila.karimova@coleurope.eu*

## Abstract

This study examines the design types of Central Bank Digital Currencies (CBDCs), examining the pros and cons of each design type. As the potential for adoption of CBDC grows, so does research into the impact of its design on the economy and financial systems. This article describes and discusses the main types of CBDC designs - wholesale CBDCs, retail CBDCs, account-based CBDCs, token-based CBDCs, synthetic CBDCs, interest-bearing CBDCs, hybrid CBDCs, blockchain-based CBDCs, and cash-based CBDCs. It explores how they may affect the economy and financial sector. The selection of an appropriate CBDC design should be based on the goals and strategies of central banks. This article provides a theoretical and practical overview to understand the potential benefits and challenges of CBDC.

***Keywords:*** *Central Bank Digital Currencies, CBDC, financial inclusion, transaction efficiency, financial stability.*

## АНАЛИЗ ТИПОВ ДИЗАЙНА ЦИФРОВЫХ ВАЛЮТ ЦЕНТРАЛЬНЫХ БАНКОВ

***Рахиля Каримова***
*Институт систем управления, МНОАР*
*Центр SABAH, UNEC*

**Резюме**
В этом исследовании рассматриваются типы дизайна цифровых валют Центрального банка (CBDC), изучаются плюсы и минусы каждого типа дизайна. По мере роста потенциала внедрения CBDC растут и исследования влияния его дизайна на экономику и финансовые системы. В этой статье описываются и обсуждаются основные типы дизайна CBDC - оптовые CBDC, розничные CBDC, CBDC на основе счетов, CBDC на основе токенов, синтетические CBDC, процентные CBDC, гибридные CBDC, CBDC на основе блокчейна и CBDC на основе наличных денег. Исследуется их влияние на экономику и финансовый сектор. Выбор подходящего дизайна CBDC должен основываться на целях и стратегиях центральных банков. В этой статье представлен теоретический и практический обзор для понимания потенциальных преимуществ и проблем CBDC.

***Ключевые слова:*** *цифровые валюты Центрального банка, CBDC, финансовая инклюзивность, эффективность транзакций, финансовая стабильность.*

## Giriş

Son dövrdə sürətli inkişaf edən maliyyə texnologiyaları iqtisadiyyatı köklü surətdə dəyişmiş və pulun yeni növlərini yaratmışdır. Maliyyə texnologiyalarının yaratdığı pulun yeni növlərindən biri Mərkəzi Bankın rəqəmsal valyutalarıdır (MBRV, ing. *Central Bank Digital Currency* (*CBDC*)). CBDC köklü dəyişiklik kimi ortaya çıxaraq, müasir iqtisadiyyatda pulun qavranılması və idarə olunmasına dair fikirlərdə yeni paradiqma yaratmışdır. Ölkələr arasında *CBDC*-lərin qəbulu və tətbiq olunması ilə bağlı cari vəziyyətinə əsasən [4], 11 ölkə rəsmi olaraq öz *CBDC*-lərin buraxılışına başlamışdır, 21 ölkə pilot mərhələdədir və aktiv şəkildə öz rəqəmsal valyutalarını sınaqdan keçirir və təkmilləşdirir, 33 ölkə *CBDC*-lərin inkişafı mərhələsindədir və öz *CBDC* çərçivə sənədlərini hazırlayır, 46 ölkə tədqiqat mərhələsindədir, *CBDC*-lərin potensialını və təsirlərini araşdırır, 16 ölkə *CBDC*-lərin inkişaf etdirilməsində qeyri-fəaldır və 2 dövlət öz *CBDC* təşəbbüslərini dayandırıb və icra üçün planlarını ləğv edib. Azərbaycan Respublikası hal-hazırda *CBDC*-lərin tədqiqatı mərhələsindədir [47].

Dünya ölkələrinin *CBDC*-ləri öz maliyyə sistemlərinə inteqrasiya etməsində mühüm məsələlərindən biri *CBDC*-lərin dizaynıdır. Fərqli dizayn növlərinin seçimi müxtəlif nəticələrə gətirə bilər; *CBDC*-nin dizaynı yalnız onun funksionallığına yox, həm də maliyyə sisteminə, iqtisadi siyasətlərə və cəmiyyətdəki iqtisadi əlaqələrə öz təsirini göstərə bilər. Müxtəlif *CBDC* dizaynlarının özünəməxsus imkanları və çətinlikləri mövcuddur. Bu tədqiqatda müxtəlif *CBDC* dizaynlarına baxılır, xüsusilə hər bir dizayn növünün müsbət və mənfi cəhətləri və iqtisadiyyata təsirləri araşdırılır, hər bir dizayn növünün çoxtərəfli təsirləri aydınlaşdırılmağa çalışılır. Məqalənin əsas tədqiqat sualı aşağıdakı kimidir:

*Mərkəzi Bankın rəqəmsal valyutalarının (CBDC) fərqli dizayn növləri onların istifadəsi, effektivliyi və mövcud maliyyə infrastrukturuna inteqrasiyasına hansı təsir göstərir?*

Tədqiqat sualının əhəmiyyətliliyi ondan ibarətdir ki, *CBDC*-nin dizayn növlərinin öyrənilməsi ölkələrin mərkəzi bankları, maliyyə müəssisələri və digər maraqlı tərəflər üçün mühüm məlumat mənbəyi olaraq, dizaynların hərtərəfli qiymətləndirilməsinə imkan yaradacaq və doğru dizaynın seçilməsində dəstək olacaqdır.

Tədqiqatın quruluşu aşağıdakı kimidir. İlk öncə Mərkəzi Bankın rəqəmsal valyutalarının (*CBDC*) tərifi verilir və mahiyyəti araşdırılır. Daha sonra *CBDC*-lərin müxtəlif dizayn növlərinə baxılır və hər bir dizayn növünün müsbət və mənfi cəhətləri təhlil olunur. Sonda təhlilin nəticələri müzakirə olunur və tövsiyələr verilir.

## 1. Metodologiya

Tədqiqatda Mərkəzi Bankın rəqəmsal valyutalarının (*CBDC*) müxtəlif dizayn növlərinin müsbət və mənfi tərəfləri ən son ədəbiyyata əsaslanaraq təhlil edilmişdir. Ədəbiyyatın seçilməsi prosesi məlumat bazalarında axtarış vasitəsilə aparılmışdır. Axtarışda "*CBDC*", "dizayn növləri", "müsbət cəhətlər", "çətinliklər" və s. kimi açar sözlərdən istifadə edilmişdir. Seçilmiş mənbələr tematik təhlil üsulu ilə tədqiq edilmişdir. Tematik təhlil üsulu *CBDC*-lərin müxtəlif dizaynlarının müsbət və mənfi cəhətlərini sistemli şəkildə təşkil etməyə və onları müqayisə etməyə imkan verir. Ədəbiyyatın tematik təhlili metodoloji yanaşmasının məhdudiyyəti ondan ibarətdir ki, ayrıca empirik təhlil aparılmır, tədqiqat mövcud ədəbiyyata əsaslanır. Bununla belə, bu yanaşma *CBDC* dizaynları haqqında mövcud perspektivləri öyrənmək üçün dərin və geniş baxış təqdim edir.

## 2. Ədəbiyyatın təhlili

Mərkəzi Bankın rəqəmsal valyutası (*CBDC*) Mərkəzi Bank tərəfindən emissiya olunan valyutanın rəqəmsal formasıdır [4, 22, 49]. *CBDC* Mərkəzi Bankın öhdəliyidir və yerli hesab vahidi ilə təyin edilir [3]. *CBDC* mübadilə vasitəsi kimi və dəyər saxlamaq üçün istifadə edilə bilər [3]. *CBDC*-in ölkədə icrası istiqamətində müxtəlif təkliflər

mövcuddur. Təkliflərdən biri *CBDC*-lərin birbaşa Mərkəzi Bankda saxlanılan hesablarda və ya nəzarətdə olan kommersiya banklarının xüsusi hesablarında saxlanılmasını nəzərdə tutur [14]. Bu yanaşma sintetik *CBDC* adlandırılır [14].

*CBDC*-in bir neçə üstünlüyü mövcuddur. *CBDC* bank xidmətləri əlçatan olmayan şəxslər üçün bank xidmətlərinə çıxışını təmin edərək maliyyə inklüzivliyini artırır [39, 49]. *CBDC* ödəniş sistemlərinin effektivliyini artıra və əməliyyat xərclərini azalda bilər [49]. Bundan əlavə olaraq, *CBDC* əməliyyatların aparılmasına təhlükəsizlik və şəffaflıq gətirə bilər, çünki o, blokçeyn texnologiyasından istifadə edə bilər [22, 43]. *CBDC* mərkəzi banklara monetar siyasəti tətbiq etmək və iqtisadiyyatı idarə etmək üçün vasitə kimi xidmət edə bilər [3].

Lakin *CBDC*-nin tətbiqi müəyyən çətinliklər və risklər də yaradır. *CBDC* tətbiqinin çətinliklərindən biri aparılan əməliyyatların təhlükəsizliyini və gizliliyini təmin etməkdir [39]. Digər çətinlik isə *CBDC*-in bankçılıq sisteminə olan potensial təsiridir, xüsusilə kommersiya banklarının depozitləri ilə rəqabət aparma potensialıdır [3]. *CBDC* maliyyə sabitliyi və monetar siyasətin transmissiyasına təsirlərə malik ola bilər [27]. Beləliklə, *CBDC*-nin potensial faydalarını maksimuma çatdırmaq və uğurlu tətbiqini təmin etmək üçün mərkəzi banklar və kommersiya bankları arasında diqqətli mülahizə və koordinasiya tələb olunur [33].

**2.1 *CBDC*-nin dizaynı.** Mərkəzi Bankın Rəqəmsal Valyutasının (*CBDC*) müəyyən dizayn növünün tətbiq edilməsi müxtəlif məqsədlərə və mülahizələrə görə dəyişə bilər. Bir sıra müəlliflər öz tədqiqatlarında dizayn seçimi və dizaynların xüsusiyyətləri haqqında təfərrüatlı məlumat verir.

Allen və b. [2] *CBDC*-nin texniki dizayn çətinliklərini müzakirə edir, performans, məxfilik və təhlükəsizliyə diqqət yönəldir. Agur və b. [1] *CBDC*-in dizayn seçimlərini araşdırır və *CBDC*-lərin nağd pullara və depozitlərə oxşarlıq xüsusiyyətlərinin bank kreditinə və milli gəlirə olan təsirini araşdırır. Tədqiqatın nəticələrinə əsasən *CBDC*-nin faiz gətirən dizayn növü bank kreditini və milli gəliri azaldır, *CBDC*-nin nağd dizaynı isə iqtisadiyyatda nağd pulların yoxa çıxmasına səbəb ola bilər [1]. Ozili [40] qeyd edir ki, bir-biri ilə rəqabət aparan məqsədlərə nail olmaq üçün optimal *CBDC* dizaynını tapmaq böyük əhəmiyyət daşıyır və tətbiq olunan dizaynın kreditin dəyərinə və maliyyə sabitliyinə təsirlərini empirik cəhətdən öyrənmək vacibdir.

Daşkeviç və b. [11] öz tədqiqatlarında faiz gətirən *CBDC* kimi tanınan və faiz ödənişlərinə imkan verən hesab əsaslı *CBDC*-nin dizayn xüsusiyyətlərini araşdırır. Liu və başqaları [30] yeni funksiyalar və maliyyə alətləri təmin edən *CBDC*-nin dinamik buraxılış mexanizmini öyrənirlər. Zhang və başqaları [50] blokçeyn texnologiyasına əsaslanan, node şəbəkəsinin və rəqəmsal şifrələmə alqoritminin üstünlüklərini birləşdirən hibrid *CBDC* modelini təklif edirlər. Sethaput və Innet [43] blokçeyn əsaslı *CBDC* sxemləri haqqında ədəbiyyat icmalı təqdim edir və onların dizaynı üçün təlimatlar

təklif edir. Chiu və digərləri [9] qəbul olunma dərəcəsi, ehtiyatlar kimi istifadənin məqbulluq dərəcəsi və təklif qaydaları da daxil olmaqla, *CBDC* dizaynının müxtəlif aspektlərini qiymətləndirir.

**2.2 *CBDC*-nin dizayn növləri.** Mərkəzi Bankın Rəqəmsal Valyutalarının (*CBDC*) bir neçə dizayn növü mövcuddur: topdansatış *CBDC*, pərakəndə *CBDC*, hesab əsaslı *CBDC*, token əsaslı *CBDC*, sintetik *CBDC*, faiz gətirən *CBDC*, hibrid *CBDC*, blokçeyn əsaslı *CBDC*, nağd əsaslı *CBDC*.

**2.2.1 Topdansatış *CBDC*.** Topdansatış *CBDC* yalnız maliyyə müəssisələri arasında banklararası əməliyyatlar üçün mərkəzi banklar tərəfindən buraxılan rəqəmsal valyutadır [10]. Topdansatış *CBDC* banklararası hesablaşmalar və topdansatış əməliyyatları üçün maliyyə institutlarını və bazar iştirakçılarını rəqəmsal valyuta ilə təmin etmək məqsədi daşıyır [3, 42].

Topdansatış *CBDC*-nin üstünlükləri aşağıdakılardır:

● banklararası hesablaşmaların daha sürətli və səmərəli aparılması. Topdansatış *CBDC* daha sürətli və təhlükəsiz banklararası əməliyyatlara imkan yarada, hesablaşma vaxtlarını azalda və ümumi səmərəliliyi artıra bilər [10];

● şəffaflığın və yoxlanılabilirliyin artırılması. Topdansatış *CBDC*-lərin istifadəsi banklararası əməliyyatların daha yüksək şəffaflığını və izlənilməsini təmin edə, tənzimləyici nəzarəti asanlaşdıra və fırıldaqçılıq riskini azalda bilər [10];

● likvidliyin idarə olunmasının təkmilləşdirilməsi. Topdansatış *CBDC* mərkəzi banklara və maliyyə institutlarına likvidliyi idarə etmək və maliyyə sistemində likvidlik çatışmazlığını aradan qaldırmaq üçün daha səmərəli alətlər təklif edə bilər [10];

● xərclərə qənaət imkanlarının yaranması. Topdansatış *CBDC*-lərin istifadəsi klirinq və hesablaşma haqları kimi banklararası əməliyyatlarla bağlı xərcləri azaltmaq potensialına malikdir [10].

Topdansatış *CBDC* dizaynının çatışmazlıqlarına aşağıdakılar daxil ola bilər:

● mövcud maliyyə infrastrukturunun pozulması. Topdansatış *CBDC*-nin tətbiqi mövcud maliyyə infrastrukturu və sistemlərində əhəmiyyətli dəyişikliklər tələb edə, potensial olaraq fəaliyyətlərin dayandırılmasına səbəb ola və əhəmiyyətli investisiya tələb edə bilər [10];

● maliyyə vasitəçiliyinə təsir. Topdansatış *CBDC* tətbiqi kommersiya banklarının vasitəçi roluna, onların gəlirliliyinə və sabitliyinə təsir edə bilər [10];

● texnoloji problemlər. Topdansatış *CBDC*-nin həyata keçirilməsi kiberhücumlara və digər təhlükəsizlik risklərinə həssas ola biləcək mürəkkəb texnoloji infrastrukturu tələb edir [10];

● iqtidarın konsentrasiyası üçün imkanların yaradılması. Topdansatış *CBDC*-nin həyata keçirilməsi mərkəzi bank və ya məhdud sayda maliyyə institutları daxilində

gücü cəmləşdirə bilər ki, bu da mərkəzləşdirmənin yaradılması və nəzarət ilə bağlı narahatlıqları artırır [10].

**2.2.2 Pərakəndə *CBDC*.** Pərakəndə CBDC mübadilə vasitəsi və dəyər daşıyıcısı funksiyasını daşıyır və geniş ictimaiyyət tərəfindən istifadə olunması üçün nəzərdə tutulmuşdur [10]. Pərakəndə *CBDC*-nin məqsədi nağd pulu və ənənəvi bank depozitlərini əvəz etmək və ya tamamlamaq, gündəlik əməliyyatlar üçün fiziki şəxsləri və ya biznesləri rəqəmsal valyuta ilə birbaşa təmin etməkdir [1, 42].

Pərakəndə *CBDC* bir sıra üstünlüklərə malikdir:

- maliyyə inklüzivliyi. Pərakəndə *CBDC* bank xidmətlərinin əlçatanlığını artırmaqla və bank xidmətlərindən məhrum olan şəxslərə rəqəmsal maliyyə xidmətlərinə əlçatanlığı təmin etməklə maliyyə inklüzivliyini təşviq edir [32];
- rahatlıq və əlçatanlıq. Pərakəndə *CBDC* fiziki şəxslər üçün daha rahat və əlçatan rəqəmsal ödəniş seçimlərini təklif etməklə daha sürətli və təhlükəsiz əməliyyatlara imkan verir [10];
- xərclərin azaldılması. Pərakəndə *CBDC* vasitəçilərə olan ehtiyacı aradan qaldıraraq və nağd vəsaitdən olan asılılığı azaldaraq, fiziki şəxslər və bizneslər üçün əməliyyat xərclərini azaldır [24];
- maliyyə siyasətinin effektivliyinin artırılması. Pərakəndə *CBDC* mərkəzi banklar üçün pul təklifi və faiz dərəcələri üzərində daha geniş birbaşa nəzarəti təmin edərək monetar siyasətin effektivliyini artıra bilər [2];
- təhlükəsizlik və izlənilə bilmə. Pərakəndə *CBDC* fiziki nağd pul ilə müqayisədə daha güclü təhlükəsizlik xarakteristikalarına malikdir [17]. Belə ki, bu *CBDC* dizaynı oğurluğun və saxta pulların riskini azaldır. Pərakəndə *CBDC* həm də daha geniş izlənilə bilmə imkanlarını təqdim edir və bu xüsusiyyət qeyri-qanuni fəaliyyətlərə qarşı mübarizəyə kömək edə bilər.

Pərakəndə *CBDC*-nin dizaynının bir neçə mənfi cəhəti də mövcuddur:

- gizlilik məsələləri. Pərakəndə *CBDC* ilə həyata keçirilən əməliyyatlar və balanslar fiziki nağd pul ilə müqayisədə daha yüksək izlənilə bilənliyə malik olduğu üçün gizlilik məsələləri ortaya çıxa bilər [10];
- bank sektoruna əks-təsir. Pərakəndə *CBDC*-nin geniş şəkildə qəbul olunması kommersiya banklarının vasitəçilik roluna təsir göstərə bilər, onların mənfəətlilik və sabitliyinə təsir edə bilər [2];
- texnoloji çətinliklər. Pərakəndə *CBDC*-nin tətbiqi mürəkkəb texnoloji infrastruktur tələb edir və burada kibertəhlükəsizlik və digər növ təhlükəsizlik riskləri yarana bilər [43];
- istifadəçilər tərəfindən pərakəndə *CBDC*-nin qəbulu. Pərakəndə *CBDC*-nin uğurlu tətbiqi onun istifadəçilər tərəfindən uğurlu qəbulundan asılıdır [29]. İstifadəçilər tərəfindən pərakəndə *CBDC*-nin qəbuluna isə öz növbəsində bir neçə amil təsir

göstərir: mərkəzi banka olan etimad, rəqəmsal ödəniş metodları ilə ümumi tanışlıq və onlardan istifadənin rahatlığı;

- maliyyə sabitliyinin riskləri. Pərakəndə *CBDC*-lərin tətbiqi maliyyə sabitliyinə də təsir göstərə bilər, o cümlədən mövcud monetar sistemində olan potensial pozuntulara və bank vasitəçiliyinin dayandırılması riskinə gətirib çıxara bilər [41].

**2.2.3 Hesab əsaslı *CBDC*.** Hesab əsaslı *CBDC* dizaynı *CBDC*-lərin birbaşa mərkəzi bankın hesablarında saxlanmasını tələb edir [3]. Bu dizayn çərçivəsində *CBDC* ənənəvi bank hesablarına oxşar individual istifadəçi hesablarına bağlanır və bu hesablarda əməliyyatlar mərkəzləşdirilmiş sistemlər vasitəsi ilə qeyd edilir və idarə olunur [21, 31]. Hesab əsaslı CBDC-nin bir neçə üstünlüyü mövcuddur:

- təkmilləşdirilmiş izlənilə bilmə və şəffaflıq. Hesab əsaslı *CBDC* çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi kimi qeyri-qanuni fəaliyyətlərlə mübarizədə kömək edə bilir, əməliyyatların daha mükəmməl şəkildə izlənilməsini və əməliyyatların şəffaflığını təmin edir [10].
- monetar siyasətin çevikliyi. Hesab əsaslı *CBDC* mərkəzi banklara pul təklifi və faiz dərəcələri üzərində daha birbaşa nəzarət imkanı və pul siyasəti tədbirlərinin daha səmərəli həyata keçirilməsinə imkan verir [46];
- maliyyə yeniliyi üçün potensial. Hesab əsaslı *CBDC* maliyyə innovasiyalarını və texnoloji irəliləyişləri asanlaşdıraraq, innovativ maliyyə tətbiqləri və xidmətlərinin inkişafına imkan verə bilər [10];
- mövcud maliyyə infrastrukturu ilə inteqrasiya. Hesab əsaslı *CBDC* mövcud maliyyə sistemləri və infrastrukturu ilə asanlıqla inteqrasiya oluna bilir, qarşılıqlı fəaliyyət və qüsursuz tətbiqi təmin edir [10];
- məqsədli siyasətlər üçün yeni imkanların yaranması. Hesab əsaslı *CBDC* daha səmərəli və effektiv siyasət həyata keçirməyə imkan yaradaraq, konkret şəxslərə və ya qruplara birbaşa köçürmələr kimi hədəflənmiş siyasətlərə imkan verir [46].

Hesab əsaslı *CBDC*-lərin çatışmazlıqları aşağıdakılardır:

- məxfilik məsələləri. Hesab əsaslı *CBDC*-də bütün əməliyyatlar və balanslar mərkəzləşdirilmiş sistemlər vasitəsilə qeydə alındığından və idarə edildiyindən, fərdi məxfiliyə potensial təhlükə yarada biləcəyi üçün məxfiliklə bağlı narahatlıqları artıra bilər [46];
- texnoloji problemlər. Hesab əsaslı *CBDC*-nin tətbiqi kiberhücumlara və digər təhlükəsizlik risklərinə həssas ola biləcək mürəkkəb texnoloji infrastrukturu əhatə edir [12];
- bank sektorunda fəaliyyətin pozulması. Hesab əsaslı *CBDC*-nin geniş şəkildə qəbulu kommersiya banklarının vasitəçi roluna, onların gəlirliliyinə və sabitliyinə təsir edə bilər [46];
- istifadəçilər tərəfindən qəbul olunma və tanınma. Hesab əsaslı *CBDC*-nin müvəffəqiyyəti istifadəçilər tərəfindən qəbul olunma və tanınmadan asılıdır ki, bu da öz

növbəsində mərkəzi banka etibar, rəqəmsal ödəniş üsulları ilə tanışlıq və istifadənin asanlığı kimi amillərdən asılı olaraq dəyişə bilər [46];

- maliyyə sabitliyinin riskləri. Hesab əsaslı *CBDC*-nin tətbiqi maliyyə sabitliyinə təsir göstərə bilər, o cümlədən mövcud monetar sistemində negativ təsirlərə və bankların vasitəçiliyinin dayandırılması risklərinə səbəb ola bilər [46].

**2.2.4 Token əsaslı *CBDC*.** Token əsaslı *CBDC* istifadəçilər tərəfindən köçürülə bilən rəqəmsal token formasındadır [10]. Token əsaslı *CBDC* paylanmış reyestr texnologiyasından (DLT) və ya blokçeyndən istifadə edərək köçürülə bilən və mübadilə edilə bilən rəqəmsal tokenlər vasitəsilə təqdim olunur [15, 21].

Token əsaslı *CBDC* dizaynının üstünlükləri aşağıdakılardır:

- təkmilləşdirilmiş məxfilik. Token əsaslı *CBDC* hesab əsaslı *CBDC* ilə müqayisədə daha yüksək məxfilik səviyyəsini təmin edə bilər, çünki əməliyyatlar təxəllüslərdən və ya kriptoqrafik üsullardan istifadə etməklə həyata keçirilə bilər [32].
- təkmilləşdirilmiş təhlükəsizlik. Token əsaslı *CBDC* fırıldaqçılıq və saxtakarlıqdan qorunmaq üçün kriptoqrafik protokollar kimi qabaqcıl təhlükəsizlik xüsusiyyətlərini daşıyır [32];
- çeviklik və qarşılıqlı fəaliyyət. Token əsaslı CBDC, qüsursuz inteqrasiya və qarşılıqlı əlaqəni təmin edərək, mövcud rəqəmsal ödəniş sistemləri və blokçeyn şəbəkələri ilə uyğun olacaq şəkildə tərtib edilə bilər [32];
- innovasiyalar üçün imkanlar. Token əsaslı *CBDC* maliyyə innovasiyalarını və texnoloji irəliləyişləri təşviq edərək innovativ maliyyə tətbiqləri və ağıllı müqavilələrin (smart contracts) inkişafına imkan verə bilər [32];
- transsərhəd əməliyyatlar. Token əsaslı *CBDC* vasitəçilərə ehtiyacı aradan qaldırmaq və əməliyyat xərclərini azaltmaqla sərhədlərarası əməliyyatları asanlaşdıra bilər [32].

Token əsaslı CBDC dizaynının çatışmazlıqlarına aşağıdakılar daxil ola bilər:

- qanuni tənzimləmə problemləri. Token əsaslı *CBDC*-nin tətbiqi çirkli pulların yuyulması, terrorçuluğun maliyyələşdirilməsi və kibertəhlükəsizlik riskləri kimi məsələləri həll etmək üçün möhkəm tənzimləyici qanuni çərçivə tələb edir [11];
- texnoloji mürəkkəblik. Token əsaslı *CBDC*-nin həyata keçirilməsi mühüm resurslar və təcrübə tələb edə bilən blokçeyn və ya paylanmış reyestr texnologiyası (*DLT*) daxil olmaqla mürəkkəb texnoloji infrastruktur tələb edir [11];
- istifadəçilər tərəfindən qəbul olunma və tanınma. Token əsaslı *CBDC*-nin müvəffəqiyyəti istifadəçilər tərəfindən qəbul olunma və tanınmadan asılıdır, hansı ki rəqəmsal ödəniş üsulları ilə tanışlıq və istifadənin asanlığı kimi amillərə görə dəyişə bilər [35];

● qanunsuz fəaliyyət üçün imkanlar. Token əsaslı CBDC-nin anonimlik və məxfilik xüsusiyyətləri onun çirkli pulların yuyulması və qeyri-qanuni əməliyyatlar kimi qeyri-qanuni fəaliyyətlər üçün mümkün istifadəsi ilə bağlı narahatlıq yarada bilər [7];

● miqyasın genişlənməsi və səmərəlilik. Token əsaslı *CBDC*, xüsusilə yüksək həcmli mühitlərdə miqyasın genişlənməsi və əməliyyatların işlənməsi sürəti ilə bağlı problemlərlə üzləşə bilər [26].

**2.2.5 Sintetik *CBDC*.** Sintetik *CBDC*-nin, mərkəzi bankda ehtiyat hesablarında saxlanılan müvafiq vəsaitlər əsasında, nəzarətdə olan kommersiya banklarında xüsusi təyin edilmiş hesablar vasitəsilə ictimaiyyətə təqdim edilməsi nəzərdə tutulur [14].

Sintetik *CBDC*-nin üstünlüklərinə onun səmərəliliyi, rahatlığı, təhlükəsizliyi, bütövlüyü, əlçatanlığı, hesablaşmanın yekunluğu və maliyyə inklüzivliyi aiddir [8]. Sintetik CBDC-in çatışmazlıqlarına isə məlumatlardan sui-istifadə və istifadəçi məxfiliyi ilə bağlı məsələlər aiddir [8].

**2.2.6 Faiz gətirən *CBDC*.** *CBDC*-lərin bu dizaynı *CBDC* sahiblərinə faiz ödənişlərinin edilməsinə imkan verir. Faiz gətirən *CBDC*-lərin saxlandığı hesablara faizlər gələrək bu növ *CBDC*-lərin sahiblərinin öz rəqəmsal valyuta hesablarının balanslarından faiz qazanmalarına imkan verir [1].

Faiz gətirən *CBDC*-lərin tətbiq olunmasının bir neçə müsbət tərəfləri mövcuddur:

● *CBDC*-lərə sahib olmaq üçün stimul. Faiz gətirən *CBDC* insanlara rəqəmsal valyuta aktivləri üzrə faiz qazanmaq imkanı verə bilər ki, bu da *CBDC*-lərin geniş tətbiqini və istifadəsini stimullaşdıra bilər [3];

● monetar siyasətin effektivliyi. Faiz gətirən *CBDC*-lər mərkəzi banklara faiz dərəcələri və pul təklifi üzərində daha geniş birbaşa nəzarəti verməklə monetar siyasətin effektivliyini artıra bilər [9];

● maliyyə inklüzivliyi. Faiz gətirən *CBDC*-lər insanlara bank hesabına ehtiyac olmadan faiz gətirən rəqəmsal valyutaya çıxış imkanı verməklə nağd pula tələbi azalda və maliyyə inklüzivliyini artıra bilər [40];

● ənənəvi bank xidmətlərindən asılılığın azaldılması. Faiz gətirən *CBDC*-lər ənənəvi bank depozitlərinə alternativ həlli təklif edir və potensial olaraq maliyyə xidmətlərinin istifadəsində kommersiya banklarından asılılığı azaldır [37];

● monetar siyasətin tranmissiyasında çeviklik. Faiz gətirən *CBDC*-lər monetar siyasətin transmissiyası üçün əlavə kanallar təklif edərək, mərkəzi banklara faiz dərəcələrinə təsir göstərməyə və arzu olunan iqtisadi davranışı stimullaşdırmağa imkan verir [9].

Faiz gətirən *CBDC*-lərin bir neçə mənfi təsirləri də mövcuddur:

● bank sektorunun fəaliyyətinin pozulması. Faiz gətirən *CBDC*-lər bank depozitləri ilə rəqabət apara bilər, potensial olaraq bank kreditini və gəliri azalda bilər ki, bu da bank sektorunun gəlirliliyinə və sabitliyinə təsir göstərə bilər [1];

- bankın maliyyələşdirilməsinin ümumi dəyərinə mənfi təsir. Faiz gətirən *CBDC*-lərin tətbiqi bankların maliyyələşdirmə xərclərini artıra bilər, çünki əmanətçilər faiz qazanmaq üçün öz vəsaitlərini faiz gətirən *CBDC*-lərə köçürə bilər, bu da öz növbəsində bankların kredit fəaliyyətinə potensial təsir göstərə bilər [9];
- vasitəçilikdən mümkün imtina. Faiz gətirən *CBDC*-lər vasitəçilikdən imtina edilməsinə səbəb ola bilər, kommersiya banklarının maliyyə sistemində vasitəçi rolunu azalda bilər və kreditin mövcudluğuna potensial təsir göstərə bilər;
- məxfilik məsələləri. Faiz gətirən *CBDC* məxfilik ilə bağlı sualları yarada bilər, çünki əməliyyatlar və balanslar fiziki pulla müqayisədə daha izlənilə biləndir [10];
- texnoloji problemlər. Faiz gətirən *CBDC*-lərin tətbiqi kiberhücumlara və digər təhlükəsizlik risklərinə həssas ola biləcək mürəkkəb texnoloji infrastrukturun istifadəsini nəzərdə tutur [38].

**2.2.7 Hibrid *CBDC*.** Hibrid *CBDC* həm nağd, həm hesab əsaslı *CBDC*-lərin elementlərini özündə birləşdirir və məxfilik ilə izlənilə bilənlik arasında balansı, eləcə də istifadədə çevikliliyi təklif edir [1, 36].

Hibrid *CBDC* dizaynının bir neçə müsbət cəhəti mövcuddur:

- çeviklik. Hibrid CBDC həm nağd pulun, həm də hesab əsaslı *CBDC*-lərin xüsusiyyətlərini özündə birləşdirərək, fərqli *CBDC* dizaynları arasında tarazlıq yaradır [44];
- məxfilik və izlənilə bilmə. Hibrid *CBDC* müəyyən əməliyyatlar üçün nağd əsaslı *CBDC* kimi məxfilik səviyyəsini təmin edə bilər, eyni zamanda hesaba əsaslanan əməliyyatlar üçün izlənilə bilmə və şəffaflıq təklif edir [44];
- mövcud sistemlərlə inteqrasiya. Hibrid *CBDC* mövcud maliyyə infrastrukturu və sistemləri ilə inteqrasiya etmək, qarşılıqlı fəaliyyət və qüsursuz tətbiqi təmin etmək üçün tərtib edilə bilər [44];
- monetar siyasətin effektivliyinin artırılması. *CBDC*-nin hibrid dizaynı mərkəzi banklara pul təklifi və faiz dərəcələri üzərində daha birbaşa nəzarət imkanı verə bilər, monetar siyasət tədbirlərinin effektivliyini artırır [44].

Hibrid *CBDC* dizaynının çatışmazlıqlarına aşağıdakılar daxil ola bilər:

- mürəkkəblik. Hibrid *CBDC*-nin tətbiq olunması əhəmiyyətli resurslar və təcrübə tələb edən mürəkkəb texnoloji infrastruktur və tənzimləyən qanunları tələb edə bilər [44];
- bank sektorunda fəaliyyətin pozulması. Hibrid *CBDC*-nin qəbulu kommersiya banklarının vasitəçi roluna, onların gəlirliliyinə və sabitliyinə təsir edə bilər [44];
- məxfilik məsələləri. Hibrid *CBDC* məxfiliklə bağlı narahatlıqları artıra bilər, çünki əməliyyatlar və balanslar fərdi məxfiliyə xələl gətirərək mərkəzləşdirilmiş sistemlər vasitəsilə qeydə alına və idarə oluna bilər [44];
- istifadəçilər tərəfindən qəbul olunma və tanınma. Hibrid *CBDC*-nin müvəffəqiyyəti mərkəzi banka inam, rəqəmsal ödəniş üsulları ilə tanışlıq və istifadənin asanlığı

kimi amillərdən asılı olaraq dəyişə bilən istifadəçilərin qəbul olunma və tanınma səviyyəsindən asılıdır [44].

**2.2.8 Blokçeyn əsaslı *CBDC*.** Blokçeyn əsaslı *CBDC* dizaynında əməliyyatların başlanması, köçürülməsi və təsdiqlənməsində blokçeyn texnologiyasından istifadə olunur [43]. Blokçeyn əsaslı *CBDC*-in bir neçə üstünlüyü mövcuddur:

- təhlükəsizlik. Blokçeyn əsaslı *CBDC* kriptoqrafik protokollar, dəyişməzlik və mərkəzləşdirilməmiş konsensus mexanizmləri vasitəsilə gücləndirilmiş təhlükəsizliyi təmin edə bilər [16];
- şəffaflıq. Blokçeyn texnologiyasının şəffaf təbiəti əməliyyatların şəffaflığını və yoxlanıla bilməyini artırmağa, fırıldaqçılıq və korrupsiya riskini azaltmağa imkan verir [18];
- etibar və izlənilə bilmə. Blokçeyn əsaslı *CBDC* əməliyyatların şəffaf və dəyişməz qeydiyyatını təmin etməklə, hesabatlılığı təkmilləşdirməklə və qeyri-qanuni fəaliyyət riskini azaltmaqla etibarı və icra olunan əməliyyatların izlənilmə imkanını artıra bilər [18];
- effektivlik. Blokçeyn texnologiyası hesablaşma vaxtını azaltmaqla və vasitəçilərə ehtiyacı aradan qaldırmaqla daha sürətli və daha səmərəli əməliyyatlara imkan yarada bilər [20];
- mərkəzsizləşdirmə. Blokçeyn əsaslı *CBDC* mərkəzi orqana ehtiyacı aradan qaldırmaq, *peer-to-peer* əməliyyatlara imkan vermək və ənənəvi maliyyə institutlarından asılılığı azaltmaqla mərkəzsizləşdirməni təşviq edə bilər [28];
- davamlılıq. Blokçeyn texnologiyasının mərkəzləşdirilməmiş təbiəti onu uğursuzluqlara və hücumlara qarşı daha davamlı edir, əməliyyatın davamlılığını və məlumatların doğruluğunu və tamlığını təmin edir [34].
- qarşılıqlı işləmə qabiliyyəti. Blokçeyn əsaslı *CBDC*, müxtəlif sistemlər və platformalar arasında qarşılıqlı əlaqəni asanlaşdırmaq potensialına malikdir, qüsursuz inteqrasiyaya və əməkdaşlığa imkan yaradır [23].

Blokçeyn əsaslı *CBDC*-nin üstünlükləri ilə yanaşı, bir neçə mənfi tərəfi də mövcuddur:

- miqyası genişləndirmə. Blokçeyn texnologiyası miqyası genişləndirmə problemləri ilə üzləşir, çünki blokçeyn şəbəkələrinin hesablama gücü məhdud ola bilər, bu da öz növbəsində əməliyyatların sürətinin yavaşlanması və xərclərin artması ilə nəticələnə bilər [28];
- enerji istehlakı. Blokçeyn əsaslı *CBDC*, xüsusilə *proof-of-work* konsensusu mexanizmləri daxilində əhəmiyyətli miqdarda enerji istehlakına səbəb ola bilər, bu da öz növbəsində ətraf mühitin mühafizəsi ilə bağlı narahatlıqları artırır [28];
- qanuni tənzimlənmə ilə bağlı problemlər. Blokçeyn əsaslı *CBDC*-i üçün tənzimləyici qanunlar çərçivəsi diqqətlə hazırlanmalıdır və qanunların hazırlanmasında

çirkli pulların yuyulması, terrorizmin maliyyələşdirilməsi və istehlakçıların müdafiəsi kimi problemlərin həlli nəzərə alınmalıdır [19];

- məxfilik məsələləri. Blokçeyn texnologiyası şəffaflığı təmin etsə də, əməliyyatlar və məlumatlar blokçeyndə daimi olaraq saxlanıldığından, istifadəçi məxfiliyinə potensial təhlükə yaradaraq məxfiliklə bağlı narahatlıqları da artıra bilər [19];
- blokçeyn əsaslı *CBDC*-lərin tətbiq olunmasında yaranan problemlər. Blokçeyn əsaslı *CBDC*-nin tətbiqi xüsusilə daha az texnoloji cəhətdən inkişaf etmiş bölgələrdə istifadəçilər tərəfindən qəbul olunma, texnoloji savadlılıq və infrastruktur tələbləri ilə bağlı problemlərlə üzləşə bilər [45];
- idarəetmə və qanunvericilik bazası. Blokçeyn əsaslı *CBDC* məsuliyyət, mübahisələrin həlli və tənzimləyicilərə uyğunluq kimi məsələləri həll etmək üçün aydın idarəetmə və hüquqi çərçivə tələb edir [5].

**2.2.9 Nağd əsaslı *CBDC*.** Nağd əsaslı *CBDC*, geniş əlçatanlığa malik olan, anonim və *peer-to-peer* tranzaksiyaları üçün istifadə oluna bilən valyutanın rəqəmsal növünü təmin etməklə, fiziki nağd pulun xüsusiyyətlərini təkrarlamağı hədəfləyir [1, 13].
Nəğd əsaslı CBDC-nin bir neçə üstünlüyü mövcuddur:

- rahatlıq. *CBDC*-nin nağd pula oxşar dizaynı fiziki şəxslərə tanış olan və istifadəsi asan olan rəqəmsal valyuta təqdim etməklə fiziki pulun xüsusiyyətlərini təkrarlamağı hədəfləyir [1].
- əlçatanlılıq. Nağd əsaslı *CBDC* geniş ictimaiyyətə əlçatandır və ənənəvi bank xidmətlərinə çıxışı olmayan insanlara rəqəmsal əməliyyatlarla məşğul olmağa imkan verir [40];
- təhlükəsizlik. Nağd əsaslı *CBDC*-lər fiziki pulla müqayisədə təkmilləşdirilmiş təhlükəsizlik xüsusiyyətlərini təmin edərək oğurluq və saxtakarlıq riskini azalda bilər [40];
- səmərəlilik. Nağd əsaslı *CBDC* daha sürətli və təhlükəsiz rəqəmsal ödənişləri təmin etməklə əməliyyatların effektivliyini artıra bilər [1];
- maliyyə inklüzivliyi. Nağd əsaslı *CBDC*-lər banka çıxışı olmayan və ya qismən çıxışı olan şəxslərə rəqəmsal maliyyə xidmətlərinə çıxışı təmin etməklə maliyyə inklüzivliyini təşviq edə bilər [40];
- xərclərin azaldılması. Nağd əsaslı *CBDC*-lər fiziki nağd pulun çapı, saxlanması və paylanması ilə bağlı xərcləri azaltmaq potensialına malikdir [40].

Nağd əsaslı *CBDC*-in bir neçə çatışmazlığı mövcuddur:

- məxfilik məsələləri. Nağd əsaslı *CBDC* məxfiliklə bağlı narahatlıqları artıra bilər, çünki əməliyyatlar fiziki pulla müqayisədə daha izlənilə biləndir [40];
- nağd pulun istifadəsində pozuntular. Nağd əsaslı *CBDC*-lərin geniş şəkildə tətbiq edilməsi fiziki nağd pulun yox olmasına səbəb ola bilər ki, bu da əməliyyatlar üçün əsasən nağd puldan istifadə edən insanlara təsir göstərə bilər [1];

- maliyyə vasitəçiliyinə təsir. Nəğd əsaslı *CBDC* kommersiya banklarının vasitəçi roluna mənfi təsir göstərə bilər və potensial olaraq kreditin mövcudluğuna və maliyyə sabitliyinə təsir edə bilər [6];
- texnoloji risklər. Nağd əsaslı *CBDC*-nin tətbiqi kiberhücumlara və digər təhlükəsizlik risklərinə həssas ola biləcək mürəkkəb texnoloji infrastrukturdan istifadə olunmasını nəzərdə tutur [39];
- ictimaiyyət tərəfindən qəbul olunma və tanınma. Nəğd əsaslı *CBDC*-nin müvəffəqiyyəti ictimai qəbul və etibardan asılıdır, bu da öz növbəsində mərkəzi banka inam və rəqəmsal ödəniş üsulları ilə tanışlıq kimi amillərdən asılı olaraq dəyişə bilər [25].

## 3. Müzakirə

Mərkəzi Bankın Rəqəmsal Valyutası (*CBDC*) dizaynlarına dair təqdim olunan məlumatlar müasir maliyyə sistemində yeni və önəmli bir mərhələdir. Bu tədqiqatın nəticələri *CBDC*-nin müxtəlif dizaynlarının fərdi bankların və maliyyə qurumlarının qərarlarına necə təsir edə biləcəyi barədə dərin bir baxış təqdim edir.

Nağd əsaslı *CBDC* və hesab əsaslı *CBDC* arasındakı fərqlər istifadəçilərin məlumat məxfiliyi və əməliyyatların şəffaflığı məsələlərinə yanaşması ilə bağlıdır. Hibrid *CBDC*-nin təklif etdiyi üstünlüklər və çatışmazlıqlar onun mümkün tətbiq sahələri və riskləri haqqında daha geniş bir müzakirəyə yol açır.

*CBDC*-nin tətbiqi zamanı *CBDC*-nin seçilmiş dizayn növünün iqtisadiyyatın daha geniş sahələrinə, xüsusilə də mərkəzi bankların siyasətlərinin formalaşdırılma prosesinə necə təsir edə biləcəyini də nəzərə almaq vacibdir.

Bu tədqiqatın nəticələri *CBDC*-nin gələcəkdə necə inkişaf etdirilə biləcəyi və dizayn seçimlərinin onun geniş qəbuluna və tətbiqinə necə təsir edə biləcəyi haqqında mühüm baxışlar təqdim edir.

## 4. Nəticə və tövsiyələr

Mərkəzi Bankın Rəqəmsal Valyutalarının (*CBDC*) dizaynları üzrə aparılan bu tədqiqat *CBDC*-nin müxtəlif dizaynlarının fərdi bankların və maliyyə qurumlarının qərarlarına necə təsir edə biləcəyi barədə dərin bir baxış təqdim edir. Hibrid, hesab əsaslı, token əsaslı və digər dizayn növləri arasında olan fərqlər öz əhəmiyyətləri və çətinlikləri ilə seçilir. Bu tədqiqat *CBDC*-nin tətbiq sahələrinin və potensial faydalarının daha yaxşı başa düşülməsinə kömək edir.

Tədqiqat nəticəsində aşağıdakı tövsiyələr təklif oluna bilər:

- Mərkəzi banklara tövsiyə olunur ki, *CBDC*-nin tətbiq olunmasından qabaq, *CBDC*-nin dizayn növlərinin bütün mümkün üstünlükləri və çatışmazlıqları nəzərə alınsın.
- Tədqiqatın göstərdiyi kimi, hər hansı bir *CBDC* dizayn növünün tətbiqindən əvvəl ətraflı pilot proqramların icra olunması tövsiyə olunur.

● *CBDC*-nin iqtisadiyyata və maliyyə sektoruna təsirlərinin dərin təhlilini apararaq, dövlət və özəl sektor arasında əməkdaşlığın artırılması tövsiyə olunur.

● *CBDC* dizaynlarına dair aparılan bu tədqiqatın nəticələri əsasında, mərkəzi bankların *CBDC*-nin mövcud maliyyə infrastrukturuna inteqrasiyası üçün texnoloji və məlumat məxfiliyi təhlükəsizliyini gücləndirmələri tövsiyə olunur.

## Ədəbiyyat

1. Agur, I., Ratnovski, L., & Dell'Ariccia, G. (2022). Designing central bank digital currencies. Journal of Monetary Economics, 125, 62-79. https://doi.org/10.1016/j.jmoneco.2021.05.002
2. Allen, S., Capkun, S., Eyal, I., Fanti, G., Ford, B., Grimmelmann, J., … & Zhang, F. (2020). Design choices for central bank digital currency: policy and technical considerations. SSRN Electronic Journal. https://doi.org/10.2139/ssrn.3660282
3. Andolfatto, D. (2018). Assessing the impact of central bank digital currency on private banks. wp, 2018(025). https://doi.org/10.20955/wp.2018.025
4. Atlantic Council CBDC Tracker, https://www.atlanticcouncil.org/cbdctracker/, 15 oktyabr 2023-cü il tarixində sayta baxılmışdır
5. Augusto, A., Belchior, R., Vasconcelos, A., Kocsis, I., & László, G. (2023). Cbdc bridging between hyperledger fabric and permissioned evm-based blockchains.. https://doi.org/10.36227/-techrxiv.21809430.v1
6. Banet, J. and Lebeau, L. (2022). Central bank digital currency: financial inclusion vs disintermediation. wp, 2022(2218). https://doi.org/10.24149/wp2218
7. Bommelé, J., Kleinjan, M., Schoenmakers, T., Burk, W., Eijnden, R., & Mheen, D. (2015). Identifying subgroups among hardcore smokers: a latent profile approach. Plos One, 10(7), e0133570. https://doi.org/10.1371/journal.pone.0133570
8. Cheng, P. (2022). Decoding the rise of central bank digital currency in china: designs, problems, and prospects. Journal of Banking Regulation, 24(2), 156-170. https://doi.org/10.1057/s41261-022-00193-5
9. Chiu, J., Davoodalhosseini, S., Jiang, J., & Zhu, Y. (2019). Central bank digital currency and banking. SSRN Electronic Journal. https://doi.org/10.2139/ssrn.3331135
10. Cunha, P., Melo, P., & Sebastião, H. (2021). From bitcoin to central bank digital currencies: making sense of the digital money revolution. Future Internet, 13(7), 165.
11. Dashkevich, N., Counsell, S., & Destefanis, G. (2020). Blockchain application for central banks: a systematic mapping study. Ieee Access, 8, 139918-139952.
12. Debuse, J. and Lawley, M. (2014). Benefits and drawbacks of computer-based assessment and feedback systems: student and educator perspectives. British Journal of Educational Technology, 47(2), 294-301. https://doi.org/10.1111/bjet.12232
13. Engert, W. (2017). Central bank digital currency: motivations and implications.. https://doi.org/10.34989/sdp-2017-16
14. Fernández-Villaverde, J., Sanches, D., Schilling, L., & Uhlig, H. (2020). Central bank digital currency: central banking for all?.. https://doi.org/10.21799/frbp.wp.2020.19
15. Fung, B. and Halaburda, H. (2016). Central bank digital currencies: a framework for assessing why and how. SSRN Electronic Journal. https://doi.org/10.2139/ssrn.2994052
16. Gatteschi, V., Lamberti, F., Demartini, C., Pranteda, C., & Santamaria, V. (2018). Blockchain and smart contracts for insurance: is the technology mature enough?. Future Internet, 10(2), 20. https://doi.org/10.3390/fi10020020
17. Goodell, G., Al-Nakib, H., & Tasca, P. (2021). A digital currency architecture for privacy and owner-custodianship. Future Internet, 13(5), 130. https://doi.org/10.3390/fi13050130

18. Grover, P., Kar, A., Janssen, M., & Ilavarasan, P. (2019). Perceived usefulness, ease of use and user acceptance of blockchain technology for digital transactions – insights from user-generated content on twitter. Enterprise Information Systems, 13(6), 771-800.
19. Haddad, A., Habaebi, M., Islam, M., Hasbullah, N., & Zabidi, S. (2022). Systematic review on ai-blockchain based e-healthcare records management systems. Ieee Access, 10, 94583-94615. https://doi.org/10.1109/access.2022.3201878
20. Hafid, A. and Samih, M. (2020). Scaling blockchains: a comprehensive survey. Ieee Access, 8, 125244-125262. https://doi.org/10.1109/access.2020.3007251
21. Jin, S. and Xia, Y. (2022). Cev framework: a central bank digital currency evaluation and verification framework with a focus on consensus algorithms and operating architectures. Ieee Access, 10, 63698-63714.
22. Jung, H. and Jeong, D. (2021). Blockchain implementation method for interoperability between CBDCs. Future Internet, 13(5), 133.
23. Khan, S., Amin, M., Azar, A., & Aslam, S. (2021). Towards interoperable blockchains: a survey on the role of smart contracts in blockchain interoperability. Ieee Access, 9, 116672-116691. https://doi.org/10.1109/access.2021.3106384
24. Kiff, J., Farias, A., Khan, A., Khiaonarong, T., Malaika, M., Monroe, H., … & Zhou, P. (2020). A survey of research on retail central bank digital currency. Imf Working Paper, 20(104). https://doi.org/10.5089/9781513547787.001
25. Koziuk, V. (2021). Confidence in digital money: are central banks more trusted than age is matter?. Investment Management and Financial Innovations, 18(1), 12-32.
26. Krause, B., Gotmare, A., McCann, B., Keskar, N., Joty, S., Socher, R., … & Rajani, N. (2021). Gedi: generative discriminator guided sequence generation. https://doi.org/10.18653/v1-/2021.findings-emnlp.424
27. Lee, D., Li, Y., & Wang, Y. (2021). A global perspective on central bank digital currency. China Economic Journal, 14(1), 52-66.
28. Lepore, C., Ceria, M., Visconti, A., Rao, U., Shah, K., & Zanolini, L. (2020). A survey on blockchain consensus with a performance comparison of pow, pos and pure pos. Mathematics, 8(10), 1782.
29. Low, W. and Li, C. (2019). Power advantage: antecedents and consequences in supplier–retailer relationships. Journal of Business and Industrial Marketing, 34(6), 1323-1338.
30. Lyu, A., Jiang, J., & Zhou, L. (2023). A study on the dynamic issuance mechanism based on central bank digital currency1. Journal of Intelligent & Fuzzy Systems, 1-15. https://doi.org/10.3233/jifs-221244
31. Mancini-Griffoli, T., Peria, M., Agur, I., Ratnovski, L., Kiff, J., Popescu, A., … & Rochon, C. (2019). Casting light on central bank digital currency., 307-340.
32. Maryaningsih, N., Nazara, S., Kacaribu, F., & Juhro, S. (2022). Central bank digital currency: what factors determine its adoption?. Buletin Ekonomi Moneter Dan Perbankan, 25(1), 1-24.
33. Maslov, D. (2023). Ukrainian CBDC e-hryvnya: challenges of introduction and opportunities to improve the efficiency of business processes in commercial banks. Economic Innovations, 25(2(87)), 49-54.
34. Meeuw, A., Schopfer, S., Wörner, A., Tiefenbeck, V., Ableitner, L., Fleisch, E., … & Wortmann, F. (2020). Implementing a blockchain-based local energy market: insights on communication and scalability. Computer Communications, 160, 158-171.
35. Murray, J. (2019). Central banks and the future of money. SSRN Electronic Journal. https://doi.org/10.2139/ssrn.3369649
36. Ogunode, O., Iwala, A., Awoniyi, O., Amusa, B., Omosebi, T., Kassim, S., … & Akintoye, R. (2022). Cryptocurrency and global practices: lessons for nigeria. South Asian Journal of Social Studies and Economics, 7-28.
37. Ozili, P. (2021). Can central bank digital currency increase financial inclusion? arguments for and against. SSRN Electronic Journal. https://doi.org/10.2139/ssrn.3963041

38. Ozili, P. (2021). Central bank digital currency in nigeria: opportunities and risks. SSRN Electronic Journal. https://doi.org/10.2139/ssrn.3917936
39. Ozili, P. K. (2022). Central bank digital currency in nigeria: opportunities and risks. The New Digital Era: Digitalisation, Emerging Risks and Opportunities, 125-133. https://doi.org/10.1108/s1569-375920220000109a008
40. Ozili, P. (2022). Central bank digital currency research around the world: a review of literature. Journal of Money Laundering Control, 26(2), 215-226.
41. Pfister, C. (2019). Central bank digital currency: one, two or none?. SSRN Electronic Journal. https://doi.org/10.2139/ssrn.3470143
42. Šapkauskienė, A. (2023). Central bank digital currency: research streams – a literature review. Socialiniai Tyrimai, 46(1), 68-87.
43. Sethaput, V. and Innet, S. (2023). Blockchain application for central bank digital currencies (CBDC). Cluster Computing, 26(4), 2183-2197.
44. Sidorenko, E., Sheveleva, S., & Lykov, A. (2020). Legal and economic implications of central bank digital currencies (cbdc)., 496-502.
45. Singh, C., Wojewska, A., Persson, U., & Bager, S. (2022). Coffee producers' perspectives of blockchain technology in the context of sustainable global value chains. Frontiers in Blockchain, 5. https://doi.org/10.3389/fbloc.2022.955463
46. Søilen, K. and Benhayoun, L. (2021). Household acceptance of central bank digital currency: the role of institutional trust. The International Journal of Bank Marketing, 40(1), 172-196. https://doi.org/10.1108/ijbm-04-2021-0156
47. Vergilər sosial-iqtisadi onlayn qəzet, "Mərkəzi Bank Rəqəmsal Valyuta ilə bağlı təhlillərini davam etdirir", https://vergiler.az/news/economy/22856.html, 15 oktyabr 2023-cü il tarixində sayta baxılmışdır.
48. Yang, J. and Luo, S. (2022). A study on the influence mechanism of cbdc on monetary policy: an analysis based on e-cny. Plos One, 17(7), e0268471.
49. Zams, B., Indrastuti, R., Pangersa, A., Hasniawati, N., Zahra, F., & Fauziah, I. (2020). Designing central bank digital currency for indonesia: the delphi–analytic network process. Buletin Ekonomi Moneter Dan Perbankan, 23(3), 413-440.
50. Zhang, J., Tian, R., Cao, Y., Yuan, X., Yu, Z., Yan, X., … & Zhang, X. (2021). A hybrid model for central bank digital currency based on blockchain. Ieee Access, 9, 53589-53601. https://doi.org/10.1109/access.2021.3071033

**ƏLAVƏ**

| ***CBDC* dizayn növü** | **Üstünlüklər** | **Çatışmazlıqlar** |
|---|---|---|
| Topdansatış *CBDC* | Banklararası hesablaşmaların daha sürətli və səmərəli aparılması [10].<br>Şəffaflığın və yoxlanılabilirliyin artırılması [10].<br>Likvidliyin idarə olunmasının təkmilləşdirilməsi [10].<br>Xərclərə qənaət imkanlarının yaranması [10]. | Mövcud maliyyə infrastrukturunun pozulması [10].<br>Maliyyə vasitəçiliyinə təsir [10].<br>Texnoloji problemlər [10].<br>İqtidarın konsentrasiyası üçün imkanların yaradılması [10]. |
| Pərakəndə *CBDC* | Maliyyə inklüzivliyi [32].<br>Rahatlıq və əlçatanlıq [10].<br>Xərclərin azaldılması [24].<br>Maliyyə siyasətinin effektivliyinin artırılması [2].<br>Təhlükəsizlik və izlənilə bilmə [17]. | Gizlilik məsələləri [10].<br>Bank sektoruna əks-təsir [2].<br>Texnoloji çətinliklər [43].<br>İstifadəçilər tərəfindən pərakəndə *CBDC*-nin qəbulu [29].<br>Maliyyə sabitliyi riskləri [41]. |
| Hesab əsaslı *CBDC* | Təkmilləşdirilmiş izlənilə bilmə və şəffaflıq [10].<br>Monetar siyasətin çevikliyi [46].<br>Maliyyə yeniliyi üçün potensial [10].<br>Mövcud maliyyə infrastrukturu ilə inteqrasiya [10].<br>Məqsədli siyasətlər üçün yeni imkanların yaranması [46]. | Məxfilik məsələləri [46].<br>Texnoloji problemlər [12].<br>Bank sektorunda fəaliyyətin pozulması [46].<br>İstifadəçilər tərəfindən qəbul olunma və tanınma [46].<br>Maliyyə sabitliyi riskləri [46]. |
| Token əsaslı *CBDC* | Təkmilləşdirilmiş məxfilik [32].<br>Təkmilləşdirilmiş təhlükəsizlik [32].<br>Çeviklik və qarşılıqlı fəaliyyət [32].<br>İnnovasiyalar üçün imkanlar [32].<br>Transsərhəd əməliyyatlar [32]. | Qanuni tənzimləmə problemləri [11].<br>Texnoloji mürəkkəblik [11].<br>İstifadəçilər tərəfindən qəbul olunma və tanınma [35].<br>Qanunsuz fəaliyyət üçün imkanlar [7].<br>Miqyasın genişlənməsi və səmərəlilik [26]. |
| Sintetik *CBDC* | Səmərəlilik, rahatlıq, təhlükəsizlik, bütövlük, əlçatanlıq, hesablaşmanın yekunluğu və maliyyə inklüzivliyi [8] | Məlumatlardan sui-istifadə və istifadəçi məxfiliyi ilə bağlı məsələlər [8]. |
| Faiz gətirən *CBDC* | *CBDC*-lərə sahib olmaq üçün stimul [3].<br>Monetar siyasətin effektivliyi [9].<br>Maliyyə inklüzivliyi [40].<br>Ənənəvi bank xidmətlərindən asılılığın azaldılması [37].<br>Monetar siyasətin tranmissiyasında çeviklik [9]. | Bank sektorunun fəaliyyətinin pozulması [1].<br>Bankın maliyyələşdirilməsinin ümumi dəyərinə mənfi təsiri [9].<br>Vasitəçilikdən mümkün imtina.<br>Məxfilik məsələləri [10].<br>Texnoloji problemlər [38]. |
| Hibrid *CBDC* | Çeviklik [44].<br>Məxfilik və izlənilə bilmə [44]. | Mürəkkəblik [44]. |

| | | |
|---|---|---|
| | Mövcud sistemlərlə inteqrasiya [44].<br>Monetar siyasətin effektivliyinin artırılması [44]. | Bank sektorunda fəaliyyətin pozulması [44].<br>Məxfilik məsələləri [44].<br>...ınma və |
| Blokçeyn əsaslı *CBDC* | Təhlükəsizlik [18].<br>Şəffaflıq [18].<br>Etibar və izlənilə bilmə [18].<br>Effektivlik [20].<br>Mərkəzsizləşdirmə [28].<br>Davamlılıq [34].<br>Qarşılıqlı işləmə qabiliyyəti [23]. | Miqyası genişləndirmə [28].<br>Enerji istehlakı [28].<br>Qanuni tənzimlənmə ilə bağlı problemlər [19].<br>Məxfilik məsələləri [19].<br>Blokçeyn əsaslı *CBDC*-lərin tətbiq olunmasında yaranan problemlər [45].<br>İdarəetmə və qanunvericilik bazası [5]. |
| Nağd əsaslı *CBDC* | Rahatlıq [1].<br>Əlçatanlılıq [40].<br>Təhlükəsizlik [40].<br>Səmərəlilik [1].<br>Maliyyə inklüzivliyi [40].<br>Xərclərin azaldılması [40]. | Məxfilik məsələləri [40].<br>Nağd pulun istifadəsində pozuntular [1].<br>Maliyyə vasitəçiliyinə təsir [6].<br>Texnoloji risklər [39].<br>İctimaiyyət tərəfindən qəbul olunma və tanınma [25]. |

# MİLLİ SIĞORTA BAZARININ TƏNZİMLƏNMƏSİNDƏ SƏMƏRƏLİLİYİN ARTIRILMASI YOLLARI VƏ ƏSAS İSTİQAMƏTLƏRİ

*Daxil olub: 12 avqust 2023-cü il*
*Qəbul olunub: 5 oktyabr 2023-cü il*
*Received: 12 August 2023*
*Accepted: 5 October 2023*

***Rövşən Əkbərov[1], Pərvin Kazımova[2]***
*[1]müəllim, UNEC, [2]magistr,*
*UNEC*
*prvinkazimova@gmail.com*

## Xülasə

Sığorta bazarı maliyyə bazarlarının əsas tərkib hissələrindən biridir. Sığorta əhalinin sosial rifahının artırılmasında xüsusi rola malikdir. Əlavə olaraq, ölkənin maliyyə dayanıqlılığının təmin olunmasında və iqtisadi fəallığın artırılmasında sığortanın faydaları danılmazdır. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının təmin olunması üçün milli sığorta bazarının inkişaf etdirilməsi zəruridir. Sığorta bazarının inkişaf etdirilməsinin əsas yollarından biri də onun tənzimlənmə mexanizminin təkmilləşdirilməsidir. Məqalədə sığorta bazarının tənzimlənmə mexanizminin səmərəliliyinin artırılması üçün aktual prioritetlər haqqında məlumat verilir. Tədqiqatın əsas məqsədi sığorta bazarının tənzimlənmə mexanizminin daha da təkmilləşdirilməsi üzrə təkliflərin verilməsidir. Həmçinin məqalədə sığorta bazarındakı mövcud vəziyyət təhlil edilmiş, problemlər və onların aradan qaldırılması üçün təkliflər verilmişdir. Tədqiqat empirik və empirik-nəzəri metodların istifadəsinə əsaslanmışdır. Tədqiqatın əsas məhdudiyyəti daha geniş informasiya bazasına əlçatanlığın aşağı olması ilə bağlıdır. Məqalədə irəli sürülən təkliflər sığorta qanunvericiliyinin və tənzimləmə mexanizminin təkmilləşdirilməsində müvafiq dövlət orqanları üçün faydalıdır.

***Açar sözlər:*** *sığorta bazarı, tənzimləmə, qanunvericilik bazası, innovasiya, rəqəmsal texnologiyalar.*

# WAYS AND MAIN DIRECTIONS OF INCREASING EFFICIENCY IN THE REGULATION OF THE NATIONAL INSURANCE MARKET

***Rovshan Akbarov[1], Parvin Kazimova[2]***
*[1]teacher, UNEC, [2]Master student, UNEC*
*prvinkazimova@gmail.com*

## Abstract

The insurance market is one of the main components of financial markets. Insurance has a special role in increasing the social welfare of the population. Additionally, the benefits of insurance in providing financial stability and economic activity are undeniable. In order to ensure the socio-economic development of the Republic of

Azerbaijan, it is necessary to develop the national insurance market. One of the main ways to develop the insurance market is to improve its regulatory mechanism. The article provides information on current priorities for increasing the efficiency of the insurance market regulatory mechanism. The main goal of the research is to make proposals for further improvement of the insurance market regulation mechanism. Also, the current situation in the insurance market was analyzed in the article, problems and suggestions for their elimination were given. The research is based on the use of empirical and empirical-theoretical methods. The main limitation of the study is the low availability of a wider database. The proposals put forward in the article are useful for relevant state bodies in improving the insurance legislation and regulatory mechanism.

***Keywords:*** *insurance market, regulation, legislative framework, innovation, digital technologies.*

## ПУТИ И ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ РЕГУЛИРОВАНИЯ НАЦИОНАЛЬНОГО СТРАХОВОГО РЫНКА

***Ровшан Акбаров[1], Парвин Казымова[2]***
*[1] учитель, UNEC, [2]MSc, UNEC*
prvinkazimova@gmail.com

**Резюме**
Страховой рынок является одной из основных составляющих финансовых рынков. Страхованию принадлежит особая роль в повышении социального благосостояния населения. Кроме того, неоспоримы преимущества страхования в обеспечении финансовой стабильности и экономической активности. Для обеспечения социально-экономического развития Азербайджанской республики необходимо развивать национальный страховой рынок. Одним из основных направлений развития страхового рынка является совершенствование механизма его регулирования. В статье представлена информация об актуальных приоритетах повышения эффективности механизма регулирования страхового рынка. Основной целью исследования является внесение предложений по дальнейшему совершенствованию механизма регулирования страхового рынка. Также в статье была проанализирована текущая ситуация на страховом рынке, описаны проблемы и даны предложения по их устранению. Исследование основано на использовании эмпирических и эмпирико-теоретических методов. Основным ограничением исследования является низкая доступность более широкой базы данных. Выдвинутые в статье предложения полезны соответствующим государственным органам в совершенствовании страхового законодательства и механизма регулирования.

***Ключевые слова:*** *страховой рынок, регулирование, законодательная база, инновации, цифровые технологии.*

## Giriş

Sığorta ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli rola malikdir. Sığorta fiziki və hüquqi şəxslərin rifahının, həmçinin ümumdövlət maraqlarının təmin olunmasında əsas vasitələrdən biridir. İnkişaf etmiş ölkələrin təcrübəsində sığorta sektoru bank sektoru ilə birgə ölkənin maliyyə sistemində daha böyük faydalarla çıxış edir. Hazırda dünyanın ən qabaqcıl sığorta şirkətləri eyni zamanda iri investisiya şirkətləri kimi fəaliyyət göstərməkdədir. Bura *Ping An Insurance Group, UnitedHealth Group, Allianz, AXA Group, China Life* və s. kimi sığorta şirkətlərini nümunə göstərmək olar. Ölkəmizdə də sığorta bazarının inkişafı məsələsi ən aktual mövzulardan biridir. Müstəqilliyin bərpasından günümüzədək sığorta sektorunun inkişafı məqsədilə dövlət tərəfindən mütəmadi olaraq geniş əhatəli tədbirlər həyata keçirilmişdir. Növbəti illərdə də sığorta bazarının inkişafına istiqamətlənən tədbirlərin davam etdirilməsi nəzərdə tutulmuşdur. Müstəqillik illərində sığorta bazarının inkişafında hər nə qədər böyük nailiyyətlər əldə olunsa da, sığorta bazarının mövcud vəziyyətinə və gələcək inkişafına mənfi təsir göstərən problemlər hələ də tam aradan qaldırılmamışdır. Hazırda sığorta bazarının inkişafı üzrə qarşıya qoyulan əsas məqsədlərdən biri mövcud problemlərin aradan qaldırılmasında səmərəli dövlət tənzimlənməsi mexanizmlərinin formalaşdırılmasıdır.

## Əsas tədqiqat

Sığorta bazarı sığorta münasibətlərinin formalaşdığı, alqı-satqı obyekti kimi çıxış edən sığorta məhsullarına tələb və təklifin formalaşdığı maliyyə bazarlarının tərkib hissələrindən biridir. Azərbaycanda sığortanın ilkin inkişaf tarixi XIX əsrin ikinci yarısına təsadüf etsə də, milli sığorta bazarının formalaşması müstəqilliyin bərpasından sonrakı dövrü əhatə edir. Müstəqilliyin bərpasından sonra sığorta bazarı azad bazar iqtisadiyyatına əsasən inkişaf etdirilmiş, sığortaçıların hüquqları və müstəqilliyi daha da artmışdır. Əvvəllər isə sığorta bazarı dövlət inhisarının tərkib hissəsi idi. SSRİ Dövlət Sığorta İdarəsinin dağılmasından sonra, 1991-ci ildə "Azərsığorta" Azərbaycan Dövlət Sığorta Kommersiya Şirkətinin əsası qoyulmuşdur. 1992-ci ildən etibarən şirkət müasir adı ilə fəaliyyətə başlamış, həmin ildən etibarən bazara digər özəl sığorta şirkətlərinin də daxil olması intensiv xarakter almışdır. 1993-cü ildə qəbul edilən "Sığorta haqqında Azərbaycan Resuplikasının Qanunu" sığorta bazarının inkişafında və sığorta münasibətlərinin tənzimlənməsində əsas hüquqi-normativ baza rolunu oynamışdı. Qanunda sığorta bazarının Beynəlxalq standartlara uyğun inkişafının təmin olunması məqsədilə 1999-cu ildə müəyyən dəyişikliklər edilmiş, bir müddət sığorta bazarının tənzimlənməsində uğurlar əldə edilmişdir. Lakin sonralar gözlənilən səmərənin

əldə olunmamasına görə yeni qanunun qəbul edilməsinə ehtiyac yaranmışdı. Bu səbəbdən 2007-ci ildə sığorta münasibətlərinin tənzimlənməsində yeni qanun - "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdi. Növbəti illərdə də sığorta bazarının tənzimlənməsidə hüquqi-normativ bazanın inkişaf etdirilməsi üzrə geniş və əhatəli tədbirlər həyata keçirilmişdir.

Sığorta bazarının inkişafında ən əhəmiyyətli hadisələrdən biri 2011-ci ildən etibarən ölkədə icbari sığortanın tətbiqinə başlanılması olmuşdur. Elə həmin ildə İcbari Sığorta Bürosunun əsası qoyulmuşdur. Büro bu illər ərzində sığorta münasibətlərinin tənzimlənməsində və əhalinin maarifləndirilməsində əvəzsiz rol oynamışdır. 2011-ci ildən etibarən həyata keçirilən tədbirlərin nəticəsi olaraq toplanan sığorta haqlarında ciddi artım əldə olunmuşdur. 2007-ci ildə "AzRe Təkrarsığorta" ASC əsasının qoyulması, 2012-ci ildən ölkədə Bonus-Malus sisteminin və 2016-cı ildən Yaşıl Kart Sisteminin tətbiqi, 2019-cu ildə Aqrar Sığorta Fondunun yaradılması və aqrar sığortanın inkişafı, 2020-ci ildən etibarən icbari tibbi sığortanın tətbiqi və s. kimi görülən tədbirlər nəticəsində sığorta bazarının inkişafında böyük irəliləyişlər əldə olunmuşdur. Əlbəttə ki, sığorta münasibətlərinin tənzimlənməsində əhəmiyyətli yerlərdən birini sığorta qanunvericiliyinin tələblərinin pozulmasına görə tətbiq edilən cərimələr təşkil edir. Sığorta sahəsində cərimələrin tətbiqinə 2015-ci ildən başlanılmışdır. Burada əsas məqsəd sığorta sahəsində qanunvericiliyin təmin olunması ilə sığorta bazarının hər bir iştirakçısının daha məsuliyyətli fəaliyyət göstərməsinə nail olmaqdır.

Sığorta bazarının inkişafında dövlət tərəfindən həyata keçirilən tədbirlər davam etməkdədir. Son illər sığorta bazarının həcminin genişləndirilməsində xeyli irəliləyişlər əldə olunmuşdur. Artıq son dövrlərdə hər il toplanan ümumi sığorta haqlarının həcmində 15-18% artıma nail olunur. Mərkəzi Bankın hesabatlarına əsasən 2022-ci ildə toplanan ümumi sığorta haqlarının həcmi 971 milyon manat olmuşdur. Bu, ötən ilə nisbətdə 15% artım anlamına gəlir. Lakin qeyd etmək lazımdır ki, toplanan ümumi sığorta haqlarının əsas hissəsi icbari sığorta növlərinin və könüllü sığortadan isə həyatın yaşam sığortasının payına düşmüşdür. Digər sığorta növləri isə geri planda qalmışdır. Ümumiyyətlə, 2022-ci ildə milli sığorta bazarının əsas hissəsini avtomobilin icbari sığortası, həyatın yaşam sığortası və tibbi sığorta təşkil etmişdir [3]. Göründüyü kimi sığorta bazarında bir sıra sığorta növləri üzrə təmərküzləşmə mövcuddur. Bu da sığorta bazarının inkişafına mane olan əsas problemlərdən biridir.

ASA-nın məlumatlarına əsasən 2023-cü ildə isə daşınmaz əmlakın icbari sığortası üzrə toplanan sığorta haqlarının həcmində 44% artım qeydə alınmışdır [6]. 2023-cü ildən etibarən daşınmaz əmlakın icbari sığortası üzrə sığorta şəhadətnamələrinin elektron qaydada tərtibi bu artıma daha da təkan vermişdir. 2023-cü ilin birinci rübünə əsasən toplanan sığorta haqlarının həcmində aşağıdakı sığorta növləri üstünlük təşkil etmişdir (Cədvəl 1).

Digər bir problem isə sığorta bazarında inhisarlaşmaya meyilliliyin artmasıdır. Azərbaycan Sığortaçılar Assosiasiyasının 2023-cü ilin birinci rübünə olan məlumatlara əsasən bazar payının 36,1%-i "PAŞA Həyat Sığorta" ASC-nin, 30,3%-i isə "PAŞA Sığorta" ASC-nin payına düşür. Buradan aydın olur ki, milli sığorta bazarı əsasən PAŞA Sığortanın əlində cəmləşmişdir [6]. Bu da növbəti illərdə sığorta bazarında inhisarlaşma təhlükəsinin artmasına, digər sığortaçıların sıxışdırılaraq bazardan çıxarılmasına səbəb ola bilər. Bu səbəblə sığorta bazarında rəqabət mühitinin yaxşılaşdırılmasına, digər sığorta şirkətlərinin fəaliyyətlərinin stimullaşdırılmasına dair tədbirlərin həyata keçirilməsinə ehtiyac böyükdür. Qeyd etmək lazımdır ki, ölkəmizdə sığorta bazarının inhisarlaşmasına qarşı görülən tədbirlər "Haqsız rəqabət haqqında", "Təbii inhisarlar haqqında" və "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarına əsaslanır. Ümumi qəbul edilmiş qaydalara əsasən sığorta bazarında inhisarçılığa yol verməmək üçün bir sığortaçının bazar payı 31%-dən, iki sığortaçının bazar payı isə 44%-dən artıq olmamalıdır. Lakin son illər milli sığorta bazarında hökm sürən ümumi vəziyyəti nəzərə aldıqda bu tələblərə tam riayət olunmadığı aydın olur [2, s. 36].

**Cədvəl 1. 2023-cü ilin 1-ci rübü üzrə toplanan ümumi sığorta haqlarının həcmində sığorta növlərinin payı**

| № | Sığorta növləri | Dinamika (mln AZN) |
|---|---|---|
| 1 | Həyatın yaşam sığortası | 43,253.4 |
| 2 | Tibbi sığorta | 2,693.2 |
| 3 | Daşınmaz əmlakın icbari sığortası | 11,188.4 |
| 4 | Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 6,851.9 |
| 5 | İstehsalatda bədbəxt hadisələrdən icbari sığorta | 2,031.8 |
| 6 | Əmlakın yanğından və digər risklərdən sığortası | 11,503.6 |
| 7 | Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 13,961.9 |
| 8 | Digər | 3,876.6 |

***Mənbə:*** *ASA, http://asa.az/upload/uploads/yekun.pdf*

Hazırda sığorta bazarının inkişafına mane olan ən başlıca səbəblərdən biri əhalinin sığortaya olan inamsızlığıdır. Digər yandan, əhalinin böyük bir qismi hələ də sığorta haqqında kifayət qədər məlumata malik deyil. Sığorta sahəsində vətəndaşların inamının qazanılmasının əsas yolu sığorta ödənişlərinin vaxtında ödənilməsi, münaqişələrin maksimum azaldılması və vaxtında aradan qaldırılmasıdır. Bunun da yolu sığorta bazarına dövlət nəzarətinin gücləndirilməsi və sığorta sahəsində səmərəli tənzimlənmənin təşkilidir.

2019-cu ildən etibarən sığorta bazarına nəzarət və tənzimləmə funksiyaları Mərkəzi Banka həvalə edilmişdir. Hazırda Mərkəzi Bank sığorta bazarının tənzimlənməsində və şikayətlərin vaxtında aradan qaldırılmasında operativ fəaliyyət göstərir. Gələcəkdə həyata keçirilən tənzimləmə və nəzarət tədbirlərində səmərəliliyin daha da artırılması

üçün rəqəmsal texnologiyalardan istifadə genişləndirilməlidir. Rəqəmsal texnologiyaların geniş tətbiqi, sığorta xidmətlərinin elektronlaşdırılması nöqsanların vaxtında aşkarlanaraq aradan qaldırılmasına şərait yaradacaqdır. Həmçinin sığorta bazarında şəffaflığın təmin olunmasında əlverişli mühit yaradacaqdır ki, bu da sığortaya olan inamın artmasına gətirib çıxaracaqdır.

Hazırda sığorta bazarında sığorta ödənişlərinə tətbiq olunan azadolma məbləğlərinin (franşiza) yüksək olması, bir sıra sığorta şirkətlərinin riskli qrupa daxil olan avtomobillərin sığortalanmasından imtinası, eləcə də sığorta ödənişlərindən əsassız imtina kimi şikayətlər mövcuddur. Bu da sığortaya olan inamı azaldaraq sığorta şirkətlərinin etibarına xələl gətirir. Mövcud problemlərin səbəblərini Azərbaycanın ən öndə sığortaçılarından olan PAŞA Sığortanın nümunəsində izah etmək olar. Aşağıdakı cədvəldə sığortaçı tərəfindən bazara təqdim olunan sığorta paketlərindən biri haqqında məlumatlar qeyd olunmuşdur.

**Cədvəl 2. Çinar Paketi üzrə sığorta təminatları (PAŞA Sığorta)**

| **Çinar paketi – Sığorta haqqı 99 AZN** | | |
|---|---|---|
| | **Təminat** | **Azadolma məbləği** |
| **Daşınmaz əmlakın İcbari sığortası** | **25 000 AZN** | **250 AZN** |
| **Daşınmaz əmlakın sığortası üzrə əlavə təminat** | **25 000 AZN** | **250 AZN** |
| **Üçüncü şəxslər qarşısında mülki məsuliyyət** | **5 000 AZN** | **200 AZN** |
| **Daşınar Əmlak (Ev əşyaları)** | **5 000 AZN** | **100 AZN** |

***Mənbə:*** *PAŞA Sığorta, https://pasha-insurance.az/az*

Qeyd olunan sığorta paketi üzrə sığortalıların yanğın, ildırım düşməsi, oğurluq, qarət və s. kimi ənənəvi sığorta hadisələrindən sığortalanması nəzərdə tutulmuşdur. Lakin əlavə xidmətlərin göstərilməsi nəzərdə tutulmamışdır. Digər sığorta paketləri üzrə də oxşar hallar mövcuddur. Belə halda sığortalılarda sığorta ödənişlərinin məqsədli olaraq azaldılması fikri yarana bilir. Hazırda dünyanın qabaqcıl sığorta şirkətlərində sığorta paketinə xeyli sayda xidmətlər daxildir. Məsələn, dünyanın qabaqcıl sığorta şirkətlərindən biri olan AXA Sığortada daşınmaz əmlakın sığortası üzrə təqdim olunan sığorta paketlərində sığortalının 7 gün ərzində otel xərclərinin qarşılanması, sığortalıya müvəqqəti yaşayış yerinin tapılmasında və daşınmada yardımın göstərilməsi, ev heyvanlarına qulluq, daşınmaz əmlaka daxil olan əşyaların mühafizəsi məqsədilə ardıcıl 3 gün ərzində gecə gözətçisi xidmətinin göstərilməsi, ev əşyalarının xüsusi anbara köçürülməsi və s. daxildir. Əhalinin azadolma məbləğləri üzrə narazılığının azaldılması, sığortaya marağın artırılması məqsədilə sığortaçılar təklif etdikləri sığorta paketlərinə əlavə zəruri xidmətlər daxil etməlidirlər. Sığorta paketlərinə yeni lazımi xidmətlərin daxil edilməsi ilə insanlar sığortaya zəruri ehtiyac kimi baxmağa başlayacaqlar.

Son illər ərzində avtomobilin icbari sığortasından imtina ilə bağlı Mərkəzi Bank tərəfindən dəfələrlə xəbərdarlıqlar edilmiş, əhaliyə bu barədə şikayətlərin yazılı və 966 qaynar

xəttinə zəng vurulması yolu ilə bildirilməsi üçün əlverişli şərait yaradılmışdır [7]. Lakin təəssüf ki, bu problemlər hələ də tam həllini tapmamışdır. Sığorta şirkətlərinin bir qismi əsasən kiçik mühərrikli və köhnə istehsal tarixli avtomobillərin sığortalanmasından qeyri-rəsmi imtina edirlər. Bunun da əsas səbəbi bu qrup avtomobillərin daha riskli olması ilə bağlıdır. Bu problemin həlli istiqamətində atıla biləcək addımlar sırasında sərt cəzaların tətbiqi, xüsusən lisenziyaların müəyyən müddət ərzində məhdudlaşdırılması və yeni sığorta şirkətlərinin bazara daxil olması üçün şəraitin yaradılması dayanmalıdır.

Qeyd etmək lazımdır ki, münaqişələrin yaranma səbəblərinin əsasında çox zaman əhalinin sığorta haqqında məlumatsızlığı və aşağı səviyyədə maliyyə savadlılığına malik olması dayanır. Bu həqiqətdir ki, sığortalıların əksəriyyəti sığorta müqaviləsinin şərtlərini lazımi qaydada oxumur və öz hüquqlarından xəbərsiz olurlar. Bu da sığorta hadisəsi baş verən anda münaqişələrin yaranmasına və sui-istifadə hallarına səbəb ola bilər.

Əhalinin maliyyə savadlılığının artırılması istiqamətində Mərkəzi Bank tərəfindən görülən tədbirlər hər il davam etdirilir. Əhalinin maliyyə savadlılığının artırılması məqsədilə 2015-ci ildən etibarən "Maliyyə savadlılığı" portalı istifadəyə verilmişdir. Gələcəkdə də bu kimi tədbirlər daha da genişləndirilməlidir. Əhalinin bütün təbəqələrinin məlumatlandırılması üçün istər tədris prosesində, istər müxtəlif maarifləndirici verlişlərin təşkili ilə, istərsə də digər vasitələrlə müvafiq tədbirlərin görülməsi zəruridir. Xüsusən əhalinin yaşlı və internet resurslarından daha az istifadə edən qruplarının məlumatlandırılması üzrə yeni vasitələrdən istifadə olunmalıdır. Həmçinin sığorta şirkətlərində həyata keçirilən marketinq strategiyasının və reklam siyasətinin daha da təkmilləşdirilməsinə zərurət böyükdür. Bunun üçün əhalinin mövcud tələbatlarının və istəklərinin qiymətləndirilməsi üzrə sorğu, müsahibə, müşahidə və s. metodlardan istifadə etməklə geniş əhatəli tədqiqatlar aparılmalıdır. Əhalinin sığorta sahəsində yeniliklərə dair birbaşa təkliflər irəli sürə bilməsi üçün əlverişli şəraitin yaradılması da faydalıdır. Məsələn, yeni məhsul və ya xidmətlərə dair təkliflərin irəli sürülməsində sığortalılara xüsusi imkanların yaradılması sığorta şirkətlərinin uğurlu fəaliyyətlərinin təşkilində müsbət təsirə malikdir.

Əhalinin maarifləndirilməsində mediadan səmərəli istifadə və onun fəaliyyətinə dövlət nəzarəti artırılmalıdır. Müxtəlif sığorta növləri, sığorta qaydaları və qaydaların pozulması hallarında görüləcək tədbirlər və s. haqqında əhalinin mütəmadi məlumatlandırılması üzrə mediadan geniş istifadə olunmalıdır. Medianın fəaliyyətinə nəzarətin gücləndirilməsi dezinformasiyanın da aradan qaldırılmasına şərait yaradacaqdır. Belə ki, əhali tez-tez sığorta haqqında məlumatlara rast gəldiyindən bu sahədə daha çox məlumatlı olacaqdır. Burada sosial şəbəkələrdə sığorta sahəsində yalan və əsassız iddialar irəli sürən şəxslərə qarşı cəzaların tətbiq edilməsinin vacibliyini də xüsusilə qeyd etmək lazımdır. Məlumdur ki, aşağı səviyyədə maliyyə savadına malik olan əhalinin aldadılması çox asandır. Bu da sığorta bazarının inkişafına və sığortaya olan inama ciddi zərbə vurur.

Bu sə … iyanın
aradaı … .

Əvvəldə də qeyd olunduğu kimi, sığorta bazarında bir sıra sığorta növləri üzrə təmərküzləşmə mövcuddur. Əhalinin böyük qismi digər sığorta növləri barədə ya tamamilə, ya da qismən məlumatsızdır. Ümumiyyətlə, əhalinin məhdud sığorta növləri üzrə məlumatlı olması problemləri hazırda bir çox ölkələrdə mövcuddur [10]. Bu da ona şərait yaradır ki, sığorta məhsulu əldə etmək istəyən əhali bu sığorta növlərinə müraciət etmir. Çünki əhali bu sığorta növləri haqqında məlumatlara gündəlik təcrübələrində rast gəlmir və onların faydalarından xəbərsizdir. Əhalinin öz hüquqları ilə yanaşı, digər sığorta növləri haqqında da məlumatlandırılması üzrə görülən tədbirlər genişləndirilməlidir.

Sığorta bazarının inkişafına mane olan səbəblərdən biri də əhalinin bir qisminin ödənilən sığorta haqqına artıq xərc kimi baxmasıdır. Buna inanan insanlar müxtəlif yollarla sığortalanmaqdan imtina etməyə çalışırlar. Bu halın aradan qaldırılması üçün amerikalı iqtisadçı Riçard Taler tövsiyə edirdi ki, bir neçə bənzər sığorta təminatı eyni paket daxilində təqdim edilsin. Bu zaman vətəndaşlar sığortaya artıq xərc kimi yox, əksinə onlara rahatlıq gətirən bir vasitə kimi baxmağa başlayacaqlar [11].

Sığorta bazarının inkişafında qarşıda duran əsas məsələlər sırasında sığorta bazarının maliyyə-investisiya potensialının artırılması, sığorta şirkətlərinin maliyyə dayanıqlılığının təmin olunması, sığorta bazarının tənzimlənməsində səmərəliliyin artırılması, bu sahədə dövlət nəzarətinin gücləndirilməsi və s. dayanır.

Sığorta bazarının maliyyə-investisiya potensialının artırılması üçün sığorta şirkətlərinin bazarda nüfuzunun, etibarının, həmçinin maliyyə dayanıqlılığının artırılması lazımdır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qarşıya qoyulan əsas hədəflərdən biri də sığorta bazarının maliyyə-investisiya potensialının artırılması ilə bazarın inkişafının təmin olunmasıdır [4]. Sığorta sahəsində risklərin uğurlu diversifikasiyası maliyyə-investisiya potensialının artırılmasının ilkin şərtidir. Bu səbəbdən görüləcək tədbirlər siyahısında ölkədə təkrarsığorta fəaliyyətinin daha da təkmilləşdirilməsi məsələsini xüsusilə qeyd etmək lazımdır. Təkrarsığortanın inkişafı sığorta şirkətlərinin üzləşə biləcəyi riskləri azaltmaqla yanaşı, daha yüksək riskli hadisələrin sığortalanmasına imkan yaradır. Bu da sığorta şirkətləri tərəfindən toplanan ümumi sığorta haqlarının həcminin artmasına gətirib çıxarır. Bu baxımdan şərikli sığortanın inkişafını da qeyd etmək lazımdır. Həmçinin şərikli sığorta ilə yanaşı, mikrosığortanın inkişafı sığorta bazarının maliyyə-investisiya potensialının artmasına, yeni kiçik sığorta şirkətlərinin bazara daxil olmasına səbəb ola bilər.

Sığorta şirkətlərinin maliyyə dayanıqlılığının artırılması üzrə risklərin maksimum azaldılması məqsədilə şirkətlərdə aktuari və anderraytinq fəaliyyətlərinin təkmilləşdirilməsi lazımdır. Məlumdur ki, sığorta şirkətləri fəaliyyətləri ərzində daxili və xarici

amillərin təsiri altında çoxlu sayda risklərlə üzləşməli olurlar. Bu risklərin mövcudluğu sığorta şirkətlərinin ödəmə qabiliyyətinə ciddi zərbə vura bilir. Siyasi, iqtisadi, sosial mühitdə, eləcə də ətraf mühitdə baş verən dəyişikliklər kimi risklərin yaranmasına səbəb olan amillər xarici amillər hesab olunur. Risklərin yaranmasına səbəb olan daxili amillərin isə əsasında aktuari və anderraytinq fəaliyyətlərində mövcud olan nöqsanlar və çatışmazlıqlar dayanır. Buraya bütün mümkün risklərin dəqiq müəyyən edilməməsi, sığorta haqlarının və sığorta ehtiyatlarının miqdarının, həmçinin təkrarsığortaya göndərilən risklərin həcminin, hadisələrin baş vermə tezliyinin düzgün qiymətləndirilməməsi və s. səbəblərlə meydana gələn problemləri nümunə göstərmək olar. Bu məqsəd üzrə dövlət tərəfindən beynəlxalq təcrübə əsasında dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi faydalıdır. Hazırda bu məqsədlə Mərkəzi Bank tərəfindən müvafiq tədbirlər həyata keçirilməkdədir. Gələcəkdə belə tədbirlərin daha da artırılması nəticəsində sığorta bazarının inkişafında kifayət qədər nailiyyətlər əldə oluna bilər. Sığortaçıların və mövcud təkrarsığortaçının maliyyə dayanıqlılığının artırılması, ödəmə qabiliyyətinin yaxşılaşdırılması və sığorta bazarının tənzimlənməsində səmərəliliyin artırılması üçün *"Solvency II"* prinsiplərinin ölkəmizdə tətbiq olunması faydalı olacaqdır. Hazırda bu istiqamətdə Mərkəzi Bank tərəfindən işlər görülməkdədir. *Solvency II* prinsipləri sığortaçı və təkrarsığortaçıların ödəmə qabiliyyətinə xələl gətirməyəcək kapital ehtiyatları üzrə tələbləri, şirkətlərin daxili idarəetməsi və onların fəaliyyətlərinin tənzimlənməsi, həmçinin sığorta sektorunda şəffaflığın təmin olunması üzrə tələbləri əhatə edir [23]. Məlumdur ki, hər bir sığorta və təkrarsığorta şirkətinin risklilik səviyyəsi və üzləşdiyi risklər fərqlidir. Bu halda ən yaxşı hal tənzimləyici orqanın bu riskləri nəzərə alaraq müvafiq tədbirləri həyata keçirməsidir. Qeyd olunan prinsiplər də bunu təmin edir. Əlavə olaraq, sığorta bazarında şəffaflığın təmin olunması sığorta bazarında qanunazidd fəaliyyətlərin aradan qaldırılmasına və bazarın davamlı inkişafının təmin olunmasına müsbət təsir göstərəcəkdir. *Solvency II* prinsiplərinin ölkəmizdə tətbiqi sığorta bazarının və onun tənzimlənmə mexanizminin səmərəliliyinin artırılması üçün zəruridir.

Sığorta bazarının tənzimlənməsində səmərəliliyin artırılması üçün sığorta qanunvericiliyinin daha da təkmilləşdirilməsi zəruridir. Xüsusən sığorta bazarı iştirakçılarının bir-biri ilə qarşılıqlı münasibətlərində və onların dövlət qarşısında məsuliyyətliliyinin artırılması, onların qarşılıqlı münasibətlərinin yaxşılaşdırılması üzrə qanunvericilik bazası daha da təkmilləşdirilməlidir. Sığorta bazarı iştirakçılarının qanunazidd davranışlarının aradan qaldırılması üçün zərurət yarandıqda qoyulan tələblər daha da sərtləşdirilməlidir. Məqalənin əvvəlki hissələrində sığortalıların sığorta müqaviləsinin şərtləri barədə kifayət qədər məlumata malik olmamasının problemlərə səbəb olduğu qeyd olunmuşdu. Bu səbəbdən sığortaçılar tərəfindən sığortalıların lazımi səviyyədə məlumatlandırıl-

masına dövlət tərəfindən nəzarət gücləndirilməlidir. Tələbləri qəsdən pozan sığortaçılara q ərinin



şərtlə

Məlumdur ki, sığorta bazarının inkişafı innovasiyaların tətbiqindən xeyli asılıdır. Əsasən də yeni innovativ sığorta məhsullarının yaradılması olduqca vacibdir. İnsan tələbatlarının zaman keçdikcə artması, mövcud şəraitin dəyişməsi səbəbiylə müasir sığorta məhsullarının yaradılmasına ehtiyac böyükdür. Bütün bunlarla yanaşı, sığorta proseslərini sadələşdirən, resurslara qənaət edən müasir texnologiyalardan istifadəyə ehtiyac böyükdür. Hazırda inkişaf etmiş ölkələrin təcrübəsində sığorta şirkətləri tərəfindən müştəri qruplarının kifayət qədər sığortalanmasının təhlilində və mövcud boşluqların müəyyən edilməsində *IBM SPSS Modeler, SAS Enterprise Miner* və *RapidMiner* kimi proqramlardan istifadə edilir. Həmçinin artıq *Octo Telematics, Cambridge Mobile Telematics* və *The Flow* kimi proqramlar sığortalıların faktiki sürücülük davranışlarının təhlilində və buna əsasən fərdiləşdirilmiş avtomobil sığortalarının yaradılmasında sığortaçılara xüsusi imkanlar yaradır. *Hootsuite, Sprout Social* və *Agorapulse* kimi proqramlar sosial mediada potensial müştərilərin davranışlarının izlənilməsinə, onların mövcud maraqlarının müəyyən edilməsinə kömək edir. Bununla da sığortaçılar mövcud tendensiyalara uyğun marketinq strategiyalarını formalaşdıra bilirlər. *Vertafore, Applied Systems* və *EZLynx* kimi proqramlar da mövcuddur ki, onların köməyi ilə satış nümayəndələri satış prosesini izləyə, fərdiləşdirilmiş qiymətlər yarada və məlumatları yeniləyə bilərlər. Eyni zamanda bu proqramların köməyi ilə rəhbərlik tərəfindən satış prosesinə nəzarət daha da asanlaşmış olur [24]. Bütün bunları nəzərə alaraq demək olar ki, dövlət tərəfindən sığorta şirkətlərində müasir texnologiyaların və innovasiyaların tətbiqinin stimullaşdırılmasına dair tədbirlərin görülməsi zəruridir. Buraya müəyyən güzəştləri və yardımları nümunə göstərmək olar. Əlavə olaraq, sığorta şirkətlərinin səmərəli investisiya fəaliyyətlərinin stimullaşdırılması üzrə tədbirlərin görülməsinin zəruriliyini də qeyd etmək lazımdır. Bu barədə qanunvericilik bazasının təkmilləşdirilməsi faydalı ola bilər.

Qanunvericilik bazasının təkmilləşdirilməsi icbari sığorta münasibətlərinin yaxşılaşdırılması, müəyyən olunan sığorta haqları və sığorta ödənişləri məbləğinin müasir şərtlərə uyğunluğunun dəqiqləşdirilməsi istiqamətində də olmalıdır. İcbari sığorta vasitəsilə dövlətin iqtisadiyyata tənzimləyici təsir göstərməsi mümkündür. Bunu məcburi dövlət sosial sığortasının nümunəsində izah etmək olar. Dünya təcrübəsi göstərir ki, müvafiq sığorta növü üzrə tələb olunan sığorta haqları məbləğinin azaldılması işəgötürənlərin üzərinə düşən yükü azaldır. Belə şəraitdə işəgötürənlər əlavə işçilər cəlb etməyə həvəsli olurlar. Əks halda isə işəgötürənlər üzərlərinə düşən yükü azaltmaq məqsədilə işçiləri ixtisar etməyə məcbur olurlar. İlk dəfə Almaniyada sənayenin inkişaf etdiyi dövrlərdə sığortanın qeyd olunan faydalarından geniş istifadə olunmağa başlanılmış, daha sonralar

digər inkişaf etmiş ölkələrdə də bu hal geniş xarakter almışdır [25]. Deməli, məcburi dövlət sığortası ilə ölkə üzrə məşğulluğa müəyyən istiqamətlərdə təsir etmək mümkündür. Digər tərəfdən, iqtisadiyyatda baş verən proseslər nəticəsində sığorta haqları və sığorta ödənişləri məbləğinin dəyişdirilməsinə ehtiyac yaranır. Məsələn, daşınmaz əmlak bazarında qiymətlər ildən-ilə dəyişməkdədir. Bu səbəbdən daşınmaz əmlakın icbari sığortası üzrə təminatların müasir şərtlərə uyğunlaşdırılmasına ehtiyac vardır.

Sığorta bazarında münaqişələrin maksimum dərəcədə aradan qaldırılması məqsədilə də qanunvericilik bazasının təkmilləşdirilməsi zəruridir. Sığorta münaqişələrinin mediasiya prosesində həll edilməsi və müstəqil ekspertlərin fəaliyyətlərinin təkmilləşdirilməsi üzrə qanunvericilik bazasının inkişafına xüsusi ehtiyac vardır. 2019-cu ildə "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi sığorta bazarında mövcud münaqişələrin həlli istiqamətində də böyük addım idi. Mövcud qanunvericiliyə əsasən artıq münaqişələrə sığortalının fiziki şəxs olduğu halda könüllü, hüquqi şəxs olduğu halda isə məcburi qaydada mediasiya prosesində baxılır. Bu mexanizmin ölkəmizdə nisbətən yeni olması səbəbiylə növbəti illərdə əlavə təkmilləşdirilmə tədbirlərinə ehtiyac vardır. Qeyd etmək lazımdır ki, sığorta münaqişələrinin məhkəməyə qədərki dövrdə həll olunması üzrə ölkəmizdə sığorta ombudsmanının yaradılması da faydalı ola bilər.

Sığorta vasitəçilərinin fəaliyyətlərinin təkmilləşdirilməsi üzrə də qanunvericilik bazasının təkmilləşdirilməsi faydalıdır. Bu, sığorta bazarında mövcud münaqişələrin azaldılmasında effektiv yoldur. Sığortaçı və sığortalılar arasında münasibətlərin səmərəli təşkili sığorta bazarının gələcək inkişafı üçün faydalıdır. Dünya təcrübəsinə əsasən demək olar ki, əhalinin xüsusən yaşlılardan ibarət olan təbəqisi sığorta məhsullarının satın alınmasında ənənəvi üsullara etibar edirlər. Yəni onlar sığortaçı və sığorta vasitəçilərinə müraciət etməklə sığortalanmağı müasir texnologiyalardan istifadə əsasında sığortalanmaqdan daha üstün tuturlar. Bunu nəzərə alaraq sığorta vasitəçilərinin fəaliyyətlərinin təkmilləşdirilməsi üzrə geniş əhatəli tədbirlər həyata keçirilməlidir.

Sığorta bazarının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi üzrə ölkəmizdə "*blockchain*" texnologiyalarından da gələcəkdə istifadə oluna bilər. 2017-ci ildən başlayaraq bir çox inkişaf etmiş ölkələrdə sığorta bazarının təkmilləşdirilməsində bu texnologiyalardan istifadə edilir. *Blockchain* texnologiyaları rəqamsal əməliyyatların reallaşdırılmasına əsaslanmaqla olduqca etibarlı və şəffaf hesab olunur. Bu səbəbdən inkişaf etmiş ölkələrin təcrübəsində istifadəsi gün keçdikcə artmaqda davam edir [16]. Gələcəkdə bu texnologiyaların ölkəmizdə tətbiqi sığorta bazarına nəzarətin gücləndirilməsində və vaxtında real şəraitə uyğun tənzimləmə tədbirlərinin həyata keçirilməsində faydalı ola bilər.

Milli sığorta bazarında mövcud vəziyyəti nəzərə alaraq demək olar ki, növbəti illərdə sığorta şirkətləri arasında rəqabətin gücləndirilməsi üçün əlavə tədbirlərin həyata keçirilməsi zəruridir. Milli sığorta bazarının mövcud vəziyyətini daha yaxşı təsvir etmək

məqsədilə qrafik 1-də qeyd olunan məlumatlara əsasən Herfindal-Hirşman İndeksi (HHİ) əsasında bazarın təmərküzləşmə səviyyəsini hesablamaq lazımdır. Qeyd etmək lazımdır ki, indeks 1500-dən aşağı qiymət aldıqda bazar rəqabətli, 1500-2500 arası qiymətlər aldıqda orta səviyyədə təmərküzləşmiş, 2500-dən yuxarı qiymətlər aldıqda yüksək səviyyədə təmərküzləşmiş, indeks 10000 qiyməti aldıqda isə bazar inhisarlaşmış hesab olunur.

$$HHİ = s_1^2 + s_2^2 + s_3^2 + \ldots s_n^2 = 1{,}6^2 + 2{,}7^2 + 0{,}7^2 + \ldots + 30{,}3^2 = 2354{,}08 \quad (1)$$

**Qrafik 1. Sığorta şirkətlərinin bazar payı (I rüb 2023-cü il)**




***Mənbə:*** *ASA, http://asa.az/upload/uploads/yekun.pdf*

Nəticələrə əsasən demək olar ki, hazırda milli sığorta bazarı orta səviiyyədə təmərküzləşmişdir. Bu səbəbdən ilk növbədə rəqabət mühitinin yaxşılaşdırılmasına əsaslanan yeni strategiyaların işlənib hazırlanması lazımdır. Burada sığortaçıların fəaliyyətlərinin stimullaşdırılması və onların qanunazidd əməllərinə görə tətbiq edilən cəzaların sərtləşdirilməsi kimi tədbirləri xüsusilə qeyd etmək lazımdır. Sığortaçıların fəaliyyətlərinin mütəmadi olaraq qiymətləndirilməsi üçün yeni meyarların işlənib hazırlanması faydalıdır. Ümumiyyətlə, sığortaçıların fəaliyyətlərinə nəzarətin gücləndirilməsi və davamlı məlumatların şəffaf şəkildə ictimaiyyətə çatdırılması lazımdır. Sığortaçılar bazarda nüfuzlarını qorumaqda maraqlıdırlar. Şirkətinin etibarına xələl gəlməsi səhmdarların, sığortalıların, potensial müştərilərin və digər əlaqəli şəxslərin itirilməsinə səbəb ola bilər. Buna görə də, sığortaçılar belə şəraitdə fəaliyyətlərini maksimum dərəcədə təkmilləşdirməyə çalışacaqlar. Məsələn, 2022-ci ildən etibarən Mərkəzi Bank avtomo-

bilin icbari sığortası üzrə "şikayət indeksi" hazırlayaraq ictimaiyyəti sığorta şirkətlərindəki mövcud vəziyyət barədə məlumatlandırır. Şikayət indeksinin hazırlanması sığortaçıları daha yaxşı fəaliyyət göstərməyə məcbur etmişdir. Bu istiqamətdə görülən bu kimi işlərin əhatə dairəsinin genişləndirilməsi sığortanın gələcək inkişafında əhəmiyyətli rol oynayacaq. Gələcəkdə sığorta şirkətlərinin fəaliyyətlərinin qiymətləndirilməsi üzrə yeni meyarların formalaşdırılması, şirkətlərin reytinqini hazırlayan strukturun yaradılması və reytinqdə irəlidə olan sığortaçıların müxtəlif formalarda mükafatlandırılması kimi tədbirlərin həyata keçirilməsi faydalı ola bilər.

Əlavə olaraq, onu demək lazımdır ki, sığorta sahəsində savadlı kadrların hazırlanması, mövcud kadrların bilik və təcrübələrinin artırılması üzrə görülən tədbirlər genişləndirilməlidir. Bunun üçün inkişaf etmiş dövlətlərin təcrübəsinin sığorta sahəsinə inteqrasiyasını sürətləndirməyə xidmət edən dövlət proqramlarının mütəmadi olaraq həyata keçirilməsi zəruridir. Əlavə olaraq, yerli sığortaçıların beynəlxalq sığorta bazarına inteqrasiyasını sürətləndirən, beynəlxalq əməkdaşlıq münasibətlərini möhkəmləndirən tədbirlər həyata keçirilməlidir. Onu da qeyd etmək lazımdır ki, sığortaçıların müasir metod və texnologiyalardan istifadə üzrə məlumatlılığının artırılmasına da dövlət dəstəyinin artırılması faydalıdır. Qeyd olunan fəaliyyətlərin reallaşdırılması üzrə ayrıca strukturların da növbəti illərdə yaradılması mümkündür. Sığorta bazarının inkişafı məqsədilə sığorta sahəsində aparılan tədqiqatlar daha geniş xarakter almalı, beynəlxalq təcrübənin öyrənilməsi və yerli sığorta təcrübəsinin təkmilləşdirilməsi istiqamətində görülən işlər intensivləşdirilməlidir. Bu məqsədlə sığorta sahəsi üzrə tədqiqatlara əsaslanan elmi jurnalların təsis edilməsi zəruridir. Belə ki, bu yolla sığorta sahəsində elmi bazanın təkmilləşdirilməsinə nail olmaq mümkündür. Növbəti illərdə görülməsi zəruri olan tədbirlər sırasında sığortaçılarla sığortalılar arasında qarşılıqlı münasibətlərin yaxşılaşdırılmasını, sığorta bazarında mövcud problemlərin və onlara təsir edən amillərin ətraflı təhlilini, onların aradan qaldırılma yollarının aşkar edilməsini, sığorta sektorunda müasir təcrübələrin tətbiqi imkanlarının genişləndirilməsini, həmçinin milli sığorta bazarının beynəlxalq sığorta bazarına inteqrasiyasının sürətləndirilməsini qeyd etmək olar.

## Nəticə

Aparılan tədqiqat nəticəsində sığorta bazarında təmərküzləşmə, inamsızlıq, məlumatsızlıq, sığortaya marağın az olması, inhisarlaşma təhlükəsi və s. kimi problemlərin mövcud olması aşkar edilmişdir. Buna əsasən məqalədə sığorta bazarının inkişafı üzrə görülən tədbirlər barədə məlumat verilmiş, tədqiqatın nəticələrinə uyğun olaraq sığorta bazarının inkişafı və onun tənzimlənmə mexanizminin səmərəliliyinin artırılması məqsədilə müxtəlif istiqamətli tövsiyələr qeyd olunmuşdur. Qeyd olunan tövsiyələr geniş əhatəli təhlillərə əsaslandırılmaqla real vəziyyətə uyğun tərtib edilmişdir və sığorta sektorunun inkişafı üçün faydalıdır. Qeyd etmək lazımdır ki, məqalədə sığorta

bazarının tənzimlənmə mexanizminin səmərəliliyinin artırılmasında faydalı ola biləcək yeni istiqamətlər haqqında məlumat verilir.



**Ədəbi**

1. Ataşov B. X. (2016) Maliyyə Bazarları. Bakı, "Kooperasiya"- 456 səh.
2. Ataşov B.X., Ələkbərov Ə.Ə., Xudiyev N.N. (2018) Sığorta işi. Bakı, "Kooperasiya"- 416 səh.
3. Azərbaycan Respublikasının Mərkəzi Bankı, "Maliyyə Sabitliyi" haqqında hesabat, Bakı, 2022-ci il – 88 səh.
4. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında Azərbaycan Respublikasının Sərəncamı, Bakı, 2 fevral 2021-ci il № 2469.
5. https://www.cbar.az/
6. http://asa.az/upload/uploads/yekun.pdf
7. https://fed.az/az/sigorta/merkezi-bankdan-sigorta-sirketlerine-xeberdarliq-avtomobilin-icbari-sigortasindan-imtina-etmek-olmaz-151926
8. Sığorta bazarının inkişafına nə mane olur (sia.az)
9. https://axa-in-france.fr/home-insurance/
10. Pitthan F. and Witte K.D. (2021) Puzzles of Insurance Demand and its Biases: A survey on the Role of Behavioural Biases and Financial Literacy on Insurance Demand. *Journal of Behavioral and Experimental Finance,* 30, 100471.
11. Thaler R. (1985) Mental accounting and consumer choice. Marketing science, 4(3), 199-214.
12. Standaert W. and Muylle S. (2022) Framework for open insurance strategy: insights from a European study. *Journal of The Geneva Papers on Risk and Insurance,* 47:643-668.
13. Robert W.K. (2012) Principles for Insurance Regulation: An Evaluation of Current Practices and Potential Reforms. *Journal of The Geneva Papers on Risk and Insurance,* 37:175-199.
14. Carlos J. (2022) Some implications of the new global digital economy for financial regulation and supervision. *Journal of Banking Regulation,* Vol.24 No.2, pp.145-155.
15. Nykvist B. And Maltais A. (2022) Too risky-The role of finance as a driver of sustainabilty transition. *Journal of Environmental Innovation and Societal Transation,* Vol.42 No.3, pp. 219-231.
16. Brophy R. (2020) Blockchain and insurance: a review for operation and regulations. *Journal of Financial Regulation and Compliance,* Vol.28 No.2, pp.215-234.
17. Lanfranchi D. and Grassi L. (2021) Examining insurance companies' use of technology for innovation. *Journal of The Geneva Papers on Risk and Insurance,* 47:520-537.
18. Bryzgalov D. V. and Tsyganov A. A. (2022) Consumer Limitations on the Digitalization of the Insurance Market and Ways to Overcome Them. *Studies on Russian Economic Development,* Vol.33, No. 5, pp. 539-546.
19. Spence M. (2021) Government and economics in digital economy. *Journal of Government and Economics,* 3, 100020.
20. Gatzert N., Philipp R. and Zitzmann A. (2020) Sustainability risk & opportunities in the insurance industry. *Journal of ZversWiss,* 109:311-331.
21. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 29 mart 2019-cu il № 1555-VQ.
22. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 24 iyun 2011-ci il № 165-IVQ.
23. https://www.actuaries.org.uk/system/files/field/document/IandF_SA3_SolvencyII-2016.pdf
24. https://konfuzio.com/en/software-for-insurance/
25. Li D.D. and Maskin E.S. (2021) Government and economics: An emerging field of study. *Journal of Government and Economics,* 1, 100005.

# QİDA ZƏNCİRİNİN İZLƏNİLMƏSİNİN TƏMİN EDİLMƏSİ QİDA TƏHLÜKƏSİZLİYİ SİSTEMİNİN ƏSASI KİMİ

*Daxil olub: 1 avqust 2023-cü il*
*Qəbul olunub: 14 sentyabr 2023-cü il*
*Received: 1 August 2023*
*Accepted: 14 September 2023*

***Ceyran Bəbirova***
*doktorant, UNEC*
*jeyran.babirova@gmail.com*

## Xülasə

Qida təhlükəsizliyinin təmin olunması məsələsi son dövrlərdə bir çox ölkələrin əsas ortaq problemi olmaqla, beynəlxalq səviyyədə aktual məsələlərdən birinə çevrilmişdir. Əgər 2000-ci illərin əvvəllərində ölkələr qida təhlükəsizliyi problemləri ilə əlaqədar yaranmış mənfi nəticələrin aradan qaldırılmasına çalışırdılarsa, hazırda bu mövqe daha çox qida təhlükəsizliyi sahəsində preventiv addımların atılmasına doğru dəyişmişdir. Bu məqsədlə də ölkələr daha çox Avropa İttifaqının istehlakçı hüquqlarının qorunması və qida təhlükəsizliyi sistemində qida zəncirinin bütün mərhələlərinin izlənilməsinin təmin edilməsi prinsiplərinə əsaslanan bir sistem qurmağa çalışırlar. Bu səbəbdən də qida zəncirinin izlənilməsinin təmin edilməsi məsələsi hazırda bir sıra ölkələrin bu sahəyə olan marağını daha da artırmaqla, sözügedən istiqamətdə elmi araşdırmaların aparılmasına ehtiyac yaradır. Bununla əlaqədar olaraq, məqalədə daha çox qida zəncirinin izlənilməsi anlayışı fərqli beynəlxalq təşkilatlar, ölkələr və beynəlxalq standartlar nöqteyi-nəzərindən təhlil edilmişdir. Bu zaman qida zəncirinin izlənilməsi sisteminin əsas maraqlı tərəfləri ətraflı tədqiq edilmiş və hər bir maraqlı tərəf üzrə qida zəncirinin izlənilməsi sisteminin əhəmiyyətliliyi qruplaşdırılmışdır. Bundan əlavə, tədqiqat işinin nəticəliliyinin təmin edilməsi məqsədilə qida zəncirinin izlənilməsinin əsas indikatoru olan qida məhsullarının geri çağırılması halları ayrı-ayrı ölkələr üzrə tədqiq edilmiş, əldə olunan nəticələr əsasında qida zəncirinin izlənilməsi sisteminin qısamüddətli və uzunmüddətli dövrdə qida təhlükəsizliyi sisteminə təsiri öyrənilmişdir.

***Açar sözlər:*** *qida təhlükəsizliyi, izlənəbilirlik, qida zəncirinin izlənməsi sistemi, qida məhsullarının geri çağırılması.*

# ENSURING FOOD CHAIN TRACEABILITY AS THE BASIS OF A FOOD SAFETY SYSTEM

***Jeyran Babirova***
*PhD student, UNEC*
*jeyran.babirova@gmail.com*

## Abstract

The issue of ensuring food safety has recently become one of the urgent and main common problem for many countries at the international level. If in the early 2000s,

countries tried to eliminate the negative consequences of food safety problems, now this position has changed more towards taking preventive steps in the field of food safety. For this purpose, the countries are trying to establish a system based on the principles of the protection of consumer rights and the tracking of all stages of the food chain in the food safety system of the European Union. For this reason, the issue of monitoring the food chain currently increases the interest of a number of countries in this field and creates the need for conducting scientific research in the mentioned field. In this regard, in the article, the concept of food chain traceability was analyzed from the point of view of different international organizations, countries and international standards. At this time, the main stakeholders of the food chain traceability system were studied in detail and the importance of the food chain traceability system was grouped for each stakeholder. In addition, in order to ensure the consequentiality of the research work, the cases of recalls of food products, which are the main indicator of food chain monitoring, were studied for individual countries, based on the results, the impact of the food chain monitoring system on the food safety system in the short term and long term was studied.

***Keywords:*** *food safety, traceability, food chain tracking system, food products recalls.*

## ОБЕСПЕЧЕНИЕ ПРОСЛЕЖИВАЕМОСТИ ПИЩЕВОЙ ЦЕПИ КАК ОСНОВА СИСТЕМЫ ПИЩЕВОЙ БЕЗОПАСНОСТИ

***Джейран Бабирова***
*аспирант, UNEC*
*Jeyran.babirova@gmail.com*

### Резюме

Вопрос обеспечения безопасности пищевых продуктов в последнее время стал одним из актуальных вопросов на международном уровне, являясь основной общей проблемой многих стран. Если в начале 2000-х годов страны пытались ликвидировать негативные последствия проблем с безопасностью пищевых продуктов, то сейчас эта позиция больше изменилась в сторону принятия превентивных мер в сфере безопасности пищевых продуктов. Для этого страны пытаются построить систему, основанную на принципах защиты прав потребителей и обеспечения мониторинга всех этапов пищевой цепи в системе безопасности пищевых продуктов Евросоюза. По этой причине вопрос мониторинга пищевой цепи в настоящее время повышает интерес ряда стран к этой области и создает необходимость проведения научных исследований в указанном направлении. В связи с этим в статье дополнительно анализируется концепция просле-

живаемости пищевой цепи с точки зрения различных международных организаций, стран и международных стандартов. В это время основные заинтересованные стороны системы прослеживаемости пищевой цепи были подробно изучены, и важность системы прослеживаемости пищевой цепи была сгруппирована для каждой заинтересованной стороны. Кроме того, в целях обеспечения эффективности исследовательской работы по отдельным странам были изучены случаи отзывов пищевых продуктов, которые являются основным индикатором мониторинга пищевой цепи. Была изучена система обеспечения безопасности пищевых продуктов в краткосрочной и долгосрочной перспективе.

***Ключевые слова:*** *безопасность пищевых продуктов, прослеживаемость, система прослеживаемости пищевой цепи, отзыв пищевой продукции.*

## Giriş

Qida məhsullarının izlənilməsi anlayışı milli qida təhlükəsizliyinə nəzarət sisteminin vacib kompenenti olmaqla mənası müxtəlif təşkilatlar və müxtəlif ölkələr tərəfindən fərqli cür izah edilmişdir. Məsələn *Kodeks Alimentarius* Komissiyası tərəfindən qida məhsullarının izlənilməsi anlayışı "istehsalın, emalın və paylamanın müəyyən mərhələləri boyunca qida məhsullarının hərəkətini izləmək bacarığı" kimi müəyyən edilmişdir. Bu zaman, qida məhsullarının izlənilməsi anlayışı qida məshullarının nəzarət sistemi çərçivəsində yaranmış təhlükələrə nəzarət edən, məhsul ilə bağlı etibarlı informasiyaları təmin edən və məhsulun həqiqiliyinə və keyfiyyətinə zəmanət verən bir alət kimi nəzərdən keçirilir [1]. Amerika Birləşmiş Ştatlarının Qida və İçki Administrasiyasına görə isə qida məhsullarının izlənəbilərliyi qida məhsulunun və onun tərkib hissələrinin tədarük zəncirinin bütün mərhələlərində həm geriyə, həm də irəliyə doğru hərəkətini izləmək qabiliyyətidir [2]. Azərbaycan Respublikasında isə qida məhsullarının izlənilməsi dedikdə qida və yem məhsullarının, habelə onlara əlavə edilməsi nəzərdə tutulmuş maddələrin və qida istehsalı üçün nəzərdə tutulmuş heyvanların qida zəncirnin bütün mərhələlərində izlənilməsi başa düşülür [3].

Son illərdə qida təhlükəsizliyi məsələləri daha ciddi xarakter almaqla həm əhali sağlamlığının qorunması, həm də ölkənin ixrac potensialının artırılmasında mühüm siyasi amil rolunda çıxış etməkdədir. Beləliklə, qida məhsullarının istehsalı, emalı, saxlanması, daşınması və pərakəndə satışı da daxil olmaqla, bütün qida tədarükü zəncirində baş vermiş qida hadisəsi haqqında ətraflı məlumatı izləmək və nəzarət etmək çox vacibdir. Hazırda beynəlxalq təcrübədə qida təhlükəsizliyinin dəqiq və effektiv izlənməsi sisteminin yaradılması qida təhlükəsizliyi məsələlərinin həlli üçün əsas həll yolu hesab olunur [4]. Qida yoluxucu xəstəlikləri və ya çirklənmə hadisəsinin baş verməsi halında məhsulun səmərəli izlənməsi dövlət qurumlarına, qida istehsal edən və satan şəxslərə məhsulun

mənbəyini və çirklənmənin baş verə biləcəyi yeri sürətlə tapmaqda kömək edir. Bu isə öz növbəsində, keyfiyyətsiz məhsulun bazardan daha tez çıxarılmasına imkan verir və qida yoluxucu xəstəliklərinin yayılmasının qarşısını alır [2]. İzləmə sistemi qida məhsullarının təhlükəsiz və keyfiyyətli olmasını təmin etməklə yanaşı, qida məhsullarının geri çağırılması ilə bağlı xərclərin də azalmasına səbəb olur [5].

Qlobal qida təchizatı sistemi daim artan istehlakçı tələbləri və yoluxucu qida xəstəlikləri ilə əlaqədar olaraq daha da təzyiq altındadır. İqlim dəyişikliyi, torpağın deqradasiyası, qida məshullarında müşahidə edilən normadan artıq pestisid və antibiotik qalıqları və bunların nəticəsində istehlakçılarda yaranan antibiotik resisdentliyi hazırda ən çox rast gəlinən qida təhlükəsizliyi problemləridir [5]. Son dövrlərdə ölkəmizdə də ən çox rast gəlinən aflatoksin, salmonella, bruselyoz, qara yara, qəhvəyi mərmərbağacığı xəstəlikləri kimi, qida, bitki və heyvan sağlamlığı problemləri qida zəncirinin izlənilməsi sisteminin formalaşdırılmasını daha da zəruri etməkdədir.

Qida Texnoloqları İnstitutunun və Cənubi Amerika, Asiya və Yaxın Şərqdəki Qlobal Qida İzləmə Mərkəzi tərəfindən həyata keçirilmiş tədqiqat işinə əsasən, qida məhsullarının izlənilməsi sisteminin yaradılması inkişaf etməkdə olan və zəif inkişaf etmiş ölkələrdə daha aktualdır [6]. Tədqiqat işində alimlər qida məhsullarının izlənilməsi sisteminin yaradılmasının məhsulların rəqabət qabiliyyətliliyinin artırılması, qida məhsulları istehsalında korrupsiya və kölgə iqtisadiyyatı hallarının azaldılması kimi bir sıra məsələlərə toxunmuşdurlar. Bundan əlavə, qida məhsullarının izlənilməsi sistemi sözügedən ölkələrdə kiçik və orta sahibkarlığı qorumağa şərait yaradır. Son on ildə müşahidə edilmiş bir neçə qida təhlükəsizliyi hadisəsindən də bildiyimiz kimi, bir məhsulda baş verən qida təhlükəsizliyi hadisəsi bütün sektora təsir edir. Beləliklə, izləmə sistemi bu ölkələrə və təchizat zəncirlərinə ərzaqlarının təhlükəsiz olduğunu və davam edən qida təhlükəsizliyi insidentləri ilə əlaqəsi olmadığını əminliklə sübut etməyə imkan verir. İzləmə sistemi həm də təchizat zəncirində qeyri-qanuni fəaliyyətlərin aradan qaldırılmasına kömək edir. Bu isə tədarükçülərə və müştərilərə satın aldıqlarının qanuni, təhlükəsiz və ədalətli şəkildə satıldığına əmin edir. Təkmilləşdirilmiş izləmə sistemi yerli istehsal olunan məhsulların istehlakını təşviq edir, bununla da inkişaf etməkdə olan və ya zəif inkişaf etmiş ölkənin milli iqtisadiyyatına kömək edir. Eyni zamanda, daha yaxşı izlənilmə həm də yerli istehsal olunan qidaları regiondan kənar bazarlara çıxararaq və ona tələbat yaradaraq beynəlxalq ticarəti asanlaşdırmağa kömək edir.

Effektiv qida zəncirinin izlənilməsi sisteminin tətbiqi öz növbəsində yoxlanıla bilən və qida məhsullarının qüvvədə olan keyfiyyət standartlarına uyğunluğunu təmin edən proqramların tətbiqi imkanlarını genişləndirir. Müvafiq məlumatların izlənilməsi kənd təsərrüfatı subyektlərinə riskləri daha yaxşı idarə etməyə imkan verir və qida ilə bağlı böhran vəziyyətlərinə, məhsulun geri çağırmalarına tez reaksiya verməyə imkan yara-

dır. Effektiv izləmə sistemləri, əlaqəli məhsulların mənbəyini və yerini müəyyən etməyə kömək edən əsaslı məlumatlara daha sürətli çıxış təmin etməklə, heyvan və ya bitki xəstəliyinin baş verdiyi zaman baş vermiş böhran vəziyyətinə qarşı cavab tədbirlərinin həyata keçirilməsi üçün lazım olan müddəti əhəmiyyətli dərəcədə azaldır. Beləliklə demək olar ki, istehsalçıdan istehlakçıya qədər qida zəncirinin istənilən mərhələsindəki məlumat (istehsalçı, mənşə ölkəsi və s. haqda məlumatlar) mühüm əhəmiyyət kəsb edir.

Bundan əlavə, qida zəncirinin izlənilməsi sisteminin yaradılması qida xəstəlikləri ilə bağlı yaranmış böhran vəziyyətlərində ictimaiyyətin düzgün məlumatlandırılmasına və əvvəlcədən dəqiq hesablanmış qida məhsullarının geriçağırılmasına imkan yaratmaqla, bununla əlaqədar yaranmış ticarət xərclərini minimuma endirməyə imkan verir. Beynəlxalq Ticarət Mərkəzinin məlumatlarına əsasən effektiv izlənilmə sisteminin yaradılması nəticəsində qida məhsullarının geriçağırılması ilə bağlı xərcləri 50 % və hətta 95 %-ədək azaltmaq mümkündür [7].

Yuxarıda qeyd olunan faydalardan əlavə, qida zəncirinin izlənilməsi sisteminin formalaşdırılmasının aşağıdakı faydalarını da qeyd etmək mümkündür:

- Qida zəncirinin izlənilməsi sistemi baş vermiş qida təhlükəsizliyi problemləri ilə bağlı yaranmış xərcləri azaltmaqdansa, bu problemlər baş verməzdən əvvəl onların qarşısını ala bilər.
- Düzgün informasiya texnologiyalarından istifadə etməklə formalaşdırılmış izlənilmə sistemi sahibkarlıq subyektlərinə real vaxt rejimində riskləri izləməyə və ondan yayınmağa şərait yaradır.
- İzlənilmə sistemi biznes subyektlərinə daha optimal idarəetmə qərarları verməyə şərait yaradır ki, bu da nəticədə onların bazar payının artmasına və əməliyyat xərclərinin azalmasına səbəb olur.
- İzləmə sistemi nəticəsində qida təsərrüfatı subyektləri onlara məxsus olan resurslardan daha səmərəli və effektiv istifadə edə bilir ki, bu da onların davamlı olaraq gəlirlərinin artırılmasına şərait yaradır.
- Düzgün tətbiq olunarsa, izləmə sistemi köhnəlmiş məhsul itkilərini azalda, inventar səviyyələrini aşağı sala, istehsal prosesi və təchizatla bağlı çətinliklərinin müəyyənləşdirilməsini sürətləndirə, logistika və paylama əməliyyatlarının effektivliyini artıra bilər.
- İzləmə sistemi istehlakçı inamının artmasına səbəb olur ki, bu da öz növbəsində firmanın brend adının bazarda möhkəmlənməsinə və dolayısı ilə firmanın bazar payının artmasına gətirib çıxarır.

Yolanda Picoya görə, qida zəncirinin izlənilməsi sisteminin əsas xarakteristikaları aşağıdakılardır [8]:

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, oktyabr - dekabr, 2023, səh. 95 - 103
Scientific Reviews in UNEC, Year 11, Volume 11, October - December, 2023, pp. 95 - 103

- bütün inqrediyentlərin və məhsulların vahidlərinin/partiyalarının identikləşdirilməsi;
- bölmələrin/partiyaların nə vaxt və harada logistikası və ya emalı barədə məlumatların qeydiyyatı;
- bu məlumatları birləşdirən və bütün müvafiq izlənmə məlumatlarını məhsulla növbəti mərhələyə və ya emal mərhələsinə ötürən sistemin formalaşdırılması.

Beləliklə, yuxarıda qeyd olunan məsələləri də nəzərə aldıqda aydın olur ki, qida zəncirinin izlənilməsi sisteminin əhəmiyyətini ölkələrin qida məhsullarının geriçağırılması ilə bağlı üzləşdikləri problemləri araşdırmaqla statistik əks etdirmək mümkündür. Bunun üçün İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məhsul geriçağırılmaları ilə bağlı məlumat bazası araşdırılmışdır [9].

**Qrafik 1. 2015-2022-ci illərdə qida məhsullarının geriçağırılması trendi**




***Mənbə:*** *İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatları əsasında tədqiqatçı tərəfindən hazırlanmışdır.*

Qrafikdən də göründüyü kimi, 2020-ci ilə qədər dövrdə qida məhsullarının geri çağırılmasında kəskin azalma müşahidə edilsə də, 2020-ci ildən etibarən sözügedən göstəricidə artım qeydə alınmışdır. Belə ki, 2015-ci ildə 22 ədəd ölkədə qida məhsullarında geriçağırılma halı yaşansa da, 2020-ci ildə cəmi 1 ədəd məhsulla bağlı problem yaşanmış və məhsul geri çağrılmışdır. Sözügedən geriçağırılma ABŞ-də mikrodalğalı sobalar üçün nəzərdə tutulmuş qarğıdalı ilə əlaqədar olmuşdur və nəticədə, 4900 paket məhsul geri çağırılmışdır. Təkcə bu məhsulun qiymətinin 24 ABŞ dolları olduğunu nəzərə alsaq, 2020-ci ildə qeyd olunan geriçağırma nəticəsində şirkət 117 600 ABŞ dolları ziyana uğradığı aydın olar [10]. ABŞ-də yaradılmış izlənilə bilən qida zənciri sisteminin bir üstünlüyü də ondan ibarətdir ki, geriçağırılma ilə bağlı məlumatlar real vaxt rejimində istehlakçılara çatdırılır. 2021 və 2022-ci illərdə isə qida məhsullarının geri çağırılmasında kəskin artım müşahidə edilmişdir. Belə ki, 2021-ci ildə qida məhsullarının geriçağırılması ilə bağlı 10, 2022-ci ildə isə 40 hadisə qeydə alınmışdır. İlk baxışda sözügedən göstəricinin artması qida zəncirinin izlənilməsi sisteminin effektivliyinə şübhə yaratsa da, tədqiqat işində qida məhsullarının geri çağırılması hallarına ölkələr üzrə baxdıqda real situasiyanın bir qədər fərqli olduğu aydın olur. Cədvəl 1-də

yuxarıda trendi verilmiş qida məhsullarının geriçağırılması göstəricilərini ayrı-ayrı ölkələr üzrə analiz etmişik.

**Cədvəl 1. 2015-2022-ci illərdə qida məhsullarının geriçağırılması statistikası, ayrı-ayrı ölkələr üzrə**

| Ölkələr | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | Cəm |
|---|---|---|---|---|---|---|---|---|---|
| Bolqarıstan | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 26 | 26 |
| İrlandiya | 0 | 0 | 0 | 4 | 1 | 0 | 6 | 11 | 22 |
| Kanada | 2 | 2 | 4 | 4 | 0 | 0 | 0 | 0 | 12 |
| İspaniya | 10 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 10 |
| Avstraliya | 7 | 2 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 9 |
| ABŞ | 0 | 0 | 0 | 2 | 0 | 1 | 2 | 0 | 5 |
| Çex Respublikası | 0 | 0 | 0 | 0 | 4 | 0 | 0 | 1 | 5 |
| Almaniya | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 0 | 2 |
| Tayland | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 |
| Fransa | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 |
| İtaliya | 0 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 |
| Danimarka | 0 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 0 | 1 |
| İslandiya | 0 | 0 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 |
| Latviya | 0 | 0 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 1 |
| Litva | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 0 | 1 |
| Polşa | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 0 | 1 |
| Birləşmiş Krallıq | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 1 |
| Xorvatiya | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 1 |

***Mənbə:** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Yuxarıda əks etdirilmiş cədvəlin ilkin analizindən də məlum olduğu kimi, 2015-2022-ci illər ərzində Bolqarıstan - 26, İrlandiya - 22, Kanada - 12, İspaniya – 10, Avstraliya – 9, ABŞ – 5, Çex Respublikası – 5 qida məhsullarının geriçağırılması hallarına görə digər ölkələrdən irəlidədir. Tayland, Fransa, İtaliya, Danimarka, İslandiya kimi ölkələrdə isə qeyd olunan dövr ərzində 1 ədəd qida məhsulunun geriçağırılması halı müşahidə edilmişdir. Ölkədə izlənilmə sisteminin yaradılmasının qida məhsullarının geriçağırılması halı ilə əlaqəsini daha aydın şəkildə tədqiq etmək üçün Bolqarıstan Respublikasında qida zəncirinin izlənilməsi sisteminin formalaşdırılması ilə bağlı tədbirlər araşdırılmışdır. Araşdırma nəticəsində aydın olur ki, ölkədə qida zəncirinin izlənilməsinə icazə verən sistemin formalaşdırılmasına 2020-ci ildən etibarən başlanılmışdır. 2020-ci ilin iyun ayında Bolqarıstan qida emalı və ticarəti üçün geniş tənzimləyici çərçivə olan yeni Qida Aktını qəbul etdi və Bolqarıstanın qida qanunlarını Avropa İttifaqının (Aİ) izlənilməsi və istehlakçıların müdafiəsi tələbləri ilə tam uyğunlaşdırdı [11]. Buradan belə bir nəticəyə gəlmək olar ki, ölkədə sahibkarlıq subyektləri tərəfindən qida zəncirinin izlənilməsi sistemi 2020-ci ildən sonra yaradıldığı üçün, ölkədə hər hansı bir qida insidenti baş verdiyi təqdirdə firmalar tərəfindən qida məhsullarının geri çağırılması tədbirləri həyata keçirilmişdir. Belə ki, ölkədəki izləniləbilmə yeni

qida sistemi artıq sahibkarlar tərəfindən məhsulların real vaxt rejimində geriçağırılmasına şərait yaratmışdır.

## Nəticə

Yuxarıda qeyd olunan bütün məsələləri nəzərə aldıqda belə bir fikir irəli sürmək mümkündür ki, qida zəncirinin izlənilməsi sisteminin qida təhlükəsizliyi sistemindəki rolunu qiymətləndirmək üçün qida zəncirinin izlənilməsi sisteminin üstünlüklərini müxtəlif aspektlərdən qiymətləndirmək vacibdir. Belə ki, biz öz tədqiqat işimizdə qida zəncirinin izlənilməsi sistemini dövlət, sahibkar və istehlakçı nöqteyi nəzərindən qiymətləndirməyə və onun tətbiqindən əldə olunan nəticələri bu istiqamətdə qruplaşdırmağa çalışmışıq. Qida zəncirinin izlənilməsi sisteminin yaradılmasının qida təhlükəsizliyindəki faydalarını aşağıdakı kimi qruplaşdırmaq olar:

- **Dövlət nöqteyi nəzərindən** – ölkədəki sahibkarlıq subyektləri tərəfindən yaradılan qida zəncirinin izlənilməsi sistemi öz növbəsində onlara aid olan məlumatların daim izlənəbilirliyinə şərait yaradır ki, bu isə öz növbəsində dövlətin qida zəncirinin izlənilməsi sahəsindəki maliyyə və insan resursları xərclərinin azalmasına səbəb olur. Bundan əlavə, bir-biri ilə inteqrasiya olunmuş informasiya sistemlərinin tətbiqi nəticəsində ölkədə qida, bitki və heyvan sağlamlığı sahəsində baş verəcək böhran vəziyyətlərinin onlar baş verməzdən əvvəl qarşısının alınmasına şərait yaradır. Dövlətin qida təhülkəsizliyinin tənzimlənməsi sahəsindəki fəaliyyəti ilə bağlı istehlakçı inamının artmasına səbəb olur. Ümumilikdə ölkənin qida məhsullarının ixrac potensialını artıraraq, dövlət gəlirlərinin artmasına səbəb olacaqdır.
- **Sahibkar nöqteyi nəzərindən** – düzgün qurulmuş qida zəncirinin izlənilməsi sistemi sahibkarlara ilkin istehsaldan son satış nöqtəsinədək məhsulları izləməyə şərait yaradır. Bu isə öz növbəsində sahibkar üçün həm tələb əsaslı təchizat sisteminin formalaşmasına, həm də bütün qida zənciri boyu izlənilmənin təmin edildiyi üçün ayrı-ayrı təchizatçıların da izlənilməsinə şərait yaradır. Aydındır ki, qida məhsullarının geriçağırılması ilə bağlı xərclər sahibkarlar üçün çox böyük bir riskdir. Sözügedən sistem vaxtında problemin aşkar edilməsinə və nəticədə, geriçağırılmaların azaldılmasına gətirib çıxaracaqdır. Bundan əlavə, onu da qeyd etmək lazımdır ki, sahibkarlar üçün daha böyük risklərdən biri də bazar payının itirilməsidir. Düzgün qurulmamış qida zəncirinin izlənilməsi sistemi sahibkara bütün məhsulunu izləməyə imkan vermir, bu isə çox zaman sahibkara hətta məhsulla bağlı bir problem yaşandıqda məhsulunu geri çağırmağa maneə yaradır. Nəticədə, keyfiyyət normalarına uyğun olmayan məhsullar istehlakçılara müxtəlif satış obyektləri tərəfindən təqdim edilir və narazı istehlakçıların sayı artır.
- **İstehlakçı nöqteyi nəzərindən** – Qida zəncirinin izlənilməsi sisteminin qurulması istehlakçıları daha güvənilən məhsullarla təmin olunmasına imkan verir. Bundan əlavə, ölkədə bitki və heyvan sağlamlığının da qorunmasına şərait yaradır.

Yuxarıda qeyd olunan məsələlərdən əlavə, qida zəncirinin izlənilməsi sisteminin qida təhlükəsizliyi sistemindəki rolundan bəhs edərkən iqtisadiyyatın qısamüddətli və uzunmüddətli dövrdə sözügedən məsələyə reaksiyasının da nəzərə alınmağı vacibdir. Belə ki, qısamüddətli dövrdə ölkədə sahibkarlıq subyektləri tərəfindən normalara uyğun olmayan məhsulların geri çağırılması ilə bağlı halların sayı artacağı güman olunur. Bu, bir növ sahibkarlıq subyektlərinin öz daxilində istehsal mərhələlərindəki problemli məsələləri həll etməsi dövrü ilə əlaqədardır. Lakin uzunmüddətli dövrdə artıq sahibkarlıq subyektləri öz təsərrüfat fəaliyyətlərini tamamilə qüvvədə olan yeni qida təhlükəsizliyi standartlarına uyğun qurduqları halda qida məhsullarının geri çağırılması hallarının minimuma enəcəyi gözlənilir ki, qida zəncirinin izlənilməsi sisteminin yaradılmasının da əsas məqsədi bundan ibarətdir. Gələcəkdə qida zəncirinin izlənilməsi sistemi ilə bağlı istehlakçı inamının artırılmasının öyrənilməsi üçün ölkəmizdədə sorğuların keçirilməsinin məqsədəuyğun olduğunu düşünürük.

**Ədəbiyyat**


1. Traceability & Recalls. Food safety and quality. Food and Agriculture Organization of the United Nations. (n.d.). Traceability & Recalls. Food Safety and Quality. Food and Agriculture Organization of the United Nations. https://www.fao.org/food-safety/food-control-systems/supply-chains-and-consumers/traceability-and-recalls/en/
2. Tracking and Tracing of Food. (2022, November 15). Tracking and Tracing of Food. FDA. https://www.fda.gov/food/new-era-smarter-food-safety/tracking-and-tracing-food
3. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu, 2022-ci il 5 may. https://e-qanun.az/framework/49857
4. Lin, Q., Wang, H., Pei, X., & Wang, J. (2019). Food Safety Traceability System Based on Blockchain and EPCIS. IEEE Access, 7, 20698–20707.
5. Qian, J., Ruiz-Garcia, L., Fan, B., Robla Villalba, J. I., McCarthy, U., Zhang, B., Yu, Q., & Wu, W. (2020, May). Food traceability system from governmental, corporate, and consumer perspectives in the European Union and China: A comparative review. Trends in Food Science & Technology, 99, 402–412. https://doi.org/10.1016/j.tifs.2020.03.025
6. Fisher, A. W. (2016, March 7). Benefits of food traceability. Food Safety RSS. Retrieved April 24, 2023, from https://www.food-safety.com/articles/4192-benefits-of-food-traceability
7. International Trade Centre. (2015). Traceability in food and agricultural products. Bulletin № 91/2015. https://intracen.org/media/file/12127
8. Picó, Y. (2012). Chemical analysis of food: Techniques and applications. Academic Press.
9. Organisation for Economic Co-operation and Development (OECD). (2022). Global portal on product recallss. https://globalrecalls.oecd.org/#/
10. United States Consumer Product Safety Commision. 2020. Fully Popped Recalls Poppin' Cobs 10 Pack Microwave Popcorn Due to Fire and Burn Hazards; Sold Exclusively at Uncommon Good Stores.https://www.cpsc.gov/Recalls/2020/Fully-Popped-Recalls-Poppin-Cobs-10-Pack-Microwave-Popcorn-Due-to-Fire-and-Burn-Hazards-Sold-Exclusively-at-Uncommon-Good-Stores
11. Mila Boshnakova-Petrova. (2020). Bulgaria Passes New Food Act, Report/ https://apps.fas.usda.gov/newgainapi/api/Report/DownloadReportByFileName?fileName=Bulgaria%20Passes%20New%20Food%20Act_Sofia_Bulgaria_07-12-2020.

UNEC Elmi Xəbərləri, İl 11, Cild 11, oktyabr - dekabr, 2023, səh. 104 - 118
Scientific Reviews in UNEC, Year 11, Volume 11, October - December, 2023, pp. 104 - 118

# REAL BİZNES TSİKLLƏRİ NƏZƏRİYYƏSİNİN TƏKAMÜLÜ: HƏRTƏRƏFLİ BAXIŞ

*Daxil olub: 7 sentyabr 2023-cü il*
*Qəbul olunub: 9 oktyabr 2023-cü il*
*Received: 7 September 2023*
*Accepted: 9 October 2023*

***Ramiz Rəhmanov***
*doktorant, UNEC*
*rahmanovrr@gmail.com*

## Xülasə

Bu məqalənin əsas məqsədi Real Biznes Tsiklləri (RBT) nəzəriyyəsinin təkamül inkişafını hərtərəfli təhlil etmək, onun güclü və zəif tərəflərini göstərməkdir. Nəzəriyyənin vacib xüsusiyyətlərini göstərmək üçün sadə RBT modeli təqdim edilir, impuls-cavab funksiyalarının əsas nəticələrinə baxılır. Məqalədə həmçinin RBT nəzəriyyəsindəki əsas ideyalar və onların ətrafında aparılan müzakirələr işıqlandırılır, mübahisəli məqamlar xüsusilə vurğulanır. Eyni zamanda, məqalədə RBT nəzəriyyəsindən irəli gələn siyasət nəticələrinə baxılır, onların praktiki əhəmiyyəti müzakirə edilir. RBT üzrə aparılan son tədqiqatlar müzakirə edilir və gələcək tədqiqat istiqamətləri qeyd edilir.

***Açar sözlər***: *Real Biznes Tsikllər nəzəriyyəsi, Keyns nəzəriyyəsi, Monetar nəzəriyyə, Lukas tənqidi, makroiqtisadi siyasət.*

# EVOLUTION OF THE THEORY OF REAL BUSINESS CYCLES: COMPREHENSIVE ANALYSIS

***Ramiz Rahmanov***
*Ph.D. Candidate, UNEC*
*rahmanovrr@gmail.com*

## Abstract

The primary aim of this article is to provide a thorough analysis of the development of the Real Business Cycles (RBC) Theory, highlighting both its strengths and weaknesses. In order to illustrate the core aspects of this theory, a simple RBC model is introduced, and the results of impulse-response functions are analyzed. The article sheds light on the fundamental concepts of the RBC theory and the ongoing debates that surround them, with a specific focus on contentious issues. Moreover, the article delves into the policy implications that stem from the RBC theory and explores their practical significance. Recent advancements in RBC research are discussed, and potential avenues for future research are delineated.

***Keywords***: *Real Business Cycles theory, Keynesian theory, Monetary theory, Lucas Critique, macroeconomic policy.*

# ЭВОЛЮЦИЯ ТЕОРИИ РЕАЛЬНЫХ ДЕЛОВЫХ ЦИКЛОВ: КОМПЛЕКСНЫЙ ВЗГЛЯД

***Рамиз Рахманов***
*аспирант, UNEC*
*rahmanovrr@gmail.com*

**Резюме**
Основная цель данной статьи – всесторонне проанализировать эволюционное развитие теории реальных деловых циклов (РДЦ), показать ее сильные и слабые стороны. Представлена простая модель РДЦ, отражающая основные особенности теории, и рассмотрены результаты импульсных функций. В статье также освещаются основные идеи теории РДЦ и дебаты вокруг них, уделяя особое внимание спорным моментам. В то же время в статье рассматриваются политические последствия, вытекающие из теории РДЦ, и обсуждается их практическое значение. Рассматриваются недавно проведенные исследования по РДЦ и указываются потенциальные направления будущих исследований.

***Ключевые слова***: *теория реальных деловых циклов, кейнсианская теория, монетарная теория, критика Лукаса, макроэкономическая политика.*

## Giriş

İqtisadi tsikllərin səbəbləri və ötürülməsi ilə bağlı müzakirələr keçən əsrdə “Böyük Depressiya” zamanı və Keynsin “Ümumi nəzəriyyə” əsərinin nəşrindən sonra olduğu kimi, bu gün də aktual olaraq qalır. Hal-hazırda debatlar əsasən klassik məktəb və Keyns məktəbi arasında gedir [1]. Klassik məktəb iqtisadi agentlərin optimallaşdırılma bacarıqlarına, tələb və təklifi bərabərləşdirmək üçün nisbi qiymətlərin uyğunlaşmasına və azad bazarların səmərəliliyinə xüsusi əhəmiyyət verir. Keyns məktəbi isə iddia edir ki, iqtisadi tsiklləri başa düşmək üçün bazar iflasının mümkünlüyünü qəbul etməklə yanaşı, ümumi tarazlıq probleminin incəlikləri də araşdırılmalıdır.

Real biznes tsikllər (RBT) nəzəriyyəsi iqtisadi dəyişkənliyə dair klassik məktəbin ən son təzahürüdür. Nəzəriyyəyə görə texnoloji dəyişikliklərin sürətində təsadüfi şoklar agentlərin öz əmək təkliflərini və istehlak səviyyələrini rasional şəkildə tənzimləməyə məcbur edir. Beləliklə, biznes tsikllər iqtisadiyyatın mövcud istehsal texnologiyasındakı dəyişikliklərə təbii və səmərəli reaksiyasıdır [1]. Lakin bütün özəlliklərlə yanaşı, nəzəriyyənin bəzi aspektləri müzakirə predmetidir. Məsələn, iqtisadi tsikllərin tutarlı empirik izahatı verilmir. Tsikllər nəzəriyyəsinin əsas zəif cəhətləri böyük miqyaslı texnoloji şoklardan asılılığı və məşğulluqda dəyişikliklərin asudə vaxtının zamanlarası əvəzlənməsi ilə izah edilməsidir [2, 3]. Bundan əlavə, RBT nəzəriyyəsi müşahidə olunan tsikllərlə

bağlı sosial xərclərin əhəmiyyətini kiçildir, bu da risklidir, çünki reallıqda heç bir tənəzzül cəmiyyətlər üçün ağrısız keçmir [4].
Bu məqalənin bir neçə məqsədi var. Birincisi, oxuculara RBT nəzəriyyəsi üzrə mövcud ədəbiyyatın hərtərəfli və tənqidi təhlilini təqdim etmək, bu sahədə əsas tendensiyaları və boşluqları göstərməkdir. İkincisi, nəzəriyyənin iqtisadi siyasət üçün nəticələrinin tətbiqi ilə bağlı mövcud sualları müzakirə etməkdir. Üçüncüsü, RBT üzrə makroiqtisadi modellər və onların əsas fərziyyələri haqqında nəzəri bilikləri dərinləşdirməkdir.
Məqalənin strukturu aşağıdakı kimidir. Bundan sonrakı hissə RBT nəzəriyyəsinin tarixçəsinə həsr olunur. Üçüncü hissədə sadə RBT modeli təqdim olunur, onun əsas xüsusiyyətləri göstərilir. Növbəti hissədə RBT nəzəriyyəsinin makroiqtisadi siyasətə göstərdiyi təsiri barədə bəhs edilir. Beşinci hissədə RBT nəzəriyyəsi barədə mövcud tənqidi fikirlər müzakirə edilir. Altıncı hissədə RBT mövzusunda son tədiqiqat işlərini işiqlandırılır. Sonuncu hissədə isə əsas nəticələr ümümləşdirilir və mövzu üzrə növbəti potensial tədqiqat istiqamətləri nəzərdən keçirilir.

## Real Biznes Tsikllər nəzərəyisənin tarixçəsi

Biznes tsikllərlə bağlı tədqiqatlar iqtisadiyyatların təkrarən yüksəliş və tənəzzül dövrlərdən keçməyinin səbəblərini və nəticələrini araşdırır. RBT nəzəriyyəsi iqtisadiyyatdakı dalğalanmaların əsasən real amillərdən qaynaqlandığını göstərir. Ötən əsrdə iqtisadçıların real biznes tsikllərinə həm çox diqqət yetirdiyi dövrlər, həm də əhəmiyyət vermədiyi dövrlər olub. Belə ki, 1920-ci illərdə iqtisadçılar əmtəə və resursların tələb və təklifindəki dəyişikliklərin iqtisadiyyata necə təsir etdiyini başa düşmək üçün mikroiqtisadi nəzəriyyələrin elementlərini istifadə etmişdirlər. Lakin 1930-cu illərdəki Böyük Depressiya biznes tsikllər nəzəriyyəsinə böyük təsir göstərmişdir. İqtisadçılar tsiklləri izah etmək üçün təkcə mikroiqtisadi nəzəriyyələrin kifayət etdiyinə şübhə ilə yanaşmağa başlamışdırlar. Onlar real faktorlara az diqqət yetirməyə, monetar şəraitə, ev təsərrüfatlarının və biznesin psixoloji aspektlərinə isə daha çox önəm verməyə başlamışdırlar. Həmçinin hesab edilirdi ki, dövlətin müdaxiləsi nəinki arzu olunandır, həm də zəruridir.
1960-cı illərdə iqtisadçılar artıq biznes tsikllərin əhəmiyyətinin itirilməsi barədə fikir irəli sürmüşdülər [4]. O dövrdə üstünlük Keynsin modelinə verilmişdir. Keynsin modelində iqtisadiyyatda ümumi tələb monetar və fiskal siyasətlər vasitəsilə idarə edilir. Bu baxımdan inflyasiya tələbin həddən artıq çox olduğu, işsizlik isə tələbin kifayət qədər olmadığı təqdirdə yaranır. Siyasətçilər əsasən inflyasiya və işsizlik arasında balansı müəyyən etməli idilər, bu da Fillips əyrisi adlanır. O dövrdə əsas vəzifə Keynsçi çərçivəni dəstəkləyən mikroiqtisadi prinsiplər üçün möhkəm zəmin yaratmaq olmuşdur. Lakin bu vəzifə siyasətçilərin iqtisadiyyatı sabitləşdirmək səylərinə mane olmayan ikinci dərəcəli məsələ kimi görünürdü [5].

1970-ci illərdə təqribən on illik iqtisadi artımdan sonra yüksək inflyasiya səviyyəsi ilə müşayiət olunan biznes tsikli yenidən yaranmışdır. Bu hadisə ənənəvi keynsçi çərçivənin biznes tsikllərin dinamikasını başa düşmək üçün qeyri-adekvat olduğunu göstərmişdir. Aydın oldu ki, Keyns modeli iqtisadi mühitdəki dəyişiklikləri, pul və fiskal siyasətlərin təsirləri ilə bağlı suallara doğru cavab vermir. Zəif nəzəri təməli olan, lakin empirik faktlara əsaslanan Keyns nəzəriyyəsi öz etibarlılığını itirmişdir [5].

Makroiqtisadi proseslərin interpretasiyasında keynsçi yanaşmanın əsas problemi onun fərdi seçimlərə və mikroiqtisadi prinsiplərə söykənən tutarlı təməlin olmamasıdır. 1968-ci ildə Milton Fridman [Milton Fridman (1912-2006) – amerikalı iqtisadçı, monetarizm nəzəriyyəsinin yaradıcısı. 1976-cı ildə istehlakın təhlili, monetar tarix və nəzəriyyə, stabilləşdirmə siyasətinin mürəkkəbliyi ilə bağlı apardığı tədqiqatlara görə İqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür] və daha sonra 1976-cı ildə Robert Lukas [Robert Lukas (1937-2023) - amerikalı iqtisadçı, Yeni klassik makroiqtisadiyyatın banilərindən biridir.1995-ci ildə rasional gözləntilər fərziyyəsini inkişaf etdirdiyinə, tətbiq etdiyinə, bununla da makroiqtisadi təhlili dəyişdirdiyinə və iqtisadi siyasət haqqında anlayışı dərinləşdirdiyinə görə İqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür] keynsçi mühakimələrində bu çatışmazlığı aşkar edən nüfuzlu məqalələr dərc edərək müasir makroiqtisadiyyatın bünövrəsini qoymuşdurlar [6, 7].

1960-cı illərdə Keyns nəzəriyyəsinin əsas elementi inflyasiya ilə real istehsal və ya işsizlik arasında tarazlıq ideyası idi. Bununla belə, Milton Fridman iddia edirdi ki, mikroiqtisadiyyatın əsas prinsipləri uzunmüddətli Fillips əyrisinin şaquli olmasını diktə edir [6]. Başqa sözlə, mikroiqtisadi prinsiplərə görə, fərdlər öz faydalılıqlarını və şirkətlər öz mənfəətlərini maksimum səviyyəyə çatdırırlar, bu isə nominal qiymətlərdən və ya pul gəlirlərindən təsirlənməyən real tələb və təklif əyrilərinin formalaşdırılmasına səbəb olur. Nəticə etibarı ilə davamlı inflyasiya mallara real tələb və ya təklifin istənilən səviyyəsində mövcud ola bilər. Beləliklə, keynsçi iqtisadiyyatının əsas müddəası mikroiqtisadi prinsiplərlə birbaşa ziddiyyət yaratmışdır.

Robert Lukas da bu məqamı vurğulamışdır. Mikroiqtisadi əsaslara görə keynsçilər tərəfindən çox vaxt istifadə edilən davranış münasibətləri iqtisadi siyasətdəki dəyişiklikləri dəqiq qiymətləndirmək üçün adekvat deyil. Lukas gələcək siyasətlə bağlı gözləntilərin hazırkı qərarlara təsir edəcəyini və bununla da davranışları dəyişdirəcəyini qeyd etmişdir. Bundan əlavə, Lukas gözləntilərin özbaşına formalaşa bilməyəcəyini, lakin rasional olduğunu təklif etmişdir [7].

Fərdi seçimlərə söykənən əsaslı çərçivənin olmaması Keyns modellərinin dinamik aspektləri üçün çətinliklər yaratmışdır. Biznes tsiklləri ənənəvi olaraq zamanla dəyişən bir proses kimi başa düşülürdü. Bununla belə, Keyns modellərinin bünövrəsi ilk növbədə statikdir, kapitalın həcmi sabit götürülür və diqqət konkret bir anda istehsalın müəyyən edilməsinə yönəldilir [5]. İnvestisiya və inventar tənzimlənməsi kimi mexanizmlər, eləcə də qiymət və ya əməkhaqqı tənzimlənməsi və qismən tənzimləmə modelləri vasitəsilə dinamik elementləri tətbiq etməyə cəhd edilmişdir. Lakin bu dinamik spesifikasiyalar maksimumlaşdırma prinsiplərinə bağlı olan və fərdi seçimə əsaslanan çərçivədən

irəli gəlmirdi. Bunun əvəzinə onlar ya fərdi agentlərin, ya da ümumiyyətlə bazarların davranışlarını təsvir edən qaydalar idi. Bir davranışın ifadəsini digərindən üstün tutmaq üçün heç bir nəzəri əsas yox idi. Sadəcə, mövcud statistik faktları daha yaxşı izah edən qaydalara üstünlük verilirdi.

1980-ci illərin əvvəllərində yeni klassik məktəb daxilində alternativ yanaşma, RBT nəzəriyyəsi tədricən öz yerini tutmuşdur. Bu nəzəriyyə Nobel mükafatçıları Fin Kidland [Fin Kidland (1943) – norveçli iqtisadçı, biznes tsikllər nəzəriyyəsinin inkişafına böyük töhfə vermişdir. 2004-cü ildə dinamik makroiqtisadiyyata verdiyi töhfəyə görə Preskotla bir yerdə Nobel mükafatına layiq görülmüşdür] və Edvard Preskot [Edvard Preskot (1940-2022) – amerikalı iqtisadçı, biznes tsikllər nəzəriyyəsinin inkişafına mühüm töhfələrlə tanınır. 2004-cü ildə dinamik makroiqtisadiyyata verdiyi töhfələrə görə Kindlandla bir yerdə Nobel mükafatına layiq görülmüşdür] tərəfindən irəli sürülmüşdür [13]. RBT nəzəriyyəsində iqtisadi fəaliyyətdə dalğalanmaların hərəkətverici qüvvəsi kimi texnoloji şoklar çıxış edir. Eyni zamanda, RBT nəzəriyyəsi aqreqat iqtisadi dəyişənləri bir çox agentlər tərəfindən verilən qərarların nəticəsi kimi qəbul edir. Bu agentlər istehsal imkanlarını və mövcud resursları nəzərə alaraq, özlərini mümkün qədər çox məmnun etməyə çalışırlar [5]. Beləliklə, bu modellər tutarlı və aydın mikroiqtisadi əsasların üzərində qurulmuşdur. Xüsusilə, RBT modelləri faydalılığı maksimuma çatdırmaq istəyən rasional agentlər iqtisadiyyatda baş verən dəyişikliklərə necə reaksiya verməyi və bu aqreqat iqtisadi dəyişənlərə necə təsir edəcəyini təxmin edir. Növbəti hissədə RBT modelinin sadə versiyası təqdim edilir və onun əsas xüsusiyyətləri müzakirə edilir.

**RBT modellərinin əsas xüsusiyyətləri**

Burada təqdim olunan model Kuli və Preskot tərəfindən qurulan modelin xüsusi versiyasıdır [8]. Sadə RBT modeli ev təsərrüfatları və firmalardan ibarətdir. Ev təsərrüfatları mal və xidmətləri istehlak edir və firmalarda işləyir. Bundan əlavə, ev təsərrüfatları iqtisadi dinamikaya təsir edən kapitala sərmayə qoymaqla modeldə əsas rol oynayır. Firmalar isə mal və xidmət istehsalı ilə məşğul olur. Firmalara istehsalı artırmaq üçün kapital tələb olunur, onlar bu kapitalı ev təsərrüfatlarından icarə götürür və istifadəsinə görə icarə haqqı ödəyir. Firmalar həmçinin əmək bazarı vasitəsilə ev təsərrüfatlarından asılıdır.

Modeldə ev təsərrüfatları və firmalar arasında əlaqələr qarşılıqlıdır. Ev təsərrüfatları firmalarda çalışır və bunun müqabilində gəlir əldə edir. Sonra bu gəlir qismən firmalar tərəfindən istehsal olunan məhsulların istehlakına xərclənir, qalan hissəsi isə qənaət edilir. Qeyd etmək vacibdir ki, bu model daxilində qənaətlə bağlı heç bir xərc yoxdur. Qənaət olunan vəsaitlər kapitala yatırılır, sonra bu kapital firmalar tərəfindən məhsuldarlığı və istehsalı artırmaq üçün istifadə edilir.

Ev təsərrüfatları istehlak və asudədən ibarət olan faydalılıq funksiyanı maksimum səviyyəyə çatdırırlar. Ev təsərrüfatları mümkün qədər çox istehlak və istirahət etmək

istəsələr də, büdcə onların imkanlarını məhdudlaşdırır. Onların büdcəsi iki mənbədən formalaşır: əməkhaqqı və kapital qoyuluşlarından əldə olunan gəlir. Kapital cari səviyyəyə, amortizasiya dərəcəsinə və investisiyalardan asılı olaraq dəyişir. Beləliklə, ev təsərrüfatlarının maksimumlaşdırılması məsələsi aşağıdakı kimidir:

$$\max_{c_t, n_t, k_{t+1}} E_0 \left\{ \sum_{t=0}^{\infty} \beta^t \left[ (1-\alpha)\log(c_t) + \alpha \log(1-n_t \right] \right\}$$

nəzərə alaraq ki,

$$c_t + i_t = w_t n_t + r_t k_t$$
$$k_{t+1} = (1-\delta)k_t + i_t \ ,$$

burada $\beta$ diskont əmsalı, $\alpha$ əməyin elastikliyi, $c_t$ isteklak, $n_t$ işlədiyi saatların sayı, $w_t$ əməkhaqqı, $k_t$ kapital, $i_t$ investisiya, $r_t$ gəlirlilik dərəcəsi, $\delta$ amortizasiya normasıdır. Bu modeldə tam rəqabət mühiti olduğu fərz edildiyinə görə mənfəət sıfıra bərabərdir. Firmalar istehsal funksiyasını şərt olaraq qəbul edərək öz mənfəətlərini maksimuma çatdırırlar:

$$\max_{k_t, n_t} y_t - r_t k_t - w_t n_t$$

nəzərə alaraq ki,

$$y_t = e^{z_t} k_t^{\theta} n_t^{1-\theta}$$
$$z_{t+1} = \rho z_t + \varepsilon_{t+1}, \varepsilon \sim N(0, \sigma_\varepsilon^2),$$

burada $y_t$ istehsalatın həcmi, $\theta$ kapitalın elastikliyi, $z_t$ ümumi faktor məhsuldarlığıdır.

Ev təsərrüfatları və firmaların maksimumlaşdırma məsələlərini həll etdikdən sonra aşağıdakı tarazlıq şərtləri əldə edilir:

$$\frac{c_{t+1}}{c_t} = \frac{\beta}{1+\gamma}(MPK_{t+1} + 1 - \delta)$$
$$MPK_{t+1} = \theta \frac{y_{t+1}}{k_{t+1}} = r_{t+1}$$
$$w_t = \left(\frac{\alpha}{1-\alpha}\right)\left(\frac{c_t}{1-n_t}\right)$$
$$w_t = (1-\theta)e^{z_t}\left(\frac{k_t}{n_t}\right)^{\theta}$$
$$y_t = e^{z_t} k_t^{\theta} n_t^{1-\theta}$$
$$c_t + i_t = y_t,$$

burada $MPK_t$ kapitalın marjinal məhsuludur.

Tarazlıq şərtlərini əldə etdikdən sonra şokların təsirini təhlil edə bilərik. Qeyd edildiyi kimi RBT modellərindəki əsas şok ümumi faktor məhsuldarlığı ilə bağlıdır. Müsbət texnoloji şok baş verdikdə ($z_t \uparrow$) firmalar daha səmərəli olur və daha çox məhsul istehsal edir ($y_t \uparrow$). Nəticədə əməyə tələb artır ($n_t \uparrow$), əməyə tələbin artması isə əməkhaqlarının artmasına səbəb olur ($w_t \uparrow$). Ev təsərrüfatları artan məşğulluq və əməkhaqqı hesabına daha yüksək gəlir əldə edir və bunun müqabilində istehlak xərclərini artırır ($c_t \uparrow$). Bundan əlavə, texnoloji şok ev təsərrüfatlarının investisiya qərarlarına da təsir edir, daha yüksək gəlirlilik onları kapitala investisiya qoyuluşlarının artırılmasına şövq edir ($i_t \uparrow$).

**Real Biznes Tsiklləri nəzəriyyəsinin makroiqtisadi siyasətə təsiri**

1980-ci ilə qədər makroiqtisadi nəzəriyyəçilər arasında fikir ayrılığı olsa da, üç məsələyə dair ümumi razılıq əldə edilmişdir [4]. Birincisi, ümumi buraxılışın dəyişməsi uzunmüddətli tendensiyadan müvəqqəti kənarlaşa bilər. Bu tendensiyanın müəyyən edilməsində texnoloji tərəqqi mühüm rol oynayır. İkincisi, iqtisadiyyatda qeyri-stabilliyə səbəb olan biznes tsikllər cəmiyyətin rifahını aşağı saldığı üçün arzu olunan deyil. Buna görə də, uyğun siyasətlər vasitəsilə qeyri-stabillik minimuma endirməlidir. Üçüncüsü, monetar sektorda dəyişikliklər biznes tsiklləri izah edən mühüm amil hesab edilir. Ənənəvi keynsçi, monetarist və yeni klassik iqtisadçıların hamısı bu üç əsas prinsip üzərində həmfikir olmuşdurlar. Bununla belə, onlar iqtisadi qeyri-sabitliyin necə azaldılması və pulun real buraxılışa təsir mexanizmi barədə fikir ayrılığına düşmüşdürlər. Keynsçi və monetarist modellər pulun qeyri-neytrallığını adaptiv gözləntilər, əməkhaqqı və qiymətlərin tələbin dəyişməsinə ləng reaksiya ilə izah edirdilər. 1970-ci illərin yeni klassik taraz bazar modelləri isə pulun qeyri-neytrallığının səbəbini qeyri-mükəmməl məlumata malik olan agentlərdə görürdülər. İqtisadiyyatı stabilləşdirmək üçün monetaristlər və yeni klassik iqtisadçılar sabit pulun artım sürəti qaydasını təklif edirdilər, keynsçilər isə siyasət qərarlarında sərbəst olmağın tərəfdarı idilər [9]. Yeni klassik nəzəriyyənin birinci dalğasının məqsədi hökumətin aktiv müdaxiləsinə qarşı daha güclü nəzəri arqument gətirmək idi [10]. Bundan əlavə, siyasi biznes tsikllərə dair ədəbiyyata görə siyasətçilər stabilləşdirmə siyasətindən iqtisadiyyatda dəyişkənliyi azaltmaqdan daha çox öz maraqları üçün istifadə edirlər [11].

1980-ci illərdə iqtisadi təfəkkürdə əhəmiyyətli dəyişiklik baş vermişdir. Nelson və Ploserun, Kidland və Prescotun tədqiqat nəticələri iqtisadçıları biznes tsikllərin mövcudluğundan şübhələnməyə əsas vermişdir [12, 13]. RBT nəzəriyyəçiləri biznes tsikl termininin uğursuz olduğunu iddia edirdilər, çünki o, iqtisadi artımı müəyyən edən qüvvələrdən asılı olmayan bir fenomenin izahını nəzərdə tutur. Bunun əvəzinə, nəzəriyyəçilər həm artımı, həm də tsiklləri birlikdə nəzərə alan bir yanaşma təklif etdilər. Belə ki, standart neoklassik nəzəriyyəyə görə istehsal və məşğulluqda qısamüddətli

dövrdə böyük dəyişikliklərin olması normaldır. Əslində, iqtisadiyyatda belə əhəmiyyətli dalğalanmalar olmasa, bu, qeyri-adi olardı [14]. RBT nəzəriyyəçilərinin fikrincə, müşahidə olunan bu dalğalanmalar ümumi rifahı azaldan buraxılışın uzunmüddətli trenddən kənarlaşmalar deyil. Daha doğrusu, tsikllər iqtisadi mühitdəki dəyişikliklərə optimal şəkildə cavab verən rasional iqtisadi agentlərin davranışının nəticəsidir. Əldə edilən tarazlıq Pareto optimaldır, yəni ümumi rifahı maksimum dərəcədə artırır [15]. Buna görə də, RBT nəzəriyyəçiləri hökumətin bu dalğalanmaları azaltmaq üçün müdaxilə etməli olduğu fikrini qəbul etmirlər, çünki bu cür siyasətlər rifahı azalda bilər. İqtisadiyyatdakı dalğalanmalar texnoloji tərəqqidəki qeyri-müəyyənliyə optimal cavab kimi qəbul edilir. Bu yanaşma iqtisadi dalğalanmalar haqqında ənənəvi düşüncəni sual altına qoyur. Beləliklə, monetar amillər qeyri-stabilliyi izah etmək üçün əhəmiyyətsiz olur və pul siyasətinin real təsiri olmur. Pul neytral hesab olunur. Bundan əlavə, işçilərin nə qədər işləmək istədikləri barədə qərarı özləri verdiyinə görə, müşahidə edilən işsizlik könüllü hesab olunur. Real biznes tsikllər nəzəriyyəsində ÜDM-in dəyişkənliyi davamedici tarazlıq kimi başa düşülür. Nəticə etibarı ilə hökumətin "tam məşğulluq" kimi məqsədi mənasını itirir, çünki iqtisadiyyatın artıq tam məşğulluq səviyyəsində olduğu hesab olunur. Bununla belə, RBT nəzəriyyəçiləri qəbul edirlər ki, hökumətin qərarları, xüsusən də vergi və xərc siyasətində təhriflər yarada və neqativ təsir göstərə bilər. Qeyd etmək lazımdır ki, RBT modellərində dövlət satınalmalarının müvəqqəti artması buraxılış və məşğulluğu artırır, çünki məcmu tələb genişlənir, nəticədə real faiz dərəcələri qalxır və buna cavab olaraq işçi qüvvəsinin təklifi artır [4]. Əgər texnoloji dəyişiklik həm iqtisadi artımın, həm də dalğalanmaların müəyyən edilməsində həlledici rol oynayırsa, texnoloji tərəqqinin sürətinə təsir edən amilləri, o cümlədən institusional strukturları və tənzimləmələri daha yaxşı başa düşmək lazımdır. RBT nəzəriyyəçiləri hesab edirlər ki, keynsçi və monetarist iqtisadçıların stabilliyə verdiyi önəm çox baha başa gələn səhv olmuşdur. Dinamik dünyada qeyri-stabillik həm arzu olunan, həm də qaçılmaz olaraq görünür [4]. Lakin belə fikir var ki, RBT nəzəriyyəsinin yüksəlişi əslində II Dünya müharibəsindən sonrakı dövrdə həyata keçirilən uğurlu kontrtsiklik siyasətin nəticəsidir [16]. Bu siyasətlər əvvəlki dövrlərlə müqayisədə məcmu tələbin şokları nəticəsində yaranan ÜDM-in dəyişkənliyini effektiv şəkildə azaltmışdır. Nəticədə, texnoloji şokların təsiri müasir biznes tsikllərin dominant mənbəyi kimi görünür.

## Real Biznes Tsikllər nəzəriyyəsinə dair tənqidi fikirlər

Real biznes tsikllər nəzəriyyəsinin əsas tənqidi onun asanlıqla müşahidə olunmayan texnoloji şoklara böyük önəm verməsidir. İqtisadi dalğalanmaları izah etmək üçün lazım olan texnoloji şoklar kifayət qədər böyük və dəyişkən olmalıdır. Lakin texnoloji dəyişkənlik yüksək olmamalıdır, çünki texnoloji inkişaf adətən yavaş sürətlə baş verir

və rəvan ümumi təsirə malikdir [2]. Tənəzzüllərə səbəb ola biləcək texniki reqressiyanın isə baş verməsinin səbəbini izah etmək çətindir.

Samers texnoloji şoklar qismində Solou qalığının (ümumi faktor məhsuldarlığının ölçüsü) variasiyasından istifadə etmə əleyhinə çıxış edir [17]. Solou qalığında böyük dəyişikliklər əslində izafi əmək qüvvəsinin toplanması səbəbindən istehsal funksiyasının adi davranışından kənara çıxması ilə izah edilə bilər. RBT nəzəriyyəçiləri iqtisadi yüksəliş zamanı əmək məhsuldarlığının artımını istehsal funksiyasında dəyişikliklərin sübutu kimi təqdim etsələr də, ənənəvi keynsçilər bunu əmək amilinin sabit xüsusiyyətinə aid edirlər. Tənəzzüllərdə qısamüddətli tənzimləmə xərcləri səbəbindən firmalar lazım olduğundan daha çox işçi saxlamağa meyillidirlər. Belə şəraitdə firmaların öz işçi qüvvəsini tam istifadə etmədiyindən məhsuldarlıq azalır. Bu, tənəzzül zamanı adətən istehsalatın azalmasının məşğulluğun azalmasından niyə daha böyük olduğunu izah edir. İqtisadiyyat bərpa olunduqca, firmalar öz işçi qüvvəsindən daha intensiv istifadə edirlər, bu da işçi qüvvəsi ilə müqayisədə məhsulun daha böyük faiz artımına səbəb olur [4].

Ümumiyyətlə, bir çox iqtisadçılar Solou qalığının tsiklik hərəkətini tənəzzüllər zamanı həm kapitalın, həm də əməyin tam istifadə edilməməsilə izah edirlər. Texnologiya sabit qalsa belə, Solou qalığı yenə də dəyişə bilər. Empirik faktlar göstərir ki, əgər kapitalın və işçi qüvvəsinin istifadə əmsalı biznes tsikli ilə birlikdə dəyişirsə, bu təsiri əks etdirən protsiklik Solow qalığı müşahidə ediləcək [3, 19].

Növbəti tənqid tənəzzülün texnoloji reqressiya dövrü olması fikrilə bağlıdır. Tənəzzüllər hər zaman siyasətçilər və media nümayəndələrinin diqqətində olur, lakin mövcud texnologiyanın azalması ilə bağlı heç bir müzakirə aparılmır. Cəmiyyətə təsir edən əhəmiyyətli mənfi texnoloji şoklar baş versəydi, bu, hamıya məlum olardı [1].

Bu tənqidə cavab olaraq, Hansen və Preskot texnoloji şoklara istehsal funksiyasında və ya istehsal imkanlarında baş verən dəyişiklikləri aid etmişdirlər [19]. Onların fikirincə hüquqi və institusional çərçivədə dəyişikliklər müəyyən texnologiyaların mənimsənilməsinə stimullaşdırıcı təsir göstərə bilər. Məsələn, hökumətin müdaxiləsi mənfi texnoloji şok kimi çıxış edə bilər. Bununla belə, Muellbauer qeyd etmişdir ki, 1990-cı illərin əvvəllərində Böyük Britaniyada yaşanan ağır tənəzzül 1988-1989-cu illərdə faiz dərəcələrinin əhəmiyyətli dərəcədə artması, sonradan əmlak qiymətlərinin aşağı düşməsi və 1990-cı ilin oktyabrından sonra bahalı məzənnə ilə məzənnə mexanizmində iştirakı kimi amillərlə asanlıqla izah edilə bilər [2]. Bu təsirlərin çoxu RBT nəzəriyyəsində adekvat şəkildə nəzərə alınmır.

Digər əhəmiyyətli tənqid işsizlik məsələsinə yönəlib. RBT modellərində işsizlik ya tamamilə yoxdur, ya da könüllü hesab olunur. Tənqidçilər bu fərziyyəni inandırıcı hesab etmirlər, xüsusən Böyük Depressiyaya baxarkən, çünki kütləvi işsizlik təkçə dövrlərarası əvəzetmə və məhsuldarlıq şokları ilə izah edilə bilməz [17]. Eynilə 1980-ci

illərdə Avropada yaşanan işsizliyin əhəmiyyətli bir hissəsinin qeyri-ixtiyari olduğu iddia edilir, bu da yeni klassik iqtisadiyyat çərçivəsində izah edilə bilməyən mühüm müşahidədir [20]. Tobin [Ceyms Tobin (1918-2002) – amerikalı iqtisadçı, investisiya, pul və fiskal siyasət, maliyyə sahəsində yenilikçi töhfələr vermişdir. 1981-ci ildə maliyyə bazarlarının təhlili, o cümlədən xərc, məşğulluq, istehsal və qiymətlərə dair verilən qərarlarla əlaqələri üzrə apardığı yaradıcı və geniş tədqiqatlarına görə Nobel mükafatına layiq görülmüşdür] də yeni klassik iqtisadçıları tərəfindən bütün işsizliyin könüllü olduğunun qəbul edilməsinə şübhə ilə yanaşır [21]. Əmək bazarının dinamikası tarazlıq nəzəriyyələri ilə uyğun gəlmir. Əgər işsizlik yalnız iqtisadi agentlər tərəfindən edilən könüllü seçimlərin nəticəsi olsaydı, vakansiya sayının və könüllü işdən çıxmaların protsiklik hərəkəti müşahidə edilməzdi. Tənəzzül dövrləri könüllü işdən çıxma nisbətinin artması ilə xarakterizə olunmur.

Blinder Real biznes tsikllər nəzəriyyəsini tənqid edərək bildirmişdir ki, Pareto optimal resessiya nəzəriyyələri işsizliyin azaldılmasına çox da kömək etmir [22]. Blinder 1980-ci illərdə yüksək işsizlik probleminin həllinin vacibliyini vurğulamış, siyasətçilərin və iqtisadçıların bunu etməkdə uğursuz olduğunu diqqətə çatdırmışdır. RBT nəzəriyyəsində işsizliyə etinasızlıq tənqidçilər tərəfindən əhəmiyyətli zəiflik hesab olunur [23]. Lilien tərəfindən qurulan sektorlararası axınlar modelində texnoloji şoklar sektorlar arasında resursun, o cümlədən əmək qüvvəsinin yenidən bölüşdürülməsinə səbəb olur [24], lakin tənqidçilər hələ də RBT nəzəriyyəsində işsizliyə etinasızlığı əsas nöqsan kimi görürlər [4].

RBT nəzəriyyəsinə qarşı növbəti tənqidi fikir pulun neytrallığı və pul siyasətinin real iqtisadiyyata əhəmiyyətli təsir göstərmədiyi ilə bağlıdır. 1980-ci illərin əvvəllərində həm ABŞ, həm də Böyük Britaniya tərəfindən həyata keçirilən monetar antiinflyasiya tədbirlərindən sonra dərin tənəzzülə məruz qaldığı bir vaxtda bu modellərin populyarlıq qazanması bir qədər ironikdir [4]. 1990-cı ildən 1992-ci ilə qədər Böyük Britaniyada baş verən iqtisadi tənəzzül də sərt pul siyasətindən təsirlənmişdir. Bu tənqidə cavab olaraq, RBT nəzəriyyəçiləri iddia edirlər ki, 1980-ci illərin əvvəllərində baş vermiş tənəzzüllərdən qabaq 1979-cu ildə ikinci böyük neft şoku baş vermişdi. Lakin, bununla belə, iqtisadçıların əksəriyyəti pul siyasətinin qısa müddətdə neytral olduğuna əmin deyillər. Əksinə, araşdırmalar göstərir ki, nominal qiymət və əməkhaqqı sərtliyi səbəbindən pul siyasəti məcmu tələbə qısamüddətli dövrdə əhəmiyyətli təsir göstərir [25, 26].

Növbəti tənqid RBT nəzəriyyəsində xarakterik agent konsepsiyasının geniş istifadəsi ilə bağlıdır. Milyonlarla müxtəlif fərdlərin seçimlərinə uyğun seçim edəcəyi fərz edilən xarakterik agenti istifadə etməklə, RBT nəzəriyyəçiləri müxtəlif agentlərin ümumiləşdirilməsi ilə bağlı çətinliklərdən yayınırlar [4]. Bu yanaşma asimmetrik məlumat, mübadilə və koordinasiya məsələlərini kənarda qoyur. Lakin bir çox iqtisadçılar koordinasiya və müxtəliflik problemlərini makroiqtisadi nəzəriyyədə vacib hesab edirlər [27, 28]. Biznes tsikllər əsasən koordinasiya problemləri və mübadilə uğursuzluqları kimi

səbəblərdən baş verirsə, o zaman Robinzon Kruzo iqtisadiyyatının fərz edilməsi məqbul tədqiqat strategiyası deyil.

**Real Biznes Tsikillər nəzəriyyəsində son yeniliklər**

Bütün tənqidlərə baxmayaraq, RBT çərçivəsi hələ də müxtəlif iqtisadi aspektlərin təhlilində istifadə olunur. Məsələn, Feve və b. RBT modelinə maliyyə vasitəçilərini əlavə etməklə iqtisadiyyatda maliyyə sürtünmələri (Maliyyə sürtünmələri firmaların bütün tələb olunan investisiyaları kənar mənbələrdən maliyyələşdirməsinə mane olan maliyyə məhdudiyyətləridir [30]) ilə tsiklik asimmetriya arasındakı əlaqəni təhlil edirlər [29]. Onların tədqiqatı göstərir ki, maliyyə sürtünmələri kapitalın yığılmasını yavaşladır. Bu, investisiya şoklarının maliyyə vasitəçiliyində zamanla dəyişən sürtünmələrə oxşadığını göstərir. Onların modelindəki asimmetriya maliyyə vasitəçilərinin iflasa dair qərarından yaranan qeyri-xətliliyindən irəli gəlir. İflasın paylanmasında asimmetriya müsbət olduğundan kredit-depozit taraz faiz fərqinin paylamasında da asimmetriya müsbətdir, kapital, buraxılış və istehlakın paylamalarında isə asimmetriya mənfidir. Müəlliflər dövlət tənzimləməsinin iflas tezliyinə və rifaha təsirini araşdıraraq, daha sərt tənzimləmənin iflas ehtimalını azaltdığını və tsiklik qazancları yaxşılaşdırdığını, lakin tarazlıq xərclərini artırdığını aşkar etmişdirlər. Onların apardığı empirik simulyasiyalar modelinin ABŞ göstəricilərində müşahidə olunan asimmetriyanı təkrarlaya biləcəyini təsdiqləyir.

Bernstein və b. böhran zamanı ixtiyari işsizliyin mövcudluğu ilə bağlı tənqidlərə cavab olaraq RBT çərçivəsini müdafiə etməyə çalışmışdırlar [31]. Onlar işsizlik və vakansiyalardakı dalğalanmalarda uyğunluq elastikliyin rolunu vurğulamış, modelin əmək bazarının müxtəlif xüsusiyyətlərinə uyğun olmasına imkan verən identifikasiya sxemini hazırlamışdırlar. Bu modeldə olan dəyişənlərdə statistikaya uyğun volatilliyi yaratmağa imkan vermişdir. Bundan əlavə, müəlliflər şokların işdən ayırma nisbətinə ötürülməsini təhlil etmiş və bunun həm qısamüddətli, həm də uzunmüddətli işsizlik dəyişkənliyinə əhəmiyyətli dərəcədə təsir etdiyini tapmışdırlar. İş tapmış olanların nisbətinin endogen olduğu vurğulanmışdır, çünki o, işdən ayırma nisbəti və əmək məhsuldarlığında baş vermiş dəyişikliklərdən təsirlənir.

RBT çərçivəsinə həmçinin institusional inkişafın iqtisadi təsirini öyrənmək üçün müraciət edilir. Belə ki, Germasşevski *(Germaschevski)* və b. Çinin institusional xüsusiyyətlərini (zəif mülkiyyət hüquqları, iqtisadiyyatda yüksək dövlət payı) standart RBT modelinə daxil edərək ölkənin real biznes tsikllərini araşdırmışdırlar [32]. Onlar özgəninkiləşdirməyə və dövlət müəssisələrinə fokuslanmışdırlar. Özgəninkiləşdirmələr və hökumət tərəfindən şirkətlərin gələcək mənfəət axınını azaldan tədbirlər endogen kimi modelləşdirilir. Daha çox əsas vəsaiti olan və özgəninkiləşdirmələrə qarşı immunitetli dövlət müəssisələri CES aqreqatoru vasitəsilə özəl müəssisələrlə qarşılıqlı əlaqədə olur.

Onların nəticələrinə görə, özgəninkiləşdirmələr Çində makroiqtisadi dəyişkənliyə əhəmiyyətli dərəcədə təsir göstərir.

Fernandez-Villaverde və Guerron-Quintana qeyri-müəyyənliyin rolunu və onun biznes tsikllərlə əlaqəsini araşdırmışdırlar [33]. Tədqiqat nəticələri göstərir ki, makroiqtisadi qeyri-müəyyənlik kontrtsiklik xarakter daşıyır, yəni yüksək qeyri-müəyyənlik zəif iqtisadi aktivliklə müşahidə edilir. Məqalədə təqdim edilmiş model qeyri-müəyyənlik şoklarını biznes tsiklləri ilə əlaqələndirən mexanizmləri, o cümlədən maliyyə sürtünmələrini özündə birləşdirir. Müəlliflər qeyri-müəyyənlik şokları ilə maliyyə sürtünmələri arasında qarşılıqlı əlaqənin olmasını vurğulamışdırlar. Belə ki, əsas kapitala investisiyaların gəlməsini çətinləşdirən sərt maliyyə sürtünmələri qeyri-müəyyənlik şoklarının təsirini gücləndirir.

Evans və b. makroiqtisadi modellərdə rasional gözləntilər və gözləntilərin koordinasiyası mövzusu ətrafında müzakirələri davam etdirmişdirlər [34]. Onlar müxtəlif yanaşmaları, o cümlədən adaptiv öyrənmə metodu və “eduktiv” baxışı nəzərdən keçirtmişdirlər. Gözləntilərin koordinasiyası hətta xüsusi rasional gözləntilər tarazlığına malik olan modellərdə mühüm rol oynayır, lakin real biznes tsikllər modellərində koordinasiyaya nail olmaq çox çətin məsələdir. Bunun üçün zamanla müşahidə edilən məlumatları nəzərə alan adaptiv öyrənmə zəruri ola bilər. Müəlliflər reallaşmış addımları gələcək haqqında gözləntilərlə uyğunluğunu göstərmək üçün “B-sabitlik” konsepsiyasını təqdim etmişdirlər.

RBT modelləri vasitəsi ilə ətraf mühit məsələlərini araşdıran tədqiqat işlərinə də rast gəlmək olur. Məsələn, Vasilev Bolqarıstan timsalında ətraf mühitin keyfiyyətinin məcmu iqtisadi fəaliyyətə təsirini tədqiq etmişdir [35]. Məqalədə çirklənmənin neqativ təsirlərini neytrallaşdırmaq üçün vergilər və ətraf mühitin qorunmasına yönəldilmiş tədbirlər vasitəsilə hökumətin müdaxiləsinin vacibliyi vurğulanmışdır. Müəllif faydalılığı artıran ətraf mühitin keyfiyyətini, endogen əmək təklifi və hökumət sektorunu daxil etməklə standart RBT modelini təkmilləşdirmişdir. Əməyin təklifi digər model dəyişənləri ilə qarşılıqlı əlaqədə olmaqla və əmək bazarında tsiklik dalğalanmalara təsir etməklə modeldə mühüm rol oynayır. Modeldə çirklənmə emissiya şoku texnoloji şok kimi təsir edir, lakin onun təsiri kəmiyyətcə kiçikdir.

Lansing iqtisadi dəyişənlərdəki dəyişkənliyi izah etmək üçün modellərə meyil və gözləntilərin daxil edilməsini təklif etmişdir [36]. Məqalədə meyilə əsaslanan davranışları ehtiva edən RBT modeli təqdim edilmişdir. Modeldə fundamental şoklar nəzərdən keçirilmiş və fundamentallarla əlaqəsi olmayan “səhimə meyil şoku” daxil edilmişdir. Gələcək kapital dəyərinə əsaslanan şərti proqnozu hazırlamaq üçün meyil ölçüsündən istifadə edilmişdir. Modelin nəticələri ABŞ-nin makroiqtisadi statiskası ilə uyğundur və modellə qiymətləndirilmiş meyil şoku ilə sorğudan əldə olunan istehlakçı meyilinin ölçüləri arasında güclü korrelyasiya tapılmışdır.

Horvath inkişaf etməkdə olan ölkələrin və inkişaf etmiş ölkələrin biznes tsikllərinin arasındakı fərqlərində qeyri-formal iqtisadiyyatın miqyası və faiz dərəcələrinin dəyişməsinin rolunu araşdırmışdır [37]. Tədqiqatın nəticələrinə görə, qeyri-formal iqtisadiyyatın ölçüsü ilə istehlakın nisbi dəyişkənliyi arasında müsbət əlaqə mövcuddur. Bundan əlavə, inkişaf etməkdə olan ölkələrdə faiz dərəcələrinin kontrtsiklik xarakteri və böyük dəyişkənliyi haqqında faktlar təqdim edilmişdir. Model formal və qeyri-formal sektorları özündə birləşdirir. Qeyri-müəyyənlik xüsusi texnoloji şoklar və ölkə spredinin ekzogen dalğalanmaları vasitəsilə modelə daxil edilmişdir. Ölkə spredinin artması formal sektorda çalışan şirkətlər üçün daha yüksək faiz xərclərinə səbəb olaraq formal istehlakın qeyri-formal istehlakla əvəzlənməsinə, formal sektora investisiyaların azalmasına və qeyri-formal sektorda aktivliyin artmasına səbəb olur. Model həmçinin göstərir ki, faizlərin artımı formal sektorda istehsalatın və iş saatlarının azalması ilə nəticələnərək ticarət balansını yaxşılaşdırır.

**Nəticə və yeni tədqiqat üfüqləri**

Keçən əsrdə RBT nəzəriyyəsi mürəkkəb bir inkişaf yolu keçmiş, o həm tənəzzül, həm də intibah dövrünü yaşamışdır. Əvvəl iqtisadçılar tsiklləri təhlil etmək üçün tələb və təklif amillərinə diqqət yetirirdilər. Lakin Böyük Depressiyadan sonra iqtisadçılar monetar şəraitə və psixoloji amillərə önəm verməyə və hökumətin müdaxiləsini zəruri hesab etməyə başlamışdılar. 1960-cı illərin sonuna qədər Keyns nəzəriyyəsi iqtisad elmində dominant çərçivə idi. Bu nəzəriyyə monetar və fiskal siyasətlər vasitəsilə tələb, inflyasiya və işsizliyin kontrol edilməsini təklif edir. Lakin 1970-ci illərdə RBT nəzəriyyəsi geri qayıdaraq keynsçi yanaşmanın dürüstlüyünü sual altına qoymuşdur. İqtisadçılar başa düşməyə başlamışdılar ki, Keyns nəzəriyyəsinin dayanıqlı mikroiqtisadi əsası yoxdur. Keyns nəzəriyyəsinin güclü mikroiqtisadi təməlinin olmaması və rasional gözləntiləri nəzərə almaması biznes tsikllərin dinamikasının təhlilini çətinləşdirmişdir.
Keyns nəzəriyyəsinə yönəldilmiş tənqidə cavab olaraq 1980-ci illərdə RBT nəzəriyyəsi ortaya çıxmışdır. Yeni nəzəriyyə həm iqtisadi artım, həm də tsikllər üçün texnoloji tərəqqinin əhəmiyyətini vurğulamışdır. RBT nəzəriyyəsi sabitliyi həm arzu olunan, həm də qaçılmaz hesab edərək hökumətin müdaxiləsini faydasız hesab edir. Bununla belə, real biznes tsikllər nəzəriyyəsi ciddi tənqidlə üzləşmişdir. Tənqid əsasən nəzəriyyənin müşahidə olunmayan texnoloji şoklara böyük önəmin verilməsi, qeyri-ixtiyari işsizliyə laqeyd yanaşması, pulun neytrallığı və xarakterik agent konsepsiyasından istifadəsinə fokuslanmışdır. Tənqidçilər iddia edirlər ki, bu çatışmazlıqlar onun praktikliyini və real iqtisadi tsikllərin təhlilini məhdudlaşdırır. RBT nəzəriyyəsinin yüksəlişinə II Dünya müharibəsindən sonrakı uğurlu kontrtsiklik siyasətlər zəmin yaratmışdır, bu siyasət tələbdən yaranan ÜDM-in volatilliyini azaltmış və texnoloji şokların təsirini qabartmışdır.

Bütün mübahisəli məqamlara baxmayaraq RBT çərçivəsini istifadə edərək tsikllərin səbəblərini və müxtəlif iqtisadi aspektlərini araşdıran tədqiqatların aparılması davam edir. Onlar maliyyə sürtünmələri, əmək bazarı dinamikası, institusional məsələləri və ekoloji problemlərin biznes tsikllərin asimmetriyasına və dəyişkənliyinə təsirini tədqiq edir. Bundan əlavə, iqtisadi volatilliyinin mürəkkəbliklərini daha yaxşı başa düşmək üçün modellərdə qeyri-müəyyənlik, meyil və gözləntilərin koordinasiyasının rolu araşdırılır. Tədqiqatlar həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələri əhatə edir və müxtəlif iqtisadi kontekstlərdə RBT nəzəriyyəsinin aktuallığını göstərir. Ümumilikdə bu tədqiqatlar müxtəlif şəraitlərdə biznes tsiklləri formalaşdıran çoxşaxəli amillər haqqında nəticələri təqdim edərək RBT nəzəriyyəsinin inkişafına töhfə verir.
Gələcək tədqiqatlar ekoloji, geosiyasi, səhiyyə, maliyyə və digər qeyri-ənənəvi şokların təsirinin RBT çərçivəsində təhlilinə fokuslana bilər. Bu şokların ənənəvi texnoloji və məhsuldarlıq şokları ilə necə qarşılıqlı əlaqədə olduğunu öyrənməklə qeyri-ənənəvi şokların biznes tsikllərə ötürülmə mexanizmlərini başa düşmək mümkün olacaq. Əlavə olaraq, tədqiqatçılar bu cür şokların iqtisadi fəaliyyətə mənfi təsirlərinin yumşaldılmasında fiskal siyasətin effektivliyini, eləcə də bu şokların iqtisadi artıma və dayanıqlılığa uzunmüddətli təsirlərini qiymətləndirə bilərlər. Qeyri-ənənəvi şokların əmək bazarı dinamikası, ticarət əlaqələri və resurs bölgüsü ilə necə kəsişdiyini başa düşmək üçün real dünyadakı iqtisadi tsikllərin mürəkkəbliklərini daha yaxşı izah edə bilən və gözlənilməz şoklara qarşı siyasi reaksiyalarının formalaşdırılmasına dəstək ola biləcək daha əhatəli və real modelin işlənib hazırlanması mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**


1. Mankiw, N. G. (1989). Real Business Cycles: A New Keynesian Perspective. *Journal of Economic Perspectives, 3* (3), 79-90.
2. Muellbauer, J. (1997). The Assessment: Business Cycles. *Oxford Review of Economic Policy, 13*(3), 1-18.
3. Braun, R. A., Evans, Ch. L. (1998). Seasonal Solow Residuals and Christmas: A Case for Labor Hoarding and Increasing Returns. *Journal of Money, Credit and Banking*, *30*(3), 306-330.
4. Snowdon, B., Vane, H. R. (2014). The real business cycle school. *In Modern macroeconomics: Its origins, development and current state*. essay, Elgar.
5. Plosser, C. I. (1989). Understanding real business cycles. *Journal of Economic Perspectives, 3*(3), 51–77.
6. Friedman, M. (1968). The Role of Monetary Policy. *The American Economic Review*, *58*(1), 1–17.
7. Lucas, R. E. (1976). Econometric policy evaluation: A Critique. *Carnegie-Rochester Conference Series on Public Policy*, *1*, 19–46.
8. Cooley, T. F., Prescott, E. C. (2020). Economic growth and business cycles. *Frontiers of Business Cycle Research*, 1–38.
9. Modigliani, F. (1986), *The Debate Over Stabilisation Policy*, Cambridge: Cambridge University Press.
10. Kydland, F. E., Prescott, E. C. (1977). Rules rather than discretion: The inconsistency of optimal plans. *Journal of Political Economy*, *85*(3), 473–491.
11. Nordhaus, W. D. (1975). The political business cycle. *The Review of Economic Studies, 42*(2), 169-190.
12. Nelson, C. R., Plosser, C. R. (1982). Trends and random walks in macroeconmic time series. *Journal of Monetary Economics*, 10(2), 139–162.

13. Kydland, F. E., Prescott, E. C. (1982). Time to build and aggregate fluctuations. *Econometrica, 50*(6), 1345-1370.
14. Prescott, E. C. (1986). Theory ahead of Business-Cycle Measurement. *Carnegie-Rochester Conference Series on Public Policy, 25*, 11–44.
15. Long, J. B., Plosser, C. I. (1983). Real Business Cycles. *Journal of Political Economy, 91*(1), 39–69.
16. Chatterjee, S. (1999), Real Business Cycles: A Legacy of Countercyclical Policies. *Federal Reserve Bank of Philadelphia Business Review*, January/ February
17. Summers, L.H. (1986), Some Sceptical Observations on Real Business Cycle Theory. *Federal Reserve Bank of Minneapolis Quarterly Review*, Fall.
18. Millard, S. (1997). The labour market over the business cycle: Can theory fit the facts? *Oxford Review of Economic Policy, 13*(3), 70–92.
19. Hansen, G. D., Prescott, E. C. (1993). Did Technology Shocks Cause the 1990-1991 Recession? *The American Economic Review, 83*(2), 280–286.
20. Carlin, W., Soskice, D. (1990), *Macroeconomics and the Wage Bargain*, Oxford: Oxford University Press.
21. Tobin, J. (1980). Are new classical models plausible enough to guide policy? *Journal of Money, Credit and Banking, 12*(4), 788-799.
22. Blınder, A. S. (1988). The fall and rise of Keynesian economics. *Economic Record, 64*(4), 278–294.
23. Hoover, K.D. (1988), *The New Classical Macroeconomics: A Sceptical Inquiry*, Oxford: Basil Blackwell.
24. Lilien, D. M. (1982). Sectoral Shifts and Cyclical Unemployment. *Journal of Political Economy, 90*(4), 777–793.
25. Blanchard, O.J. (1990). Why Does Money Affect Output? A Survey’ in B.M. Friedman and F.H. Hahn (eds), *Handbook of Monetary Economics*, New York: North-Holland.
26. Romer, P. M. (1994). The Origins of Endogenous Growth. *The Journal of Economic Perspectives, 8*(1), 3–22.
27. Akerlof, G. A. (2002). Behavioral Macroeconomics and Macroeconomic Behavior. *The American Economic Review, 92*(3), 411–433.
28. Snowdon, B. (2004). Outside the mainstream: An interview with Axel Leijonhufvud. *Macroeconomic Dynamics, 8*(1), 117–145.
29. Fève, P., Sanchez, P. G., Moura, A., Pierrard, O. (2021). Costly default and skewed business cycles. *European Economic Review, 132*, 103630.
30. Rashid, A., Jabeen, N. (2018). Financial frictions and the cash flow – external financing sensitivity: Evidence from a panel of Pakistani firms. Financial Innovation, 4(1).
31. Bernstein, J., Richter, A.W., Throckmorton N.A. (2020). The Business Cycle Mechanics of Search and Matching Models. Working Papers 2026, Federal Reserve Bank of Dallas.
32. Germaschewski, Y., Horvath, J., Rubini, L. (2021). Property rights, expropriations, and business cycles in China. *Journal of Economic Dynamics and Control, 125*, 104100.
33. Fernández-Villaverde, J., Guerrón-Quintana, P. A. (2020). Uncertainty shocks and business cycle research. *Review of Economic Dynamics, 37*(S1), S118-S146.
34. Evans, G. W., Guesnerie, R., McGough, B. (2018). Eductive stability in real business cycle models. *The Economic Journal, 129*(618), 821–852.
35. Vasilev, A. (2018). A real-business-cycle model with pollution and environmental taxation: the case of Bulgaria, *Journal of Environmental Economics and Policy, 7*(4), 441-451.
36. Lansing, K. J. (2018). Real business cycles, animal spirits, and stock market valuation. *International Journal of Economic Theory, 15*(1), 77–94.
37. Horvath, J. (2018). Business cycles, informal economy, and interest rates in emerging countries. *Journal of Macroeconomics, 55*, 96–116.

# İQTİSADİ SUBYEKTLƏRİN RƏQABƏTLİLİYİ, ONUN YÜKSƏLDİLMƏSİNİN ZƏRURİLİYİ

*Daxil olub: 5 sentyabr 2023-cü il*
*Qəbul olunub: 26 oktyabr 2023-cü il*
*Received: 5 September 2023*
*Accepted: 26 October 2023*

***Günel Sultanova***
*Azərbaycan Texnologiya Universiteti*
*gunel.bayramova.91@list.ru*

**Xülasə**

Tədqiqatın məqsədi iqtisadi subyektlərin rəqabətliliyi kontekstində onun yüksəldilməsinə təsir edən amilləri araşdırmaqdan, bu istiqamətdə prioritetləri müəyyən etməkdən və rəqabətin optimal intensivliyini şərtləndirən determinantları aşkara çıxarmaqdan ibarətdir. Tədqiqatın metodologiyasını tədqiqatın nəzəri-praktik məsələlərinin araşdırılmasında təhlil və müşahidə metodlarından istifadə edilməsi təşkil edir. Tədqiqatın əsas nəticələri rəqabət qabiliyyətini qiymətləndirmək, əsas determinantların müəyyənləşdirilməsi əsasında rəqabət strategiyasının formalaşması, həmçinin subyektlərin rəqabət imkanlarının yüksəldilməsi istiqamətində müəyyən edilən tədbirlərlə xarakterizə olunur. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın nəticələrindən subyektlərin rəqabət qabiliyyətliliyinə təsir edən amillərin, həmçinin onların imkanlarının və bazar tələblərinin müəyyənləşdirilməsi əsasında rəqabət strategiyasının formalaşması, eləcə də rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə prioritetlərin aşkara çıxarılmasında istifadə oluna bilər.

***Açar sözlər:*** *rəqabət, rəqabət qabiliyyəti, bazar, determinant, istehlak, keyfiyyət, rəqabət strategiyası.*

# MAIN DETERMINANTS OF INCREASING THE COMPETITIVENESS OF ECONOMIC ENTITIES

***Gunel Sultanova***
*Azerbaijan Technological University, Department of Management, lecturer*
*gunel.bayramova.91@list.ru*

**Abstract**

The purpose of the research is to study factors influencing the increase of the competitiveness of economic entities, determining priorities in this direction and identifying determinants that characterize the optimal intensity of competition. In the study of theoretical and practical research problems, methods of analysis and observation were used. The main results of the study are characterized by an assessment of competitiveness, the formation of a competitive strategy based on the identification of the main determinants, as well as measures to increase the competitive capabilities of the entities. The results of the study can be used to identify factors affecting the competitiveness of entities, including in the formation of a competitive strategy based

on determining their capabilities and market demand, as well as priorities for increasing competitiveness.

***Keywords:*** *competition, competitiveness, market, determinant, consumption, quality, competitive strategy.*

## КОНКУРЕНТОСПОСОБНОСТЬ ЭКОНОМИЧЕСКИХ СУБЪЕКТОВ, НЕОБХОДИМОСТЬ ЕЕ ПОВЫШЕНИЯ

***Гюнель Султанова***
*Ассистент, Азербайджанский технологический университет, кафедра «Управление»,*
*gunel.bayramova.91@list.ru*

Целью исследования является изучение факторов в контексте конкурентоспособности экономических субъектов, влияющих на его повышение, определение приоритетов в этом направлении и выявлении детерминантов, характеризующих оптимальную интенсивность конкуренции. Методология исследования заключается в применении методов анализа и наблюдения в изучении теоретико-практических задач исследования. Основные результаты исследования характеризуются оценкой конкурентоспособности, формированием конкурентной стратегии на основе определения основных детерминантов, а также мероприятиями в направлении повышения конкурентных возможностей субъектов. Практическая ценность исследования в том, что результаты исследования могут быть применены при выявлении факторов, влияющих на конкурентоспособность субъектов, в том числе в формировании конкурентной стратегии на основе определения их возможностей и рыночного спроса, а также приоритетов по повышению конкурентоспособности.

***Ключевые слова:*** *конкуренция, конкурентоспособность, рынок, детерминант, потребление, качество, конкурентная стратегия.*

İqtisadi və sosial sferalarda özünü göstərən proseslərin səmərəli idarə olunması mexanizminin formalaşdırılması dayanıqlı inkişaf potensialının müəyyənləşdirilməsi zərurəti ilə bilavasitə bağlıdır. Bu baxımdan, sosial-iqtisadi inkişaf səviyyəsini qiymətləndirməklə uğur determinantlarının formalaşdırılması, o cümlədən resursların səfərbər edilməsi, mövcud resursların dəyərinin artırılması, iqtisadi potensialdan səmərəli şəkildə istifadə edilməsi hesabına iqtisadi subyektlərin dayanıqlığının möhkəmləndirilməsi onların rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Rəqabət özlüyündə kapital qoyuluşunun ən gəlirli sahələri, bazarlar və xammal mənbələri uğrunda əmtəə istehsalçıları arasında iqtisadi mübarizə forması kimi özünü göstərir. Bazar iqtisadiyyatı şəraitində rəqabət ictimai istehsalın proporsiyalarını tənzimləyən təsirli qanuna

çevrilir. Bu prosesdə istehlakçılar məhsulları, xidmətləri, onların keyfiyyətini, əmtəə və xidmətlərin satışı şərtlərini qiymətləndirən əsas mexanizm kimi çıxış edir.

Bazar iqtisadiyyatı şəraitində rəqabət subyektlərin, məhsul və xidmət satıcılarının ən yaxşı nailiyyətlərlə rəqiblərini üstələmək istəyini ifadə edir. Bu nöqteyi-nəzərdən rəqabət iqtisadiyyatda və cəmiyyətdə istehsalçı və istehlakçıların fəaliyyət azadlığının vəhdətini təmin edir [4]. Rəqabət eyni zamanda subyektlərin şəxsi qazancını artırmağa, alıcı və satıcıların iqtisadi maraqlarını təmin etməyə imkan verir. Rəqabət şəraitində istənilən istehsal subyekti həm hər hansı konkret sahəyə daxil olmaq, həm də onu maneəsiz tərk etmək imkanına malikdir. Belə iqtisadi azadlıq istehlakçıların zövqündə, istehsal texnologiyasında dəyişiklikləri nəzərə almağa zəmin yaradır. Mənfəət və mövqelərin konsolidasiyası yalnız bazar sisteminin iradəsinə tabe olan istehsalçıları gözləyir, buna tabe olmayanlar itkilərə məruz qalır və uğursuzluqla üzləşir. Beləliklə, rəqabətli bazarın nəzəri modelinin əsas meyarlarını struktur, davranış və funksional meyarlar təşkil edir.

Araşdırmalara əsaslanaraq rəqabəti, bir-biri ilə kəsişən məqsədləri olan subyektlər arasında dinamik rəqabət prosesinin iqtisadi əlaqəsi kimi, həmçinin daxili və xarici mühitin fəaliyyət dinamikasını təmin edən mikroiqtisadi inkişaf amili kimi qiymətləndirmək olar [1, s.57]. Beləliklə, rəqabət bir-biri ilə kəsişən məqsədləri olan çoxlu sayda bazar iştirakçılarının mübarizəsini əks etdirir. Rəqabət həm də ictimai istehsalı tənzimləyən, istehsalçı və istehlakçıların fəaliyyət azadlığının iqtisadiyyatda və cəmiyyətdə proporsiyalı vəhdətini təmin edən təsirli qanundur.

Rəqabətlilik rəqabət anlayışının tərkib hissəsidir. Əgər iqtisadi subyekt bazarda rəqabət apara bilirsə, onun məhsulları rəqabətə davamlı hesab olunur. Rəqabət qabiliyyəti bazardakı oxşar obyektlərlə müqayisədə müəyyən bir ehtiyacın ödənilmə dərəcəsini xarakterizə edən obyektin xüsusiyyətidir. Eyni zamanda, rəqabətlilik müəyyən bazarda başqaları ilə rəqabət aparmaq qabiliyyətidir. Rəqabət qabiliyyəti ilk növbədə marketinq tədqiqatlarının nəticələri ilə müəyyən edilir. O, həm konkret sosial tələbata uyğunluq dərəcəsinə, həm də onun ödənilməsinə çəkilən xərclərə görə onu rəqibin məhsulundan fərqləndirən xüsusiyyətləri ilə xarakterizə olunur. Rəqabət üstünlükləri istehlakçıların nəzərində daha keyfiyyətli olan məhsullardır. Bununla belə, bu yanaşma çərçivəsində istehsalçılar baxımından əmək intensivliyi kimi mühüm məhsul xüsusiyyətləri, material sərfi, onların istehsalının enerji intensivliyi, istehsalda məhsulların hazırlanma qabiliyyəti rəqabət qabiliyyətini formalaşdırır.

Məhsulların rəqabət qabiliyyətinin əsas komponentləri onun istehlak xüsusiyyətləri və qiymətidir. Bununla belə, məhsulların bazar perspektivləri təkcə keyfiyyət və istehsal xərcləri ilə bağlı deyil. Məhsulun uğuru və ya uğursuzluğu digər qeyri-kommersiya amilləri ilə bağlı ola bilər. Qeyd etmək lazımdır ki, rəqabətliliyi təmin etmək üçün subyektlərin fəaliyyətinin qeyri-istehsal aspektləri nə qədər vacib olsa da, əsas məsələ keyfiyyət, qiymət və xidmətdir [2, s.1369]. Bu baxımdan, təhlil olunan məhsulun rəqabət qabiliyyətini müəyyən etmək üçün bu məhsulun və rəqabət aparan məhsulların

standart xidmət müddəti ərzində faydalı təsirini xarakterizə edən məlumatların əldə edilməsi vacibdir.

Keyfiyyət pul ifadəsində və ya şərti ballarla ölçülən istehlakçı qrupları üçün potensial faydalı təsir, habelə obyektlərin həyat dövrü üçün məsrəflər məcmusudur. Məhsulun rəqabət qabiliyyəti onun faydalı təsirini, habelə həyat dövrü üçün ümumi xərcləri kəmiyyətcə qiymətləndirməyə və proqnozlaşdırmağa imkan verir. Bu göstəricilər istehlakın konkret şəraitində satışın nəticələrinə əsasən və digər üsullardan istifadə etməklə müəyyən edilir.

Rəqabət bir sıra əsas cəhətləri ilə özünü göstərir. Belə ki, rəqabət əmək məhsuldarlığını stimullaşdırır, subyektlərin fəaliyyətini təmin edir, iqtisadi göstəricilərini yaxşılaşdırır, habelə xərcləri azaldır, innovativ istehsalın inkişafına kömək edir. Məlumdur ki, iqtisadi subyektlər daim yeni məhsullar və ya yeni xidmətlər istehsal etməkdə maraqlıdır. Onlar belə yeniliklər sayəsində rəqiblərini qabaqlaya bilirlər. Bazar iqtisadiyyatı şəraitində istehsalçılar yalnız bazarda sata bildikləri məhsulları istehsal edirlər. Beləliklə, hansı məhsulun mənfəət və ya zərər gətirəcəyinə istehlakçı qərar verir. Bu qaydaya əsaslanaraq rəqabət hansı məhsulların və hansı miqdarda istehsal olunacağını müəyyən etməyə kömək edir.

Beləliklə rəqabət xammal və materialların xərclərini idarə edir, nə qədər əmək və pul tələb olunduğunu müəyyən edir, gəliri artırır. Eyni zamanda rəqabət iqtisadi ədaləti təmin edir. Rəqabət və rəqabət qabiliyyətinin bazarda öz fəaliyyət sahəsi, məqsədləri var. Rəqabət siyasəti rəqabətin öz funksiyalarını yerinə yetirə bilməsini təmin etmək üçün hazırlanır. Aşağıdakı rəqabət funksiyaları fərqləndirilir:

- tənzimləmə funksiyası;
- motivasiya funksiyası;
- bölgü funksiyası;
- nəzarət funksiyası [5, s.26].

Rəqabətin optimal intensivliyi aşağıdakıları nəzərdə tutur: texniki tərəqqinin sürətlə tətbiqi; subyektlərin dəyişən şərtlərə çevik uyğunlaşması. Rəqabətin intensivliyinin dərəcəsi rəqiblərin aparıcı subyektin inkişafına nə qədər tez reaksiya verməsindən və tələbin nə dərəcədə dinamik olmasından asılıdır. Təcrübədə rəqabətin iqtisadi proseslərə təsirinin aşağıdakı təsnifatına üstünlük verilir: tənzimləyici; nəzarət; birləşdirici; yenilikçi; stimullaşdırıcı; adaptiv; prosesin və mənfəətin ictimailəşməsi.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, rəqabətin funksiyalarının spesifikliyi onların həyata keçirildiyi makro və ya mikroiqtisadi səviyyədə özünü büruzə verir. Bazar iqtisadiyyatının makrosəviyyədə formalaşması zamanı iqtisadi sistemin transformasiyası funksiyası da meydana çıxır. Rəqabət funksiyalarının əhəmiyyətini nəzərə alaraq, iqtisadi böhranın dərinləşməsi və nəticədə istehsalın azalması və işsizliyin artması ehtimalını azaltmaq olar; iqtisadi sistemin dinamikliyini və səmərəliyini artırmaq mümkündür və s. Bu, rəqabət üsullarının tətbiqi və dəyişən şərtlərə uyğunlaşdırılmasını tələb edir.

Göstərilənlərlə yanaşı, gəlir əldə etmək üçün subyektlər rəqabət üstünlüyü yaratmalı və ondan səmərəli şəkildə istifadə edə bilməlidir. Onların cəlbedici gəlirlik səviyyəsini qoruyub saxlaya bilib-bilmədiyini başa düşmək üçün fəaliyyət göstərdikləri sahənin xarakterini və imkanlarını nəzərə almaq, potensial rəqabət üstünlüklərini müəyyən etmək lazımdır. Rəqabət üstünlükləri üç kateqoriyaya bölünür:

- qiymət və digər xüsusiyyətlərinə görə rəqiblərin istehsal edə bilmədiyi daha yüksək istehlak dəyərli məhsul. Məhsulun xüsusiyyətləri həm fiziki, həm də qeyri-maddi ola bilər;
- rəqiblərlə müqayisədə xərclərin azaldılması;
- rəqiblərə nisbətən daha məhsuldar olması, kapitalın daha səmərəli istifadəsi, əmək məhsuldarlığının artması, xərclərin azaldılması.

İstənilən rəqabət üstünlüyü son nəticədə bu xüsusiyyətlərin bir və ya bir neçəsində əks olunur. Rəqabəti bütövlükdə qiymətləndirmək üçün, rəqabətqabiliyyətlilik determinantlarının formalaşmasına təsir edən aşağıdakı amilləri müəyyənləşdirmək lazım gəlir:

- intellektual məhsulun formalaşması və innovativ fəaliyyətin inkişafı amilləri. Bu zaman başlıca məqsəd elmi səviyyəsini yüksəltməklə istehsalın avtomatlaşdırılmasıdır. Təbiidir ki, elmi-texniki tərəqqi və ixtisaslı kadrların hazırlanması üçün təhsilə və elmə daha çox investisiya qoymaq vacibdir;
- səmərəli istehsal fəaliyyəti üçün motivasiya amilləri. Məqsəd rəqabətə əsaslanan iqtisadi əlaqələr yaratmaq və təkmilləşdirməkdir. Həm kadrlar üçün yüksək əməkhaqqı, həm də bütün kollektivin konsolidasiyasına töhfə verəcək istehsal və iqtisadi ideyanın müəyyənləşdirilməsini təmin etmək lazımdır;
- yüksək məhsuldar iqtisadiyyatın formalaşması üçün investisiya siyasəti amilləri. Məqsəd istehsal, təhsil və elm üçün zəruri olan şərait yaratmaqdır. Məlumdur ki, daim investisiyalara ehtiyac duyulur və tələbin dəyişməsi, müvafiq dəyər zəncirinin həyata keçirilməsində iştirak edən bütün subyektlərdə daha təkmil istehsal münasibətlərini formalaşdırır;
- rəqabətqabiliyyətli iqtisadi klasterlərin formalaşması amilləri. Məqsəd təkcə ayrı-ayrı subyektlərin və sahələrin deyil, bütövlükdə iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaqdır. Bu prosesdə rəqabətli subyektlərin bir çox istehsal sahələri ilə qarşılıqlı əlaqəsi zəruridir;
- effektiv məhsul nümunələrinin yaradılması və təkmilləşdirilməsi amilləri. Məqsəd rahat və etibarlı məhsul və xidmətlərə tələbi, onların çoxsaylı istehlakçılar üçün əlçatanlığını artırmaqdır. Bu zaman ixrac məhsullarına üstünlük verən böyük bazarların mövcudluğu tələb edilir;
- səmərəli nəqliyyat və kommunikasiya infrastrukturunun formalaşması amilləri. Məqsəd mövcud infrastrukturun təkmilləşdirilməsidir. Subyektlər daim fəaliyyətdə olmalı və rəqabət imkanlarını artırma potensialına malik olmalıdırlar [2, s.1369].

Rəqabət qabiliyyətinin müəyyən edilməsində aşağıdakı amillərə üstünlük verilir:

- idarəetmə sistemi strukturu, məzmunu, xarici və daxili əlaqələrinin yetkinliyi ilə müəyyən edilən idarəetmə sisteminin keyfiyyəti;

- obyektin təyinatı üzrə göstəricilərin mütərəqqiliyi və optimallığı, etibarlılıq, elastiklik, istehsal qabiliyyəti, standartlaşdırma və unifikasiya baxımından layihə sənədlərinin keyfiyyəti;

- avadanlıqların, texnologiyanın, materialların mütərəqqiliyi, obyektin keyfiyyət idarəetmə sistemi, obyektin istehsalın və əməyin təşkili səviyyəsi ilə müəyyən edilən istehsal keyfiyyəti;

- müəyyən bir istehlakçının bütün standart xidmət müddəti üçün bir obyektin alınması, daşınması, istismarı, təmiri üçün xərcləri;

- istehlakçıların maraqlarının qorunması üçün qanunvericilik normalarına, qablaşdırmanın keyfiyyətinə, saxlama, satış, çatdırılma, zəmanət xidməti şərtlərinə uyğunluq səviyyəsi ilə müəyyən edilən istehlakçının əlavə ehtiyaclarının ödənilmə dərəcəsi və s.

Göründüyü kimi, iqtisadi subyektlərin fəaliyyətində müəyyən edilməli olan əsas məqamlardan biri məhsulların rəqabət qabiliyyətidir. Məhsulların rəqabət qabiliyyəti subyektlərin rəqabət qabiliyyəti ilə sıx bağlıdır və bu, onun bazar fəaliyyətinin nəticələrini aşağıdakı istiqamətlərə görə artırır:

- yüksək səmərəli elm tutumlu məhsulların, texnologiya və xidmətlərin istehsalı və satışı, o cümlədən ixrac üçün fundamental tədqiqat işlərinin ən son nailiyyətlərindən istifadə edilməsi;

- ümumi iqtisadi və əmtəə bazarı konyunkturu vəziyyətinin və inkişaf perspektivlərinin hərtərəfli öyrənilməsi, istehlakçıların real tələbatı və tələbləri haqqında etibarlı məlumatların verilməsi;

- məhsulların istehsalı və satışının ən perspektivli bazar tələblərinə istiqamətləndirilməsi, məhsulların və elmi nəticələrin uyğunluğu;

- bazara, onun tələbatının formalaşmasına və məhsulların satışının təşviqinə fəal təsir göstərilməsi;

- cəmiyyətin həyat keyfiyyətinin yaxşılaşdırılmasına olan tələbatının tam, hərtərəfli ödənilməsinin təmin edilməsi.

Araşdırmalar göstərir ki, subyektlərin imkanları və bazar tələbləri haqqında məlumatların təhlili nəticəsində onu ayrı-ayrı bazar seqmentlərinə uyğunlaşdırmaq, həmçinin prosesləri səmərəli şəkildə idarə etmək mümkündür [6, s.436]. Bu, hər bir məhsulun bazarda rəqibləri arasında tutduğu yeri müəyyənləşdirir. Subyektlər öz göstəricilərinin istehlakçı tələblərinə maksimum uyğunluğuna nail olmaq, seçilmiş məhsulların və ya xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması üçün məqsədyönlü fəaliyyət göstərməyi hədəfləyir. Məhsulların çeşidini seçərkən, istehsalçıların satışa təqdim etdikləri bütün məhsulları keyfiyyət səviyyəsindən asılı olaraq aşağıdakı qruplara bölmək olar: üstün, rəqabət qabiliyyətli, aşağı rəqabət qabiliyyətli. Ən yüksək keyfiyyətli məhsullar texniki-iqtisadi göstəricilərinə görə oxşar məhsuldan və ya rəqiblərdən üstündür. Bir çox

hallarda bu, tamamilə yeni bir məhsuldur. Belə məhsulların istehsalçısı onlara yüksək qiymətlər təyin etməklə, eləcə də bazar payını artırmaqla öz mənfəətini xeyli artıra bilir. Rəqabətli məhsullar yüksək keyfiyyətlidir, lakin bəzən bazarda oxşar məhsullar arasında orta keyfiyyətli kimi qiymətləndirilir. Bu vəziyyətdə məhsulun rəqabət qabiliyyəti reklam və satışın təşviqi üçün daha effektiv marketinq fəaliyyəti ilə əldə edilir və əsasən aşağıdakı amillərdən asılıdır: qiymət, satışdan sonrakı xidmət, reklam, bölgü kanallarının seçimi və s. Keyfiyyət səviyyəsi aşağı olan məhsullar bir qayda olaraq əksər rəqiblərin məhsullarından bir qədər aşağı istehlak xüsusiyyətlərinə malikdir. Bu halda subyektin bazar mövqeyini sabit saxlamaq üçün istehsalçı adətən rəqabətə davamlı olmayan məhsulların qiymətinin aşağı salınması strategiyasına əl atır. Keyfiyyəti yüksək olan məhsullar bir qayda olaraq rəqabətə davamlıdır.

Rəqabət strategiyasının seçimi subyektlərin hansı imkanlara malik olmasından bilavasitə asılıdır. Beləliklə, rəqabət inkişaf strategiyasının seçiminə ciddi təsir göstərir. Müasir iqtisadiyyatda bazar mühiti bazar münasibətlərinin daha sabit formalaşması üçün zəruri şərtə çevrilmişdir. Bu baxımdan, bazar mühitinin geniş təhlili əsasında həm makroiqtisadi səviyyədə, həm də subyektlər səviyyəsində rəqabət qabiliyyətini artırmaq üçün yeni yolların axtarışına ehtiyac vardır.

**Ədəbiyyat**


1. Bəşirov İ. Şirkətlərarasi rəqabət. Keçmişi, bu günü və gələcəyi. Xəzər Universitəsi Nəsriyyatı. Bakı-2010. 125 s.
2. Ахтямов М.К., Завьялова Н.И., Лихолетов В.В. Моделирование путей наращивания конкурентоспособности современных организаций в экономике знаний // Вопросы инновационной экономики. – 2022. – № 3. – с. 1367-1384.
3. Гарина Е.П., Белоусова Н.А., Жаринова Н.А., Гусев Р.В. Формирование детерминант социально-экономического развития систем // Экономические отношения. – 2019. – Том 9. – № 2. – С. 1307-1320
4. Макконнелл К.Р., Брю С П. Экономикс: Принципы, проблемы и политика. Т. 2. М. : Республика, 1992.
5. Портер М. Конкуренция. М.: Вильямс-ИД, 2006. 608 с.
6. Решетова Н. Ю. Организационные основы и экономические методы государственного управления развития конкурентоспособности региональных промышленных комплексов // Экономика и предпринимательство. – 2021. – № 1(126). – с. 433-438.

# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN ELMİ XƏBƏRLƏRİ
## (rüblük elmi və praktik jurnal)

## MÜƏLLİF ÜÇÜN QAYDALAR

1. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifəsi, ad və soyadı, çalışdığı qurum və elektron poçt (e-posta) ünvanı, iş və mobil telefon nömrələri göstərilməlidir.
2. Məqalə xülasə açar söz (ən çox 5 söz), (azərbaycan, ingilis və rus dillərində), giriş, əsas hissə, nəticə, mənbələr, əlavələr, şəkil və cədvəllər daxil olmaqla **10 səhifədən** az olmamalıdır. Elektron ünvanı: **yadulla.hasanli@unec.edu.az**; **elmixeberler2018@gmail.com**
3. Məqalənin xülasəsi **200-250 sözdən** çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən və ya formalaşdırılan metodları, hansı suallara cavab verildiyini və tətbiq dairəsini göstərməli, giriş və nəticə hissəsi kimi yazılmamalıdır.
4. Məqalənin xülasəsi məqalənin məzmumuna uyğun olmalıdır. Xülasə elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.
5. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və. s aydın şəkildə qeyd olunmalıdır.
6. Məqalə A4 formatında, **1,5 (bir tam onda beş) intervalla**, **Times New Roman 14 şriftilə** yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxarıdan 25 mm və aşağıdan 20 mm**)** boşluq buraxılmalıdır.
7. Məqalə **azərbaycan, ingilis və rus dillərində** qəbul ediləcəkdir.
8. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
9. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.
10. Məqalələr orijinal olmalı və əvvəllər başqa milli və ya beynəlxalq jurnallara və konfranslara təqdim edilməməlidir.
11. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim ediləcəkdir.
12. Məqalənin qəbulu və rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.

## SCIENCE REVIEWS AZERBAIJAN STATE UNIVERSITY OF ECONOMICS (quarterly scientific and practical journal)

## NOTES FOR CONTRIBUTORS

1. Articles not published or submitted for publication elsewhere are accepted in Azerbaijani, English and Russian.
2. Articles should be typed in A4 format, **with 1.5 line spacing, font Times New Roman**, of **not less than 10 pages**, with gaps at the edges (left 30 mm, right 15 mm, 25 mm from the top and bottom 20 mm). Articles should be sent official e-mail address of the journal **(yadulla.hasanli@unec.edu.az; elmixeberler2018@gmail.com).**
3. **Article shall not be less than 10 pages**, including: keywords (in Azerbaijani, English and Russian), abstracts (Azeri, English and Russian), record, main part, conclusions, references, applications, graphics and tables.
4. Abstract of the article should be appropriate to its content.
5. The first page should include (i) the title of the article; (ii) the name(s) of the author(s); (iii) institutional affiliation(s) of the author(s); (iv) an abstract of not more than 200-250 words in English (text of abstracts must be consist of sections of "purpose", "design/methodology/approach", "findings", "research limitations/ implications", "practical im-plycations" and "originality/value"); (v) keywords must not be more than 5 words; (vi) JEL codes. The name, address, e-mail address, phone and fax numbers and academically sphere of interest of the author(s) should be indicated on a separate page.
6. The article should contain links to scientific sources. Provided later in the article references must be numbered not in alphabetical order, and in a sequence that occurs in the text link literature and denoted as [1] or [1, p 119]. If the text is repeated reference to the same literature, the other in the text, this refers literature should be given the previous number. In the list of references should be given priority monographs, etc. the last 5-10 years.
7. Articles recommended or submitted for publication by the editor or one of the specialist members of the Editorial Board after reviewing secret reviewed.
8. Consent or refusal of articles declared after a discussion of the Editorial Board.

# НАУЧНЫЕ ВЕСТИ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВЕННОГО ЭКОНОМИЧЕСКОГО УНИВЕРСИТЕТА
**(квартальный научный и практический журнал)**

## ПРАВИЛА ДЛЯ АВТОРОВ:

1. Статьи принимаются на азербайджанском, английском и русском языках.
2. Статьи должны быть написаны в формате А4, **с интервалом в 1,5**, шрифтом **Times New Roman**, с пропусками по краям (слева 30 мм, справа 15 мм, сверху 25 мм и снизу 20 мм). Электронная почта: **yadulla.hasanli@unec.edu.az; elmixeberler2018@gmail.com**
3. Должны быть указаны: название статьи, автор(ы), ученая степень, должность, структуры, где они работают, электронная почта, номера рабочего и мобильного телефонов автора(ов).
4. **Статья не должна быть меньше 10 страниц**, включая: резюме на (азербайджанском, английском и русском языках), ключевые слова (не более 5 слов на азербайджанском, английском и русском языках), введение, основную часть, выводы, источники, приложения, рисунки и таблицы.
5. Резюме статьи должно быть не более 200-250 слов, показывать цель, значение и место исследования в научной периодике, используемые или формируемые методы, на какие вопросы отвечает и область применения, не должно быть написано, как введение и выводы.
6. Резюме статьи должно соответствовать ее содержанию.
7. В конце научной статьи должны быть четко отмечены научная новизна, практическая значимость, экономическая эффективность и т.д. работы в соответствии с характером научной области статьи.
8. В статье должны быть ссылки на научные источники. Предоставляемый в конце статьи список литературы должен быть пронумерован не в алфавитной последовательности, а в последовательности, в которой встречается в тексте ссылаемая литература и обозначаться как [1] или [1, стр.119]. Если в тексте есть повторная ссылка на одну и ту же литературу, то эта ссылаемая литература должна быть указана предыдущим номером. В списке литературы должно быть отдано предпочтение научным статьям, монографиям и т.д. последних 5-10 лет.
9. Статьи должны быть оригинальны и ранее не представлены в другие национальные или международные журналы.
10. Статьи рекомендуются или представляются к печати редактором или одним из специалистов – членов редакционного совета, после тайного рецензирования рецензирующих.
11. Согласие или отказ в приеме статьи объявляется после ее обсуждения редакционным советом журнала.

**Aşağıdakı siyahıda olan şəxslərə 2023-cü il buraxılışlarında jurnalda təqdim edilən məqalələrə rəy verdikləri üçün jurnalın redaksiyası adından təşəkkürümüzü bildiririk.**

| N | Rəyçi | Çalışdığı təşkilat |
|---|---|---|
| 1. | Yadulla Həsənli | UNEC |
| 2. | İrşad Kərimli | UNEC |
| 3. | Əlican Babayev | UNEC |
| 4. | Rəsul Balayev | UNEC |
| 5. | Murad Bağırzadə | UNEC |
| 6. | Elman İbişov | UNEC |
| 7. | Sərdar Şabanov | UNEC |
| 8. | Əliağa Qasımov | UNEC |
| 9. | Rafail Rzayev | UNEC |
| 10. | Nazim Məmmədov | UNEC |
| 11. | Fərhad Mikayılov | UNEC |
| 12. | Rəşad Hüseynov | UNEC |
| 13. | Salman Nəcəfov | UNEC |
| 14. | Vaqif Quliyev | UNEC |
| 15. | Elşən Məmmədov | UNEC |
| 16. | Asəf Əsədov | UNEC |
| 17. | Nazim Hacıyev | UNEC |
| 18. | Cəmilə Musayeva | UNEC |
| 19. | Elnurə Şəfizadə | UNEC |
| 20. | Mirvari Qəzənfərli | UNEC |
| 21. | Saleh Məmmədov | UNEC |
| 22. | Suğra Hümbətova | UNEC |
| 23. | İlqar Seyfullayev | UNEC |
| 24. | Afaq Hüseyn | UNEC |
| 25. | Südabə Salihova | UNEC |
| 26. | Təranə Əliyeva | UNEC |
| 27. | Ofelya Mazanova | UNEC |
| 28. | Azər Mehdiyev | UNEC |
| 29. | Kamil Şahbazov | UNEC |
| 30. | Nəzakət Musayeva | UNEC |
| 31. | Əliağa İsmayılzadə | UNEC |
| 32. | Nurəddin Eynullayev | UNEC |
| 33. | Fariz Quliyev | UNEC |
| 34. | Asiman Quliyev | UNEC |
| 35. | Səkinə Babaşova | UNEC |
| 36. | Fəxrəddin Məmmədov | İdarəetmə Sistemləri İnstitutu |

| | | |
|---|---|---|
| 37. | Rəhilə Kərimova | İdarəetmə Sistemləri İnstitutu |
| 38. | Tanrıverdi Paşayev | İqtisadiyyat İnstitutu |
| 39. | Aqil Əsədov | İqtisadiyyat İnstitutu |
| 40. | Sulduz Səlimov | İqtisadiyyat İnstitutu |
| 41. | Gülnarə Fətəliyeva | İqtisadiyyat İnstitutu |
| 42. | Emin Məmmədzadə | İqtisadiyyat İnstitutu |
| 43. | Kamran Abdullayev | İqtisadiyyat İnstitutu |
| 44. | Murad Tağıyev | BDU |
| 45. | Ayan Mirzəyeva | BDU |
| 46. | Anar Mirzəyev | ATMU |
| 47. | Fuad Cabbarov | ATMU |
| 48. | Arzu Hüseyn | ATMU |
| 49. | Yasəmən | ATMU |
| 50. | Vəli Vəliyev | Milli Aviasiya Akademiyası |
| 51. | Yadigar Cəbiyev | Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası |
| 52. | Şəfiqə Məmmədova | SDU |
| 53. | Turac Musayev | Aqrar Tədqiqatlar Mərkəzi |
| 54. | Əbdülrəhim Dadaşov | Aqrar Tədqiqatlar Mərkəzi |
| 55. | Rəşad İsgəndərov | Aqrar Tədqiqatlar Mərkəzi |
| 56. | Simrah İsmayılova | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| 57. | Zahid Rzayev | Dövlət Vergi Xidməti |
| 58. | Ceyhun Abbasov | Dövlət Vergi Xidməti |
| 59. | Murad Yusifov | AR Mərkəzi Bankı |
| 60. | Şövqi Quliyev | AR Mərkəzi Bankı |
| 61. | Təhmasib Hüseynov | TƏBİB |
| 62. | Ahraman Məmmədov | Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu |
| 63. | Seymur İbadov | "Unicapital" İnvestisiya Şirkəti |
| 64. | Uğur İbrahimli | "Meqa Sığorta" ASC |

**Korrektor: Şəfiqə Zahid qızı Bağırova**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN**
**ELMİ XƏBƏRLƏRİ**
**(rüblük, elmi və praktiki)**

**MÜƏLLİFLƏR ÜÇÜN QAYDALAR**

1. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları, iş və mobil telefon nömrələri göstərilməlidir.

2. Məqalə xülasə açar söz (azərbaycan, ingilis və rus dillərində, ən çox 5 söz), (azərbaycan, ingilis və rus dillərində), giriş, əsas hissə, nəticə, mənbələr, əlavələr, şəkil və cədvəllər daxil olmaqla **10 səhifədən** az olmamalıdır. Elektron ünvanı: **yadulla.hasanli@unec.edu.az**; **elmixeberler2018@gmail.com**

3. Məqalənin xülasəsi **200-250 sözdən** çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən və ya formalaşdırılan metodları, hansı suallara cavab verildiyini və tətbiq dairəsini göstərməli, giriş və nəticə hissəsi kimi yazılmamalıdır.

4. Məqalənin xülasəsi məqalənin məzmumuna uyğun olmalıdır. Xülasə elmi və qramatik baxımdan ciddi redaktə olunmalıdır.

5. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və. s aydın şəkildə qeyd olunmalıdır.

6. Məqalə A4 formatında, **1,5 (bir tam onda beş) intervalla**, **Times New Roman 14 şriftilə** yazılmalı, kənarlarından (soldan 30 mm, sağdan 15 mm, yuxardan 25 mm və aşağıdan 20 mm) boşluq buraxılmalıdır.

7. Məqalə **azərbaycan, ingilis və rus dillərində** qəbul ediləcəkdir.

8. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

10. Məqalələr orijinal olmalı və əvvəllər başqa milli və ya beynəlxalq jurnallara və konfranslara təqdim edilməməlidir.

11. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa tövsiyə və ya təqdim ediləcəkdir.

12. Məqalənin qəbulu və rədd edilməsi redaksiya heyətinin müzakirəsindən sonra elan ediləcəkdir.

